**Azad Yazarlar Ocağının kitabxanası**

**Əminə PAKRƏVAN**

# ABBAS MİRZƏ
# VƏ
# AZƏRBAYCAN

**FARSCADAN ÇEVİRƏN:**
**GÜNTAY CAVANŞİR**

**Emineh Pakravan**
**Abbas Mirzə**
**Editions Buchet/Chastet (Paris) 1973**

**QANUN - 2010**

**Az 2**

**REDAKTOR: İLAHƏ UCARUH**

**Çapa hazırlayan: Rasim QARACA**

**Əminə Pakrəvan. Abbas Mirzə və Azərbaycan.**

Bakı, Qanun, 2010, 336 səh.

"Abbas Mirzə və Azərbaycan" adlı bu kitab görkəmli Azərbaycan sərkərdəsi, Qacarlı şahzadə Abbas Mirzənin həyatı və mübarizəsi haqqındadır. XIX əsrin əvvəllərində İran-Rus müharibələrinin nəticəsi olaraq Azərbaycanın ikiyə parçalanması, Gülüstan sülh müqaviləsinə gətirən hadisələr elmi qaynaqlara əsaslanaraq geniş şəkildə bu monoqrafıyada öz əksini tapıb. Günümüzün bir çox suallarına cavab verən bu qiymətli əsər Azərbaycan dilində ilk dəfədir nəşr olunur. Kitabın geniş oxucu kütləsinin marağına səbəb olacağı şübhəsizdir.

Q 1300013005 Sifarişli
AB 022051

**Az2**
©QANUN, 2010
© Ə.Pakrəvan

# İÇİNDƏKİLƏR:

Ön söz (tərcüməçidən)
Yazar haqqında
Ağaməhəmməd Xanın iqtidara gəlişi
Abbas Mirzənin çocuqluğu
Fətəlinin iqtidara gəlişi. Giriş
Fətəli Şah səltənətinin ilk illərində Qacar sarayının durumu
Savaşlar bölümü. Giriş
On il davam edən savaşların başlaması
Sisyanovun öldürülməsi
Fransa-Qacariyyə münasibətləri. Giriş
Fransa-Qacariyyə münasibətləri
Savaşların davamına giriş
On il sürən savaşlar
Reformist Abbas Mirzə. Giriş
Reformist Abbas Mirzə
Böyük sınaq. Giriş
Böyük sınaq
İrəvanın işğalı və Azərbaycandan ayrılması
Rus ordusunun Təbrizi işğal etməsi
Türkmənçay müqaviləsi
Savaşlar və siyasi oyunlar. Giriş
Savaşlar və siyasi oyunlar
Qriboyedovun öldürülməsi
Xorasan olaylarına giriş
Xorasan olayları
Naib-üs Səltənə Abbas Qacar Vəliəhd-Şahrud
Qaynaqlar

## ÖN SÖZ

**Əziz oxucu!**

Güney Azərbaycanda fars şovinistlərinin türkləri soysuzlaşdırma planları haqda bilginiz vardır. Azərbaycan tarixini və görkəmli şəxsiyyətlərini İran mərkəzli bir yanaşma ilə fars kimliyinə, fars tarixinə aid etməyə çalışırlar. Bütün dövlət imkanları da fars zehniyyəti mərkəzli sistemin əlində olduğu üçün bu işdə başarılı olmuşlar. Azərbaycanda oyanışın və milli kimliyin yüksəldiyi bir vaxtda tarixi gerçəklərin olduğu kimi dərk edilməsinə ciddi ehtiyac vardır. Tərcümə etdiyim "Abbas Mirzə və Azərbaycan" adlı kitabın bu ehtiyacı bərtərəf etməkdə çox təsirli olacağına inanıram. Yaxın tariximizin bilinməsi baxımından kitabda gerçəkdən geniş bilgilər var. İlk dəfə olaraq XIX əsrdə Azərbaycan Ordusunun qurulması və ilk dəfə olaraq da Qacar Şahzadəsi Abbas Mirzənin başçılığı ilə Azərbaycanın bütövlüyü uğrunda silahlı savaşın təfərrüatı haqqında geniş bilgi əldə edəcəksiniz.

Şahzadə, Şərqdə ilk siyasi şəxsiyyət olaraq sekular bir dövlət qurmaq istəmiş, bu səbəbdən də fars millətçiliyi mərkəzli şiə mollalarının etirazına tuş olmuşdur. Buna qarşılıq olaraq Abbas Mirzə Azərbaycan mərkəzli din projesini gəlişdirməyi düşünmüşdür. Bu istiqamətdə özəlliklə də Rusiya imperatoru I Pyotrun reformlarından da təsirlənmiş, onun saqqal inqilabını Azərbaycanda gerçəkləşdirmək niyyətində bulunmuşdur. Bu işini ilk öncə Azərbaycan ordusunun əsgərləri üzərində tətbiq etmiş, hər kəsin avropalılar kimi saqqalını qırxmağı əmr etmişdi. Şahzadənin bu əməli din xadimərinin çox ciddi etirazına səbəb olmuşdur. Çünki axundlara görə saqqal qırxmaq dini adət-ənənələrə uyğun gəlmirdi.

Şahzadə, Qacariyyə və Azərbaycan Ordusunda xidmət edən Fransanın hərbi mütəxəssis və mühəndisləri vasitəsi ilə 1789-cu il Böyük Fransa inqilabının modern tələbləri ilə tanış olmuş, dərindən təsirlənmişdir. Bu səbəbdən də paytaxtı Təbrizə köçürmək, həm türk dilini Qacar imperatorluğunun rəsmi dövlət dili olaraq elan etmək, həm də XIX əsr şərtlərinə görə sekular bir dövlət qurmaq istəmişdir. Bunun üçün Azərbaycanın hərbi, mədəni və iqtisadi həyatının modernləşməsi istiqamətində bir çox reformlar gerçəkləşdirmişdir. Ancaq Abbas Mirzənin islahatlarını durdurmaq üçün din xadimlərinin təlqini ilə atası Fətəli şah onu Azərbaycandan uzaqlaşdırmaq zorunda qalmışdır. Xorasanda vəfat edən Abbas Mirzə son nəfəsində "Azərbaycan, Azərbaycan" deyə gözlərini yummuşdur.

Kitabda XIX əsr dünyanın böyük dövlətlərinin Orta Doğu və Mərkəzi Asiya ilə bağlı planları, Şahzadənin diplomatik və hərbi manevraları haqqında hərtərəfli bilgi vardır. Bu bilgilər XIX əsrin birinci yarısında Qacariyyədə xidmət edən Fransa, İngiltərə, Rusiya kimi xarici dövlətlərin təmsilçilərinin rəsmi məktublarından və şəxsi xatirələrindən alınmışdır. Ən önəmli olan da budur ki, o zamankı savaşlar farsların və rusların uydurduqları kimi İran-Rusiya arasında deyil, Qacariyyə-Rusiya arasında baş vermişdir. Bu savaşın baş ifaçıları isə

Azərbaycan ordusu ilə Rusiya ordusu olmuşdur. Daha ayrıntılı bilgi üçün kitabı diqqətlə oxumaq lazımdır. Tərcümədə bəlkə bugünkü alışılmış Azərbaycan türkcəsindən bir az fərqli üsluba rastlana bilərsiniz. Bunlar şüurlu şəkildə edilmişdir. Kitabda dərinləşdirilmiş və öz kökü üstündə doğura-doğura biləcək ana dilimizin imkanlarından geniş şəkildə faydalanmağa çalışılmışdır.

**Güntay Cavanşir**
**Finlandiya 10.02.2007**
**Guntay_1@yahoo.com.**

## YAZAR HAQQINDA

Əminə Pakrəvan 3 oktyabr 1880-ci ildə İstanbulda dünyaya göz açmışdır. Atası Həsənxan Qacarların diplomatı idi və 20 il Qacarların İstanbuldakı Böyük Elçilik görəvini yapmışdır. Əminə Pakrəvanın anası Alis fun Heartfeld Avstriyalı bir xanım idi. Həsənxan 1893-cü ildə Parisdə vəfat edir və Əminə xanımın ailəsi öncə Avstriyada Hersfeld ailəsinin yaşadığı yaxın bir kilsəyə yerləşir. Gənc ana iki qızı Fatma və Əminə ilə on il kilsədə qalır. Alis xanım qızlarının tərbiyəsi ilə özü məşğul olmağa başlayır. Laybax və Lubliyana kitabxanalarından əmanət aldığı kitablar vasitəsi ilə qızlarında kitab oxuma alışqanlığı yaratmağa çalışır. Əminə, türkcə və farscanın yanı sıra fransız, ingilis və alman dillərini yaxşıca öyrənir. İtalyan dilini də danışma səviyyəsində deyil, oxuma düzeyində bilmiş olur.

Bir neçə il sonra Alis təkrar İstanbula dönür. 1910-cu ildə Əminə bir Qacar diplomatı ilə evlənir. Gənc ailə bir il Qacarların başkəndi Tehranda yaşayır. İlk çocuqları da Tehranda dünyaya gəlir. Sonra da Əminənin əri Misirin başkəndinə diplomat olaraq göndərilir. On il Qahirədə yaşayırlar. Əminənin əri fanatik bir islamçı olduğu üçün xanımının sosial olaylara qatqıda bulunmasını önləyir. Ərinin fanatik davranışlarına dözə bilməyib ondan ayrılan Əminə çocuqları ilə bərabər Belçikaya yerləşir.

1933-cü ildə Əminə Pakrəvan Pəhləvilər tərəfindən rəsmən "İran" adlandırılmış ölkəyə köçür. Qacar dövləti haqqında bir neçə kitabın müəllifi olan Əminə Pakrəvan, Tehran Universitetində fransız dili və ədəbiyyatı üzrə öyrətmənlik etməyə başlayır. 1936-cı ildə qızının vəfatına baxmayaraq, araşdırmaçılıq və yazarlıq çalışmalarında davam edir. 1951-ci ildə "Tarixsiz əmir" adlı kitabı "Rivarol" ödülü qazanır. 1958-ci ildə xərçəng xəstəliyindən həyatını itirir. Əminə Pakrəvanın ən önəmli əsərləri bunlardır: "Tarixsiz əmir", "Qəzvin, unudulmuş başkənd", "Əski Tehran", "Dördüncü nəsl", "Abbas Mirzə və Azərbaycan", "Ağaməhəmməd Xan Qacar".

## AĞAMƏHƏMMƏD XANIN İQTİDARA GƏLİŞİ

1722-ci ildə Türküstan xanlıqlarının hücumu qarşısında çöküş sürəcini yaşayan Səfəvi dövlətinin həyatına son verildi. Səfəvi dövlətinin varisliyini Avşar türk boyundan yüksələn Nadir adında bir cəngavər üstləndi. İkinci Təhmasib Səfəvinin xidmətində olan Nadir, Avşar türk soyundan idi. Təhmasibi devirib və ölkənin yönətimini ələ keçirdi. Nadir Azərbaycanın Muğan bölgəsində başına şahlıq tacı qoydu. Hindistanı fəth etdikdən sonra da dünyaca ünlü bir türk padşahı kimi tanındı.

Yenilikçi və savaş taktikasının uzmanı olan Nadir şah Dehlini fəth etdi. Nadir şah dində reformlara başladı, bu reformların qurbanı oldu və öz yaxınları olaraq bilinən fanatik Şiə yanlıları tərəfindən öldürüldü.

Nadir şahın qətlindən sonra Lor soyundan olan Kərim xan Zənd, Avşar İmperatorluğunun bir qismində dövlət qurdu və 29 il iqtidarda bulundu. 1799-cu ildə ölən Kərim xan Zəndin varisləri iqtidarı öz aralarında paylaşdılar. Ağaməhəmməd Xan Qacar bütün rəqiblərini və Zəndiyələrin son padşahı olan Lütfəli Xan Zəndi də yenərək qalib oldu. 1797-ci ildə Qarabağ savaşında öldürüldü. Ağaməhəmməd Xanın övladı olmadığı üçün qardaşı oğlu Fətəli Xanı (çocuqluğunda ona Baba Xan deyilirdi) öz varisi olaraq duyurmuşdu. Fətəli bu mirasın qorunması üçün ən uyğun şəxs kimi görünürdü.

## ABBAS MİRZƏNİN ÇOCUQLUĞU[1]

Ağaməhəmməd Xan çox ehtiyatlı hökmdar idi. Öz yerinə canişin təyin etməsinə rəğmən, daima bu gənc adamın hökmdara qarşı erkən baş qaldırıb, iqtidarı ələ keçirməsindən ehtiyat edirdi. Bu üzdən də padşahın casusları Şirazda yaşayan Fətəli Xanın həyatı və davranışları ilə ilgili sürəkli bilgi verirdilər. Ağaməhəmməd Xan Qacar sonsuz, övladsız olduğu üçün qardaşı oğlu Baba Xanın (Fətəli Xanın) iki oğlunu öz yanında saxlayırdı. Baba Xanın ayrı-ayrı qadınlardan iki oğlu var idi. Bu iki övladın arasında sadəcə, bir neçə həftə yaş fərqi var idi. Birinci oğlan Məhəmmədəli, soyu bəlirsiz olan Xeyvəli bir qadından idi. Qacar yasasına görə Məhəmmədəlinin padşah olması mümkün deyildi. Çünkü[*] bütün siyasi davranışlarında Çingiz Xanı örnək alan Ağaməhəmməd Xan ölkə yönətimində və dövlətin yazqısı baxımından da Çingiz Xanın yasalarını

---

[1] Bu mövzu üzərinə Fətəli Şah və ailəsi haqqında anılarını yazan Fətəli Şahın kiçik övladlarından birisi olan şahzadə Əhmədmirzə Əzod-üd Dövlənin xatirələrindən yararlanılmışdır. “Tarix-i Əzodi” olaraq bilinən bu əsər 1870-ci ildə Bəmbəi şəhərində yayımlandı. O dönəmlərdə bu kitabın Qacariyyə ərazisində yayımlanması yasaq idi. Ancaq bütün yasaqlara baxmayaraq əlyazma şəklində yayımlanmışdı.

[*] Quzey Azərbaycanda “çünkü” deyil, “çünki” olaraq yazılmaqdadır. Bu da dilimizin ahəng qanununa uyğun deyildir. Bu səbəbdən ən uyğun və doğru olan variant tərcih edilmişdir. (G.C.)

uyqulamaqda idi. "Qacar Yasası"na görə vəliəhdin sadəcə, atası deyil, anası da Qacar soyundan olmalı idi. Məhəmmədəlinin atası Qacar soylu olmadığı üçün vəliəhd olma şansı yox idi.

Baba Xanın ikinci oğlu Abbas Mirzə idi. Abbas Mirzənin anası Qacar soyunun Dollu boyundan idi. Dollu boyu Ağaməhəmməd Xanın iqtidara yüksəlməsinə yardım etmişdi. Ağaməhəmməd Xan Qacar, bu soydan olan Asiya xanımı qardaşı oğlu Baba Xanla evləndirmişdi. İmperatorluq mirasını bu qadının doğuracağı çocuğa buraxmaq istəyirdi. Toy günü padşah özü gəlinin dəvəsinin cilovunu çəkmişdi. Qacar törəsinə görə gəlin gəldiyi evin ocağının daşını öpməli idi. Bütün bu mərasim boyu padşah gəlinə yoldaşlıq etmişdi.

Bəzi rəvayətlərə görə Ağaməhəmməd Xan Qacar, Dollu Asiyanı, hətta mövcud vəliəhd Baba Xanın anasından da daha artıq dəyərləndirirmiş. Zəif bünyəsi olan Dollu Asiya, Baba Xana iki oğul doğduqdan sonra vəfat etmişdir.

Asiyanın doğduğu ilk çocuq Abbas Mirzə idi. Abbas Mirzə hələ südəmər çocuqkən Ağaməhəmməd Xanın iradəsi üzərinə fərzi vəliəhd olaraq duyurulmuş və ta çocuq yaşlarından Naib-ül Səltənə (səltənətin varisi) kimi tanınmışdır.

Abbas Mirzə dörd yaşında ikən bilinməz bir xəstəliyə yaxalanır. Bu xəstəlik onun vücudunu çox etkiləyir. Çocuğun müalicəsi üçün Ağaməhəmməd Xan ölkənin ən ünlü həkimlərini saraya çağırtdırır. Belə anlaşılır ki, həkimlərin müalicə edə bilmədikləri bu bilinməz xəstəlik Abbas Mirzənin yetkinlik çağında öz-özünə sağalmışdır. Ya da Qaspar Druvilin (Gaspard Drouville) dediyi kimi Abbas Mirzə ağır idmanlar və bədən eyitimi yoluyla bu xəstəliyi yenməyi başarmışdır. 14-25 yaşları arasında Şahzadə onu tanıyan bütün çevrəsini cismən güclü olan bir insan kimi etkiləmişdi. Bu yaşlarında çəkilmiş rəsmlər də onun yaraşıqlı, görüntülü və güclü olduğunu göstərməkdədir. Ancaq 30 yaşından sonra əski xəstəliyi təkrar baş qaldırmağa başlayır. İngilis cərrah Karmek, Abbas Mirzənin sümük (kəmik) xəstəliyinə yaxalandığını sezmişdir.

Abbas Mirzə yeddi yaşından etibarən süvarilik, ox atma, qılınc və güləş kimi bir çox savaş fənlərini öyrənməyə başlamışdı. Yeni təsis edilmiş Tehran, ağ torpaqdan yapılmış qala divarları ilə səciyyələnirdi. Abbas Mirzə və qardaşları səkkiz yaşlarına qədər Tehrandan başqa bir şəhər görməmişdilər. Hər kəs belə düşünürdü ki, Ağaməhəmməd Xan Qacar tərəfindən tərcih edilən Abbas Mirzə, özündən bir neçə həftə böyük olan ögey qardaşı Məhəmmədəli (Dövlət Şahı) ilə iqtidar və vəliəhdlik uğrunda savaşacaqdır. Hər iki şahzadənin həm açıq, həm də gizlin dostları var idi. Məhəmmədəlinin yandaşları Abbas Mirzənin xəstəliyini daima anımsataraq Ağaməhəmməd Xan Qacarı etkiləyib, onu Abbas Mirzə haqqında verdiyi Naib-ül Səltənəlik qərarından vaz keçirməyə çalışırdılar. Məhəmmədəli, Abbas Mirzə qədər yaraşıqlı və etkiləyici olmasa da özbək anasından iri sümükləri irs olaraq daşıyırdı. Məhəmmədəli beş yaşında süvariliyi öyrənmiş, təkbaşına at üstündə oturub dövr edirdi. Beş yaşında ikən işlərini gərəyincə yapmayan bəzi xidmətçiləri padşahsayağı cəzalandırmışdı.

1797-ci ilin baharında Ağaməhəmməd Xan Gürcüstana hücum etmək üçün hazırlıq işlərinə başladı. İmperatriça Yekaterina yenicə ölmüşdü və Ağaməhəmməd Xan düşünürdü ki, onun varisi olan Birinci Pavel Qafqazlarla ciddi ilgilənməkdədir. Bu üzdən də Ağaməhəmməd Xana görə Qarabağ xanlarının dərsini vermə zamanı gəlmişdi. Ağaməhəmməd Xan, Qarabağ və Xəzəryanı xanlıqları özünə tabe edib, vergi almaq fikrində idi. Bu xanlıqlar aşağıdakılardı: Dərbənd, Quba, Şirvan, Gəncə, Bakı, Qarabağ.

Ağaməhəmməd Xan casusları vasitəsi ilə Gürcüstanda hökm sürən Baqratiyon Şahzadələrindən birisi ilə gizlincə ilişki qurmuş, onu Gürcüstanın elbayı (valisi) edəcəyi haqda vədlərdə bulunmuşdu.

Qarabağ xanları arasında İbrahim Xəlil Xan özünü bağımsız bir ölkənin sultanı kimi aparırdı. Qacarlara qarşı için-için nifrət etməsinə baxmayaraq, məcburən və siyasət icabı qızlarından biri olan Ağabacı xanımı Baba Xana vermək zorunda qalmışdı. Fətəli ilə Ağabacı arasında evlilik çox maraqlı olmuşdur. Özəl bir şahlıq tərzi ilə Qarabağdan Tehrana gəlin gətirilən Ağabacı xanım bəy tərəfindən sevilməmişdir. Ağabacı xanım sonuna qədər bakirə qalsa da Baba Xanı gerçək bir sevgi ilə sevdiyi söylənilir. Bu xanım sonralar Qacar dövləti ilə Qarabağ xanlığı arasında münasibətlərin yaxşılaşması üçün çox işlər görmüşdü.

Ağaməhəmməd Xan Şuşanı ələ keçirmək istəyirdi, çünkü bu üs (qərargah) vasitəsi ilə rusların bulunduğu Dərbəndi rahatca ələ keçirib, dəniz tərəfindən daima təhdid edilən Bakını da kontrol altına ala bilərdi. Əgər yay fəslində savaş Ağaməhəmməd Xanın istəyi və planları doğrultusunda yürüsə idi, qış fəslini Qarabağda keçirməyi düşünürdü. Bu səbəbdən də Abbas Mirzəni də özü ilə bərabər apardı. Çünkü onu yanında bulundurmaqdan xoşlanırdı. Digər tərəfdən, ona savaş fənləri və tekniklərini öyrətmək istəyirdi. Naib-ül Səltənə Abbas Mirzədən başqa Məhəmmədqulu Mirzə adında digər bir şahzadə də bu səfərdə Ağaməhəmməd Xana eşlik edirdi. Ağaməhəmməd Xanın savaş yoldaşı və yaxın əqrəbası olan Pirqulu Xan, Padşah tərəfindən bu çocuqları qorumaq üçün görəvləndirilmişdi.

Həyatında ilk kəz olaraq Abbas Mirzə Azərbaycana ziyarət edir və bu ölkənin sevimli baharının heyranı olurdu. Sanki gizlin bir güc Abbas Mirzənin yazqı və taleyinin Azərbaycana əbədiyyən bağlandığını onun könül qulağına pıçıldayırdı. Beləcə, Abbas Mirzənin Azərbaycan sevdası macərası bu torpağı çocuqluq yaşlarında qarış-qarış gəzərək başlayacaq və bütün ruhunu, vücudunu saracaqdı. Tehranda heç bir zaman çay görməyən Abbas Mirzə qarların əriməsi ilə çılğınca axan Araz çayının heyranı olmuşdu. Sonralar ruslarla savaşarkən məğlub olan Abbas Mirzə içini və dərdini batılı danışmanlarına açacaqdı ki, nədən sevdiyim Araz çayı yurdumun bölünmüşlüyünün rəmzi olmalıdır?! Arax çayına olan Abbas Mirzənin heyranlığı ömrünün sonuna qədər onu tərk etmədi. Bəlkə bunun yurdsevərlik duyğusunun ötəsində başqa bir səbəbi də ola bilər, bəlkə də Araz çayı Abbas Mirzənin həyatında gördüyü ilk böyük çay olaraq onun çocuqluq

xatirələri də qaynayıb qarışmış və fərdi həyatındakı dəyərlərin bir parçasına dönüşmüşdür. Bəlkə də Araz çayı onun iç dünyasını dış dünyası ilə və doğa gözəllikləri ilə bağlayan bir rəmzə çevrilmişdir. Bəlli və bəlirsiz səbəblərdən dolayı Araz çayı Abbas Mirzə üçün çox önəmli olmuşdur. Qacarlar ərazisində çox çaylar vardı, yalnız Abbas Mirzə üçün çay deyildiyində ancaq Araz xatırlanırdı.

Ağaməhəmməd Xana xəbər gəldi ki, Qarabağın kiçik xanları İbrahim Xəlil Cavanşirə qarşı birləşmiş və onu fərara zorlamışlar. Ağaməhəmməd Xan fürsəti qaçırmadan bərk asa və çox sürətli bir əməliyyatla Şuşanı almaq üçün ordunu hərəkətə keçirdi. Ağaməhəmməd Xan Şuşanın gözəlliyi qarşısında heyran qalmışdı. Şuşa o zaman Qacar imperatorluğunun başkəndi Tehrandan daha böyük və şəhər mədəniyyəti baxımından daha irəli düzeydə idi. Bütün ordu mənsubları da dağların qoynunda və ormanlıqda yerləşən bu şəhərin gözəlliyinə heyran olmuşdular.

1747-ci ildə Avşar imperatorluğunun Sultanı Nadir Şah öldürüldükdən sonra Avşar ordusuna mənsub olan Pənah Xan adında bir tümənbaşı sərkərdəliyini etdiyi ordusu ilə Qarabağa gəldi və Şuşa şəhərinin yaxınlığında yurd saldı. Pənah Xan Şuşanın qorunması və gəlişməsi üçün çox özən göstərdi. Beləliklə, Şuşa Qafqazların ən böyük ticarət şəhəri halına gəldi. Bu üzdən Şuşaya Pənahabad da deyirdilər. İbrahim Xəlil Cavanşir bu şəkildə mədəni bir şəhərin varisi olmuşdur.

Ağaməhəmməd Xanın Şuşaya vardığı üçüncü günün sabahında xəbər yayıldı ki, şah qətl edilmişdir! Həmən Şuşanı kaos sarmağa başladı. Şaha sadiq olan bəzi xidmətçilər şaşqınlıqdan özlərini itirmiş və nə yapacaqlarını bilmirdilər. Bu arada Pirqulu Xan böyük zəhmətlərə qatlaşaraq bir neçə mahir süvari savaşçı tapıb iki şahzadəni Tehrana göndərməyi başardı. Talış dağlarında şahzadələr üçün ciddi təhlükələr ola bilərdi. Çünkü bu iki şahzadə Qacar sülaləsinə düşmən olanlar üçün çox uyğun rəhinə (girov) sayılırdı. Ağaməhəmməd Xan Qacarın cənazəsi öldürüldüyü yerdə ortalıqda qalmışdı. Yalnız özü ilə bərabər daşıdığı və yatdığı yerlərdə barındırdığı cavahirat yoxa çıxmışdı.

## FƏTƏLİNİN İQTİDARA GƏLİŞİ

## GİRİŞ

Şirazda əmisinin ölümündən xəbərdar olan Baba Xan həmən özünü başkənd Tehrana çatdırdı. Ağaməhəmməd Xanın yaşlı və təcrübəli başvəziri Etimad-üd Dövlənin yardımı və bəsirətli planları ilə əmisinin şahlıq mirasına sahib çıxdı. Etimad-üd Dövlə öncə Zəndiyə xanidanının vəziri olmuşdur. Onlara xəyanət edib və Ağaməhəmməd Xanın tərəfinə keçmişdi. Etimad-üd Dövlə əmr etmişdi ki, padşahın varisi Baba Xan başkəndə çatmayınca Tehranın darvazaları heç kimə açılmasın. Bu şəkildə Baba Xan Tehrana varana qədər mərkəzdə çıxa biləcək hər türlü qarğaşa (iğtişaş) və kaosu önləyə bilmişdi. Etimad-üd Dövlənin planları

hesabına həm bəzi xanlıqların, həm də bəzi Zəndiyyə şahzadələrinin Qacar dövlətini devirmə planları baş tutmamış, hamısı məğlub edilib öldürülmüşdü.

Fətəli şahın rastlandığı ilk təhlükə Nadir şah soyundan olan Nadir Mirzənin tərəfdarı olan Avşar elləri onu İkinci Nadir olaraq tanıyırdılar. Fətəli Şah anlaşma yolu ilə məsələni savaşsız həll etmək istəyirdi. Ancaq bəzi saray danışmanlarının təhriki ilə Fətəli Şah tutum və mövqe dəyişdirdi. Nadir Şahın soyundan olan və padşahlıq iddiasında bulunan son Avşar sultanı da məhv edildi. Ancaq Fətəli şahı daha çox rahatsız edən öz qardaşı Hüseynqulu Xan idi ki, Kiçik Xan ləqəbi ilə tanınırdı. Hüseynqulu Xan da varislik iddiasında idi. Məğlub edilən Hüseynqulu Xanın gözlərini kor edib buraxdılar.

Fətəli Şahın səltənətinin ilk illərində Fransa və İngiltərə ona yaxınlaşmağa başlamışdı. Bu illərdə İngiltərə Hindistanı istilasına uğratma prosesini başa çatdırmaqda idi. Hindistanda fəaliyyət göstərən bir ingilis ticarət kompanisi həm də siyasi işlərlə məşğul olurdu. Birinci Napoleon Bonapart Rusiya ilə bir yerdə Hindistanı işğal etmək üçün Birinci Çar Pavellə gizlincə anlaşmışdı. Bu gizlin anlaşmadan İngiltərə xəbərdar olmuşdu. Tehran dərbarı öncə yarırəsmi bir ingilis elçisini qəbul etdi. Mehdi Xan adlı bu yarımelçi Ağaməhəmməd Xanın ölümü münasibəti ilə başsağlığı verməyi bəhanə edərək, əslində durumu öyrənməklə görəvləndirilmişdi. Həm başsağlığı vermək, həm də Fətəli Şahı başına tac qoyması münasibəti ilə İngiltərəni təmsilən xoş diləklərini padşaha çatdırmaq üçün gəlmişdi. 1801-ci ildə ingilis albayı Molkolm öz elçilik görəvinə başlayacaqdı. Hind ordusuna mənsub olan bu gənc albay (polkovnik) 1798-1805-ci illəri arasında Hindistanın hakimi olan Lord Velzli tərəfindən himayə olunurdu. Molkolm öz görəvi boyunca biri siyasi və digəri ticari olmaq üzrə Qacariyyə ilə iki müqavilə bağlamağa nail oldu.

## FƏTƏLİ ŞAH SƏLTƏNƏTİNİN İLK İLLƏRİNDƏ QACAR SARAYININ DURUMU

İnkar etmək olmaz ki, Fətəli Şahın səltənətinin ilk illərində bir tür sənət renesansı kimi bir hadisə ortaya çıxmışdır. Şahın da gözəl binalar yaptırma həvəsi ifrat şəkildə mövcud idi. Bu memari əsərlər Pəhləvi dönəmində özəlliklə məhv edildilər ki, Qacarlardan memari miras olaraq bir əsər qalmasın. Çünkü Pəhləvi sülaləsi özünü Qacar düşmənçiliyi zəminində gəlişdirmişdi. Sonra da Pəhləvilərin bu Qacar düşmənçiliyi tutumları türklərə qarşı açıq həqarət şəklində ortaya çıxacaqdı. Fətəli Şahın ilk yapdırdığı saray “Qacar Taxtı” idi.

Fətəli Şah da əmisi Ağaməhəmməd Xan kimi ovçuluğu çox sevir, ov ovlamaqdan zövq alırdı. Fətəli Şah hara getsə idi yalnız olmazdı. Bəlli şəxslər hər zaman yanında olardı.

Gürcüstan məsələsi Fətəli şahı daima düşündürməkdə idi. Gürcüstan bu coğrafiyada iqtidara gələn bütün dövlətlər üçün önəmli olmuşdur. Çünkü bütün

dönəmlərdə şahlar Gürcüstanın şərabına, balına və gözəl qızlarına heyran olmuşlar*. Rusiya yandaşlığı ilə bilinən Erkli[2] öldükdən sonra onun oğulları və nəvələri Fətəli Şaha olumlu baxmağa başlamışdılar. Fətəli Şah da onlara hörmətlə yanaşırdı. Şah onlara müttəfiq kimi baxırdı. Çünkü Baqratiyon xanidanı əskilərə dayanan soylu bir ailə idi. Fətəli Şah Gürcüstanı zorla və ya dostluq yolu ilə işğal etmək haqqında düşünürdü.

1800-cü ilin baharında Gürcüstan şahzadələrinin Xoya gəlmələri qərarlaşdırılmışdı. Burada şahzadələr Rusiyanın Gürcüstana uyquladığı ağır şərtləri dilə gətirib, Fətəli Şahdan yardım istəyəcəklərdi. Ancaq Xorasandakı olaylar Fətəli Şahın Xoya gəlməsini əngəllədi. Xorasandakı qiyamları yatırmaq üçün bu bölgəyə getmək zorunda qaldı. Bu bölgədə Nadir Mirzə ilə Zaman Xan Abdali, Qacarlara qarşı ortaq hərəkət etmək istəyirdilər. Zaman Xan, Nadir Şahın ordusunda böyük mənsəb sahibi olan Əhməd Xan Dəvəraninin nəvəsi idi. Nadir Şah öldükdən sonra Türküstanın, Xorasanın və Hindistanın bir bölümünü əlində bulundurmaqda idi. Fətəli Şah bu önəmli təhdid ünsürünü ortadan qaldırmaqda qərarlı idi. Fətəli Şah insani təbiətə sahib idi, çünkü həyatın gözəlliklərinə inanır və həyatdan zövq almağı daima göz önündə bulundururdu. Yalnız bütün bu xarakterinə rəğmən, bəzi yaxın adamlarını uzaqlaşdırmağı da nəzərdən qaçırmırdı. Qacar öldükdən sonra Fətəli Şahın iqtidara gəlməsinə yardımçı olan Fars vilayətinin əski elbayı Etimad-üd Dövlənin davranışları Fətəli Şahda şübhə oyatmışdı. Qacar sarayında və bir çox çevrələrdə yayılmışdı ki, Fətəli Şah sadəcə, isim olaraq şahdır, əslində isə ölkəni idarə edən Etimad-üd Dövlədir. Bu şayiənin yayılışına Etimad-üd Dövlə yardımçı olmuşdur. Etimad-üd Dövlə sadəcə, öz yaxınlarını saraya yerləşdirməklə kifayətlənməmiş, həm də müxtəlif vilayətlərdə də öz adamlarını elbay və hərbçi olaraq yerləşdirmiş, ölkənin ticarət işlərini də ələ keçirmişdi. Etimad-üd Dövlə Şahın ona qarşı başlayan şübhələrindən xəbərsiz deyildi. O da iqtidara gəlməsinə yardım etdiyi bu gənc padşahdan xoşlanmırdı, ancaq iqtidarın dəyişik mərkəzlərində yerləşdirdiyi adamlarına güvəndiyi üçün qorxmurdu. Uyğun bir zamanı bəkləyirdi ki, bir devrilişlə ölkənin bütün yönətimini ələ keçirsin. Digər tərəfdən, Etimad-üd Dövlə İngiltərənin Hindistandakı tacirləri ilə də ticari və gizlin siyasi irtibat qurmuşdu.

Fətəli Şah işrət məclisinə hər kəsi buraxmırdı. İşrət və şənlik məclisi türlü-türlü gözəl qadınlarla dolu idi. Bu qadınların çoxu ilə cinsi ilişkidə bulunurdu. Bu qadınların bir çoxu ona şahzadələr doğurmaları nədəni ilə işrət məclisindən uzaqlaşır və padşahın qadınları cərgəsinə qatılırdılar. Padşah, qadın düşgünlüyünü

---

*Səfəvilər dönəmində də başkənd İsfahana intiqal etdikdən sonra Səfəvilər sarayını ən çox gürcü və ermənilər, özəlliklə gürcü və erməni qadınların yaxınları öz təsirləri altına almışdı. (G.C.)

[2] Bu ad Qacar dönəmi qaynaqlarda müxtəlif şəkildə yazılmışdır. Qacar qaynaqlarında yazılan türlər: Erkele, Erkli, Erikli, Herakli, Herakliyus.

kimsə görməsin deyə hər kəsi bu məclisə buraxmırdı. Fətəli Şahın öz ləzzət və zövqlərini paylaşdığı kişi onun əmisi oğlu idi. Fətəli Şah çocuqluq arkadaşı olan bu əmisi oğlunu çox sevdiyi üçün öldürməmiş, amma gözlərini çıxarmışdı. Bu üzdən də onun işrət məclislərində bulunmasında bir sakınca görmürdü. Çünkü kor idi və sarayda olub bitənlər onu təhrik edib başqa xəyallara daldıramazdı.

***

Səfəvilərin son şahı Şah Sultan Hüseyn zamanından bu yana heç bir xarici ölkə səfiri dövlət başçısı ilə görüşməmişdi. Nə Nadir Şah dönəmində, nə də Ağaməhəmməd Xan dönəmində. 1800-cü ilin yayında albay Molkolm Buşəhrə varar-varmaz Fətəli Şahla görüş istəyində bulunması hər kəsi və saray adamlarını da şaşırtdı[*]. Molkolm, Hindistanın hökmdarını təmsilən və Hind kompaniyasının elçisi kimi Şahla görüşmək istəyirdi. Padşah Xorasandakı qiyamı yatırmaq üçün Tehrandan çıxdığına görə Molkolmun Şahla görüşü dekabr (aralıq) ayına ertələndi. 1801-ci ilin yanvar (ocaq) ayında Molkolm vasitəsi ilə Qacariyyə və İngiltərə arasında anlaşmalar imzalandı. Molkolm bu xəbəri böyük bir zəfər olaraq mərkəzə duyurdu. Əslində bu anlaşma ilə İngiltərənin Qacariyyəyə ayağı açılırdı. Molkolm, Qacariyyədə “İngiltərə altunundan daha dəyərli bir şey yoxdur” fenomenini yaratdı. Qacariyyə tarixi üzrə uzman (mütəxəssis) olanlar yazırlar ki, Molkolm Tehranda olduğu zaman Abbas Mirzə Azərbaycanda imiş. Azərbaycanda bəzi xanların qiyamlarını yatırmaqla məşğulmuş. Xorasanda bulunan Fətəli Şah, Con Molkolmu qəbul etmək üçün Abbas Mirzənin Tehrana gəlməsini istəyir. Amedee Jauberin “Persiya səfəri” adlı kitabında verdiyi bilgilərə görə bu zaman çox gənc olan Abbas Mirzə bu görüşmə sürəsincə Batıda olub-bitənlərlə daha çox ilgilənir. İngiltərənin Hindistandakı davranışları konusunda sorular sorurdu. Ona Moğulların son qalıqları olan kiçik dövlətləri və şahlıqları necə yendikləri konusunda bilgi vermələrini istəyirdi. Öz dövləti və məmləkəti haqda qayğılı olan Abbas Mirzə düşünürdü ki, İngiltərə bu qədər geniş miqyaslı imkanlarını Hidistanla sınırlı tuta bilməz. Gec-tez başqa ölkələrə də soxulmaq istəyəcək. İngiltərənin böyüməsini və texnoloji tərəqqisini gözləmləyən Abbas Mirzə gələcəkdə ölkəsinin İngiltərə tərəfindən işğal ediləcəyindən qorxurdu. Bu üzdən də Hindistan və İngiltərə haqqında sorular sorurdu. Batılı elçilərin yazdıqlarına görə Abbas Mirzə görüşdüyü bütün batılı heyətlərə sorular sorurmuş.

Şahzadə Abbas Mirzə 1802-ci ildə atasının istəyi üzərinə öz əqrəbalarından olan Mirzə Məhəmməd Xan Dollunun qızı ilə evləndi. Ağaməhəmməd Xan Qacar tərəfindən “Qacar yasası” olaraq tətbiq edilən kurala görə Abbas Mirzənin bu qadınından dünyaya gələcək olan çocuğu gələcəyin vəliəhdi olacaqdı. Çünkü

[*] Con Molkolm (sonralar Ser Con Molkolm olaraq məşhur oldu) demək olar ki, bütün xidmət dönəmini İngiltərənin Hind ordusunda keçirdi. Qacariyyədəki məmuriyyətindən başqa ona heç bir diplomatik görəv verilməmişdi. O, Hindistandakı işlərindən dolayı İngiltərə krallığı tərəfindən sevilsə də, yalnız israfçılığından və çox bədxərcliyindən dolayı tənqid edildi. (“Ser Con Molkolmun yaşamı və məktubları” Yazar: G. W., London, 1885)

Dollular Qacar soyunun boylarından biri idi. Abbas Mirzənin gənc eşi haqda ancaq bu qədər bilinməkdədir. Onun Dollu soyundan olması bəllidir. Bir də ana mələkə öldükdən sonra İkinci Məhd-i Ülya (ulu qadın) ləqəbi ona verilmişdir. Ancaq Fətəli şahın anasına məxsus olan tam iqtidar və mütləq iradə sahibi olma kimi bir imkan ona qismət olmamışdır.

***

Qış fəsli hər tür hərbi əməliyyatı durğun duruma gətirmişdi. Hər kəs güc birikdirmək üçün ev-eşiyinə gedirdi. Ancaq bahar gələr-gəlməz Şah, ordunu düzənli vəziyyətə gətirirdi. Ya şəxsən özü ordunun komutanlığını üstələnirdi, ya da komutanlığı yetişkin şahzadələrdən birinə buraxırdı. Şahzadə Məhəmmədəli Mirzə və Abbas Mirzə ilk komutanlıq görəvini üstləndilər. Ən gənc yaşlarında, yəni 14-15 yaşlarında savaş atəşi ilə tanış oldular. Məhəmmədəli Mirzə atası ilə bərabər Xorasana getdi. Şah, onun savaşa olan həvəsini görüb təcrübəli mənsəb sahiblərinin nəzarəti altında daima özbəklər tərəfindən hücuma məruz qalan ölkənin Doğu sınırlarını qorumaqla görəvləndirdi. Məhəmmədəli Mirzənin (Dövlər-Şahi) tərəfdarları ən yaxın zamanda onun Xorasanın elbayı olacağına inanır və buna görə onunla irtibatlarını genişlətməyə çalışırdılar. Ancaq Fətəli Şah onu mərkəzə çağırıb Qəzvinin elbayı elan etdi.

Abbas Mirzə də 1799-cu ildə Azərbaycanda ordunun komutanlığını üstləndi. Burada Qacarlara qarşı baş qaldıran xanlarla savaş hazırlığına başladı. Gənc komutana bir neçə öndə gələn Qacar xanları da eşlik edirdilər. Bunların ən önəmlisi Əsədulla Xan Nuri idi. Tarixi verilər göstərir ki, bu adam Abbas Mirzə üçün 30 minlik ordu təşkil etməyi bacarmışdı. Hər kəsin üzərində düşündüyü Abbas Mirzənin Azərbaycan əhalisi ilə olan münasibətləri idi. Vergilərdən bezmiş və yoxsullaşmış, kürdlərin silahlı basqınlarından cana gəlmiş Azərbaycan əhalisinə Abbas Mirzə özəl bir özən göstərir, onların durumlarının yaxşılaşması üçün bir çox işlər görür, fərmanlar verirdi. Bu yazıq, miskin, yoxsul insanlar hərbçi süvariləri gördüklərində fərar edirdilər. Lakin Abbas Mirzənin mehribanca davranışlarını gördükdə ona fövqəl insan kimi baxırdılar. Abbas Mirzənin davranışına güvənən və onun Azərbaycan sevdasına inanan bu yoxsul insanlar duz çörəkləri ilə, süfrələrindəki olan-olmazları ilə Abbas Mirzəyə və onun Azərbaycan Ordusuna yardımda bulunurdular. Beləcə, Abbas Mirzə Azərbaycan əhalisi arasında hörmət qazanır, azərbaycanlıların sevimlisinə çevrilirdi.

Azərbaycan kəndlilərinin yaşayışını normal hala gətirmək Abbas Mirzənin fikrini məşğul edən birinci məsələ idi. Abbas Mirzəyə eşlik edən Qacar soylu yaşlı insanlar onun bu yoxsul insanlara göstərdiyi münasibəti keçici gənclik hissiyatı kimi dəyərləndirirdilər. Azərbaycan əhalisinin bu qədər yoxsulluq içində yaşamasından üzüntü duyan Şahzadəni anlamaqda zorluq çəkirdilər.

Abbas Mirzənin ordusu Təbrizin kənarında otraq saldı. Abbas Mirzə, Xoy və civarında hökm sürən, kəndliləri talayan və Qacarlara qarşı dirənc göstərən Cəfərqulu Xan Dənbəliyə ixtar göndərdi ki, qısa zamanda onun hüzurunda

bulunsun. Yoxsa bütün olacaqlardan və başına gələcəklərdən özü sorumlu olacaqdır. Dənbəli Abbas Mirzənin bu ixtarını önəmsəmədiyi üçün Azərbaycan ordusu Xoya doğru hərəkətə başladı. Ancaq Xoya çatdığında xəbər gəldi ki, Dənbəli ən yaxşı süvariləri ilə bərabər şəhəri tərk etmiş və yoxa çıxmışdır[3]. Dənbəli illərcə ruslar tərəfindən Abbas Mirzəyə qarşı dəstəkləndi. Dənbəli, soyğunçu kürd qrupları ilə, o cümlədən Şəqaqilərlə, Sinkilərlə və Yəzidilərlə olan yaxşı münasibətindən dolayı öz bölgəsində önəmli biri kimi tanınırdı. Bu üzdən də Dənbəlini təqib etmək çətin iş idi. Bir kərə onu bir kürd kəndində mühasirəyə aldıqlarını sandılar. Ağır itki verərək bu kənd ələ keçirildi. Ancaq yenə də Dənbəlidən xəbər yox idi. Gecənin qaranlığından yararlanaraq bu dəfə də qaçmağı başarmışdı. Əldə olan bilgilərə dayanaraq onu Urmu ovalığına qədər təqib etmişlər. Dənbəli, Urmu gölünə tökülən çayların birinin axarını Abbas Mirzənin ordusuna tərəf dəyişdirməyi başarır. Bu plan baş tutsa idi, Abbas Mirzənin ordusu yaranan bataqlıqda sürətli hərəkət imkanını itirib məğlub olacaqdı. Lakin Abbas Mirzənin manevrası müvəffəqiyyətlə sonuclandı və o bataqlığa Dənbəlinin öz ordusu yaxalandı. Dənbəli bu savaşda ordusu ilə bir yerdə yenik düşdü[4].

## SAVAŞLAR BÖLÜMÜ

## GİRİŞ

Gürcüstan Şahı İkinci Erkli ölkəsini avropalaşdırmaq amacıyla Rusiya ilə birləşməyi planlaşdırırdı. 1783-cü ildə bir anlaşma ilə Gürcüstan Rusiyaya təslim oldu. Bu anlaşma olmasaydı belə yenə də Doğuya doğru genişləməyi öz önəmli stratejisi kimi bəlirləyən Rusiya Gürcüstanı işğal edəcəkdi. Çünkü Gürcüstan Rusiyanın Doğuya və Güneyə doğru genişləmə yolunun önünü kəsmişdi. İkinci Erklinin zamanında Gürcüstanda bu birləşməyə qarşı çıxan böyük bir qrup ortaya çıxdı. Onlar Qacariyyədən yardım umur və bu dövlətə yaxınlaşırdılar. Gürcüstanın əyan və əşraflarından oluşan bu qrup Mələkə Darucanın ətrafında birləşirdilər. Bir neçə şahzadə və şahzadə xanımlar bu qrupa qatıldılar, çünkü bu soy özlərini daha mədəni, soylu bilir və mədəniyyət aləminə yeni girən ruslara barbar kimi baxırdılar. Gürcüstanda bir tərəfdən vəliəhd Qorgin[5] kimi adamlar batı mədəniyyətinin heyranı olduqları üçün Rusiya vasitəsi ilə Batıya açılmaq istəyirdilər, digər tərəfdən də mələkə Durucan kimiləri də öz bağımsızlıqlarından yanaydılar[6]. Ağaməhəmməd Xan, Gürcüstanı işğal etdiyində Erkli yaşlı və qocalmış birisi idi. Ağaməhəmməd Xanın Gürcüstana saldırısı zamanı İmperatriça

---

[3] Nasex-üt təvarix.
[4] Eyni qaynaq.
[5] Bu ad orijinal mətndə Georges olaraq yazılmış, ancaq Rövzət-üs Səfa, Nasex-üt Təvarix və Abbas Mirzənin əlyazmalarında Qorgin olaraq keçməkdədir.
[6] Maneveh Lişvili, "Gürcüstanın tarixi".

Yekaterinadan gürcülərə yardım gəlmədi. Qısa zaman fərqliliyi ilə ortaya çıxan Yekaterinanın, Ağaməhəmməd Xanın və Erklinin ölümləri bölgədəki dəngələri alt-üst etdi. Hər şeyin yenidən ayarlanma zərurəti ortaya çıxdı. Ancaq Çar Birinci Pavel, Gürcüstanın XII şahı Qorgin və onun oğlu Davud da siyasət səhnəsindən çox tez kənarlaşdılar. Bu üzdən də Gürcüstan Mələkəsi Qacariyyə ilə yaxınlaşma siyasətini təqib etməyə başladı. Şahzadə Aleksandr, Təhmurəs və onların bir neçə qardaşlarının oğulları Qarabağ xanları ilə səmimi münasibət qurub, heç bir çətinliklə qarşılaşmadan Gürcüstandan Qacariyyəyə gəldilər. Fətəli Şah Gürcüstanın bölgədəki strateji önəmini düşünərək Gürcüstan heyəti ilə sıcaq davranılmasını əmr etdi. Digər tərəfdən, gürcü mənşəli olub, rus ordusunda eyitilən Sisyanovun davranışları Qacar dövlətini rahatsız etməkdə idi. Fəətli Şah, başvəzir Mirzə Şəfiyə əmr etdi ki, Sisyanova barışcıl, ancaq eyni zamanda bir az da təhdidcil bir məktub yazıb göndərsin. Məktubun mətni özət olaraq bu içərikdə idi: "Erklinin övladlarını rahat buraxın və canişin təyinetmə məsələsinə bizimlə də məsləhətləşin. Gürcüstanda təkbaşınıza davranma kimi bir niyyətiniz olsa, töküləcək qanlara görə Siz məsuliyyət daşıyacaqsınız".[7]

1803-cü il idi. Sisyanov bu məktuba cavab vermədi. Qısa bir sürədən sonra Gəncəyə hücum etdi. Gəncəni top atəşinə tutdu. Bir neçə kiçik xəyanətlər istisna olmaqla gəncəlilər gerçəkdən böyük şücaət və qəhrəmanlıqla Gəncəni qoruyurdular, lakin rus ordusunun hərbi üstünlüyü qarşısında məğlub oldular. Rus ordusu Gəncəyə girməyi başardı. Cavad Xanın siyasi həyatına Sisyanov son qoydu.

Fətəli Şah, Sisyanovun bu hərəkəti və rus ordusunun güclü topxana üstünlüyü qarşısında nə edəcəyi haqda düşünməyə, narahat olmağa başladı. Ağlına ilk gələn bu oldu ki, ingilislərdən savaş texnolojisi və yardım almaq lazımdır. Ancaq ingilislər ən azından o zaman dilimində Qacarları heç düşünmürdülər. Bu üzdən də ilk dəfə olaraq Napoleonla ittifaqa girmə fikri alternativsiz plan kimi ortaya çıxdı.

## ON İL SÜRƏN SAVAŞLARIN BAŞLAMASI

1804-cü il Tehranın çevrəsində böyük bir ordu toplanmışdı. Bu dəfə sadəcə, bir neçə xanların qiyamını yatırmaq söz konusu deyildi, həm də xarici düşmənə qarşı savaş hazırlığı gedirdi. Bu düşmənin güclü olduğu haqda bir çox söz-söhbət dolaşmaqda idi. Şah bu ordunun komutanlığını Abbas Mirzəyə həvalə etdi. O zaman Fətəli Şah yüksək səslə danışaraq, onu taxt-tacın varisi elan etdi. Bunun səbəbi sadəcə, Ağaməhəmməd Xan tərəfindən qoyulmuş "Qacar yasası" deyildi. Abbas Mirzə öz ləyaqəti və başarıları ilə atasının güvənini və rəğbətini qazanmışdı. Azərbaycan Qacar dövləti üçün çox böyük əhəmiyyət daşımaqda idi. Azərbaycanda sevimli bir dövlət adamı olan Abbas Mirzə ilə hər kəs, o cümlədən

[7] Nasex-üt təvarix.

Fətəli Şah da hesablaşmaq zorunda idi. O il Abbas Mirzə, Novruz Bayramı münasibəti ilə bölgələrdən gələn hədiyyələri padşaha sunmaqla görəvlənmişdi. Bu tür törələr və törənlər Doğu ölkələrində batılıların anlaya bilməyəcəkləri qədər önəmlidir. Şah digər oğullarına da Abbas Mirzəyə ehtiram göstərmələrini əmr etdi. Ancaq Abbas Mirzəni qısqanan bəzi şahzadələr içərisindəki həsədi zorla boğaraq Abbas Mirzə qarşısında boyun əyməyə məcbur oldular.

Şah, Abbas Mirzənin rəhbərliyi altında hazırlanmış ordunu yoxlayıb, paradını izlərkən böyük bir sevinc və mutluluq içində idi. Rus ordusunun şöhrəti ilə ilgili duyduğu söz-söhbətlər bu ordunu gördükdən sonra artıq onu etkiləmirdi. Özəlliklə Azərbaycan ordusunun komutanı Abbas Mirzənin, atasına və ölkəsinə sədaqətlə bağlı olması Şah üçün ayrıca bir güvən qaynağı idi.

Ordunun Azərbaycana doğru hərəkəti sırasında yol boyunca on minlərlə insan Abbas Mirzəni uğurlayır, ona başarılı olması üçün Tanrıdan yardımçı olmasını diləyirdilər. Abbas Mirzənin Azərbaycanda yayğınlaşan sayqınlığı üzündən bu ordunun tam əksəriyyətini azərbaycanlılar təşkil etmişdi. Abbas Mirzə bu dəfə ayrı bir hisslə Azərbaycana gəlirdi. Bu dəfə özünü Azərbaycana həsr etməyə hazırlaşırdı. Çünkü Sisyanovun Azərbaycanın göbəyi sayılan Gəncəni işğal etməsi onun qüruruna toxunmuşdu. Azərbaycana səfərində Abbas Mirzəyə 60 min nəfərlik ordu eşlik edirdi. Üç gün yol getdikdən sonra Abbas Mirzənin ordusu Qəzvinin darvazasına çatdı. Qəzvinin elbayı olan Şahzadə Məhəmməd Mirzə içindəki qısqanclığı gizləyərək Qəzvin əhalisi ilə bir yerdə Abbas Mirzənin istiqbalına vardı. Abbas Mirzə Təbrizə həmən çatmaq istədiyi üçün zaman itirmədən Qəzvindən ayrıldı.

Şah, ordunun dərhal Arazı keçib ruslara savaş açmasını istəyirdi. Abbas Mirzə də atasının bu iradəsini gerçəkləşdirməkdə qərarlı idi. Yalnız Abbas Mirzə Təbrizdə qısa bir sürəliyinə qalmalı idi, çünkü Azərbaycandan onun ordusuna qatılacaq minlərcə insan sıraya düzülmüşdü. Bu dəfə artıq Abbas Mirzə başqaları tərəfindən kontrol edilən yeniyetmə bir gənc deyildi. O, artıq savaşlarda təcrübə qazanmış yetişkin bir hərbçi, savaşçı idi. Abbas Mirzə Təbrizə çatdıqdan sonra bütün səyyahların xatirə kitablarında övülən bu şəhəri gəzməyə, dolaşmağa başladı. Səlcuqlar dönəmindən qalan qala divarları Abbas Mirzənin diqqətini cəlb edirdi. Abbas Mirzə Təbrizdə hər gün məşvərət şurasını öz çadırında toplayırdı. Arazın o tayından gələn bilgiləri, xəbərləri dəyərləndirirdilər. Abbas Mirzənin Təbriz şəhərinə diqqət yetirməsi və şəhərin abadlaşması üçün əmrlər verməsi, özəlliklə tacirləri və bəzirganları sevindirməkdə idi. Hətta Abbas Mirzənin Təbrizə olan bu sevgisini görən bəzi bəzirganlar Təbrizin ticarət həyatı haqqında Şahzadəyə bilgilər verir və bir zamanlar Ağdəniz bəzirganlarının Təbriz bazarında təmsilçiləri olduğunu söyləyirdilər. Yalnız bütün bunların hamısı Şah Abbas Səfəvi dönəmində yox edilmiş, İsfahana daşınmışdı. Digər tərəfdən, zəlzələlər də Təbrizin geri qalmasına səbəb olmuşdu. Bu zəlzələlərin birində Göy Məscidin tağının ortadan dəlindiyini çəkinərək söyləyirdilər. Çəkinərək söyləyirdilər, çünkü Göy

Məscid Sünni Qara Qoyunlular zamanında yapılmışdı. Hər kəs Abbas Mirzənin Şiə hissinin qəzəbinə tuş olmaqdan qorxurdu. Lakin Abbas Mirzə üçün şiə-sünni deyə bir problem heç olmadı və kimsə ondan bu haqda bir tərs davranışa tanıq olmadı. Bu səfər zamanı Abbas Mirzə Azərbaycanın Bəylərbəyi[8] Əhməd Müqəddəmlə tanış və dost olmağı bacardı. Yaşlanmış Bəylərbəyi Qacar dövlətinin qurulmasında əməyi keçmiş, bir neçə savaşa da qatılmışdı. Abbas Mirzə Bəylərbəyinin savaş təcrübəsindən, bilgilərindən yararlanmaq istəyirdi. Bəylərbəyi silah kolleksionunu Abbas Mirzəyə göstərdi. Kolleksionda gözəl səliqəylə yapılmış türlü-türlü qılınclar, yüngül atəşli silahlar var idi.[9] Bəylərbəyi ömrünün sonuna qədər Abbas Mirzəyə xidmətdə bulundu.

***

Baharın sonları idi və Araz çayı hələ də daşqın suları ilə axmaqda idi. İlk dəfə bir çocuq olaraq Araz çayını görən Abbas Mirzə bu dəfə bir sərkərdə, bir komutan kimi onun sahilində dayanmış, çayı seyr edir, çocuqluğunu xatırlayırdı.

Xüdafərin körpüsünün üstündən ordu Arazın o tayına keçməyə başladı. Ordu, Qarabağın Dadabəyli adında bir bölgəsində oturaq saldı. Savaş meydanına yaxın olan bu bölgədə Abbas Mirzə ordunun öndə gələn isimləri ilə bir yerdə durum dəyərləndirməsi yapdı. Casusların rus ordusu ilə ilgili gətirdikləri bilgiləri onlarla paylaşdı.

General Sisyanov bölgədə kiçik xanları bir-birinin canına salır, onları bir-biriləri ilə savaşdıraraq zəif düşürürdü. Sisyanovun ən önəmli hədəflərindən biri müsəlmanlar və xristianlar arasında düşmənçilik yaratmaq idi. Bu şəkildə erməniləri və gürcüləri özünə cəlb edə bilər deyə, düşünürdü.

İrəvandan gələn xəbərlər heç də ürəkaçıcı deyildi. Hər kəs heyrət içində idi ki, nədən Şah İrəvanın hakimi Məhəmməd Xanı görəvindən almamışdır. Məhəmməd Xanın ruslarla bərabər çalışması konusunda Abbas Mirzəyə bilgilər gəlirdi. Məhəmməd Xan rus ordusunun İrəvanın ətrafında yerləşməsinə izn vermişdi.

Gürcü şahzadələr Aleksandr Mirzə və Tehmurəs Abbas Mirzəni ziyarət etmək üçün Dadabəyliyə gəldilər. Bu arada Quba və Dərbənd xanı Şeyx Əli Xan, Lənkəran xanı Surxay Xan, Bakı xanı Hüseynqulu Xan və Talış xanı Mustafa Xan Abbas Mirzəyə xoşgörü ilə yanaşırdılar. Eyni zamanda Xəzəryanı xanlıqların gürcü əyanlarının qızları ilə evlilikləri və yaxşı münasibətləri səbəbi ilə gürcü şahzadələr Azərbaycanda rahat dolaşa bilirdilər. Onların can güvənliklərindən xanlıqların orduları sorumlu idi[10].

Abbas Mirzə Gəncə konusunda çox əndişəli idi. Keçən il ruslar tərəfindən topa tutularaq istilaya uğramış Gəncəni geri alma haqqında düşünüb dururdu.

---

[8] Qacarlar dönəmində Bəylərbəyi bölgədən sorumlu yetkili şəxs idi.
[9] Amedee Jauber, “Persiya səfəri”.
[10] Gürcü araşdırmacı bayan Tamara Papaova “Erkli ailəsi”.

Lakin Gəncəni geri almaq asan iş deyildi. Abbas Mirzənin casusları Gəncə saxlusunda (ordunun barındığı yer) çoxlu Rusiya ordusunun və təchizatın olduğu barədə xəbərlər gətirirdilər. Bu üzdən də Gəncəyə nə şəkildə hücum edəcəyi haqqında ordu kurmayları ilə məsləhətləşir, gələn xəbərləri dəyərləndirirdi.

İrəvan hakimi Məhəmməd Xanın yanlış yönləndirməsi ilə Azərbaycanın köçəriləri Osmanlı torpaqlarına köç edir, mal-davarlarını Azərbaycandan çıxarıb Anadoluya sövq edirdilər. Çünkü İrəvan hakimi Məhəmməd Xan şayiə yaymışdı ki, ruslar qalib gələcək və sonra da onların mal davarlarını əllərindən alacaqdır. Məhəmməd Xanın bu şayiəsinin inandırıcı olması üçün Qars elbayı da ona yardımçı olmaqda idi. Çünkü o da bu var-dövlətin Anadoluya axışmasından yana idi.

Abbas Mirzə, Mehdiqulu Xan Dollunu Qars elbayı ilə müzakirə üçün görəvləndirdi. Mehdiqulu Xan Dolluya bu səfərdə 600 silahlı kişi eşlik edirdi. Mehdiqulu Xan Dollunun atlılarını görən Osmanlı ordusu həmən savaş durumuna gətirildi. Mehdiqulu Xanla Qars elbayı (valisi) olan Osmanlı paşası türk dilində danışıb, anlaşırdılar. Paşa “Hər iki tərəfdə müsəlman Türk deyilikmi” deyə sorur və davam edirdi ki, nədən buraxmırsınız buradan ta Ərzruma qədər uzanan otlaqlıqlardan köçərilər yararlansınlar? Ancaq Mehdiqulu Xanın “Bizim köçəriləri öz torpaqlarınıza çəkmə fəaliyyətinizdən vaz keçin!” uyarısı gəldikdən sonra Osmanlı paşası nəsihət vermə tutumunu dəyişdirmək zorunda qaldı. Osmanlı paşası bir Sünni fanatik olduğu üçün Şiələrə xoş görü ilə baxmırdı.

Mehdiqulu Xan bir çox köçəriləri Azərbaycana geri gətirtmək üçün Qars elbayı ilə anlaşdılar. Mehdiquluxan Dollunun bir çox köçərilərlə bərabər Azərbaycana döndüyü zaman Sisyanov öz güclü və ehtiyatlı ordusu ilə İrəvana doğru hərəkət etməyə başlamışdı. Sürüləri Azərbaycana gətirən Mehdiqulu Xan özünü sürətlə rus ordusu ilə isti savaşa başlamış olan Abbas Mirzəyə çatdırmağa çalışırdı.

Bu savaş çox amansız bir savaşa dönüşdü və yalnız hər iki tərəfin yorğun düşmələri ilə durduruldu. Sisyanov Üçkilsə[11]yə doğru geri çəkilmək zorunda qaldı. Ancaq Sisyanov ordusunu geri çəkərkən daima Abbas Mirzənin vur-qaççı savaş qrupları tərəfindən hücumlara məruz qaldı. Abbas Mirzə müntəzəm savaşçıların yanı sıra Qarabağ və Qafqaz meşələrində və dağlarında savaşmaq üçün partizan qrupları da təşkil etmişdi. Partizanların hücumlarının yanı sıra Şahzadə Abbas Mirzə öz ordusu ilə də Sisyanovu təqib etməyə başladı. Şahzadənin bu təqibdən hədəfi Sisyanovu toparlanmasına imkan verməmək idi. Bu şəkildə Şahzadə Təbrizdən gəlməkdə olan ordunun da ona qatılması ilə Sisyanova son zərbəni endirib, sonra da Gəncəni ruslardan geri almanı planlamışdı. Ancaq Abbas Mirzə İrəvan hakimi Məhəmməd Xanın xəyanətindən qorxduğu üçün ordunun bir

[11] Bu ad bütün Qacar qaynaqlarında Üçkilsə olaraq keçməkdədir.

bölümünə ona nəzarət etmək üçün İrəvanda qalmasına əmr verdi. Bu üzdən də yaşlı Mirzə Şəfi və bəylərbəyi Əhməd Müqəddəmənin İrəvanda qalmalarını istədi.

Üçkilsənin önündə qızğın savaş başladı. Sisyanov topxanasına atəş əmri verdi. Ancaq Abbas Mirzənin cəbhənin ön sıralarında savaşması Azərbaycan ordusuna böyük ruh yüksəkliyi vermişdi. Baş komutanın bu şəkildə savaşması Azərbaycan ordusunda ölümdən qorxma hissini yox etmişdi. Şahsevən və Xocavənd süvarilər bu savaşda elə bir cəsarət göstərdilər ki, bütün ölkədə dildən-dilə düşdü. Abbas Mirzə ordusunun ölümdən qorxmamasını görən rus ordusu qorxmağa başlamış, ruh düşkünlüyünə uğramışdı. Sisyanov ordusunu üç qismə ayırmışdı. Şahsevənlər üçüncü gün rus ordusunun topxanasını susdurmağı bacardı. Üçüncü gün üç qismə ayrılmış rus ordusunun bir-biri ilə olan irtibatları kəsildi. Yalnız süvarilərin hücumu hesabına rus topları atəşinin susdurulduğu nəzərə alındığında Abbas Mirzənin nə qədər doğru taktika izlədiyi bəlli olur. Bu qələbə Azərbaycanda o qədər heysiyyət yaratdı ki, hətta İrəvan hakimi Məhəmməd Xanı belə ümüdsüzlüyə mübtəla etdi. İrəvan hakimi bu dəfə haqqında yaranmış şübhələri ortadan qaldırmağa çalışdı. Bu zəfər münasibəti ilə Abbas Mirzəyə çatması üçün Mirzə Şəfiyə hədiyyələr gətirdi. Rus ordusu ilə irtibatı kəsilməyə başlayan Məhəmməd Xan bu dəfə Abbas Mirzəyə yaxınlaşmağa başlamışdı. Abbas Mirzə isə onu cəzalandırmaq fikrində deyildi. Çünkü belə bir işə girişsə idi, bölgədə iç savaş çıxardı, Sisyanov isə bundan yararlana bilərdi. Ancaq İrəvan hakiminin bu tərz davranışından istifadə edən Abbas Mirzə ordunu İrəvanın yaxınlığındakı Qarabulağa yerləşdirməyə başladı. İrəvan hakimi Abbas Mirzənin bu hərəkətindən narahat olsa da, ancaq edə biləcəyi bir iş yox idi. İrəvan tam Abbas Mirzənin ordusunun mühasirəsinə keçdi. Bu sırada partizan savaşları hər iki tərəfdə davam edirdi. Bu əməliyyat sırasında gürcü şahzadələr Aleksandr və Təhmurəs Abbas Mirzəyə yardım etdilər.

Bu savaş zamanı Abbas Mirzə acı bir gerçəyi dərk etməyə başlamışdı. Abbas Mirzə hiss edirdi ki, artıq bu biçim savaşların zamanı keçmiş və onun ordusunda böyük texnoloji əksikliklər var. Abbas Mirzə texnoloji savaş haqqında öz bilgisizliyini də hiss edərək çox narahat olmağa başlamışdı. Sonrakı savaşlarda rahatca qələbə əldə edə bilməyəcəyi haqda əndişələnirdi. Abbas Mirzənin ordusu modern hərbi imkanlardan məhrum idi, bu da Abbas Mirzənin dərin rahatsızlığına səbəb olurdu. Bu qüsuru Abbas Mirzə necə ortadan qaldıra bilərdi? Qərblə münasibətə girməkdən başqa ikinci alternativ varmı? deyə düşünürdü. İlk dəfə rastlandığı və qalib olduğu savaş Abbas Mirzənin bütün düşüncəsini dəyişdirmişdi. O öz ordusunu yeni silahlarla təchiz etməyi düşünürdü. Artıq klassik türdə hərb zamanının bitdiyini bu savaşda anladı. Sisyanovun savaş taktikasını bəyənir, onun silah baxımından üstün olduğunu görürdü. Abbas Mirzə hiss edirdi ki, yeni savaş texnikası və taktikası haqqında heç bir bilgiyə sahib deyil.

1804-cü ilin yayında Fətəli Şah, Sultaniyyə ovalığında oturaq salmışdı. Bu ovalıq çox görünüşlü və sevimli bir məkan idi. Təbrizlə Tehranı bir-birinə

bağlayan yolun üstündə yerləşir. Sonralar ordu saxlusuna və barınağına çevrilən bu ovalıq öncələr Şahın dincəldiyi və əyləndiyi məkan kimi istifadə edilmişdir. Bəzi Qacar üzrə uzman olanlar da belə düşünürdülər ki, get-gedə Azərbaycanda ünlüləşən, sayqı qazanan Abbas Mirzə yavaş-yavaş Fətəli Şahın qayğılanmasına səbəb olduğu üçün Azərbaycana daha yaxın bir məkanda yerləşmək istəyirdi ki, Abbas Mirzənin reformlarından və etdikləri işlərindən dərhal xəbərdar olsun. Sultaniyyə ovalığı moğullar zamanında böyük ticarət mərkəzi olan bir şəhər olmuş. Fətəli Şah yenə də bu əski böyük ticarət mərkəzi olan Sultaniyyəni öz keçmişinə qovuşdurmaq istəyirdi, lakin olayların axışı buna imkan verməmişdir. Bu illər ərzində Sultaniyyə başkənd kimi olmuşdu. Bir çox yabançı elçilər və digər müsafirlər burada ağırlanırdılar.

Fətəli Şah, Qafqaz uğrunda savaşların çox zor olduğu haqda Abbas Mirzədən gələn bilgiləri dəyərləndirməkdən sonra Xorasanda İsmayıl Xan Damğaninin komandanlığında olan süvari ordunun Azərbaycana gəlməsi, Abbas Mirzəyə qatılmasını istədi. Özü də saray adamları, əyanları və dövlət ərkanı ilə bərabər Qarabağa yola düşdü.

Savaşlardan yorğun düşmüş Abbas Mirzənin ordusu, yardımçı güc onlara ulaşdıqdan və Şahın gəlişini duyduqdan sonra hərəkətləndi, həyəcana gəldi. Padşah Qarabağa varmadan öncə Abbas Mirzə İrəvanın ətrafında bulunan rus birliklərinə hücum edib, onları tamami ilə bölgədən uzaqlaşdırdı. Şahın çadırı İrəvan və Üçkilsə arasında uyğun və güvənli bir yerdə quruldu. Padşahın bölgəyə gəlişi durumu dəyişdirmişdi. Bölgə xanları öz hədiyyələri ilə Şahın qəbuluna girmək və hörmətlərini bildirmək üçün ad yazdırır, görüş üçün zaman alırdılar. Şahın görüşünə gələn önəmli adamlardan biri də Üçkilsədə məşhur erməni din adamı kimi tanınan Beterk Daod idi. Beterk Daod bütün ermənilərin üzərində mənəvi otoritəyə sahib idi. Beterk, çevrəsini bürüyən cahil insanlara rəğmən oxumuş və bilgili bir insan idi. Bir çox səfərlərdə bulunmuş, Avropada olmuş və tarix konusunda bilgili sayılan birisi idi. Beterk yanındakı keşişlər heyəti ilə Fətəli Şahla görüşdü. Şah, Beterkdən Avropa ölkələri haqqında bilgilər alır, sorular sorurdu və bu da Peterkin çox xoşuna gəlirdi. Çünkü Şah onun hüzuruna gələn kimsə ilə bu qədər danışmamış, kimsəni bu qədər dəyərləndirməmişdi. Fətəli Şah, özəlliklə Fransa və Napoleon Bonopart haqqında daha çox sorular sorurdu. Çünkü Con Malkolm fransızları yırtıcı və vəfasız insanlar olaraq padşaha tanıtmışdı. Ancaq Napoleon Misiri fəth edə bilməsə belə, yenə də onun Avropadakı qələbələri və ünü Fətəli Şahı çox ilgiləndirirdi. Digər tərəfdən də ruslara qarşı bir Avropa ölkəsi ilə ittifaqa girməkdən yana idi. Beterkin fransızlar və gənc Napoleon haqqında

anlatdıqları ilə uyğun gəlmirdi. Şah Fransa haqqında fərqli və olumlu bilgilər əldə edirdi[12].

Abbas Mirzə də çox diqqətlə Peterkin anlatdıqlarına qulaq asırdı. Fətəli Şahın diqqət etmədiyi və ya önəmsəmədiyi bir şey də Şahzadənin diqqətindən yayınmırdı. O da reform məsələsi idi. Gənc Şahzadə Avropadakı reformların mahiyyəti ilə ilgilənirdi. Şahzadə, Fransa haqqında daha ayrıntılı bilgilər əldə etmək üçün sonradan Peterki qəbuluna çağırmışdı. Çünkü Hindistan əmirləri haqqında eşitdikləri xəbərlər də onun üçün maraqlı idi. Abbas Mirzə eşitmişdi ki, Hindistan əmirləri ordularını modernizə etmək üçün fransız albaylarını ölkələrinə dəvət etmişlər. Abbas Mirzənin oğlu Cahangir Mirzə öz xatirələrində atasının ermənilərlə çox xoşgörülü davrandığını, onların inanclarına hörmət etdiyini yazır[13].

1804-cü ilin yayı çox böyük hadisələr baş vermədən sona çatdı. Şahın Qarabağda bulunduğu müddətcə baxmayaraq ki, Abbas Mirzə komandan idi, ancaq atasının güvənliyinin tam sağlanması üçün bir əsgər kimi gecələr postlara baş çəkirdi. Qarabağın sərin və sehirli gecələrində bəzən də atası ilə həmsöhbət olmaq üçün fürsət arayır və ağlındakı gerçəkləşdirmək istədiyi reformlarla bağlı atasının nəbzini yoxlamağı başarırdı. Çünkü Tehranda şahın ətrafını sarmış din adamları Abbas Mirzənin Batı yönümlü tutum və davranışını eleştirməyə başlamış və kafirlər kimi davranması konusunda xoşa gəlməyən sözlər söylədilər. Hər tür yeniliyə və dəyişimə qapalı olan Şah isə bu söyləntiləri dinləmiş, ancaq münasibət bildirməmişdi. Din xadimləri və Abbas Mirzənin rəqibi olan qardaşları onun yenilik çağırışından hər tür davranışı və Batı yönümlü tutumu ilə bağlı xoşa gəlməyən mizahlar düzəldib, toplumun içində yayırdılar. Onlar Azərbaycandan başlayaraq bütün ölkəni öz otoritəsi və təsiri altına alan Abbas Mirzənin şəxsiyyətini aşağılamağa çalışırdılar. Şah ölkədə mənəvi otoritə sahibi olan din adamları ilə hesablaşırdı. Ancaq Şah, övladlarının içində ən çox Abbas Mirzəyə güvənirdi. Abbas Mirzə ağlındakı planlar barədə dərin bilgi vermədən atasının ölkədəki yeniləşmə məsələsinə necə baxdığını öyrənmək istəyirdi.

Abbas Mirzə bəzən də bu qaranlıq və səssiz gecələrdə uzaqlardan, Qarabağın kəndlərindən, örüşlərindən gələn sehrli səslərə uzun-uzun qulaq asırdı. Hansısa bir çobanın söylədiyi nəğmə və ya bir kənd evindən, bir tarladan gələn şərqilərə xüsusi bir zövqlə qulaq asırdı. Hətta gözətçilərinə əmr etmişdi ki, bir Qarabağlı çocuq uzaqlarda şərqi söylərkən yuxuda olsa belə onu oyatsınlar. Abbas Mirzə ətrafındakıları uzaqlaşdıraraq bir qayaya söykənib bu sehrli səslərə qulaq asırdı. Şahzadə bu səslərdən etkilənərək çevrəsindəkilərə bir arzusunu söyləmişdi. O, yardımçılarına "Şuşanı ələ keçirib orada istiqrar sağladıqdan sonra bir musiqi

[12] Kont Alfere De Gardan atası General Gardanın məmuriyyəti ilə ilgili yazdığı xatirələrində deyir: "1804-cü ildə Peterk Şahla görüşdü. Bu adam General Bonapart haqqında Fətəli Şahda fərqli təsəvvür yaratdı. Bu üzdən də Şah Peterkdən çox təsirləndi.".
[13] Yeni tarix, Şahzadə Cahangir Mirzənin xatirələri.

ocağı qurmaq istəyirəm”,[14] demişdi. Şahzadələrin ruh hallarına təsir edən bu səslər onda sənət haqqında fikir sahibi olma imkanı da yaradacaqdı.

Baharda Qarabağa gələn Şah, yayı burada keçirib, payızda Abbas Mirzə ilə bərabər başkəndə döndü. Bu səfərdə ən böyük qələbə İrəvan məsələsinin həlli olmuşdur. Rus ordusu İrəvanın çevrəsindən uzaqlaşdırılmış, İrəvan hakimi də Padşaha öz vəfadarlığını bildirmişdi. Fətəli Şah başqa xanların ələşdirilmələrinə səbəb olmasın deyə, İrəvan hakimini görəvindən almağı və İrəvana yeni hakim təyinetmə işini ertələmişdi. Şah bu səfərdə Abbas Mirzənin verdiyi bilgilər işığında anladı ki, Rusiya ilə savaşmaq rahat deyil. Bu şəkildə gedərsə, Gürcüstanı və o bölgələri saxlaya bilməyəcəklər. Bu üzdən də Abbas Mirzənin “Batıdan bir müttəfiq bulalım və bunun üçün ən uyğun olanı Fransadır, çünkü Fransa Rusiya ilə savaşa başlamış” görüşünə olumlu baxırdı. Bu üzdən də Şah məktub yazaraq bir erməni vasitəsi ilə Fransanın İstanbulda yerləşən baş konsulluğuna göndərdi. Şahın Bonaparta yaxınlaşma düşüncəsi ilə eş zamanda Bonopart da Hindistana girmək üçün bu coğrafiyada bir müttəfiq aramaqda idi.

Abbas Mirzə öz reformlarını Azərbaycanda gerçəkləşdirmək üçün Azərbaycan ordusu komutanlığı ilə yetinməkdə idi. O, həm də bütün Azərbaycanın hakimi olma statusunu da atasından almaq istəyirdi. Bu statusu aldıqdan sonra ilk arzusu Təbrizi onarmaq idi. Şah oğlunun bu arzusundan xəbərdar idi. Abbas Mirzə İrəvanda olduğu qədər Şahla irtibat qura bilmirdi. Bu dönəmdə 20 yaşında olan Abbas Mirzə artıq yetişkin sərkərdə, diplomat kimi bir xarakterə sahib idi. Saraydakı onunla bağlı dedi-qoduları yaxından duyan Abbas Mirzə atasının onun bu istəyi ilə razılaşmayacağı qənaətinə varmışdı. Sarayda hər kəsin özünə məxsus bilgi əldə etmə qaynağı var idi. Abbas Mirzə içini qorxu ilə dolduran bir məlumat əldə etdi. Abbas Mirzəyə xəbər gəldi ki, Şah İrəvana yollanmaqda olan ordunun komandanlığını özü üstələnmək niyyətindədir və Abbas Mirzəni də vəzirlərlə bərabər Tehranda ölkənin yönətiminə buraxmaq istəyir. Abbas Mirzə anladı ki, belə getsə o, Azərbaycandan həmişəlik ayrıla bilər. Azərbaycanla bağlı bütün arzu və istəkləri bərbad olar. Abbas Mirzə ömrü boyunca atasının iradəsinə qarşı çıxmadı. Ancaq anlayanda ki, atası onun üçün Loristanda bir ovçuluq əyləncəsi düzənləmiş içini iztirab sarmağa başladı. Abbas Mirzə din adamlarının və rəqiblərinin atasını etkilədiklərini anlamışdı. Din xadimləri və rəqiblər anlamışdılar ki, Abbas Mirzə məsələsini həll etmək üçün yalnız bircə yol var. O da Abbas Mirzənin bir şəkildə Azərbaycandan ayrılmasıdır. Çünkü Azərbaycandan ayrılan Abbas Mirzənin bütün reform manevrləri də öz-özünə ləğv ediləcəkdir. Abbas Mirzə üçün Azərbaycandan ayrılış ölüm kimi bir şey idi. Çünkü onu bu səviyyələrə gətirən Azərbaycan xalqı olmuş və o da Azərbaycana könüldən bağlanmışdı. Azərbaycansız bir əyləncə Abbas Mirzə üçün anlamsız idi. Şahın Abbas Mirzəyə

[14] Şahzadə Cahangir Mirzə, “Yeni tarix”.

olan məhəbbətində və sevgisində bir dəyişiklik olmamışdı, lakin şah sarayda da nifaq və qarşıdurma istəmirdi.

Qacar sarayının özəl bir süfrə mədəniyyəti var idi. Gözəl qadınlar Padşahın yemək işləri ilə məşğul olurdular. Bu qadınlar böyük yemək sarayının özəl xidmətçiləri idilər. Burada Padşah, şahzadələr, digər şah ailəsinə mənsub insanlar və bəzi məhrəm adamlar yemək yeyirdilər. Şahdan bir istəyi olan şahzadələr daima bu anı bəklərdilər ki, arzularını atalarına bildirsinlər[15].

Bu şam yeməyinin birində Şah, Abbas Mirzənin çox dalğın və ruhən düşgün göründüyünü hiss etdi. 1805-ci ilin sevimli bahar günlərində Abbas Mirzənin ruhunu saran və onu yorğun göstərən bir şey var idi. Bu durumu həftələr öncə sezmiş olan Şah, sanki bunun səbəbini bilirmiş kimi Abbas Mirzənin dalğınlığı haqda heç nə sormurdu. Lakin o gecə ən çox sevdiyi oğlunun bu qədər dalğınlığı onu bir ata olaraq etkiləməyə başlamışdı və nədən bu qədər dalğın olduğunu sordu. Abbas Mirzə sonsuz bir ədəb və ehtiramla atasının hüzurunda göz yaşları ilə bu sözləri söylədi: “Ata, məni Azərbaycandan ayırmayın lütfən. Məni Azərbaycandan ayıracaqsanızsa, o zaman fərman verin məni öldürsünlər. Çünkü mənim üçün Azərbaycanla ayrı qalmaqla ölümün heç bir fərqi yoxdur. Lütfən məni Azərbaycandan ayırmayın”[16].

Abbas Mirzənin bu sədaqəti atasını çox etkilədi. Atasının da gözləri dolmuşdu. Fətəli Şah; “Səni Azərbaycandan ayırmayacağam” dedi. İlk kəz olaraq bu anda Abbas Mirzə atasından bir istəkdə bulundu və “Ata, mənə Azərbaycanın hakimliyini də verin lütfən” - dedi. Şah bütün saray dedi-qodularına rəğmən Abbas Mirzənin sədaqəti qarşısında yenik düşdü və onun bu istəyi ilə də razılaşdı. Beləliklə, Abbas Mirzə həm də Azərbaycanın elbayı oldu.

Bu dönəmdən etibarən Abbas Mirzənin əsl həyatı başladı. Azərbaycan onun evinə dönüşdü. Azərbaycanın onun düşüncələrini, istəklərini uyqulamaq (tətbiq etmək) istədiyi mərkəzə dönüşmüşdü. Ömrünün sonlarında tale onu başqa yerə, Xorasana apardığında qürbət hissi canını sıxmağa başlayacaqdı. Abbas Mirzə Azərbaycanda ilk öncə hərbi islahatlara başladı.

Şah, baharın sonlarında təkrar Sultaniyyəyə, Abbas Mirzə isə yeni görəvləri ilə Qarabağa gəldi. Bu dəfəki səfərində Azərbaycanın digər yerlərini də görsün deyə yolunu Qarabağdan saldı. Xudafərin körpüsündən keçərək Qarabağa vardı. Abbas Mirzə hər şeydən öncə əski İrəvan xanı kimi onu rahatsız edən bir xanla hesablaşmaq fikrində idi. Ruslarla iş birliyi içində olan İbrahim Xəlil Cavanşirin rəftarı onu rahatsız etməkdi idi. İbrahim Xan Qarabağda əsgəri birlik toplayaraq kiçik bir ordu düzəltmiş və ruslardan da yardım istəmişdi. Amma ruslar ona tam dəstək verməmiş, sadəcə, neçə yüz eyitilmiş, ancaq qazaq olmayan süvarilərlə onun istəyinə cavab vermişdi. Rusların eyitilmiş əsgəri birliklərinə qazaq

[15] Tariz-e Əzodi.
[16] Eyni qaynaq.

deyirdilər. Ancaq rusların qazaqlardan başqa qazaqlar qədər tam eyitilməmiş birlikləri də var idi. İbrahim Xəlil Xan Cavanşirin oğlu bu birliklərin başını çəkirdi. O, Abbas Mirzənin yolunu Xudafərindən keçərkən kəsib və onunla savaşmaq istəyirdi. Abbas Mirzə Xudafərin körpüsündən keçər-keçməz savaş başladı. Ancaq Abbas Mirzə bu zəif ordunu həmən məğlub edib dağıtdı. Bu zəif birlik dağıldıqdan sonra Abbas Mirzə öz ordusunu iki sütun şəklində Şuşaya doğru yönləndirdi. Bu on il sürən savaş sürəsincə və sonralar da bütün savaş yolları Şuşadan keçir və bəzən də Gəncəyə yönəlirdi. Bu savaş da bir irəliləyiş olmadan davam edirdi. Yəni ormanlığın içində pusuya durub və uyğun zamanlarda qarşı tərəfə zərbə endirilirdi.

Gəncliyinin ilk çağlarında hər kəsə rahatca və çox tez inanan Şahzadə yavaş-yavaş etimadsızlıq dərsi öyrənmiş və siyasiləşmişdi. Dərbənd, Quba və Lənkəran xanlıqları vəfadarlıq peymanlarını yeniləyirdilər. Lakin nə zamana qədər? Mustafa Xan Şirvani yenidən ruslara üz tutmuşdu. Baqratiyon şahzadələrinin vəfadarlıqlarına rəğmən Gürcüstanda Rusiya yanlıları güclənməyə başlamışdı. İrəvanın hakimi Məhəmməd Xan təkrar düşmənlə gizlin irtibata girmişdi. Açıqcasına rusların müttəfiqi olan Cəfər Xan Dənbəli vasitəçilik rolunu oynayırdı.

Gəncədə bulunan işğalçı rus ordusunun komandanı Kutlerovski rus ordusunun məğlubiyyətini eşitdikdən və Abbas Mirzənin Qarabağın kilid nöqtəsi olan Şuşanı mühasirəyə etməyə hazırlaşdığını bildikdən sonra Qarabağdakı rus ordusunun və müttəfiqlərinin yardımına gəldi. Altı gün şiddətlə davam edən bir savaş başladı. Ruslar bir qəbiristanlıqda səngər tutmuşdular. Bu savaşda Abbas Mirzənin önəmli komutanlarından biri olan Sadiq Xan Qacar ağır yaralandı. Bir çox Azərbaycan ordusuna mənsub insanlar öldülər, ya da yaralandılar. Hər iki tərəf yorulmuş və savaş yavaşımışdı. Bu fürsətdən istifadə edən Kutlerovski ordusunu Tərtərə tərəf çəkməyə başladı. Bu an Gəncəni geri almaq üçün önəmli bir fürsət yaranmışdı. İki il öncə Gəncəni işğal edən ruslar bölgəni yağmalamış və insanları bezdirmişdilər. Bu arada Abbas Mirzənin şöhrəti bütün Azərbaycana yayılmışdı. Gəncəlilər də onun gəlişini bəkləyir, Abbas Mirzəyə yardımçı olmaq üçün hazır idilər. Abbas Mirzəyə bütün Azərbaycan məzlumlarının hamisi və işğalçılardan intiqam alan bir şəxsiyyət kimi baxılırdı. O, bu fürsəti dəyərləndirmək amacı ilə Şuşanın mühasirəsini yarımçıq buraxıb Gəncəni ələ keçirmək üçün bu şəhərə tərəf hərəkət etdi. Gəncəyə yaxınlaşdıqca minlərcə rus zülmündən bezmiş kəndlilər Abbas Mirzənin ordusuna qatılmaq üçün can atır, başvuruda bulunurdular. Ancaq Fətəli şah Şuşanın alınmasında israrlı idi. Şahzadə və Şah arasındakı bilgi alış-verişi zamanın itirilməsinə səbəb oldu. Bu fürsətdən yararlanan Kutlerovski yardımçı güc gətirib və güclü topxana oluşdurmağa nail oldu. Fürsət qaçırılmışdı. Abbas Mirzə anladı ki, geri çəkilməkdən başqa çarə yoxdur. Çünkü hərbi sursat olaraq özündən daha güclü olan bir ordu ilə savaşa girmək məğlubiyyətindən başqa bir nəticə verməzdi. Bu da xalqın Abbas Mirzəyə olan güvənini zədələdi. Baxmayaraq ki, Abbas Mirzə ordunun səssizcə geri çəkilməsini əmr etmişdi, ancaq

ordunun geri çəkilməsi duyulduqdan sonra dəstə-dəstə insanlar nalə və fəryad edərək Azərbaycan ordusuna tərəf hərəkət etdilər. Abbas Mirzəyə yalvarırdılar ki, onları da özü ilə aparsın və rus ordusunun istilasına buraxmasın. Amma düşmən çox güclü idi və ağır silahlarla donatılmışdı. Abbas Mirzə bilirdi ki, bu insanların istəklərinə dalıb, qalıb savaşacaq olursa, bütün ordunu qırğına verə bilər. Bu üzdən də geri çəkilməkdən başqa bir çarə yox idi. Abbas Mirzə bu geri çəkilmə məsələsində başqa bir önəmli hadisəyə də tanıq oldu. Bir neçə gün öncə qələbə uğrunda ölümə hazır olan ordusu, geriçəkilmə əmri gəldikdən sonra xəyal qırıqlığına uğramış və ordudan qaçmağa başlamışdılar. Bəzi bölgə xanları da bu geriçəkilmədən istifadə edərək ruslarla açıq şəkildə iş birliyinə girmişdilər. Hətta ordunun içində xəyanət edənlər ortaya çıxmağa başlamışdı. İsti temmuz günləri idi. Abbas Mirzə yorğun ordusu ilə bərabər açıq və heç bir ağaclığı olmayan bir yerdə oturaq saldı. İçməsi üçün yeni içəcək gətirmişdilər ki, qəfildən açılan bir güllə Abbas Mirzənin ayağına isabət etdi. Abbas Mirzənin ayağını sıyırıb keçən güllə orduda daha da ruh düşkünlüyü yaratdı. Abbas Mirzə təmkinlə ayağını sarıtdıraraq ata minib və ordunun geri çəkilməyə davam etməsini istədi. İrəvandan sonra yolda təhdid ünsürü olaraq bir hadisənin olacağı bəklənməməkdə idi. Şahzadə, qaçqınları Arazın o tərəfinə keçirməklə Pirqulu Xan Qacarı görəvləndirdi. Karvan Gəncənin ətrafını tərk etdikdən üç həftə sonra Xudafərin körpüsünə çatdı. Abbas Mirzə müdafiə sistemini gücləndirmək amacı ilə bir neçə gün İrəvanda qaldı. Sonra da ordusunun Əhərdə oturaq salmasını istədi. Abbas Mirzə geri çəkilərkən İsmayıl Damğanini ordunun önəmli bir bölümü ilə Sisyanovla savaşmağa göndərmişdi. İsmayıl Damğani ani hücumu ilə Sisyanovu Tərtərə tərəf geri püskürtdü. Beləliklə, Şuşa və rus ordusundan oluşan hərbi saxlusu (ordunun barındığı geniş yer) çevrədən qopuq şəkildə təcrid durumuna düşdü. Ancaq Kür çayının iki ağaclığında Abbas Mirzəyə vəfadarlığı ilə bilinən Pirqulu Xan az qala Mustafa Xan Şirvaninin tələsinə düşmüşdü. Mustafa Xan Şirvani, Abbas Mirzə geriçəkilmə qərarı aldıqdan sonra açıq şəkildə rusların tərəfinə keçmişdi.

Bu olaylarda eyni zamanda rus hərbi gəmiləri Ənzəlini ələ keçirərək şəhərin sahilində ləngər atırdı. Yalnız bütün Gilan əhalisi silaha sarılaraq ruslarla savaşa başladı. Ruslar burada qalmanın böyük bədəli ola bilər hesabını yapdıqları üçün gəmilərinin yönünü Bakıya tərəf çevirdilər. Abbas Mirzə Bakının düşmən tərəfindən mühasirəyə alındığı və şəhərin qəhrəmanca dirəndiyi xəbərini aldı. Amma bu həssas dönəmlərdə Abbas Mirzə öz islahatlarına başlamışdı. Azərbaycanda tarımın gəlişməsi, şəhərlərin vəziyyətinin düzəlməsi heç bir fürsəti nə olursa olsun qaçırmamağa çalışırdı.

Abbas Mirzə rus əsirləri ilə də insan kimi davranılması yönündə əmr verdi. Kəsik rus başı gətirib ödül alma gələnəyini yasaqladı. Bu da belə davranışlara alışmamış bəzi çevrələri şaşırırdı. Abbas Mirzənin bu tür davranışı əsirlərdə ona qarşı sempati oyadırdı. Əsirlər bir diləkçə yazaraq Abbas Mirzənin onların nümayəndələrini qəbul etməsini istədilər. Abbas Mirzə əsirləri təmsil edən heyəti

qəbul etdi. Onlar bu görüşdə Abbas Mirzənin yanında yer alıb, təcrübələrini Azərbaycan ordusuna öyrətmək və ruslara qarşı savaşmaq istəyirdilər. Əslində bu əsirlərin çoxu soy olaraq rus olmayan, ancaq Rusiya istilasında bulunan millətlərə mənsub idilər. Abbas Mirzə onların bu istəklərini qəbul etdi. Beləliklə rus ordusunda təlim almış əsirlərdən bir alay oluşdu. Əsirlərdən oluşan bu alay Abbas Mirzəyə reformlarını ilkin olaraq orduda gerçəkləşdirmək üçün böyük yardımda bulundular. Bu əsirlərin içində Polonyalı, Tatar, gürcü və digər xalqların nümayəndələri də var idi. Bunların çoxu böyük bir vəfadarlıq hissi ilə Abbas Mirzəyə sadiq qaldılar. Hətta onlardan bəziləri ömürlərinin sonuna qədər Abbas Mirzədən ayrılmadılar.

## SİSYANOVUN ÖLDÜRÜLMƏSİ

Bakının mühasirəsi uzun sürdü. Abbas Mirzə, Əhməd Xan Bəylərbəyi və sonradan İrəvanın müdafiəsinə göndərilən Hüseyn Xan Qacarı Abşeron tərəfindən Bakıya hücum etmələri üçün görəvləndirdi. Abşeron tərəfindən hücum Bakının fəthi üçün düşünülməmişdi, çünkü bu yolla Bakını fəth etmənin mümkün olmayacağını Abbas Mirzə bilirdi. Sadəcə, düşməni məşğul etmək, digər tərəfdən, özü Bakıya girmək istəyirdi. Bu amacla Əhərdən Ərdəbilə doğru hərəkətə başladı. Məqsədi General Sisyanova arxadan həmlə etmək idi. O il qış fəsli çox sərt keçirdi. Ancaq Abbas Mirzənin ordusundan kimsə fərar etmədi. Bunun ən önəmli səbəbi əsgərlərin Abbas Mirzəyə olan sevgiləri və hörmətləri idi. Ərdəbil əskilərdən Səfəvi soyunun qalxış və yüksəliş məkanı olduğu üçün özəl bir ünə sahib idi. Ancaq böyük yolların qovşağı olmasına baxmayaraq o zaman bir yoxsul kəndi anımsatmaqda idi. Sadəcə, Şeyx Səfi türbəsi ətrafında bir neçə kiçik dükanlar və evlər gözə çarpmaqda idi. Ərdəbildə Şahzadəni qəbul edəcək, ona uyğun heç bir evin olmadığı üçün Abbas Mirzəyə özəl bir çadır quruldu.

Bu arada Azərbaycan kəndlərini və şəhərlərini öz top atəşləri ilə məhv edib, Azərbaycanda ümüdsüzlük yaradan General Sisyanov ordusu ilə bir yerdə Bakıda alışılmamış bir qış soyuğu ilə qarşı-qarşıya idi. Bakı qalasının ətrafına yaxınlaşmışdı. Bakı, Xəzərin batısında Abşeron yarımadasında yerləşir. Xəzərin yamyaşıl Güney sahilləri ilə müqayisədə Abşeron yarımadası qupquru görünümü ilə səciyyələnir. Sanki torpağı içəridən somuran bir maddə buraların bu tür quruluğuna və quraqlığına səbəb olurdu. Neft, bölgədə bulunan atəşpərəstlərin atəşkədələrinin sönməməsi üçün yarar sağlayırdı. Bölgə insanları isə nefti sevmir və onun xoş olmayan qoxusundan bezmişdilər. Burada neftin qoxusundan sadəcə evlərdə bəzi həşəratın uzaqlaşması üçün istifadə edilirdi. Bakı, Sisyanovun ordusu tərəfindən hər yandan mühasirə altına alınmışdı.

Bütün Qafqaz xanları öz bağımsızlıqlarını sevirdilər. Fətəli Şahın onlara vergi dışında bağımsızlıqlarına xoş görü ilə baxması onların Qacar yanlılıqlarına səbəb olmuşdu. Rusiya xanlıqların bağımsızlığını tanımır və hər anlamda onların

mərkəzə tabe olmalarını istəyirdi. Bu səbəbdən Bakı xanı bu savaşda Azərbaycan Ordusunun yanında bulunur və Abbas Mirzə ilə iş birliyi içində idi. Bu maddi çıxarıların ötəsində ortaq tarixi xatirələr və dəyərlər bu xanları Rusiyadan daha çox Qacar dövlətinə yaxınlaşdırırdı.

Soyuq qış gecələrinin birində Bakı xanı Hüseynqulu Xanla Sisyanov arasında görüşün sağlanması üçün zaman bəlirlənmişdi. Xan və əmisi oğlu İbrahim Xan və bir də iki başqa əsilzadə bu görüşə çox hazırlıqlı gedirdilər. Qalanın dənizə sarı açılan darvazasına tərəf yola düşdülər. Görüş üçün nəzərdə tutulan yerdə General Sisyanov və üç zabit silahlı vəziyyətdə bəkləməkdəydilər. Mübahisələr başladı. Çox qısa zaman içində hər iki tərəf yüksək səslə danışmağa başladı. Bir neçə zəfərindən dolayı məmnun və məğrur olan Sisyanov onlardan qalanı təslim etmələrini istəyirdi. Başına çığırılmasına alışmamış Hüseynqulu Xan, əmisi oğlu İbrahim Xana öncədən aralarında anlaşdıqları işarə ilə atəş əmri verdi. Sisyanovun üç gürcü cangüdənləri güllələnib yerə sərələndilər. Sonra da Sisyanova atəş açıldı. Yaralı Sisyanovu qalanın içinə gətirib başını kəsdilər və zəfər ərməğanı kimi Abbas Mirzəyə göndərdilər ki, o da Fətəli Şaha göndərsin. Abbas Mirzə Sisyanovun başının bu şəkildə kəsilməsindən rahatsız olmuşdu. O, savaş kurallarının dəyişilməsindən yana idi. Azərbaycanda qorxu və fəlakət yaradan Sisyanovun öldürülməsi hər kəsi məmnun etmişdi.

## FRANSA - QACARİYYƏ MÜNASİBƏTLƏRİ

## GİRİŞ

Hindistana hücumun hazırlığı üçün bir çox məsuliyyəti üstlənən birinci Fransa konsulu dost və müttəfiq olan Qacar dövlətindən arxayın olmaq istəyirdi. Bu üzdən də Birinci Konsul ayrıntılı şəkildə bilgi əldə etmək istəyirdi. Bu dönəmdə Fransanın Qacariyyə ilə bağlı bilgiləri İstanbuldakı Fransanın Birinci Konsulluğu vasitəsi ilə sağlanırdı. Skalon adında bir fransız bəzirgan İstanbula varmadan bir neçə kərə Qacariyyəyə getmişdi. Fransanın İstanbuldakı səfiri Marşal Bron onun aracılığı ilə bu dövlət haqqında bilgi əldə edə bilmişdi. Eləcə də Fransanın Bağdaddakı əski konsulu Rosso dolayısıyla da bir çox bilgi sağlamışdı. 1805-ci ildə birinci Konsul Şahla görüşmək üçün iki nümayəndə göndərdi. Bu iki nümayəndənin Şahla görüşlərinin gizlin qalması konusunda anlaşma sağlanmışdı. Ona görə bu nümayəndələrə Rusiya və İngiltərə casusları törədilə biləcək hər tür təhlükənin önlənməsi üçün tədbirlər alınmışdı. Fransa elçilərindən biri General Rumio idi. O, Hələb-Bağdad yolu ilə Qacariyyəyə gəlməyi tərcih etdi. Bağdaddakı ingilis konsulluğu onun Qacariyyəyə gedişindən xəbər tutdu və onun ölkəyə girişini önləmək istədi. Ancaq Rumio bu əngəlləri aşaraq səfərinə davam etməyi başardı. 1805-ci ilin oktyabr ayında Tehrana çatdı. Rumionu Fətəli Şahın dərbarında çox hərarətlə qarşıladılar. Ancaq o dərbarda bir az ümüdsüzlük yaratdı.

Çünkü yetkisi çox sınırlı idi. General Rumio Tehrana gəldikdən bir neçə həftə sonra xəstələndi. Onun xəstəliyini müalicə edəcək təbib bulunmadığı üçün ordaca da öldü. General Rumionun özəl qələm müdiri (katibi) olan Udre onun bütün qeydlərini Fransaya aparmağı başardı. Rumionun notlarında Fransanın Qacariyyə yolu ilə Hindistana girmə planına işarələr edilmişdi.

Digər elçi isə ünlü şərqşünas Jauber idi. Jauber Misir savaşında Birinci Konsulun yanında bulunmuşdu. Bu elçi Azərbaycan yolu ilə getməyi tərcih etdi. Azərbaycanda ilk öncə Abbas Mirzə tərəfindən qəbul edildi. Bir neçə ay sonra Qacariyyə və Fransa arasında yapılan Finknaştayn anlaşmasının gerçəkləşməsində onun böyük təsiri oldu. Finknaştayn anlaşmasından sonra Napoleon Bonopart General Gardanın başçılıq etdiyi heyəti Fətəli Şahla görüşmək üçün Qacariyyəyə göndərdi. Bu ittifaq anlaşmasına görə Fransa özünü Rusiya qarşısında müdafıə etməsi üçün Qacar dövlətinə hərbi yardım etməli idi. Lakin Rusiya və Fransa arasında imzalanan Tilsit barış anlaşması nədəni ilə bu ittifaqda qeyd olunanlar həyata keçmədi.

Bu ortamda İngiltərə önəmsəmədiyi Qacar dövləti ilə yaxın münasibət qurmağı planlamağa başladı. Qacariyyə və Fransanı bir-birinə yaxınlaşdıran anlaşmaların imzalanması Londonda və Kəlkətədə rahatsızlıq yaratmağa başlamışdı. O zaman Hindistanın hakimi olan Lord Minto, Con Molkolmu görəvləndirib, Qacariyyəyə göndərdi. Ancaq Con Molkolm Buşəhrdən irəli gedə bilmədi. Çünkü o zaman Tehranda bulunan və Qacariyyədə böyük etkisi olan General Gardan, Fətəli Şahı Molkolmu qəbul etməməsi mövzusunda razı salmışdı. Bu uğursuz səfərindən əsəbiləşən Molkolm təhdidlər yağdıraraq Bəsrə körfəzi yolu ilə ölkəni tərk edib Kəlkətəyə getdi. Kəlkətədə Lord Montonu inandırmağa çalışdı ki, Bəsrə körfəzində bir neçə adanı işğal etməsək Qacariyyəyə yol tapa bilməyəcəyik. O, Fətəli Şahla görüşüb və anlaşma yapa bilmənin ancaq zor istifadə etmək yolu ilə mümkün olduğu qənaətində idi. Hindistan hakimi Molkolmun bu önərisinə müsbət yanaşırdı. Lakin London hərbi müdaxilədən yana deyildi. London Harfurd Conzlərigezi görüşmələr yapmaq üçün Tehrana göndərdi. Əgər Rusiya-Fransa arasında barış anlaşması imzalanmasa idi, bu elçinin durumu necə olardı əcəba? O da Molkolm kimimi qarşılanardı, yoxsa durum fərqlimi olardı?

## FRANSA - QACARİYYƏ MÜNASİBƏTLƏRİ

1806-cı il may ayının əvvəllərində Amedee Jauber (Amade Juber) İstanbuldan Tehrana doğru hərəkət etdi. Xoy ovalığından keçən Jauber insanların, xüsusən kəndlilərin çox mutlu və sevincli olduğunu görürdü. Çünkü Abbas Mirzə bölgəni kürd quldurlarının hücumundan qurtarmış və kəndlərdə tarımın gəlişməsi üçün bir çox reformlar gerçəkləşdirmişdi. Kəndlilərdə və əkinçilərdə çalışmağa, əməyə olan həvəs açıq şəkildə sezilməkdə idi. Abbas Mirzənin bölgədə yaratdığı güvən və istiqrar çalışmaq üçün imkan yaratmışdı. Osmanlının Qacariyyə ilə sınır

postunun komandanı Jauberin qorunması üçün kürd cangüdənlər görəvləndirmişdi. Bu da Xoyda rahatsızlıq yaratmağa başladı. Bu üzdən də Xoyun darvazaları Jauberi gətirən karvana qarşı qapandı. Ancaq müsafirin, bəklədikləri fransız olduğunu duyunca durum dəyişdi. Jauber, Bonopartın öz əli ilə Fətəli Şaha yazdığı məktubu Tehrana gətirməkdə idi. Jauber türkcənin Anadolu və Azərbaycan ağızları ilə rahat danışa bilirdi. Bu ləhcələrdən başqa fars dilində də çətinlik çəkmədən özünü ifadə edə bilirdi. Xoy hakimi Jauberin Abbas Mirzə ilə görüşməsini təklif etdi. Jauber də şöhrəti bütün Şərqi dolaşan bu şahzadə ilə həmən görüşmək istədiyini bildirdi. Jauber Abbas Mirzənin ruh halları və ordusunun durumu barədə mərkəzə bilgi verməklə mükəlləf idi. Onlar bərabərcə Mərəndə tərəf yola düşdülər.

Mərənddə dincəlmək üçün qısa sürə bulunan Jauber bu kiçik şəhərdə əcaib olaylarla rastlandı. Gənc adamlar əzbərdən şeir oxuyur və Batı haqqında Jauberden maraqlı sorular sorurdular. Jauber də onların bu davranışından xoşlanır və Mərənd hakimindən xahiş edirdi ki, insanların ona yaxınlaşmasını əngəlləməsin. Çünkü XIX əsrdə Jauber Qacariyyə coğrafiyasının insanlarını və sosial psikolojisini tanımaq üçün gələn ilk rəsmi dövlət adamı idi. Bu üzdən də toplumun bütün davranışlarını, məşğuliyyətlərini gözləmləyərək hərtərəfli bilgilərlə Fransaya dönmək istəyirdi.

Jauber bir neçə gündən sonra Mərənddən Təbrizə tərəf yola düşdü. Daha öncə Con Molkolmu müsafir edən Əhməd Xan Bəylərbəyi bu dəfə də çox böyük bir hörmətlə Jauberi qarşıladı. Jauber xatirələrində Təbrizin süfrə və yemək kültürü qarşısında heyrətləndiyini bir neçə dəfə israrla vurğulamaqdadır. Jauber xatirələrində Bəylərbəyinin yardımçısı Təbrizli Fətəli Xan barədə bu sözləri yazır: "Fətəli Xan o qədər açıqgörüşlü, geniş düşüncəli idi ki, onun Avropada təhsil aldığını sanmışdım." [17] Jauber Abbas Mirzə ilə görüşmədiyi ana qədər bütün bunların Abbas Mirzənin yaratdığı nisbətən demokratik ortamın məhsulu olduğunu anlaya bilmirdi. Təbrizdə bir neçə gün istirahət edən Jauber bu şəhərdən ona qatılan bələdçisi ilə Ərdəbilə tərəf yola düşdü. Jauber bütün yol boyunca mövcud olan sabitliyin və istiqrarın səbəbini bələdçidən sorurdu. Bələdçi isə əskidən bu istiqrarın olmadığını və bütün bunların hamısı Şahzadənin iqtidarı sayəsində sağlanmışdır deyə cavab verirdi. Jauber yol boyunca bəzən tarlada çalışan bir kəndli ilə danışır və ondan Abbas Mirzə haqqında sorular sorurdu. Cavablar isə bir-birinə bənzəyirdi: "Tanrı onun ömrünü uzun etsin, kölgəsini başımızın üstündən əskik eləməsin, o olmasaydı Azərbaycanda gördüyünüz bu arxayınlıq olmazdı".

Müsafir adam eyni zamanda Şahzadənin qardaşı Məhəmmədəli Mirzənin (Dövlətşahi) sərt şəkildə Abbas Mirzəni qısqanması haqda da bilgilər əldə edirdi.

***

[17] Amadee Jauber "Persiya səfəri".

Keçmişdə Abbas Mirzənin öyrətməni və indi isə vəziri olan Böyük Mirzə adı ilə bilinən İsa Fərahani Ərdəbildə özü üçün yaxşı bir iqamətgah təsis etmişdi. Jauber onun evində müsafır oldu və çox xoş qarşılandı. Bir gün keçdikdən sonra xəbər gəldi ki, Şahzadə Jauberi qəbul etmək üçün hazırdı.

O zaman 21 yaşında olan Abbas Mirzə yaraşıqlı paltar geyinməkdən zövq alırdı. Özəlliklə də yabançılarla görüşərkən ən sevdiyi paltarını geyinərdi. Jauber onu Xorasan xalısının üstündə oturmuş və əynində çox yaraşıqlı geyim varkən görmüş oldu. Qılıncının qınındakı zinətlər par-par parıldayırdı. Qonağı çox böyük hörmətlə qarşılayan Abbas Mirzə Jauberlə türk dilində danışmağa, tanışmağa başladı. Abbas Mirzə bütün Qacarlara xas olan bir məharətlə türk dilində fikirlərini daha rahat anlada bilirdi. Türk dilində gözəl bir səliqə ilə danışmaq bütün Qacarlara məxsus bir özəllik idi. Şərqlilərin məhrum olduğu dinləmə, qulaqasma qabiliyyətinin tərsinə olaraq Abbas Mirzədə çox böyük qulaqasma yetənəyi var idi. Avropa ilə ilgili sorduğu sorulara geniş cavablar istəyir və diqqətlə bu rəsmi müsafiri dinləyirdi. Danışma əsnasında Jauber, Abbas Mirzəni İrəvandakı qələbəsindən dolayı təbrik edərkən, Şahzadə sevinmək yerinə bir az kədərli göründü. Abbas Mirzə bu susqunluqdan və dalğınlıqdan sonra ürəyini bu yabancıya açmağa başladı ki, Azərbaycan ordusunu bütün fədakarlıqlarına rəğmən rusların texnoloji üstünlüyü amansızca mənim ordumu darmadağın edir. Bundan dolayı da qəlbini və ruhunu dərin bir kədərin sardığını etiraf etdi. Abbas Mirzə çox acı çəkərək bu sözləri söylədi: “Hansı şəhəri almışam? Utancımdan ordumun üzünə baxacaq halım yox. Hansı intiqamı almışam? Hələ rus ordusu Azərbaycanın bir çox bölgələrini əlində bulundurmaqdadır. Rus gəmiləri Xəzərdə sərbəstcə cövlan edir. Nədən biz texnoloji istehsal edə bilmirik, bunun səbəbi nədir, ey yabancı, danış. Niyə biz beləyik? Məgər günəş Doğudan doğub və öncə bizim başımızı isitmirmi? O zaman nədən bizim insanların başı çalışmır, nədən? Cavab ver, ey yabançı, bağrım çatlayır. Azərbaycanın bir bölümü və Xəzər dənizi işğal altındadır. Nə etməliyəm ki, biz də Sizin kimi imkanlardan bərxurdar olaq? Fransa ordusunun durumunu bildikdən sonra anladım ki, rus ordusu onun qarşısında acizdir. Ancaq mənim reformlarımı Tehranda əngəlləyirlər. Sizin üstünlüyünüzün və bizim zəifliyimizin səbəbi nədir? Nədən Siz hər an tərəqqi edir, biz isə cəhalət içində donub qalmışıq? Nədən Sizin gələcəklə bağlı planlarınız var, lakin biz isə gələcək haqqında heç düşünmürük? Məgər Tanrı bütün insanlara ağıl verməyibdir? Biz niyə ağlımızdan istifadə edə bilmir, ağlımızı özümüzlə bərabər məzara aparır, məzara gömürük. Danış, yabançı adam, danış. Söylə, mən necə Azərbaycanı bu cəhalət girdabından qurtara bilərəm?”[18]

Abbas Mirzənin bu gərgin söhbətini Jauber heyrətlə dinlədi və bu kükrəyən gənc adamın qarşısında, ancaq susub daha sonra danışmağı tərcih etdi.

---

[18] Jauber “Persiya səfəri”.

Sonrakı günlərdə Napoleonun elçisi Şahzadə ilə bir çox mövzular haqqında danışdı.

Abbas Mirzə bir çox ədəbi, tarixi, fiqhi kitablar oxumuşdu. Oxuduğu kitablar içində rusların qalxınmasını sağlayan Böyük Pyotrun həyatı onu çox maraqlandırırdı. Düşünürdü ki, məmləkətinin qalxınması üçün Böyük Pyotr kimi bütün keçmiş dəyərlərin, ənənələrin üstünə qələmini çəkmək lazımdır? Ölkənin gəlişməsini önləyən bu törələrini əcəba, deyə sorular sorur və cavab tapa bilmirdi. Başında dolaşan bu saysız soruların içindən gerçəkləşdirmək istədiyi islahatlar üçün uyğun yollar axtarırdı. Böyük Pyotrun özəlliklə "Saqqal devrimi"ni ilginc bulmaqda idi. Böyük Pyotrun Rusiyanın modernləşməsini sağlamaq üçün gerçəkləşdirdiyi devrimlərdən biri də saqqal devrimi idi. Böyük Pyotr fərman çıxardı ki, saqqalını qırxmayan hər kəsə şallaq vurulsun. Bitli-birəli saqqalların yerini təmiz surətlə almağa başladı. Abbas Mirzə bu davranışı sayqı ilə qarşılayırdı. Lakin onda saqqal inqilabı kimi bir olayı gerçəkləşdirmə gücü yox idi. Çünkü Böyük Pyotrun Rusiyasında Qacariyyədə olduğu kimi din xadimlərinin otoritəsi söz konusu deyildi. Qacariyyədə və İslam Dünyasında ilahiyyata xidmət etməyən elm məqbul sayılmır və küfr damğası alırdı. Abbas Mirzə bilirdi ki, saqqalla ilgili bircə söz danışsa din xadimləri tərəfindən həmən təkfir ediləcək, mürtəd olaraq duyurulacaqdı. Bu kimi devrimləri gerçəkləşdirmək üçün daha böyük yetkiyə, Böyük Pyotr qədər bir yetkiyə sahib olmaq lazım idi. Qacariyyədə bir nömrəli yetkili şəxs, şah olmaq lazım idi. Abbas Mirzə bu kimi təməl reformlarını unutmadan daha sonra gerçəkləşdirməyi planlamışdı. Şahzadə zahirlə batinin bir-biri ilə sıx əlaqədə olduğunu düşünürdü. Yəni saqqal məsələsi zahirən bəsit və zahiri bir məsələ idi, lakin bunun ardınca yeni düşüncələrin də ortaya çıxacağına əmin idi. Şahzadəyə görə Qacariyyədə yaygın olan bu zahir, çalışqan, yaratqan bir batinin daşıyıcısı və göstərgəsi olamazdı. Bu zahir tənbəlliyin, geriliyin, ətalətin göstərgəsi idi. Bu qiyafət dəyişilməyincə düşüncələrin də dəyişilməyəcəyinə inanırdı. Yeni və Batısayağı bir insan tipini oluşdurmaq istəyirdi. Görüşdüyü bütün Avropalı şəxslərin tər-təmiz surətləri, zahiri görünüşləri, səliqəli, yaraşıqlı və yığcam geyimləri Şahzadəni heyran qoyurdu. Nədən biz də bu şəkildə təmiz bir görünüşə sahib olmayalım deyə düşünürdü. Düşünürdü, ancaq din xadimlərinin və qeyri-insani törələrin hər tür düşüncəyə və təmizliyə qarşı olduğunu da bilirdi. Yalnız bu qiyafət devrimini yavaş-yavaş öncə orduda yaratmaq istəyir, sonra da zamanı gəldiyində bütün ölkəyə uyqulamaq niyyətində idi. Mövcud kültür və ortam düşüncə və fikir düşməni idi.

Jauber bu gənc Şahzadənin zəkası və istedadı qarşısında heyran qalmışdı. Özəlliklə Abbas Mirzə fransız yazar Fenlonun "Telemak" adında romanı haqda Jauberə soru sorduğunda o, heyrətdən şaşqınlığını gizlədə bilmirdi. Deməli ki, gənc Şahzadə Batı tipli reformu ölkəsində həyata keçirmək üçün Batını bütün ayrıntıları

ilə tanımağa özən göstərmişdir. Lakin kimsə onun bu romanı nə zaman və hansı dildə oxuduğu haqda bilgi sahibi deyildi[19].

Jauber başardığı qədər Şahzadənin bütün sorularına ayrıntılı şəkildə cavab verməyə çalışır və onun tarixi misyonunun çox önəmli olduğu haqda da təlqinlərdə bulunurdu. Çünkü Qacariyyə ilə geniş ittifaqa hazırlaşan Fransa, Abbas Mirzənin daha da güclü olmasından yana idi. Fransa Orta Doğuda, Qafqazlarda ruslara qarşı öz planlarını gerçəkləşdirməsi və Hindistanda öz amacına çata bilməsi üçün Abbas Mirzə kimi güclü bir xarakter axtarmaqda idi. İngiltərə və Rusiya ilə rəqib olan Fransa üçün Abbas Mirzənin geniş dünyagörüşlü şəxsiyyəti lazımlı idi. Abbas Mirzə Jauberin Misir savaşında olduğunu bildiyi üçün bu savaş haqqında geniş bilgi öyrənmək istəyirdi. Jauber bu arada Şahzadənin din konusundakı görüşündən də heyrətlənmişdi. Abbas Mirzə fanatik Doğu dincilərinin davranışlarına və xoşgörüsüzlüklərinə rəğmən xristianlığa da olumlu yanaşmaqda idi. Şahzadə cahilanə dini təəssübkeşlikdən uzaq idi.

Ərdəbil Şahzadənin orada bulunuşu səbəbilə yeni bir canlanmaya səhnə olmuşdu. Türk dilində rahatca danışa bilən Jauber insanlarla ilişki qurmaqda heç bir çətinliklə rastlanmırdı. Bu üzdən də Abbas Mirzədən başqa digər yetkili şəxsiyətlərlə də görüşürdü. Hətta Kəşmirdən və Lahurdan gələn dərvişlərlə də görüşürdü. Ərdəbildə bütün qapılar sərgərdan din adamları üçün açıq idi. Çünkü Ərdəbil əhalisində bu sərgərdan din adamları dərvişlərin, həyatın çətin çağlarında insanlara yardımçı ola biləcəklərinə inam var idi. Kimsə bu dərvişlərin cadu və sehr güclərinin şeytandan, yoxsa tanrıdan qaynaqlandığı konusunda soru sormazdı. Çünkü soru sormaq düşüncənin işidir, bu dərvişlər isə zatən düşüncəsizliyin ortaya çıxardığı tiplər idi. Abbas Mirzə, bu kimi bütün Səfəvi mirası olan cəhaləti ortadan qaldırmaq, özəlliklə otoritəsi altında olan Azərbaycandan dışlamaq istəyirdi. Lakin iki səbəb üzündən susmağı tərcih edirdi: 1. Tehranda din adamları Abbas Mirzənin kafir ölkələrə meyillənməsindən, avropalılar kimi davranmasından rahatsız idilər. Daima bu haqda Fətəli Şahı uyarırdılar. Ölkədə mənəvi otoritəni və fətva haqlarını əllərində bulunduran din adamları ilə Fətəli Şah hesablaşırdı. Abbas Mirzə düşünürdü ki, Azərbaycanda dini reformlara başlarsa mərkəzin etiraz səsi yüksələcək və rəqib qardaşları da bu fürsətdən yararlanıb onun yetkilərinin daralması üçün əllərindən gələni edəcəklər. Abbas Mirzə Tehran mollalarına qarşı öncə Azərbaycan mollalarını öz yanında bulundurub və onlardan yardım almaq istəyirdi. Ancaq bütün bunların hamısı dərin bir gizlilik içində edilməli idi, çünkü bu qədər ciddi bir iş ifşa olunsaydı, Şahın şübhələnməsinə səbəb ola bilərdi. 2. Bu cəhalət sadəcə, Azərbaycanla sınırlı deyil, Səfəvi imperatorluğunun hakim olduğu coğrafiyanın bir çox yerlərində yayğın idi. Bu üzdən də daha geniş bir yetki və

[19]Fenlon adında bir fransız yazarın yazdığı "Telemak" adlı roman eyitici macəralarla iç-içədir. Romanın qəhrəmanı Olis adında bir gəncdir. Olis ağıl tanriçasının yardımı və yönləndirməsi ilə atasını tapmaq üçün macəralı səfərə başlayır və maraqlı hadisələrlə qarşılaşır.

səlahiyyətlə bu xurafatla mübarizə aparmaq lazım idi. Bu qədər geniş miqyaslı reformlar üçün Şahzadə deyil, Şah olmaq gərəkirdi. Abbas Mirzə bu amac uğrunda Nadir Şahın yapdığı işləri və məzhəbi reformları haqda bilgi əldə etmişdi. Bu səbəbdən də bu sahədə görmək istədiklərini ağlında gizli saxlayaraq padşah olacağı zamana ertələdi.*

Jauber, Ərdəbili tərk edib Tehrana yola düşmədən öncə Abbas Mirzənin ordusunun paradını izlədi. Şahzadə çılğın bir atın üstündə məğrurca oturmuş və çox rahatca heyvanı kontrol edə bilirdi. Parad bitdikdən sonra Jauber Abbas Mirzənin çadırına çağırıldı. Abbas Mirzə öz ordusunun durumu haqda mütəxəssis bir yabançıdan gerçək bilgi öyrənmək istəyirdi. Jauber süvarilərin yaxşı hazırlandığı haqda fikirlərini söylədikdən sonra ordunun ümumi durumu haqqında da fikrini bildirərək bir intizamsızlığın var olduğunu qeyd etdi. Abbas Mirzə üçün Jauberin fikirləri çox önəmli idi, çünkü bu, sadəcə, bir parad nümayişindən ibarət deyildi. Abbas Mirzə savaşa hazırlaşırdı.

Jauber, Napoleonun mesajını Fətəli Şaha çatdırmaqla yükümlü idi. Bu üzdən də Şahzadədən ayrılıb və başkəndə yola düşmək zorunda idi. Abbas Mirzə özü qonağın yola salınma işlərinə nəzarət etdi. At üstündə oturan Abbas Mirzə Jauberi yola salıb və özü də savaşa getdi. Bu şahzadə ilə Jauberin ilk və son görüşü oldu. Ancaq aralarında yaranan dostluq əlaqələri hər iki şəxs arasında hörmətlə qorunub saxlanıldı.

Jauber, Xalxal yolu ilə Tehrana yola düşdü. Zəngana girərkən, bu şəhərin bazarı onun diqqətini cəlb etdi. Zənganın qapalı bazarına müştərilər sel kimi axın edirdi. Avşar ellərinin köçəriləri öz keçələrini, yunlarını satıb qumaş, silah alırdılar. Zəngandan keçdikdən sonra əski Sultaniyyə şəhərinin qalıqları ilə rastlandı. Bu əski şəhərin qalıqlarından birisi də Xudabəndəlunun məzarı idi. Fətəli Şah bu əski Moğul şəhərini yenidən onarıb, bərpa edəcəyindən danışırdı. Bu üzdən də əski divarların sökülməsini və orada dincəlməsi üçün təpələrin başında imarətlərin tikilməsini istəmişdi. Jauber Qəzvində Məhəmmədəli Mirzənin vəziri Baba Xanın

---

*Burada belə bir sual ortaya çıxır ki, Abbas Mirzə vaxtından əvvəl ölməsə idi, şah olsaydı tarixin istiqaməti dəyişə bilərdimi? Bütün Qacariyyənin adı “İran” deyil, Azərbaycan ola bilərdimi? Çünkü tarix daha çox böyük şəxsiyyətlərin iradəsinin nəticəsidir. Abbas Mirzə şah olsaydı, Azərbaycanda çox erkən bir zamanda sekular toplum və milli bir dövlət yarana bilərdimi? Abbas Mirzənin türk dilinə olan sayqısı bütün Qacar uzmanları batılı tarixçilər, səyyahlar tərəfindən etiraf edilməkdədir. Jauber də xatirələrində etiraf edir ki, Abbas Mirzə ən möhtərəm və mötəbər qonaqları ilə, özəlliklə də yabancılarla fars dilində deyil, türk dilində danışmağı tərcih edirdi. Türkcəyə olan bu qədər sempatisi nədəni ilə bu gün türk dili fars dilinin yerinə dövlət dili ola bilərdimi? Bütün Qacar dövləti Ağaməhəmməd Xanın iradəsinin məhsulu olduğu kimi Qacariyyənin varisi olacaq Azərbaycan da Abbas Mirzənin iradəsinin nəticəsi ola bilərdimi? Abbas Mirzənin xarakterini, dünyagörüşünü, Azərbaycan sevgisini, Azərbaycanda gerçəkləşdirdiyi reformları öyrəndikcə bu sorular istər-istəməz oxucunun ağlında canlanır. Əgər bu sualların cavabı müsbətdirsə o zaman bütün tarixi fürsətlərdə Azərbaycan şanssızlıqla, talesizliklə rastlanmışdır. (G.C.)

möhtəşəm sarayında bulunduğunu da yazmaqdadır. O zaman Şahzadə Dövlətşahi Kirmanşahda bulunmaqda idi. Haziran ayının əvvəllərində Jauber Tehrana vararkən, bu şəhər istidən sanki boğulmaqda idi. Başkəndin 3 ağaclığında yabançı qonaqların qarşılanması üçün özəl bir yer nəzərdə tutulmuşdu. Jauberi qarşılayan xanların və əyanlarm paltarlarındakı zinətlər günəşin şüaları altında par-par parıldayırdı. Bunlar Napoleonun özəl elçisini bu qədər sadə libas içində gördüklərində heyrət edirdilər. Onu bu şəkildə təcəssüm etməmişdilər. Tehranda Jauberi gözəl bir sarayda yerləşdirdilər.

Şahla görüş zamanı gəlmişdi. Fətəli Şah bir neçə pilləsi olan bir taxtda oturmuşdu. Jauberin Şahla məsafəsi çox olduğundan onun üzünü görə bilmirdi. Qəbul törəninin sədri ayaqqabısını çıxarıb başını əyərək Şahın hüzurunda dayanıb dedi: “Ey Şah humayun, ey yer üzünün ən böyük şahı, ey zillüllah (Tanrının kölgəsi), Fransanın elçisi, Fransa xalqının ərbabını təmsil edən şəxs Sizinlə görüşmək istəyir. O öz ərbabı tərəfindən Sizə bir məktub və hədiyyə olaraq da cavahirat gətirmişdir.”

Şah, “xoş gəlmişdir” dedi. Şahın bu ifadəsindən sonra vəzirlərdən biri Jauberə yaxınlaşdı. Ona pillələri göstərib və irəli doğru yavaş-yavaş yürüməsini istədi. Taxtın yanında Şahın üç gənc oğlu və bir neçə xidmətçi dayanmışdı. Jauber diz çöküb padşahı salamladı. Napoleonun məktubunu altunla toxunmuş çantasından çıxarıb, altun bir tabağın içinə qoyaraq Şaha sundu. Padşah Jauberin türkcə və farsca bilməsindən məmnun idi. Çünkü tərcüməçiyə ehtiyac olmadan danışa biləcəkdilər. Bu üzdən də rəsmi törənin sona ərməsindən sonra bağçada baş-başa bərabərcə gəzindilər. Lakin bütün bu hərarətli qarşılanmaya rəğmən Tehranın isti havası Jauberin zövqünə uyğun gəlmədi. Jauber çox ağır bir xəstəliyə və qızdırmaya yaxalandı. Şahın özəl həkimləri onun müalicəsinə çalışırdılar. Padşah Jauberi Tehrandan uzaqlaşdırıb və dincəlməsi, müalicə olması üçün Sultaniyyədəki sarayına göndərdi. Xəstəlik durumu nisbətən yaxşılaşan Jauber Sultaniyyədə Qacariyyə ilə Fransa arasındakı müttəfiqlik anlaşmasına imza atdı. Jauber üçün vida mərasimi düzənlənirkən Şahın özəl həkiminə onunla sınıra qədər getməsi əmr edildi. Jauber sınırı keçdikdən sonra Şahın özəl həkimi rahat nəfəs aldı. Çünkü Şah ona “Jauberin sağlığından sən sorumlusan, o öləcək olursa, sən də öləcəksən, bunu bilmiş ol. Bu üzdən də çox diqqətli ol, diqqətlə davran” demişdi.

Fətəli Şah sarayın önəmli adamlarından biri olan Mirzə Rzaquluxan adında bir şəxsi Qacar dövlətini təmsil edən diplomat kimi Fransa imperatoru ilə görüşmək üçün görəvləndirdi. Mirzə Rzaquluxan Qəzvində Məhəmmədəli Mirzənin vəzirliyini etmişdi. Bu elçi yola düşüb Jauberə çatdı. Jauberlə bərabər Napoleonun bulunduğu Finkinaştayna qədər getdilər. Mirzə Rzaquluxan Finkinaştaynda qaldı. Anlaşmanın ayrıntılı şəkildə hazırlanıb imzalanması üçün gözlədi. Bu anlaşmaya görə Fransa, Rusiyanın işğal etdiyi torpaqları, özəlliklə Gürcüstanı geri almaq üçün Qacariyyəyə yardım edəcəkdi. Bu görüşdə bulunan ünlü rəssam Deyvid, Qacariyyə heyətinin imperatorla görüşünü rəsm etmişdir. Bu

tabloda Asiya və Avropanın kültürü və davranış tərzləri açıqca sezilməkdədir. Tabloda Qacar dövlətinin təmsilçisi ağır və qaba hərəkətlərlə imperatora doğru irəliləməkdədir, çünkü əynindəki paltarı əl-ayağına dolaşmaqda və onun sərbəst hərəkətini önləməkdədir. Tabloda imperatoru çevrələyən yaraşıqlı, uzunboylu zabitlərin surətlərində bir məsxərə gülüşü görünür. Heyrət içində bu qədər qaba geyimli heyəti seyr edən saray adamları onları gülüşləri ilə məsxərə etməkdən də geri qalmırlar. Çevrədən onlara qarşı yönəlmiş aşağılayıcı baxışların altında əzilən heyət istər-istəməz bir aşağılıq kompleksinə qapılmış kimi görünməkdələr. Bu qədər çağdaş mədəniyyətin ortasında özlərini necə idarə etmələrini sanki bilməyirlərmişcəsinə bir görünüm rəsm edilmişdir.

Rusiya ilə Fransa arasında sülh müqaviləsi bağlandıqdan sonra Fransa Qacariyyə ilə olan anlaşmalara sadiq qalmadı.

Sisyanovun öldürülüşündən sonra Qacar və Rusiya arasındakı şiddətli düşmənçilik gizlin şəkildə davam edirdi. Bu düşmənçilik bəzən kiçik çaplı silahlı toqquşmalarla davam edirdi.

Jauberin Təbriz və Tehranı ziyarət etdiyi dönəmlərdə Qacar dövlətinin durumu Bağdad və Bayəzid paşaları ilə yaranan gərgin vəziyyət səbəbi ilə çox ağır idi. Ortamı gərginləşdirən kürd məsələsi idi. Bölgədə problem yaradan kürd əşirətlərinin rəhbərlərindən birisi Fətəli Şah tərəfindən himayə edilməkdə idi. Bu kürd, Fətəli Şaha sığınmış, Şah da onun ölkədə yaşamasına izn vermişdi. Bu da Fətəli Şahın Bağdadla ilgili gizlin iddiasını ifşa etməkdə idi. Fətəli Şaha görə Bağdad Qacariyyənin bir hissəsi olmalı idi. Bu torpaqları öz ölkəsinə qatmaq üçün daima uyğun fürsət axtarırdı və Şahın bu arzusu haqda Osmanlı, özəlliklə Bağdad paşası xəbərdar idi. İraq cəbhəsində Osmanlı ordusu ilə Qacar Ordusu arasında ciddi savaşlar olmuşdu. Bu savaşda Məhəmmədəli Mirzə zəfər qazanaraq şöhrətini də ölkədən yayğınlaşdırmışdı. Bayəzid cəbhəsində isə kiçik çaplı qarşıdurmalar olmuşdu.

Abbas Mirzə Gürcüstan və Osmanlı sınırı arasında yerləşən Ağoğlan kəndində xəbərdar oldu ki, General Sisyanovun yerinə Marşal Qudeviç təyin edilmişdir. Bu xəbərin anlamı o idi ki, Rusiya ilə savaş yeni bir mərhələyə girmək üzrədir. Tehranda Rusiya ilə savaşdan yana mövqe yox idi. Ordunun ağır xərci Fətəli Şahı rahatsız edirdi. Lakin Rusiya ilə savaşmaqda qərarlı olan Abbas Mirzə öz hesabına ordunu ayaqda tutmaq zorunda qalmışdı. Tam bu sırada Abbas Mirzəyə və Tehrana xəbər gəldi ki, bir Rus hərbi birləşməsi Qacariyyəyə girmişdir. Artıq mərkəz də məcburən Abbas Mirzəyə dəstək vermək zorunda qalmışdı. Abbas Mirzə düşmənin təərrüzünü durdurmaq üçün Ağoğlandan hərəkətə başladı. İki ordu Xankəndidə qarşı-qarşıya gəldi. İki gün ağır savaşdan sonra Abbas Mirzə Xudafərin körpüsünə tərəf geri çəkilmək məcburiyyətində qaldı.

Durum bu şəkildə olduğunda Abbas Mirzə əski düşmənlərlə ittifaqa girmək istədi. Xüsusən Şuşanın xanı İbrahim Xəlillə əski münasibətləri unudub dostluq ilişkiləri qurmaq fikrinə düşdü. Bunun üçün də Tehranda atasının qadını olan

İbrahim Xəlil Cavanşirin qızı Ağabacı xanımı devrəyə soxmaq istədi. Abbas Mirzə bu vəsilə ilə İbrahim Xəlillə yaxın münasibət qurmağı başardı. Hələ də bakirə qaldığı söylənilən Fətəli Şahın eşi Ağabacı xanım atası ilə Abbas Mirzənin aralarındakı düşmənçilik hisslərinin yatışdırılması üçün çox böyük rol üstlənmişdi. Digər tərəfdən, ruslar bu xanlıqlara müttəfiq kimi deyil, öz vassalları kimi baxırdılar. Bu da xanlıqların ruslardan uzaqlaşıb Abbas Mirzəyə yaxınlaşmalarına səbəb olurdu. Rusların bu şəkildə davranmalarına özəlliklə də Sisyanovun Bakı xanlığı tərəfindən öldürülməsi səbəb olmaqda idi. İbrahim Xəlil gizlincə Abbas Mirzəyə xəbər göndərdi ki, "Şuşaya hücum etsəniz şəhərin darvazalarını üzünüzə açacağıq." Lakin ruslar tərəfindən dəstəklənən Xanın yaxınlarından birisi bu xəbəri duydu və rusların yardımı ilə İbrahim Xəlili Şuşadan qaçmağa məcbur etdi. Bu hadisədən xəbərdar olan Abbas Mirzə, İbrahim Xəlil Xanın yardımına getdi. Ancaq Xudafərin körpüsündən çox uzaqlaşmamışdı ki, gözlənilməz bir hadisə ilə qarşılaşdı. Təqribən yüz kişilik süvari yas içində İbrahim Xəlilin cənazəsini Xudafərinə doğru daşıyırdı. Yaşlanmış Xan bütün ailə üzvləri ilə bir yerdə öldürülmüşdü. Rusların xanlarla bu şəkildə davranmaları digər xanlıqları qorxuya salmışdı. Artıq onlar açıq şəkildə Abbas Mirzənin o yurdlara hücum etməsini istəyirdilər. Ləzgi xanlığı kimi bəzi xanlıqlar isə təhlükəni yaxın hiss etdikləri üçün, həmən başdan Abbas Mirzəyə sığınmış və Təbrizə yerləşmişdilər.

Şahzadə, demək olar ki, bütün vaxtını Ağoğlan, Dədəbəyli və digər bu kimi hərbi düşərgələrdə keçirirdi. Təbrizdə olduğu zaman isə islahatlarına davam edirdi. Onun bu reform əməlini heç bir hadisə əngəlləyə bilmirdi. Həftədə bir dəfə Azərbaycan əhalisinin şikayətlərini qəbul edirdi. Hər bir Azərbaycanlının onunla rahatca əlaqəyə girə bilməsi üçün fərman imzalamışdı. Fəlakətli yaşayış haqqında eşitdiyi bütün xəbərlər Azərbaycanın çox ağır vəziyyətdə olduğunu göstərirdi. Abbas Mirzə Azərbaycanı bu fəlakətdən necə qurtara biləcəyi haqda düşünür və ətrafındakılardan Azərbaycan haqqında daha dərin bilgi vermələrini istəyirdi. Abbas Mirzə ilk dəfə olaraq bütün Azərbaycan Bəylərbəyi haqqında fərman imzaladı. Bu fərmana görə heç bir Bəylərbəyi rəiyyətini incitməməli və onunla insan kimi davranmalı, onun haqlarına hörmət etməlidir. Bu əmrin Bəylərbəylərinə yazılı olaraq çatdırılmasından başqa, Abbas Mirzə əmr etdi ki, bu fərmanı carçılar bütün bölgələrdə insanlara duyursunlar və söyləsinlər ki, hər bir rəiyyətin gəlib Şahzadənin yardımçılarına və ya hətta dirək özünə şikayət etmə haqqı var.[20] Bu üzdən də bəzi bəylərbəyləri için-için Abbas Mirzəyə nifrət edirdilər. Ancaq bu nifrətlərini içlərində boğurdular, çünkü bilirdilər ki, Şahzadə, Fətəli Şah tərəfindən sevilməkdədir və Şah onun sözləri ilə hesablaşmaqdadır. Xüsusən də rusların yeni taktikaları Abbas Mirzənin önəmini Şahın yanında daha da yüksəltmişdi. Bir çox Bəylərbəyi Abbas Mirzənin qardaşları ilə gizlin təmasa keçərək, onu ortadan qaldırmağı planlayırdılar. Ancaq geniş xalq kütləsi Abbas Mirzədən yana idi. Ən

---

[20] Tarix-e Əzodi.

önəmlisi də bu idi ki, Azərbaycan xalqı Şahla bərabər onun da başına and içirdilər və "Şahın, Şahzadənin başına and olsun"[21], - deyərək Şahzadəyə olan sonsuz hörmətlərini dilə gətirirdilər.

Abbas Mirzənin bir davranışı haqda bir neçə yabançı müəllif bu şəkildə yazmışlar: Abbas Mirzə hərbi düşərgələrinin birindən Təbrizə dönərkən buradakı sarayında insanların yas içində olduqlarını gördü. Nədən belə olduqlarını sorduğunda cavab verdilər ki, iki kiçik oğlunuz xəstələnib ölmüşdür. Abbas Mirzə aldırış etmədən onlara qızaraq dedi ki, ağlayacağımımı sanırsınız? Tanrıya and olsun ki, əgər mənə xəbər versəydiniz ki, iki əsgərin ölmüşdür, ağlardım. Ancaq bu kiçik çocuqların böyüdüklərində əsgər ola biləcəkləri bəllimi idi? Tanrının iradəsinə təslim olmaq zorundayıq.

Abbas Mirzənin bu tür davranışı hadisəyə tanıq olan yabançıları şaşırtmışdı.

Digər bir hadisəni də Jauber öz xatirələrində bu şəkildə yazmaqdadır: "Abbas Mirzə Azərbaycanın ünlü ailələrindən birinin oğlu ilə çox yaxın dostluq edirdi. Nəzərəli bəy olaraq bilinən bu şəxs Şahzadənin sarayında ən önəmli və sözükeçən şəxsiyyətlərdən biri idi. Nəzərəli bəy çox yaraşıqlı və cəsur birisi idi. Özəlliklə onun cəsarəti Abbas Mirzə üçün çox əhəmiyyət daşımaqda idi. Şahzadə ən yorğun çağlarında ürəyini ona açar və kimsəyə danışmadığı, danışmaq istəmədiyi gizlin planlarını ona söyləyərdi. Cəsur Nəzərəli bəy də yaxşı bir dinləyici olduğu üçün Abbas Mirzənin hörmətini qazanmışdı. Bəlkə də elə buna görə Nəzərəli bəy Şahzadənin onun bəzi kötü davranışlarına göz yumacağını sanmışdı. Bu üzdən, bəzən gizlin əyyaşlığından da qalmırdı. Bir gün Nəzərəli bəy yarısından çoxu erməni olan bir kənddən keçərkən hamamdan çıxan bir erməni gözəlinə gözləri sataşdı. Erməni qızları müsəlman qadınları kimi özlərini qara və qaranlıq çadranın altında gizlətmirdilər. Bu səbəbdən də onların gözəlliklərini görmək və vurulmaq Azərbaycan gəncləri üçün rahat bir iş idi. Nəzərəli bəy qız haqqında araşdırma yapdırdı və öyrəndi ki, hələ ərə getməyibdir. Bu da onun qızla ilgili sərbəst davranmasına imkan verirdi. Qızın evini öyrənib onu öz çadırına qaçırmağı planladı. Qızı zorla çadırına gətirdi. Qızın fikri, istəyi ilə hesablaşmadan onunla bərabər oldu. Nəzərəli bəy sərxoş vəziyyətdə erməni qızı ilə bərabər olduqdan sonra yuxuya dalar. Erməni qızı bu fürsətdən istifadə edərək çadırdan qaçar. Qızın atası Abbas Mirzəyə şikayət edər. Abbas Mirzə arkadaşının bu əməlindən çox rahatsız olar. Digər tərəfdən, Şahzadə xristian azınlığa çox sayqı göstərməkdə idi. Nəzərəli bəyin öldürülməsi haqda fərman verər. Nəzərəli bəyin yaxınları nə qədər yalvarsalar da Abbas Mirzəni qərarından vaz keçirə bilməzlər. Nəzərəli bu davranışının hesabını həyatı bahasına ödəmiş olar.[22]

***

---

[21] Eyni qaynaq.

[22] Amedee Jauber, "Persiya səfəri".

1807-ci il baharının başlanğıcında Gardane heyətinin gəlməsindən bir az əvvəl, Qafqaz rus ordusunun komandanı və Gürcüstanın hakimi Marşal Qudeviç, Stipanov adında bir nümayəndəsini Qacariyyəyə göndərdi. Stipanov Qudeviçin barış mesajını Tehrana ilətməklə mükəlləf idi. Bu elçi Təbriz yolu ilə Tehrana gedəcəkdi. Bu üzdən də rusların yeni siyasəti ilə tanış olmaq üçün Abbas Mirzə səbirsizliklə onun yolunu gözləyirdi. Stipanov həm Şahzadə həm Şah üçün böyük hədiyyələr gətirmişdi. Lakin Abbas Mirzə, Qudeviçin təklifləri ilə tanış olduqdan sonra çox narahat oldu. Çox sayqı və hörmətlə yazılan məktub içəriyindən dolayı Abbas Mirzəni çox qızdırmışdı. Məktubun mətni çox ədəblə Marşal Qudeviçin üstünlüyündən danışırdı. Çox qapalı şəkildə Fətəli Şaha duyurulurdu ki, onun üçün heç bir qələbə yolu yoxdur. Ən yaxşısı budur ki, Şah barış anlaşmasına imza atsın. Məktubda bəzi ərazilər də tələb olunurdu. Lakin Qacar dövlətinin on il sonra məcburən qəbul edəcəyi müqavilələrlə müqayisədə çox olumlu və yumşaq idi. Xarici ölkələrin elçiləri ilə çox hörmətlə rəftar edən Abbas Mirzə qəzəbini gizlədə bilməyib və bu məktubda qeyd olunanların bizim tərəfimizdən qəbul edilməsi mümkün deyildir, dedi. Stipanov Tehrana yollanarkən, Abbas Mirzə atasına özəl bir çapar göndərdi. Çapar, Stipanovdan daha əvvəl Tehrana çatıb və Şahzadənin mesajını Şaha çatdırdı. Abbas Mirzə atasından xahiş etmişdi ki, məktubda qeyd olunanlarla razılaşmasın. Ya da anlaşmalara Qacar dövlətinin də tələbləri yerləşdirilsin. Tehranda Stipanovu çox yaxşı qarşıladılar. Lakin Şah anlaşmaya soyuq yanaşdı. Stipanov anladı ki, Qacar dövlətinin istəkləri haqda danışmaq onun yetkisi dışındadır. Bu üzdən də geriyə dönüş üçün izn istədi. Şah Stipanovun gətirdiyi təkliflər qarşısında tərəddüd içində idi. Lakin Abbas Mirzə açıq şəkildə savaşdan yana idi.

O baharda savaş olmadı. Stipanovun görüşündən sonra sadəcə, gizlin bir düşmənçilik var idi. Qacar dərbarında həm savaşdan, həm də barışdan yana olanlar umutlarını Fransa ilə olan ittifaqa bağlamışdılar.

***

Gardane heyəti gəlmədən öncə Fransa ordusunda yarbay mühəndis olan Buntan, Doğu dilləri uzmanı olan tərcüməçisi ilə bir yerdə Abbas Mirzə ilə görüşmək üçün Fransa dövləti tərəfindən görəvlənmişdi. General Gardan isə öz heyəti ilə gəldikdən sonra mühəndis yarbay Lami və piyadə mütəxəssisi yarbay Verdiye, Şahzadənin xidmətində olmaqla görəvləndirildilər. Bunlar Abbas Mirzənin ordusunu Qərb üsuluna görə eyitməli idilər. Fransa hərbçilərinin texnikaları ilə tanış olan Abbas Mirzə anladı ki, özü də modern savaş haqqında heç bir şey bilməməkdədir və hər şeyi yenidən öyrənməlidir. Fransız zabitlər daima sayqı ilə Şahzadəni öz xatirələrində xatırlamışlar. Onlar səltənət nəslindən olan bu şagirdlərinin səmimiyyətini israrla söyləmiş və Batı savaş texnikası öyrənmək üçün nə qədər sadə bir əsgər kimi özən göstərdiyini yazmışlar. Abbas Mirzə sadə əsgərləri ilə bərabər və bir yerdə fransız zabitlərinin təlimlərinə və hərbi dərslərinə qatılırmış. Abbas Mirzə bu təlimlər müddətincə Qacar ordusunun nə qədər geridə

qaldığını duyur və ordusunun modernləşməsi üçün hər bir fədakarlığa hazır olduğunu göstərirdi. Çünkü Abbas Mirzə hiss edirdi ki, ordusunun mövcud səviyyəsi ilə Azərbaycanı rus ordusuna qarşı qoruya bilməyəcək.

Şübhəsiz ki, Gardanenin (Qardan) məmuriyyətinin ilk illəri Abbas Mirzənin ən mutlu illərindən sayılırdı. Savaş texnikası və texnolojisi ilə bağlı öyrəndiyi yeniliklər onu çox mutlu edirdi. Abbas Mirzə ən istedadlı savaşçılarını xəritə elmini öyrənməklə görəvləndirdi. Özü də bu xəritə ilə ilgili dərslərə qatılır və böyük bir zövq və gələcəyə olan inancı ilə ordu ınənsublarını öyrənməyə təşviq edirdi. Ən yaxşı öyrənən və gələcəyin hərbçi öyrətmənləri olacaq olan zabitlərini ödülləndirirdi. Saatlarca yarbay Lamidən riyaziyyat öyrənirdi.

Atəşkəsə rəğmən savaş durumu davam etməkdə idi. Abbas Mirzə fransız dostları ilə Qarabağı, Ərdəbili və Aranı dolaşırdı. Bəzən Araz boyunca at çapırdılar və səhər erkəndən Ağrı dağının zirvəsini aydınladan günəşi seyr edirdilər. Bəzən də Gölçə* (Göyçə) gölünün ətrafında istirahət edirdilər. Yalnız bu gəzintilər əyləncə amacı ilə yapılmamaqda idi. Onlar savaşın savunma və hücum yerlərini təsbit edir, topların haralarda yerləşəcəyini dəqiqləşdirirdilər. İrəvan qalasının savunma sistemini gəlişdirirdilər. Bu arada Qacariyyəyə gələrkən yolda xəstələnib ölən fransız yarbay Bernarın Abbas Mirzəni yaxından görmə istəyini də zabitlər Şahzadəyə söyləyirdilər. Beləliklə Abbas Mirzə ilə fransız hərb uzmanları arasındakı ilişkilər gerçək dostluq münasibətlərinə dönüşməkdə idi. Abbas Mirzə Təbrizin dışında olan fransız uzmanlarla da ilgilənirdi. 1808-ci ilin yayının son ayında General Gardane bütün heyəti ilə bərabər Şahın Sultaniyyədəki ordusuna qatıldılar. Sultaniyyədə yapılacaq olan manevraya böyük bir ordu qatılmaqda idi. Bütün saray adamları və dövlət yetkililəri bu manevranı seyr etmək üçün gəlmiş və münasib yerlərdə çadır qurmuşdular, hər kəs öz yerini təsbit etmişdi. Qadınlar üçün ayrıca bir köşk nəzərdə tutulmuşdu. Şahın böyük köşkü gənc və gözəl xanımların rəsmləri ilə bərabər savaş səhnələri ilə də süslənmişdi. Ancaq Şahın sevdiyi mənsəb sahibi olan oğullarının rəsmləri hər yerdə görünürdü.[23] Bu manevrada İsmayıl bəy adlı bir süvarinin çox sürətlə hərəkət etməsi hər kəsi heyran qoymuşdu. Abbas Mirzənin ordusunda görəvli olan İsmayıl bəy haqqında fransız zabitlər Fransaya bilgi vermişdilər. Sultaniyyədəki bu göstəri Qacar ordusu tarixində ilk möhtəşəm və Qərb üsuluna uyğun manevra idi.

O ilin baharında Baron Doverd adında yarırəsmi bir elçi gəlmişdi. Bu elçi öncəki il Stipanovun gətirdiyi barış anlaşmasını təkrar gətirmişdi. General Gardanın istəyi üzərinə onu hörmətlə qarşıladılar. Abbas Mirzənin sərt tutumu üzərinə Gardan, Şaha təklif etdi ki, bu haqda danışıqlar Parisdəki rus elçisi Kont

---

*Qacar dönəmi qaynaqlarda bu göl Gölçə olaraq yazılmaqdadır. Bu gün bu göl Azərbaycan leksikonunda Göyçə olaraq tələffuz edilməkdədir. Anlaşılan odur ki, Gölçə səslətimi (tələffüzü) daha doğrudur. "Gölçə", yəni kiçik göl. Zamanla bu səslətim yerini Göyçə tələffüzünə buraxmışdır. (G.C).

[23]Bu şərhlər James Morier və Ker Purtere aiddir.

Tolstoy ilə o zaman Parisdə bulunan və Qacar dövlətini təmsil edən Əsgərxan arasında yürüsün. Gardan Şaha təlqin edirdi ki, Qacariyyənin müttəfiqi olan Fransa imperatorluğunun nəzarətində yürüdülən müzakirələr pis nəticə verməz. Şah, Gardanın bu təklifini bütünü ilə qəbul etdi və qərara alındı ki, bu təklif General Qudeviç vasitəsi ilə Sen-Petersburqa çatdırılsın. Petersburqdan cavab gələnə qədər atəşkəs haqqında da anlaşma sağlandı.

Şahın Fransa imperatorluğuna bağladığı ümüdlərə rəğmən üfüq qaranlıq görünməyə başlamışdı. Qacariyyə ilə ilgili Fransadan çox az xəbərlər gəlirdi. Napoleon başqa savaşlara hazırlaşırdı və Qacariyyəyə ilgi azalmışdı. Digər tərəfdən, Con Molkolm təkrar Şahla görüşmək istəmişdi. Lakin General Gardan onun Tehrana gəlməsinə etiraz etmiş və Şah da Fransa ilə olan münasibətlər uzun vədədə ölkənin yararınadır deyə onun etirazını qəbul etmişdi. Con Molkolm Şahın bu davranışından dolayı Hindistanın hökmranı Lord Mintodan Bəsrə körfəzinə hücum və Qəşəm adasını işğal etməsini istəmişdi. Bu xəbər Şahı çox rahatsız etməyə başladı. Lakin Napoleon bu adalarla ilgili planlar hazırlamışdı. Fransa imperatoru bu adaları Hindistana ordu yeritmək üçün üs kimi kullanmaq istəyirdi.

Qacariyyənin Parisdəki nümayəndəsi geri döndükdən bir neçə həftə sonra gərgin durum yaranmışdı. Gardan heyəti vəzirlərlə olan münasibətləri vasitəsi ilə Şahın onlara qarşı qızğın olduğunu sezmişdi. Başvəzir Mirzə Şəfi daima yumşaq və dostca davranışlarını qoruyub saxlayır, Padşahın da sakin olması üçün əlindən gələni edirdi. Bu vəzirin Fransa heyəti ilə çox xoş davranması üzündən Gardan heyəti ona “Fransızların atası” ləqəbini vermişdi. Mirzə Şəfi əski düşməni Hacı İbrahim Şirazinin məktəbində öyrənmişdi ki, daima Hind Kompaniyasından qorxub, çəkinsin. Çünkü bütün Hindistanı və qismən də Çini ələ keçirən bu kompaniyanin arxasında İngiltərə xarici siyasəti və ordusunun olduğunu bilməkdə idi. Bu üzdən də necə olursa olsun sadəcə, ruslara qarşı deyil, həm də İngiltərəyə qarşı Fransa ittifaqının ayaqda durmasından yana idi. Digər tərəfdən, Osmanlının Fransa yetkililərinə öz torpaqlarından gəliş-gediş üçün izn verməməsi də Qacar dövlətinin Fransa ilə irtibatını çətinləşdirmişdi. Çünkü kürd məsələsi üzündən Bağdad paşası ilə aralarındakı anlaşmazlıq sürməkdə idi.

Bu ərəfədə 1808-ci ilin oktyabr ayında Rusiyadan bəklənən cavab gəldi. General Qudeviçin elçisi Tehrana gəldi və Moskvanın cavabını Şaha çatdırdı. Moskva, General Gardanın, danışıqlar elçilər vasitəsi ilə Parisdə yürüsün təklifini rədd etmişdi. Elçi bu mesajın yanı sıra Abbas Mirzəyə də Qudeviçin özəl mesajını gətirmiş və öncə Təbrizdən keçərkən bu mesajı Şahzadəyə vermişdi. Qudeviçin bu məktubu bir az təhdidkar üslubla yazılmışdı. Bu da Abbas Mirzəni çox əsəbiləşdirmişdi. Bəlkə də Qafqazın hökmdarı Qacariyədə olub-bitənlərdən xəbərdar idi və bilirdi ki, Abbas Mirzənin iradəsinə rəğmən Şah savaşdan yana deyildir. Şaha görə savaş başlanacağı təqdirdə onun büdcəsini təmin etmək çətin olacaqdır.

Şahzadə hələ diplomasinin incəlikləri haqda bilgi sahibi deyildi. Harda öz istəyini gizlin saxlayıb və harda açıq tərzdə deməsi haqda hələ təcrübə əldə etməmişdi. Bu səbəbdən də Azərbaycanın bir bölümündən vaz keçməsini istəyən Qudeviçin məktubunu cırıb, o şəkildə də atasına göndərdi. Lakin nə olursa olsun barışın sağlanmasından yana olan General Gardan kağızın cırıqlarını bir-birinə yapışdırıb, oxunar hala gətirib və Şaha çatmasını sağladı. General Gardan, Qudeviçə çox nəzakətli biçimdə bir məktub yazaraq qeyd etdi ki, Fətəli Şahın Fransanın müttəfiqi olması unudulmamalıdır. Bu səbəbdən də Qacar dövlətinə qarşı Rusiyanın geniş çaplı hərbi əməliyyatı Napoleon tərəfindən xoşgörü ilə qarşılanmayacaqdır. Gardan məktubunu Qudeviçə göndərmədən əvvəl Abbas Mirzəyə bir çapar göndərdi və onun barışa qarşı heç bir davranışda bulunmamasını rica etdi. Bu arada Şahzadə əsas hərbi üssü olan Xoya çəkilmişdi. Abbas Mirzə burada savaş üçün hazırlıq işləri görürdü. Ancaq atası ona bir məktub yazaraq Xoydan kənara çıxmaması konusunda onu uyardı. Gardan, Şahın barışdan yana olmasını dəstəkləyirdi. Çünkü ona görə Qacar ordusu hələ gərəkən səviyyədə eyitilməmiş və savaş çıxacağı təqdirdə ruslara qarşı başarılı ola bilməyəcəyi qənaətində idi. Abbas Mirzə bütün hallarda atasının əmrini yerinə gətirirdi. Bu, öz iradəsinə və istəyinə qarşı olsa belə yenə də atasından gələn əmri tətbiq edirdi.

Şahzadənin müdaxiləsi olmadan savaş başladı. Bir il öncədən İrəvana hakim təyin edilən Hüseyn Xanın ordusu ruslar tərəfindən saldırıya uğradı. Sonra da ruslar İrəvanın yaxınlığında bir kəndi işğal etdilər. Savaş yanlısı olan Abbas Mirzə üçün artıq savaşa başlama bəhanəsi yaranmışdı. Atasına xəbər göndərdi ki, Xoydan Araza doğru hərəkətə başlamış və Naxçıvanda yerləşməyi planlamışdır.

Eyni zamanda Tehrana xəbər gəldi ki, Sent James sarayının fövqəladə nümayəndəsi Ser Ford Conzlərigz Buşəhrə gəlmişdir. Bu adam 20 il öncə bütün öz şərqşünaslıq bilgilərini və var-dövlətini ölkəsinin ixtiyarına buraxmışdı. 20 il əvvəl Zəndiyyə əmirləri tərəfindən səmimiyyətlə qəbul edilmiş və İngiltərənin Bəsrə körfəzində ticarət mərkəzləri açma istəyi yönündə başarılı işlər görmüşdü. O, sakit və səbirli xasiyyəti dolayısıyla Con Molkolmdan çox fərqlənirdi.

Bir çox əyalət xanları Şahın İngiltərə ilə isti münasibət qurmasından yanaydılar. Hərbi savunma işlərindən məsul olan İsmayıl bəy bu konuda ən önəmli şəxsiyyətlərdən idi. İnsanı şaşırdan hadisələrdən birisi də budur ki, Fransaya qarşı müxalifət edənlərin içində Rzaquluxan da görünməkdədir. Bu şəxs Finknayştaynda Qacar dövlətini təmsil etməkdə idi. Orada buna ən yüksək düzeydə hörmət göstərilmiş, Napoleon tərəfindən qəbul edilmişdi. Şah qəti qərarını vermiş və İngiltərə elçisinin Tehrana gəlişini qəbul etmişdi.

***

Talehin axarı Birincı Napoleonu öz arxasınca sürükləməkdə idi. Fransanın siyasi həyatında böyük çalxantılar meydana çıxmaqda idi. Bu üzdən də Napoleon sadəcə, müttəfiqliklə ilgili məsuliyyətini deyil, həm də çox uzaqlarda xidmət edən fransız yetkililərini, elçiləri də düşünəməz duruma gətirmişdi. Gardan heyətinin

son həftələri çox kədərli oldu. Baxmayaraq ki, General özünü Fətəli Şah qarşısında suçlu kimi hiss edirdi, lakin öz imperatorunu savunmaqdan da geri qalmırdı. Bütün gücünü ittifaqın dağılmaması üçün səfərbər etmişdi. Noyabrın sonlarında Gardanın istəyi üzərinə İsfahanda yapılmış 30 top arabasını Tehrana gətirdilər. Gardan hər olasılığa görə bu top arabaların Şahın rəqiblərinin əlində qalmamasını istəyirdi. Tehranın darvazlarına yaxınlaşanda topların mühəndisi yarbay Faviye toplara atəş əmri verdi. Gardan heyəti, saraydakıların Qacariyyənin məhsulu olan top atəşlərinin səsini duyduqlarında sevinəcəklərini sanmışdı. Lakin heç bir təqdirlə qarşılaşmadan böyük bir etinasızlıq içində şəhərə daxil oldular.

Azərbaycandan çox ümüdsüz xəbərlər gəlməkdə idi. Bir neçə kəndi işğal edən Qudeviç İrəvanı mühasirə etməyə hazırlaşırdı. Lakin İrəvanın fransızlar tərəfindən ciddi savunma sistemi ilə donatıldığını duyub, bu işdən vaz keçmişdi. Bir neçə kiçik savaşlar Qacarların xeyrinə başa çatmış, bir neçə kəsik Rus başı Şaha hədiyyə olaraq göndərilmişdi. Şah da bundan çox sevinmişdi. Fransızların hərbi bəsirətləri üzündən rusların İrəvana girə bilməmələri bir daha Tehranda Gardan heyətinə sempati yaratmağa başlamışdı. Noyabrın sonlarında xəbər gəldi ki, Naxçıvan civarında böyük bir savaş başlamış və burada Şahzadə özü komandanlığı yürütmüşdür. Abbas Mirzə ilə bağlı savaş xəttindən gələn bir xəbər Şahı çox narahat etmişdi. Gələn xəbərlərə görə Şahzadə öz canını qorumamaqda imiş. Şahzadənin atına güllə isabət edir, at ölür və Şahzadə piyadələrlə bərabər hücuma başlayır. Bu anda Şahzadəyə xəbər gəlir ki, topxananın komutanı öldürülmüşdür. Ordunun toplarının susması düşmənin üstünlüyünə səbəb olmuşdur. Bu vəziyyəti görən Şahzadə özünü topxanaya çatdırmağı başarmış və topların komutanlığını öz üzərinə götürmüş, düşmən səngərlərini atəşə tutmuşdur.

Sir Harford Conz Şirazdan Tehrana doğru gəlməkdə idi. Gardan, heyəti ilə bərabər ölkəni tərk etmək üçün Şahdan izn istədi. Şah onlara etdikləri işlərindən dolayı təşəkkür edib və getmələri üçün izn verdi. Heyət 1809-cu il fevral ayının 17-də Tehranı tərk edib, mart ayının 9-da Təbrizə çatdı. Fransa heyətinin ölkədən ayrılışı Abbas Mirzəni çox narahat etmişdi. Digər tərəfdən, İngiltərə ilə başlanan müzakirələrin gedişini diqqətlə izləməkdə idi. Onların nə kimi təkliflərlə gəldiklərini, nələr gətirdiklərini maraq edirdi. Abbas Mirzə Təbrizdə dost olduqları Fransa heyətini çox böyük hörmətlə qarşıladı. Onlar Abbas Mirzənin surətindəki üzgünlüyü açıqca sezməkdəydilər. Şahzadə ordusunu toplarla donatmış fransız heyətinin ölkədən ayrılışına çox üzülürdü. Qısa bir sürə Təbrizdə qalan Gardan heyəti Xoya doğru hərəkət etdi.

Gardan heyətinin ayrılışı ilə Fransa və Qacariyyə dostluğu sarsılsa da sonradan təkrar güclənəcəkdi. Bir sürə sonra daha mücəhhəz bir heyət Qacariyyəni ziyarət edəcək və Qacariyyədə savaş və hərbi disiplinin gəlişməsinə yardımçı olacaqdılar.

## SAVAŞLARIN DAVAMINA GİRİŞ

1809-cu il mart ayının 12-də Ser Harford Conz və Qacariyyə arasında bir anlaşma imzalandı. Qacariyyə tərəfindən bu anlaşmaya imza atan Sədr-i Əzəm (başvəzir) Motəməd-üd Dövlə və Əmin-üd Dövlə adında başqa bir vəzir idi. Bu anlaşmaya görə İngiltərə Rusiya qarşısında Qacariyyəyə maddi yardım etməyi üzərinə götürürdü. Bu maddi yardım yalnız İngiltərə ilə Rusiyanın qarşı durmalarının sürəcəyi zamana qədər davam edəcəkdi. Yəni Rusiya ilə İngiltərə arasında barış aktı imzalandığında bu anlaşma öz-özünə ibtal ediləcəkdi.

İngiltərə dövlətinin nümayəndəsi ilə Con Molkolm arasında böyük bir anlaşmazlıq və rəqabət var idi. Lakin bu iki ingilis məmuru ölkələrinin mənafesi üçün bir arada hərəkət etmək zorundaydılar.

1812-ci ildə İngiltərənin yeni səfiri Ser Qor Ozli Qacariyyəyə gəldi. Mart ayının 14-də birinci anlaşmanın davamı və təkmilləşdiricisi olan ikinci müqaviləni də Qacar dövləti ilə bağladılar.

Qacariyyə və Rusiya arasında savaş davam edirdi. Ancaq 1809-1812 illər arasında önəmli hərbi dəyişiklik olmamışdı. Avropa savaşında məşğul olan Rusiya Qafqazda sadəcə, Abbas Mirzənin ordusunun irəliləməsini durduracaq miqdarda güc saxlamışdı.

1812-ci il yay ayının əvvəlində İngiltərə və Rusiya arasında barış anlaşması imzalandı. Bu zaman İngiltərənin Tehrandakı səfiri Qor Ozli Təbrizə getdi. Belə bir sual ortaya çıxır ki, nədən belə kritik dönəmlərdə səfirlər müzakirələri Tehranda yürütmək yerinə Təbrizə gedirdilər. Şah bir çox xarici siyasətin məsuliyyətini Abbas Mirzəyə buraxmışdı. Özəlliklə Rusiya məsələsi ilə ilgili danışıqların çoxunu Abbas Mirzə yürütməkdə idi. Bu səbəbdən də Təbriz Tehrandan daha çox xarici qonaqları qəbul etməkdə idi.

## ON İL SÜRƏN SAVAŞLAR
## (davamı)

Ağır xərc aparan savaşlardan Şah bezmişdi. Səbirsizliklə barış anlaşmasının imzalanmasını gözləyirdi. Ancaq savaş bölgədə qaçınılmaz bir durum halına gəlmişdi. Hələ də rusların adı gələndə yoxsul kəndlilər qorxularından təndirdə, tövlədə və bu kimi yerlərdə gizlənirdilər. Ancaq Sisyanovun xofu ortadan qaldırıldıqdan sonra insanlarda bir az arxayınlıq yaranmışdı. Lakin yenə də hər kəs barışdan yana idi.

Abbas Mirzə anlamışdı ki, barış olarsa, onun çox sevdiyi torpaqlar əldən gedəcəkdir. Tehran da bu torpaqların qarşılığı olan barış planı ilə psixoloji olaraq razılaşmış kimi görünürdü. Bu üzdən də Abbas Mirzə bu torpaqları qorumaq üçün yol axtarırdı. Onun intizamsız və savaş texnolojisindən məhrum olan ordusu Rusiyaya qarşı bu torpaqları qoruya biləcək kapasitədə deyildi. Şahzadə bunun

fərqində idi. Bu üzdən də dərin bir kədər içini sarmışdı. 1809-1812-ci illər arasında önəmli tarixi savaşlar olmadı. Ancaq hər tərəf daima savaşa hazırlıqlı durumdaydı.

Şahzadə, İngiltərənin yardımını etimadla, güvənərək qəbul etmədi. Çünkü İngiltərənin Hindistanı necə işğal etməsi haqda, xüsusən Fransa heyətindən bilgi almışdı. Öncə Hindistana yardım amacı ilə gəlmiş, sonra tacirlərini oraya sövq etmiş, yavaş-yavaş ölkənin bütün hərbi və iqtisadi mərkəzlərini ələ keçirdikdən sonra da açıq işğala keçmişdir. Bütün bunlara baxmayaraq onun xidmətində çalışan ingilis zabitlərlə ehtiyatla davranır, onlara hörmət edir, bilgilərindən ordusunun yararlanmasını sağlayırdı. Lakin James Morierin (Cemz Moryer) də ifadə etdiyi kimi, Şahzadə hər zaman fransız təmsilçilərin təəssübünü saxlayırmış.

Azərbaycanın başkəndi o zaman başqa şəhərlərə və bölgələrə hakim olan ümidsizlikdən və gərginlikdən bixəbər idi. Təbriz müxtəlif milliyyətlərin və insanların ticarət əməllərinə səhnə olmuşdu. Çoxu poloniyalı, rus ordusundan qaçan və əsir alınanlar Təbrizə gətirilmiş və onlardan bir alay oluşdurulmuşdu. Abbas Mirzə əsirlər vasitəsi ilə də rus ordusundakı texnikanı öz ordusuna intiqal etdirməkdə idi.

Con Molkolm 1808-ci ildə qələmə aldığı bir məktubda Azərbaycan ordusunda Drouville (Druvill) adında birinin olduğunu da rişxəndlə yazmaqdadır.

Gerçəkdən uzun zaman Şahzadənin müşavirliyini yapan bu Qaspar Druvil kim idi? Bu şəxs Fətəli Şahın belə hörmətini qazanmış və sarayda da xidmətlər etmişdi.

1817-ci ildə Təbrizə səfər edən Ker Porter adında bir ingilis diplomat bu şəhərdə Qaspar Pruvilin xatirələrini, not dəftərini tapır. Bu diplomat Druvilin, Şahzadənin ordusunda süvari alayının komandanı olduğunu eşitmişdi. Onun eşitdiyinə görə bu şəxs fransız olmuş, Azərbaycanda dünyaya gəlmişdir. Lakin davam edir ki, bu söylənən doğru olmaya bilər[24].

Druvil illər sonra öz xatirələrini yazdığı zaman Çarın xidmətində idi. Rus ordusunda albay (polkovnik) rütbəsinə sahib idi. Druvil yazdığı xatirələrində Abbas Mirzənin xarakteri, cəsarəti və bəsirəti haqda geniş bilgi verməkdədir. Şahzadənin özəl həyatı həmişə dumanlıq içində olmuşdur. Druvil xatirələrində yazır ki, bir çox Qacar şahzadələrinin, hətta Şahın özəl yaşamları ilə bağlı bəzi hadisələrə tanıq olmuşdur, lakin Abbas Mirzənin özəl həyatı haqda heç bir şey bilmədiyini qeyd edir, çünkü heç bir hadisəyə şahid olmamışdır. Bəzi söyləntilərə görə Abbas Mirzənin dörd qadını varmış ki, buna da şəriət izn verməkdədir. Lakin Druvilin yazdığına görə Abbas Mirzənin sevgisini qazanan sadəcə, bir qadın olmuşdur. O da Təbriz civarından olan sadə bir bəzirganın qızı imiş. Druvilin bu yazdıqları inanılır kimi görünməkdədir. Çünkü Abbas Mirzə kimi bir xarakter saray intriqasından uzaq olan bir qadınla daha rahat ola bilərmiş. Bu bilgilərin

[24] Ker Porter “Travels in Georgia, Persia, etc”, 2-ci cild, s. 587.

dışında Şahzadənin özəl həyatını yansıtacaq heç bir şey yoxdur. Ömrünü yurdunun qorunması üçün savaşlara həsr edən bir savaşçının ancaq bu qədər özəl həyatı ola bilər. Druvil, Abbas Mirzəni bir neçə dəfə Təbrizin küçələrində bir çocuqla bərabər at çaparkən gördüyünü yazır. Druvil Şahzadəyə "Bu yaşda çocuğa bu hərəkətləri öyrətmək tez deyilmi", - deyə sorar və Şahzadə cavab verər ki, bu çocuğun bir savaşçı olmasını istəyirəm. Bu üzdən də savaş fənnlərini nə qədər tez öyrənsə, bir o qədər yaxşıdır. Druvilə görə bu çocuq böyük ehtimalla Abbas Mirzənin çox sevdiyi qadını bəzirgan qızından olmuşdur. Lakin sonralar Abbas Mirzənin güvənini qazanan, gələcəyinə ümid bağladığı Cahangir Mirzə olmuşdur. Cahangir Mirzənin isə ana tərəfindən soyu bəllidir. Cahangir Mirzə ana tərəfindən böyük xanların birinə bağlı idi. Druvil onun özəl xüsusiyyətləri haqda bunu da yazmaqdadır ki, güldüyü zaman çox içdən və qəhqəhə ilə gülürdü. Şahzadə, Təbrizin otuz ağaclığında olan Ucan qəsəbəsində özünə bir saray tikdirmişdi.

Daima hərəkətdə olan Abbas Mirzə Arazın iki sahilində də imarətlər tikdirmişdi. Bu imarətlər onun ordusunu yoxladığı zaman dincəldiyi yerlər idi. Onun həyatının bütününə çevrilmiş Azərbaycanın hər yerini zövqlə gəzib dolaşırdı. Özəlliklə Urmunun bərəkətli torpaqlarında dolaşmaqdan ləzzət alırdı. Urmuda kürdlərin basqısından bezən kəndlilər Şahzadəni gördüklərində böyük bir güvənlə ona yaxınlaşmaq və ona olan sevgilərini bildirmək istəyirdilər. Abbas Mirzə də bu zəhmətkeş insanların ona yaxınlaşmalarına izn verirdi. Heç bir hadisə onu Azərbaycan insanları ilə bir yerdə olmaq qədər sevindirmirdi. Bu torpağa elə bağlanmışdı ki, Tehrana getməyi heç ağlına gətirmir və Tehrandakı Şah sarayındakı intriqaları vecinə almırdı. O, Azərbaycana mənsub olmaqdan qürur duyurdu. Lakin Abbas Mirzənin içini gizlin bir dərd sökməkdə idi. O, rus ordusunun daha güclü və silah baxımından daha üstün olduğunu bilirdi. Bir gün ruhu və qəlbi qədər sevdiyi bu torpağı, Arazın o tayını rusların işğal edəcəyindən əndişələnirdi. Bu dərd onu için-için içindən yeyirdi. Bu üzdən də ruslara qarşı qoymaq üçün alternativ yollar arayırdı.

***

1811-ci ilin qışında yeni bir ingilis heyəti Tehrana gəldi. Ser Qor Ozli yeni bir anlaşma planı gətirmişdi. Bu plan 1809-cu ildəki əksik qalan İngiltərə mənafeyini tam təmin etməkdə idi. İngilis səfiri Rusiya ilə Qacariyyənin savaşı tərk etmələri yönündə anlaşmalarını istəyirdi. Şah da bu təklifə xoş niyyətlə baxmaqda idi. Lakin önəmli olan Abbas Mirzəni yola gətirmək idi. Bu amacla ingilis səfiri Təbrizə yola düşdü. Səfir Şahzadə haqqında öncədən bilgi əldə etmiş və onun xarakteri, zəkası haqda qiyabi olaraq bilgi sahibi olmuşdu. İndi bu şəxslə görüşə gedirdi. Səfir, Abbas Mirzəni barışa razı etmək üçün ağlında bir sürü dəlillər birikdirmişdi.

Səfir Təbrizə çatdığında Rusiyanın baş qərargah rəisi Reşitovun orada olduğu xəbərini aldı. Rusiya ilə İngiltərə öz aralarında sülh haqqında danışıqlar aparırdılar və sonuca varmalarına da az qalmışdı. Bu üzdən də ruslar, İngiltərənin

Abbas Mirzəni barış konusunda ikna edəcəklərini düşünürdülər. Ser Qor Ozli öz dövləti tərəfindən tam yetkiyə sahib idi. Bu üzdən bölgədəki durumu daha yaxşı öyrənmək amacı ilə Robert Qordan adında birini Gürcüstana göndərdi. Digər tərəfdən, Abbas Mirzəni razı salacaq bütün yolları denəməkdə idi. Ser Qor Ozli bir ay Azərbaycanda qaldı. Bu müddət içində gah Təbrizdə, gah da Abbas Mirzə ilə bərabər ordu barınaqlarına, qərargahlarına gedirdi. Bu arada James Morier üçüncü şəxs olaraq və bir az da tərcüməçi simasında onların bütün birlikdəliklərinə tanıq olmuşdur. Bu tanıqlığını "İkinci səfər" kitabında xatirələr şəklində qələmə alacaqdı. James Morier bu sırada Şahzadənin qardaşı Məhəmmədəli Mirzənin Tehran mollaları ilə yanaşı onun reformlarına qarşı olduğunu səfirə söyləyir, Tehranda ona qarşı olan fitnələrdən İngiltərə Böyük Elçisini xəbərdar edirdi.[25] Abbas Mirzə bu Batılı adamların davranışlarına, öngörülərinə, metodlarına, səliqələrinə və bilgilərinə heyran olurdu. Səfir öz məntiqi ilə bu bir ay içində Şahzadəni çox etkiləmişdi. Böyük elçi Azərbaycanda böyük islahatlar üçün barışın nə qədər önəmli olduğu haqda Abbas Mirzəyə etkiləyici sözlər söyləmiş və Şahzadə bu reform arzusunun gerçəkləşməsi üçün sülhün lazım olduğunu anlamışdı. Lakin 1812-ci ildə ruslar tərəfindən önərilən sülhün mətni ilə tanış olduğunda çox qızmışdı. Bu önəridə Abbas Mirzə Azərbaycanın bir çox bölgələrini ruslara buraxmalı idi.

***

Abbas Mirzə Fətəli Şahın Azərbaycana səfərini duyduğunda atasını Ucanda qarşılamaq üçün gərəkən hazırlıqları gördü. Səfiri də atasını qarşılamaq üçün Ucana çağırdı. Səfir Ucana çatdıqdan bir neçə gün sonra carçılar car çəkdilər ki, Şah gəlməkdədir. Abbas Mirzə, içində səfirin də olduğu bir heyətlə Şahı qarşılamağa çıxdı. Səfir və heyəti Abbas Mirzənin bir davranışına heyrət etmişdilər. Abbas Mirzə atdan enərək Şahın istiqbalına varıb diz çökmüş, alnını torpağa yapışdırmış və Şahın atının ayağının izini öpmüşdü. Səfir, Şahın sarayında Şahzadənin bu davranışını yansıtan tablolar görmüşdü, lakin bu tabloları xəyalın ürünü olan sənət əsəri kimi anlamışdı. Yabançılara görə bu şəkildə Şahı sitayiş etmə insanın şəxsiyyətini əzir, insanı kiçik düşürürdü.

Abbas Mirzənin Ucanda daha çox qalmağa vaxtı yox idi. Ucanın səkkiz ağaclığında Mərənd-Naxçıvan yol qovşağında yerləşən ordu qərargahına baş çəkməyə getdi. Bu qərargahda James Morier onu ziyarət üçün zaman istəmişdi. Səfirin Tiflisə göndərdiyi elçisi bilgi birikdirib və geri dönmüşdü. Səfir bu bilgilərin nəticəsini Şahzadəyə çatdırmaq üçün James Morieri görəvləndirmişdi. James xatirələrində yazır ki, səhər erkəndən Təbrizdən çıxmış, gün batançağı Sufiyanda istirahət etmiş və gecə bitənə yaxın qərargaha varmışdır. Ətraf kəndlilər bir aslanın onlara zərər verdiyini Abbas Mirzəyə şikayət etmişdi. Abbas Mirzə bu aslanı tapıb ovlamaq üçün ova çıxmışdı. Ovdan dönən Şahzadə həmən James

[25] James Morier "İkinci səfər".

Morieri qəbul etmiş. Abbas Mirzə çadırda bir keçə üstündə oturmuşdu. James daxil oldu və əlindəki diplomat çantasını açdı. Bu çanta içində Şahzadənin gözü Osmanlı-Rusiya anlaşması adında bir sənədi müşahidə etdi. Abbas Mirzə yardımçısı Heydərəliyə dışarıya çıxmasını işarə etdi. Bu sənədləri diqqətlə oxumaq istəyirdi. James həm də Robert Qordanın yazdığı bir məktubu da Şahzadəyə verdi. Bu məktubda qeyd olunurdu ki, o, Qarabağa, Gəncəyə, Şuşaya getməyi də başarmış və rusların bu bölgədəki durumları haqda bilgi əldə edə bilmişdir. Bu arada Şahzadə bağırmış ki, "Rusları mən tanıyıram, elə davranarlar ki, olduqlarından daha güclü görünsünlər, insanları şaşırdıb özlərini güclü göstərsinlər"[26].

***

Temmuz ayının sonlarında Şahzadə bölgənin durumu ilə ilgili dəqiq bilgi əldə edə bilmişdi. Bu bilgiyə görə Qarabağın bəzi bölgələrini işğal edən General Kutlerovski Lənkəranı işğal etmək istəyirdi. Bir neçə ay öncə Lənkəran Abbas Mirzənin birlikləri tərəfindən ruslardan geri alınmışdı. Bu üzdən də Şahzadə, ordusunu Arazın sahillərinə doğru sövq etməyə başladı. Ağtəpə adında bir yerdə oturaq saldı. İngilis səfiri bilirdi ki, Abbas Mirzənin keçən bahardakı kiçik zəfərləri onu məğrur etmiş və yeni savaş üçün can atmaqdadır. Səfir Tehrana gedib bir sürə qaldıqdan sonra təkrar Şahzadəni görmək üçün Ağtəpəyə gəldi. Abbas Mirzənin ordusunun içində ingilis zabitlər də görəv almaqdaydı. İngilis səfirliyinə ayrılmış çadırlar ordunun yerləşdiyi yerdən iki ağac uzaqda idi. Səfir Ağtəpədə bulunduğu müddət içində Şahzadənin diqqətini inzibati məsələlərə yönəltməyə çalışdı. Orduda modern hiyerarşinin olmasının vacibliyi üzərinə deyindi. Abbas Mirzə diqqətlə qulaq asır və etirazı olduğu yerlərdə də susaraq dinləməyi tərcih edirdi. Ser Qor Ozli Şahzadəni bir rus elçisini Ağtəpədə qəbul etməyə ikna etdi. Bu elçi General Verdov idi. O, sülh müzakirəsinin ayrıntıları haqda Şahzadə ilə danışacaqdı. Abbas Mirzə Verdovun gəlməsini qəbul etsə də, ancaq içindəki məxfi etirazları üzündən oxunmaqda idi. Görüş baş tutdu. Ancaq bu görüşdə Verdov Qacariyyə tərəfindən uyqulanan protokola təslim olmayacağını duyurdu. Məsələn, Abbas Mirzə ilə görüşdə çəkmələrini çıxarmayacağını bildirdi. Buna qarşılıq olaraq Abbas Mirzə də onu qarşılamaq üçün heç bir şey etmədi. Gərgin bir ortamda təsirsiz sözlər danışılırdı. Verdov getdikdən sonra Abbas Mirzə çox qızdı və protokolu hazırlayan öz xidmətçisini suçlu bildi. Ona əlli zərbə şallaq vurulmasına əmr etdi. Abbas Mirzənin yaxınları bu günə qədər onun bu şəkildə davranmasına şahid olmamışdılar. Ancaq ruslar tərəfindən hazırlanan barış planı onu çox qızdırmışdı. Həm Rusiya, həm İngiltərə və həm də Tehran Şahzadəni bu barış andlaşmasını imzalamağa məcbur edirdi.

---

[26] James Morier, "İkinci səfər".

İlkin müzakirə başladığı üçün İngiltərə bunun davam etməsini istəyirdi. Lakin nə Abbas Mirzə, nə də rus Generalı Arazı keçib digərinin yanına getmək istəmirdilər. Bu üzdən də heyətlərin danışıqları aparması planlaşdırıldı. Şahzadə heyətini Qaimməqam təmsil edirdi. Ser Qor Ozlini də James Morier təmsil etməkdə idi. Yaşlı vəzir xeyli söhbətdən sonra gördü ki, anlaşmaq çox çətin məsələdir. Çünkü rusların torpaq tələbi istəklərinə Abbas Mirzə kəsinliklə rədd cavabı verməkdə idi. Morier yazır ki, durumun belə olduğunu görən vəzir Qaimməqam təklif etdi ki şirin şərbət yerinə acı qəhvə versinlər. Abbas Mirzənin heyəti geri döndükdən sonra hər kəsi bir tür əsəbilik sarmışdı. O anda ingilis səfiri ölkəsinin Rusiya ilə bağladığı sülh müqaviləsindən xəbər tutmuşdu. Bu da İngiltərənin Qacar dövlətini Rusiya qarşısında savunmayacağı anlamında idi. Səfir açıq şəkildə Abbas Mirzəyə dedi ki, Rusiyaya qarşı keçirəcəyiniz hər hansı bir hərbi əməliyyatda ingilis zabitləri iştirak etməyəcək. İki ingilis albayı (albay Lindsi və albay Kristi) Abbas Mirzənin yanında qalmaq üçün Böyük Elçidən istəkdə bulunmuşlar. Bəziləri bu iki albayın belə davranmalarını onların görəv sürəsi içində aldıqları yüksək maaşa bağlayırlar. Albay (polkovnik) Kristi Azərbaycanda güləş yarışlarına qatılırkən güləşdiyi adamın ölümünə səbəb olmuşdu. Lakin ölən adamın ailəsinə hər tür yardım etmişdi ki, bəlkə günahını yuya bilsin. Bu iki albayın dışında ingilis heyəti səfirlə bərabər Ağtəpəni tərk etdilər. Səfir bu iki albayın qalmasına nədən izn vermiş əcəba? Bəlkə Rusiya-İngiltərə arasındakı barış anlaşmasından tam əmin olmadığına görə imiş. Bəlli deyil. Lakin bilinən o ki, səfir Rusiyanın Xəzərdəki donanmalarının komandanı Vezlaqov tərəfindən barış anlaşması haqda dəqiq bilgi əldə etmişdi.

***

Abbas Mirzə çox gərgin ruh halları keçirməkdə idi. Ser Qor Ozlinin davranışı onu çox incitmişdi. Bu üzdən mədəniyyətlərinə və texnolojilərinə heyran qaldığı batılılarla dostluq mümkün deyildir düşüncəsinə varmışdı. Abbas Mirzə Böyük Elçinin söylədiyi çağdaş hiyerarşi və gizlilik haqqındakı sözlərini xatırlayırdı. Abbas Mirzə öz qüsurunu etiraf edirdi. Bütün hücumları haqqında nədən ruslar öncədən bilgili olduqları haqqında özünü suçlayırdı. Abbas Mirzə çox önəmli kəşfiyyat və həmlə toplantılarına gərəkdiyindən artıq adam toplayırdı. Dışarıya sızan bilgilər ruslara çatırdı. Həmlələr olmadan öncə ruslar bütün alayların komutanları haqqında bilgi əldə edə bilirdi. Abbas Mirzə böyük bir təərrüz edəcəyini gizlətmirdi. Çünkü bu böyük hücum və savaş duyğusu orduya moral verməkdə idi.

General Kutlerovski casusları vasitəsi ilə Abbas Mirzənin ordusu haqda hər tür veriləri dəyərləndirmiş, oktyabrın 31-də çaydan keçərək Abbas Mirzənin ordusunu basmış və çox qısa sürə içində iki tərəfdən ordunu mühasirəyə almışdı. Kutlerovskinin bu gözlənilməz həmləsi haqda bir-biri ilə uyğun gəlməyən müxtəlif rəvayətlər söylənməkdədir. Qacar vaqiənəvisləri həmləni qəfil bir hücum olaraq yazmışlar. Lakin ingilis şahidləri başqa tür bilgi verməkdədi. Şahzadənin özəl

həkimi olan ingilis Doktor Karmək öz gözləri ilə macəraya şahid olmuşdur. Karmək, General Kutlerovskinin hücumunu iki qismə ayırır: birinci mərhələ 31 oktyabr səhər erkəndən başlamışdır. Bu mərhələdə savaşın taleyi bəlli deyildi. İkinci mərhələ gecənin qaranlığında başlamış və Şahzadənin tam məğlubiyyətinə səbəb olmuşdur. Drouvillenin (Druvil) yazdığı üçüncü rəvayət isə Karməkin söylədiklərinə bənzəməkdədir. Məsələnin aydınlanması üçün Druvilin bu olayla bağlı yazdığını olduğu kimi gətiririk:

"Nəzərə almaq lazımdır ki, Abbas Mirzənin inzibatlı ordusu kiçik bir alaydan oluşmaqda idi. Fərari ruslardan, əsirlərdən ibarət olan bu inzibatlı ordu böyük bir cəsarətlə ruslarla savaşdılar. Lakin bu inzibatlı ordu çox az idi və disiplinsiz ordu qarşısında yox kimi görünürdü. Çoğunluğu oluşduran ordunun modern savaş sistemindən bixəbər olduqları bəlli idi. Abbas Mirzənin ordusu top atəşinə məruz qaldığında bu inzibatsızlıq daha da çoxaldı. Süvarilərlə piyadələr bir-birinə girdilər. Rus ordusunun topları yaxın təpələri ələ keçirib, orada yerləşib və dəqiq atəşə başladıqdan sonra vəziyyət daha da pisləşdi. Şahzadə atı ilə ordunun ortasında bağırıb onlara cəsarət vermək istəyirdi. Lakin Şahzadənin səsi top güllələrinin gurultusu içində eşidilmirdi. Abbas Mirzə özünü yaxınında olan topxanasına çatdırıb, atəş əmri verdi. Lakin bu atəşlər artıq əsərsiz idi. Belə anlaşılır ki, ordunun qəflətən hücuma məruz qalması üzündən hər kəs özünü itirmiş və topları doğru kullanma imkanı da əldən çıxmışdır. Birinci həmlə iki saat sürdü. Düşmən topları susduqdan həmən sonra Abbas Mirzə komutanları və iki ingilis albayı ilə təcili bir toplantı keçirdi. İngilis albaylar geri çəkilməyi təklif etdilər. Onların planları ilə bu geri çəkilmə baş tutsa idi ən az itki ilə düşmənin növbəti hücumundan qurtula bilərdilər. Ancaq Abbas Mirzə bu təklifi qəbul etmədi. Gecə boyunca Abbas Mirzə komutanlara ordunu savaşır duruma gətirmələrini əmr etdi. Səhərə yaxın təpənin başına bir top çıxarmağı başardılar. Albay (polkovnik) Kristi öz alayına düzən verməyi başarmışdı. Kristi topu elə yerləşdirdi ki, mərmiləri təsirli olsun və hədəfə isabət etsin. Gecənin qaranlığı bitmədən təkrar savaş başladı. Şahzadənin atı aldığı güllə yarasından öldü. Şahzadənin yanında bulunan yardımçılarından biri atını Şahzadəyə verdi. Ətrafdakı bir neçə çadır və ev atəş içində idi. Albay Linsinin bu savaşda aktiv olmadığı görünür. Ancaq Kristi ruslara qarşı top atəşi ilə qarşılıq verirdi. Kristi arxasından ağır yaralandı. Əsgərləri onu bir ağaca söykəyib yarasını bağladılar. Qısa sürədən sonra hər tərəf Rus ordusu tərəfindən mühasirə edilmişdi. Kazaklar Kristini əsir aldılar. Ancaq görəndə ki, o, Azərbaycan ordusunda savaşan bir ingilisdir güllə ilə dəlik-deşik etdilər. Rus ordusundan fərar etmiş çoxu poloniyalı və gürcü olan alay müntəzəm savaşlarına davam etməkdəydilər. Onların çoxu öldülər, ancaq təslim olmadılar. Sonradan barış imzalandıgı zaman diri qalanları yenə də Abbas Mirzənin xidmətində oldular. Artıq Abbas Mirzənin ordusu bir-biri ilə irtibatsız dağınıq dəstələr halına gəlmişdi. Aslanduzda 24 saat davam edən bu savaş minlərcə insanın canını almışdı. Öz

işlərinin nəticəsindən əmin olan ruslar atəşi durdurdular. Abbas Mirzə geri çəkilmək məcburiyyətində qalmışdı"[27]

***

Savaş bir il daha davam edəcəkdi. Lənkəran qalasını yerli xanlıq Abbas Mirzənin birimlərinin himayəsi ilə qorumaqda idi. 1813-cü il yanvar ayında Kutlerovski Lənkəranı işğal etdi. Rusların bu qədər dayatmalarına rəğmən Abbas Mirzə hələ də sülhü qəbul etmirdi. Təbrizdə böyük bir təlaşla çalışır, silah ürətirdilər. Topxana əksikliklərini ortadan qaldırdılar. Yenidən bir ordu oluşdurmuşdular. Baharın başlarında hücuma başlayan Şahzadə Arazın sahillərində ruslara böyük zərbə endirib Rus ordusunu bölgədən uzaqlaşdırmağı bacardı.

Yayın əvvəllərində Şah Azərbaycan ordusuna moral vermək üçün Ucana gəldi. Yeni və geniş bir hücum üçün hazırlıq gedirdi, ancaq Xorasandan olumsuz xəbərlər gəlirdi. Türkmən xanları mərkəzə qarşı baş qaldırmışdılar. Fətəli Şah Azərbaycanı tərk etdi və sülhün əldə edilməsi üçün bəzi tapşırıqlar verdi. Bir il öncə olduğu kimi ingilis səfiri ara buluculuq rolunu üstləndi. Ancaq Abbas Mirzə ilə əvvəlki kimi davranmırdı. Onun nəzərində Abbas Mirzə Aslanduz savaşının məğlub komandanı kimi görünürdü. Səfirin bu tür davranışları Abbas Mirzəyə pis təsir edirdi. Əcəba, səfir bu davranışı ilə Aslanduzda ölən Albay Kristinin intiqamınımı alırdı? Ser Qor Ozli, Albay Arsini Arazın o tayına məmuriyyətə göndərdi. Albay Arsin Qafqaza gedib və oranın hakimi ilə danışmalı idi. Qacariyyə-Rusiya arasında barış məsələsi söz konusu idi. Qafqazlara aid olan hər tür barış planı Abbas Mirzəni rahatsız edirdi. İlk kəz olaraq bir yabançı elçi ilə yüksək səslə, bağıraraq danışırdı. Səfirə sordu ki, bəlkə İngiltərə-Rusiya barış anlaşmasında Rusiyanın Azərbaycanı işğal etməsinə yardımçı olmanızı da boynunuza götürmüşsünüz?! Özünü kontrol edə bilməyən Şahzadə elçinin üstünə bağıraraq dedi: "Albay Arsini Qafqaz hökmdarına göndərməkdə israr etsəniz, gözətçilərə əmr edəcəyəm sınırdan keçdiyində ona atəş açsınlar"[28].

Səfir ona anlatmağa çalışdı ki, bu tür davranışı ilə ölkəsinə altından çıxması zor olan xəsarətlər yetirə bilər. Bu o demək idi ki, belə bir hadisə baş verərsə İngiltərənin Hindistandakı ordusu Bəsrə körfəzindən hücuma başlaya bilər. Səfir çox diplomatik və üstü qapalı şəkildə Şahzadəni təhdid edirdi. Şahzadə ölkəsinin geri qalmışlığının utancını yaşayarcasına təslim olmaq zorunda qalmışdı. Səfir soyuq davranışı ilə Abbas Mirzəni tərk etdi. Onun arabuluculuğu artıq təşrifatdan ötəyə keçmirdi. Barış planı hazırlanmış və Şah da razılığını bildirmişdi. 1813-cü il oktyabrın 21-də, yəni Aslanduz hadisəsinin üstündən bir il keçməsinə on gün qalanda Qarabağın Gülüstan kəndində barış aktı imzalandı. Abbas Mirzə bütün qəzəbinə və iradəsinə rəğmən "Gülüstan" müqaviləsinə qol çəkmək zorunda

---

[27] Drouville (Druvil) Gaspard, Voyage en perse pendant les annees 1812 et 1813-02 vol. St. Petersburg, 1819.

[28] James Morier "İkinci səfər".

qalmışdı. Bu anlaşmaya görə Qacar dövləti Arazın quzeyindəki torpaqlardan vaz keçir və Bakı, Gəncə, Dərbənd, Şirvan, Qarabağ ruslara verilirdi. Eləcə də Qacar dövləti Gürcüstanın işlərinə qarışmamağı üzərinə götürürdü.

## REFORMİST ABBAS MİRZƏ

## GİRİŞ

1815-ci ildən etibarən, yəni Napoleonun tarix səhnəsindən dışlanmasından sonra, artıq İngiltərə Hindistan müstəmləkəsi haqda heç bir əndişəyə qapılmamaqda idi. Bu üzdən də Qacariyyə İngiltərə üçün əski önəmini itirmişdi. Napoleonun Qacariyyəni üs kimi kullanıb və Hindistana həmlə edəcəyi daima İngiltərəni rahatsız etməkdə idi. Bu səbəbdən də İngiltərə Qacariyyə ilə ittifaqa önəm verir və onu Fransanın müttəfiqi olmaqdan kənar tutmağa çalışırdı. Napoleonun Fransadakı siyasi həyatına son verilməsi Azərbaycanın da aqibətini olumsuz yöndə etkiləməkdə idi.

Hindistandan arxayın olan İngiltərə başqa yerlərə göz tikməyə başlamışdı. İngiltərə Hindistan kimi zəngin ekonomik qaynaqlı ölkəni qorumaq üçün onun ətrafındakı əraziləri də işğal etmək istəyirdi. Bu şəkildə gələcəkdə də Hindistanı hər hansı bir gücün qarşısında onun sınırlarının çox ötəsində qorumuş olurdu. Bu üzdən də Xorasanın böyük bir bölümünü işğal etməyi planlayırdı.

Bu arada İngiltərənin Qacariyyəyə qarşı laqeydliyi Rusiyanın işğalçılıq meylini daha da artırmışdı. Bu səbəbdən də Abbas Mirzə istəməsə belə, İngiltərə ilə olan anlaşmaların ayaqda durmasından, keçərliliyini qorumasından yana idi. Özəlliklə Hind ordusunda görəv yapmış ingilis zabitləri öz yanında bulundurmaq istəyirdi. Ancaq İngiltərə Abbas Mirzənin bu istəklərinə soyuq yanaşırdı, çünkü anlaşmada üzərinə götürdüyü maddələri həyata keçirməmək istəyirdi. İngiltərə Qacariyyə ilə bağladığı müqavilədən boyun qaçırmağa çalışırdı. O sıralarda Rusiya imperatoru Aleksandr Qacariyyə ilə savaş planlarını tasarlamaqda idi. Qafqazın hakimi general Yermolov da Qacariyyəyə qarşı bəzi sınır təxribatı yapmaqda idi. Özəlliklə Abbas Mirzənin reformları Yermolovu çox qızdırmaqda idi. Savaş 1826-cı ildən öncə başlamayacaqdı. Bu illər ərzində Abbas Mirzə bəzi reformlarını həyata keçirməklə uğraşdı. Sadəcə, 1821-1823-cü illəri arasında Osmanlı ilə olan bəzi anlaşmazlıqlar onun reform hərəkətini əngəlləmişdi.

## REFORMİST ABBAS MİRZƏ

“Padşahın ikinci oğlu Abbas Mirzə İngiltərənin yardımı ilə uğurlu islahatlar həyata keçirməkdədir. Yüksək orqanizasionlu birliklər oluşdurmuşdur. Topxanası qüsursuzdur və böyük bir sürətlə də gəlişməkdədir. Təbrizdə bir dəmir əritmə mərkəzi yapdırmışdır. Ayrıca bir silah ürətim mərkəzi də çalışmaqdadır. Savaş

qalaları Avropa modelinə uyğun yapılmaqdadır. Azərbaycanın mədənlərini kullanıma hazır etmişdir. Abbas Mirzə atasının xəsisliyi üzündən maddi basqı altındadır. Ancaq özü sadə yaşamı tərcih etdiyi üçün şəxsi gəlirinin çoxunu orduya və başqa sosial xidmətlərə həsr etməkdədir..."

Bu sözləri yazan davam edir:

"Reformlar davam edir. Belə getsə yaxın gələcəkdə Qacar dövləti Avropa piyadələri səviyyəsində hərbi orqanizasiyon oluşduracaq"[29]. Bu raportu yazan Abbas Mirzənin dostudurmu, əcəba?

Əksinə, bu raportu yazan Abbas Mirzənin düşməni və Qafqazın hakimi General Yermolovdur. Qacar dövlətinin özünü savuna bilməsini mümkün edəcək bu reformlar Yermolovu rahatsız etməkdə idi. Yermolov bu reform sürəcini durdurmaq üçün Abbas Mirzənin düşmən qardaşı Məhəmmədəli Mirzə (Dövlətşahi) ilə ilişkiyə girməyi düşündü. Məhəmmədəli Mirzə yaxşının pisin fərqinə varmadan Abbas Mirzəyə qarşı düşmənçilik edirdi. Nə olursa olsun Abbas Mirzənin bütün hərəkətlərinə qarşı idi. Dövlətşahi Abbas Mirzənin yenilikçi tutumunu sevməyən bütün din adamlarını, narazı xanları öz ətrafına toplamış və Qacar soyuna mənsubiyyət duyğusundan da daha üstün hədəf təqib edirdi. Çünkü bu duyğudan yola çıxacaq olsaydı, Qacar soyundan olmayan xanları və mollaları öz müttəfiqinə dönüşdürə bilməzdi.

Abbas Mirzənin şahzadəlik məsələsi Ağaməhəmməd Xan Qacardan miras qalan Qacar Yasasına görə dəyişilməz bir durum olduğu üçün Yermolovun Abbas Mirzəni devirmə planları baş tutmurdu. Əyyaşlıqla və digər bu kimi zövqlərlə başını qatmış yaşlı Fətəli Şah isə ölümündən sonra nə olacağı haqda heç düşünmürdü. Dövlətinin özündən sonrakı taleyi ilə ilgili bir planı yox idi. Bəziləri belə söyləyirdilər ki, Şah, "tac-taxt onu əldə edə bilənin olacaqdır", - demişdir. Şah artıq çox yaşlanmışdı və hər an ölə bilərdi. Bu da Rusiyanı çox rahatsız etməkdə idi. Çünkü Şahın ölümündən sonra Abbas Mirzə tac-taxta sahib olsaydı, durum dəyişilə bilərdi. Abbas Mirzə ölkənin digər yerlərində olan, özəlliklə də Məhəmmədəli Mirzənin əmrindəki ordunu da Rusiya ilə savaşa sövq edib, əldən gedən torpaqları geri qaytara bilərdi. Yermolov bütün bu oluşumu əngəlləmək üçün bir plan gəlişdirmişdi. Plana görə Rusiyanın Gürcüstanda olan birlikləri İrəvanı işğal edəcəkdi. Bu işğalı durdurmaq üçün Abbas Mirzə birliklərini savaşa sövq etmək məcburiyyətində qalacaqdı. Bu fürsətdən istifadə edərək başkəndə dönüş yolunu qapatacaqdı və digər tərəfdən, də Məhəmmədəli Mirzənin şahlığa gedən yolunu din xadimlərinin və digər Abbas Mirzə düşmənlərinin yardımı ilə açacaqdı. Yermolov Abbas Mirzədən birdəfəlik qurtulmaq üçün belə bir plan tasarlamışdı.[30]

---

[29] Marşal Prens Paskeviç, müəllif: Prens Esçer Batov, Sanpetersburq, 1890.
[30] Eyni qaynaq.

Ordusunu modern disiplinə tabe edən, Azərbaycanda böyük reformlar gerçəkləşdirən Abbas Mirzə, savaş nə qədər gec başlarsa, o qədər ölkəsinin xeyrinədir deyə düşünürdü. Çünkü gün keçdikcə müxtəlif sahələrdə reformlar gerçəkləşdirir və güclənirdi. Bütün bu güclənməni böyük savaşın başlanacağı gün üçün hazırlıq kimi anlayırdı. Yermolov da belə anlayırdı.

Ruslar tərəfindən işğal edilən ərazilərin xanları öncə ruslarla bir şəkildə anlaşacaqlarını sanırdılar. Lakin rusların onların hər tür muxtar hərəkətlərinə qarşı sərt tutumu nədəni ilə bu xanlar Təbriz dərbarına sığınmışdılar. Abbas Mirzə bunlara Azərbaycanın müxtəlif yerlərində torpaq verərək dəstəyini əsirgəməmişdi. Lakin sonradan bu xanların arzuları böyüməyə başladı. Tehrandakı saray intriqalarına qatılıb və Şahzadəyə qarşı çıxmağa başladılar. 1825-ci ilə qədər xanlar, Şahzadənin düşmənlərinə, xüsusən onun əsas düşmənləri olan qardaşlarına çox böyük yardım etdilər. Abbas Mirzənin reformlarını öz mənafelərinə qarşı görən hər kəs bu düşmənlərin cərgəsində idi. Mollalardan tutmuş vəzirlərə, xanlara və Şahzadənin qardaşlarına qədər geniş bir kütlə Abbas Mirzənin qərbləşmə hərəkətinə qarşı idilər. Həftədə bir kəz rəiyyətlərin şikayətlərini dinləyən Abbas Mirzə düşmənlərinin ona qarşı nə kimi planlar hazırladıqlarını anlamışdı.

1815-1825-ci illər Şahzadənin ən verimli və mutlu illəri idi. O illərdə Təbrizin küçələrində, bazarlarında görünən insanların davranışlarında mutluluq və güvən sezilməkdə idi. O illərdə Təbriz Tehrandan daha əhəmiyyətli görünməkdə idi. Çünkü Təbriz tacirlər üçün daha güvənilir və para qazandıran şəhərə dönüşmüşdü. Bütün bunların səbəbkarı olaraq Şahzadəni görən Azərbaycan əhalisi Şahzadəyə öz doğma padşahları kimi baxırdılar. Təbrizin bir neçə məhəlləsində yeni hamamlar təsis edilmiş, şəhərə içməli su çəkilmiş, İstanbula mal aparan tacirlərin gecələmələri üçün yeni Karvansaralar tikilmiş və onların güvənliyi ilə ilgili hər tür önləmlər alınmış, imkanlar sağlanmışdı. Abbas Mirzə özəl həkimi ingilis Karmək vasitəsi ilə Təbrizdə ilk kəz su çiçəyi xəstəliyinin tədavisi üçün mərkəz təsis etmişdi. Bu da Azərbaycan çocuqlarının sağlığı üçün atılan ilk böyük addım idi. Abbas Mirzənin sağlıq alanındakı reformları, özəlliklə Tehrandakı baş mollaları rahatsız edir və bu tətbiqatdan küfr qoxusu gəlir deyə Şahı uyarırdılar. Lakin Abbas Mirzə düşlədiyi gəlişmiş Azərbaycanı gerçəkləşdirmək üçün bu reformların miqyasını genişlətmək zorunda idi. Bu səbəbdən də Azərbaycan əyanlarının oğullarını təhsil almaq üçün Avropaya göndərdi. Hər tür yeniliyə qapalı olan qaranlıq ruhlu ortama və Tehranın əngəlləmələrinə qarşı Abbas Mirzə böyük bir özənlə islahatlara durmadan davam edirdi. Bəzi təsisatların yapılmasına özü şəxsən nəzarət edirdi. İlk kəz olaraq Abbas Mirzə Azərbaycanda kitab yayın mərkəzi (çapxana) təsis etdirdi. Daş üsulu çapxana təsis edildikdən sonra həm yeni iş mərkəzinin açılması, həm də müxtəlif kitabların çap edilməsi baxımından Azərbaycanın başkəndi Təbriz öz tarixi statusunu dəyişdirməkdə və modernləşməkdə idi. Abbas Mirzənin bu reformları Təbrizi mədəni dünyanın bir parçası etməkdə idi. Bütün bu yeniliklər həm mənafeləri, həm də cəhalətləri

üzündən xürafi ənənələrə bağlı olan böyük mollalar ordusunu, xanları, feodalları əsəbiləşdirməkdə idi.

1820-ci ildə Xoy yeni tarixi bir hadisəyə şahid oldu. Şəhərin meydanında fəaliyyətə başlayan bir yun makinası hər kəsi heyrətləndirmişdi. Təkbaşına 20 kişinin işini görən bu makinanın Xoyda fəaliyyətə başlaması Batı həyat tərzinin, iş və işçi məfhumunun şəhərdə anlaşılmasına yardımçı olmaqda idi. Bu makinanın ürətdiyi ilk başlarda yalnız keçədən ibarət idi. Lakin bu da həm köçərilərin ehtiyaclarını bərtərəf etməkdə, həm də şəhəri ticarət mərkəzinə çevirmə baxımından çox önəmli idi. O günün ehtiyacları açısından baxıldığında bu tür işlərin nə qədər önəmli olduğu anlaşıla bilər. Abbas Mirzə böyük bir sevinclə ətrafındakılara deyirdi ki, bir gün gələcək, artıq bu tür şeyləri idxal etməyəcəyik. Azərbaycan öz istehsal imkanları ilə bütün Şərqin ehtiyaclarını təmin edəcək. Bu sözlər onun hərbçi olmasına rəğmən bir ekonomist düşüncəyə sahib olduğunu da göstərir. Tehranın ona qarşı xəsisliyinə, əngəlləmələrinə, intriqalarına qarşılıq olaraq Şahzadə biricik qurtuluş yolu kimi Azərbaycanın iqtisadi, tekniki baxımdan qalxınmasını planlayırdı. Abbas Mirzə ağlında daşıdığı böyük savaşı başlamadan öncə güclü ekonomisi, əhalisinin çoxu savadlı və Avropada təlim almış mütəxəssislərdən bərxurdar olan olan bir Azərbaycan, düşünən, düşündürən, xurafatdan arınmış fərqli bir Azərbaycan ölkəsi yaratmaq istəyirdi. Hər bir açılışda Şahzadə özü iştirak edirdi. Lakin bu açılışlardakı izdihamlarda Tehrandan dəstək alan bəzi insanlar da bu reformlara qarşı şüarlarla bağırmaqdan geri qalmırdılar. Bunlar kafir işləridir, din əldən gedir deyə bağıranları Abbas Mirzə sərt şəkildə cəzalandıra bilmirdi. Çünkü onlar böyük şəbəkə olaraq Tehran mollaları və Şahzadənin qardaşları ilə irtibatda olan insanlardı. Şahzadə onları susdurmaqla yetinirdi. Özəlliklə Azərbaycan din alimlərinin, din xadimlərinin də təsirindən yararlanırdı. Lakin heç bir şəkildə din xadimlərinə güvənmirdi. İstər azərbaycanlı olsun, istər başqa yerli. Çünkü o bilirdi ki, din xadimlərinin dəyişilməsi mümkün olmayan qaranlıq qafaları elmə, bilgiyə və yeniliyə qarşıdır. Ən önəmli reformlardan biri də Azərbaycanın şəhərləri və kəndləri arasında itizamlı post şəbəkələrini qurması idi. Bu yeni şəbəkədə çaparlara gərəkən bütün ehtiyaclar nəzərə alınmışdı. Mehmanxana kimi istirahət evləri, münasib yeməklər, çaparlıq üçün uyğun atlar və digər bu kimi ehtiyaclar reformlara nəzarət edən heyət tərəfindən yoxlanılmış və Şahzadəyə bilgi verilmişdi. Rəiyyətlərin toyuğunu, yumurtasını vergi olaraq zorla alan kənd ağaları Abbas Mirzənin təhdidi üzərinə bu işlərindən vaz keçmişdilər. Vaz keçmişdilər, ancaq reform düşmənləri cərgəsinə qatılmışdılar. Şahzadə Azərbaycanın sınırları ötəsində də hörmət qazanmışdı. Bəzi böyük şəxsiyyətlər və ölkədə karizması olan bir çox insan da ona dəstək verirdi. Bunlardan ən önəmlisi tarixi kitab olan "Maaser-e Sultani"nin (Padşahanə xatirələr) müəllifi idi. Keçən səhifələrdə bu şəxs haqqında bilgi verilmişdir. Bu şəxs Dənbəli xanidanı soyundan idi.

***

1805-1826-cı illər arasında o qədər səfir Tehrana və Təbrizə gəl-get etdi ki, onların hamısının adını saymaq yorğunluğa səbəb olar. Lakin bütün bu səfirlərin yazdığı xatirələr, Abbas Mirzə ilə bağlı verdikləri bilgilər, bizim, Şahzadə haqqında gerçək məlumat sahibi olmamıza yardımçı olmaqdadır. Bu bilgilər o dönəmin özəlliyini, Şahzadənin xarakterini, ideallarını və təsəvvürlərini öyrənmə açısından açar rolu oynamaqdadır. Bu arada İngiltərə, Rusiya, Fransa gizlin servislərinin Qacariyyənin gələcəyi ilə ilgili olaraq mərkəzi kəşfiyyatlarına verdikləri bilgilər və raportlar diqqəti cəlb etməkdədir. Hər üç dövlətin gizlin kəşfiyyatlarının raportlarına görə Abbas Mirzə padşah olduqdan sonra Qacariyyənin başkəndi Tehrandan Təbrizə daşınacaqmış. Bunun üçün isə bir çox gerçək verilərə dayanan məntiqi dəyərləndirmələri mövcud idi: 1. Abbas Mirzə Təbrizlə özdəşləşmişdir. Öz çevrəsini Təbrizdə qurmuşdur. O, artıq bütün yardımçılarını və iqtidar ekipini Təbrizdə oluşdurmuşdur və bu ekipi ilə ölkə genəlində iqtidarını tətbiq etmək istəyəcək. 2. Abbas Mirzə Təbrizin gəlişməsi ilə bağlı çox işlər görmüşdür. Bu işləri özünün gələcək başkəndi olaraq düşlədiyi şəhər üçün görməkdədir. 3. Fətəli Şahdan sonra şah olacaq Abbas Mirzə üçün ən uyğun iqtidar mərkəzi Təbriz olaraq görünməkdədir. Çünkü Təbriz mərkəzli bir iqtidar sahibi olan Abbas Mirzə həm rəqiblərini asanlıqla ortadan qaldıra bilər, həm də Azərbaycanda başlatdığı reformunu ölkə genəlinə daşıya bilər. 4. Abbas Mirzə özünü Azərbaycana çox borclu bilməkdədir. Bu borcluluğun qarşılığı olaraq başkəndi Azərbaycana daşımaq kimi gizlin fikrini söhbətləri sırasında sezmək mümkündür. 5. Abbas Mirzənin Azərbaycanda gerçəkləşdirdiyi reformlar səbəbi ilə artıq xarici ölkələr də Təbrizə gələcəyin baş kəndi kimi baxmaqdadırlar. Özəlliklə dünyanın böyük gücləri Təbrizi başkənd olaraq görəcəklərinə indidən alışmışlar. Çünkü onlara görə başkənd Təbriz olacağı təqdirdə bu ölkə ilə diplomatik münasibətlərin saxlanılması daha rahat şəkildə olacaqdır. Təbrizdəki reformlar səbəbi ilə bu şəhər həm Tehrandan, həm də digər şəhərlərdən daha çox Qərb mədəniyyətinə yaxınlaşmışdır. Şəhərin qərbləşməsi üçün altyapı Abbas Mirzə tərəfindən hazırlanmışdır. Bu da onun başkənd olması ilə ilgili olaraq uluslararası baxışın və əfkar-i ümuminin sağlanması anlamındadır.

Təbrizi ziyarət edən bir çox səfirlər Şahzadənin yanında həddi-buluğa çatmış iki oğlunu və bir də gənc bir qardaşını görməkdələr. Şahzadə bu gənc qardaşını öz oğulları qədər çox istəyirmiş. Məlik Qasim Mirzə adında olan Abbas Mirzənin bu qardaşı sonralar Urmunun hakimi olacaqdı. Onun haqqında Kont de Sers çox xoş sözlər söyləmişdir. Abbas Mirzə boş zamanlarını onlara həsr edir və təhsilləri ilə maraqlanır, müəllimlərindən bilgi alırdı. Abbas Mirzənin kiçik oğlu Cahangir Mirzə atasına bir çox səfərlərdə eşlik edir, olayları vaqeə-nevis kimi qələmə alırdı. Ondan "Tarixe no (Yeni tarix)" adında bir kitab miras qalmışdır.

Dağlıq kəndlərdə yaşayan kəndlilər belə, Şahzadənin istiqbalına varmaqdan çəkinmirdilər. İngilis diplomat Ker Porter bir kürd qaçaqçılarının başçısından eşitdiyi sözləri bu şəkildə qələmə almaqdadır: "Şahzadənin əmniyyət və güvən

sağladığı kənd adamları Şahzadə keçərkən bütün ailələri ilə bir yerdə onun istiqbalına varır və ona dua edirdilər. Şahzadə bu yoxsul kəndlilərdən sovqat almağı yasaqladığı üçün onlar Şahzadəyə yaşıl yarpaq verir, yollarına gül səpirdilər. Lakin elə bu kəndlilər bilsəydilər ki, Kirmanşahın hakimi bu tərəflərdən keçməkdədir, qorxularından ən qorxunc dərələrdə qaçıb gizlənərdilər".[31]

Kürdlər xırman vaxtı gizləndikləri yerlərdən çıxıb Azərbaycan kəndlərinə hücum edib, talan edirdilər. Abbas Mirzə bunlarla həm silahlı savaşa girir, həm də bir çox kürdləri başqa yerlərə köçürüb, onlara tarımla uğraşmaları üçün torpaq verirdi. Ancaq hərbi birliklərə də onlara diqqət etmələrini əmr etmişdi. Urmu kəndlərini kürd qaçaqçılarının yağmalamasından qurtaran Abbas Mirzəyə Azərbaycanın bu bölgəsində ayrıca bir sevgi var idi. Bu bölgələr həm də Avşar soyunun bol olduğu yer idi. Çox məğrur davranan Avşarlara Abbas Mirzənin ehtiyacı var idi. Süvariliyi bir kültür olaraq ta qədimdən özləri ilə bərabər daşıyan Avşarlar Abbas Mirzənin istəyinə müsbət cavab verib ordunun süvarilər qisminə qatılırdılar. Abbas Mirzənin çətin günlərində də bəlli oldu ki, Avşarlar ənənələrdən gələn ehtiraslarını öz içlərində boğaraq Şahzadənin islahatlarına qarşı çıxmamışlar.

***

1817-ci ildə Qafqazın hakimi general Yermolov Qacariyyəyə bir elçi göndərmə konusunda mərkəzi razı sala bildi. Yermolov, Qacar dövləti haqqında hər kəsdən daha çox bilgili olduğunu iddia edirdi. Bu üzdən də Rusiyanın Qacariyyə ilə olan ilişkilərini ən doğru şəkildə yürüdəcəyini düşünürdü. Yermolovun hədəfi Qacariyyənin Rusiya ilə sınır şəhərlərində konsulluq açmaq idi. Digər tərəfdən, Rus ordusunun Mavəra-ün Nəhrə (Çay ötəsinə) hücum etməsi üçün Xorasandan keçməsi haqda Şahı ikna etmək istəyirdi. Lakin Yermolovun gizlin saxladığı ən mühüm amacı Osmanlıya qarşı Qacariyyə ilə ittifaqa girmək istəməsi idi. Onun heç bir istəyi gerçəkləşmədi. Şah Osmanlıya qarşı Rusiya ilə ittifaqa girmək istəmirdi, Abbas Mirzədə də belə bir istək yox idi. Digər tərəfdən, Rus ordusunun Xorasandan keçməsinə nə Şah, nə də Abbas Mirzə razı oldular, çünkü ordunun buradan keçərkən bu torpaqları işğal etməyəcəyi konusunda heç bir qarant yox idi. Konsulluqların açılması isə bir sürə sonraya ertələndi.

Yermolovun Moris Dukutezbov adlı çox önəmsiz bir katibi bu səfəri ayrıntıları ilə qələmə almışdır. Bu katibin yazdığından anlaşılır ki, o, Yermolovla Şahzadə arasındakı düşmənlikdən xəbərsiz imiş.

Rus heyətinin yolu İrəvandan keçməkdə idi. Bu heyət 1807-ci ildən etibarən İrəvan əyalətinin elbayı olan Hüseyn Xan Sərdar vasitəsi ilə Qacar dövləti ilə təmasa girməkdə idi.

Həm Təbrizdə, həm də Tehranda Birinci Aleksandrın səfirini böyük bir istiqballa qarşıladılar. İstiqbalın möhtəşəm olmasının ən böyük səbəbi Qacar

---

[31] Ker Porter. "Travels in Georgia, Persia, etc. London." 1821.

dövlətinin Rusiyanın təkliflərinin heç biri ilə razılaşmaması idi. Digər tərəfdən, Abbas Mirzə fürsətdən istifadə edib öz ordusundakı yeni düzən və disiplini düşmənin elçisinə göstərmək istəyirdi. Səfir Təbrizin bir neçə ağaclığında sadə bir törənlə qarşılanmadı. Qırx top, səksən süvari və səkkiz min piyadə ilə qarşılandı.[32]

Şahzadə, Təbrizdəki sarayında elçini qəbul etdi. Bu saray Şahzadəyə bağışlanan Təbriz əyanlarından birinə mənsub idi. Şahzadənin bir neçə addım arxasında artıq çox yaşlanmış Qaimməqam görünməkdə idi. Elçi, Şahzadəyə İmperatorun öz dəst-xətti ilə yazılmış məktubu verdi. Heyət, Şahzadəni tərk etdiyində, Abbas Mirzə olduğu yerdə durdu və sadəcə, əlləri ilə vida əlaməti göstərib əl sallayaraq, onları yola saldı. Yermolov heç bir şeyi qaçırmadan diqqətə alırdı. Çünkü o, Moskvaya yazdığı raportlarında "Abbas Mirzə reformlarında başarılı olur və güclənirsə Rusiyaya qarşı savaş açacaq" kimi öngörülərdə bulunmuşdu. Abbas Mirzə Yermolovun gəlişi üçün topların atəş edib və gözlə görünə biləcək bəlli hədəflərin vurulmasını istəmişdi. Özü də topçu olan Yermolov, Abbas Mirzənin topçularının bu qədər dəqiq olduqlarına görə duyduğu şaşqınlığını gizlədə bilmirdi.

Dukutezbovun verdiyi bilgilərə görə o zaman Şahzadənin yanında bulunan Hind ordusuna mənsub ingilislər də varmış. O, bu adamların adını bu şəkildə yazmaqdadır: Albay Lindsi, Albay Mekintaş, Minbaşı Hart, Yüzbaşı Vilak* və Doktor Karmək. Rusiya heyəti bunlarla daha yaxın münasibət qurmağa çalışdı.

1814-cü il İngiltərə-Qacariyyə anlaşmasına görə Hindistan ordusuna mənsub albaylar Şahzadənin yanında bulunmalı və təcrübələrini ordunun eyitimi üçün səfərbər etməli idilər. Şahzadə bu albayları daima yanında bulundururdu. Ancaq Vilak həm də bunun ötəsində öz dövlətinə daha başarılı olduğunu, başqa işlərin də öhdəsindən gələ biləcəyini göstərmək istəyirdi. Bu üzdən də Hind ordusundan gəlmiş heyətin geri dönüşü üçün hər tür çaba göstərməkdə idi və sonunda da bu işi başardı. Vilakın Abbas Mirzə ilə yaxşı münasibəti yox idi. Bu illər ərzində Şahzadə Vilak heyətindən Şərq dilləri uzmanı olan Dromond Kəmpil adında bir doktorla dostluq münasibəti qurmuşdu. Eləcə də Ker Porterlə yaxın münasibəti var idi. Ker Porter boş vaxtlarında rəssamlıqla məşğul olurdu.

Ker Porter 1820-ci ildə Şahzadənin yanında Təbrizdən Tehrana yolçuluq etmişdi. Uzun yolçuluq onları bir az bir-birinə yaxınlaşdırmışdı. O, öz xatirələrində bu səfərlə ilgili geniş bilgi verməkdədir. Yol boyunca Şahzadə Napoleonun devrilməsindən duyduğu rahatsızlığı etiraf etmişdi. Ker Porter bu yolçuluq əsnasında Şahzadənin bəzi törələrə qarşı duyduğu nifrəti də öyrənmişdi. Özəlliklə Şahzadə bəzi böyük vəzifəli şəxslərin qarşısında heyvan qurban kəsmə törəsinə nifrət edirmiş. Şahzadə vardığı yerlərdə qurban kəsməni yasaqlamasına qarşı,

---

[32]Ker Kurper, "Persia səfəri", 2-ci cild.

*Vilakın qardaşı İngiltərənin nümayəndəsi olaraq Fətəli Şahın yanında bulunmaqda idi. Sonrakı səhifələrdə onun haqqında bilgi veriləcəkdir.

yolboyunca ona hədiyyə edilən təmiz bal və bəzi incə qabları böyük zövqlə qəbul edirdi. Ker Porter Şahzadənin Təbrizdəki sarayında Doktor Dulafos adında bir yabançı ilə də tanış olur. Lakin bir çox dünya ölkələrini gəzmiş bu yabançının milliyyəti haqqında bilgi verməməkdədir. Uzun yolçuluqdan dolayı ortaya çıxan yorğunluq yolçuluğun düzənini pozmuşdu. Karvanın çox önündə yürüyən Şahzadənin qadınları bir sürəliyinə başqa yolçularla bərabər yolçuluq etmək zorunda qaldılar. Onlar dörd xanım idi. Gözəl atlar üstündə, zərrin paltarlar geymiş bu qadınların surətləri də örtülmüşdü. Çox qısa sürəliyinə bərabər yürüyən yolçuluqdan sonra təkrar onlar önə varıb və gərəkən məsafəni aldılar. Şahzadə elə bir tutum izləməkdə idi ki, kimsə onun ailəsi haqda intriqa qaynağı olacaq bilgi edinəməsin. Bu səbəbdən də o günə qədər kimsə Ker Porter qədər onun ailəsi haqda bu qədər bilgi edinəməmişdi. Sultaniyyəyə çatdılar. Sultaniyyədə Şahzadə, Ker Porterə bu yer haqda bilgi verdi ki, bu əski şəhər təqribən beş yüz il öncə Xudabəndə adı ilə bilinən Sultan Ulcayto tərəfindən təsis edilmiş, lakin bütün cəhtlərə rəğmən bu şəhər torpağa batmış, yox olmuş və ondan sadəcə, bəsit görüntülər miras qalmışdır. Ker Porterin verdiyi bilgilərdən anlaşılır ki, o zaman Zəngan möhkəm qalalarla çevrələnimş kiçik bir şəhər imiş. Porter, Abbas Mirzənin qardaşlarının ona qarşı olan həsədləri haqda da bilgi verməkdədir. Xəmsə*nin elbayı (varisi) Abbas Mirzənin kiçik qardaşlarından biri olan Abdulla Mirzə idi. Baxmayaraq ki, Abbas Mirzənin vəliəhd olduğunu bilirdi və kural icabı vəliəhd burdan keçərkən onun istiqbalına varmalı idi, lakin Abbas Mirzəni qarşılamasın deyə, Xəmsəni tərk edib, Tehrana getmişdi. Bu da Şahzadəyə qarşı böyük bir həqarət sayılırdı. Abbas Mirzə bu həqarətə etinasız qalmadı. Zənganda bulunduğu müddətcə heç bir hədiyyəni qəbul etmədi və lazım olan şeyləri özü aldırtdı.

Ancaq Qəzvində böyük bir istiqbal törəni gerçəkləşdi. Qəzvinin elbayı Əlinağı Mirzə böyük bir törənlə böyük qardaşının istiqbalına vardı. İki qardaşın görüş zamanı bir-birlərinə göstərdikləri ilgi onların qarşılıqlı səmimiyyətlərini ortaya qoymaqda idi.

Kərəc, Tehranın qırx ağaclığında və eyni adlı bir çayın kənarında yerləşmişdi. Fətəli Şah səltənətinin ilk illərində burada böyük bir şəhər yapdırmaq istəmişdi. Lakin sonradan bu istəyindən vaz keçmişdi. Bu gün Kərəcdə Qacar dönəminə aid olan əsərlərdən sadəcə, Süleymaniyyə sarayının qalıqları qalmaqdadır.

Süleymaniyyəyə çatdıqlarında Abbas Mirzə çox dalğın görünürdü. Ker Porter, Abbas Mirzənin belə əndişəli görünməsinin səbəbini Doktor Dulafusdan sorur. Məlum olur ki, Şahzadənin əndişəli görünməsinə səbəb olan onun özəl həkimi Doktor Kəmpilin ağır xəstə oluşu imiş. Bir neçə Doğu dillərini bilən Doktor Kəmpil ağır xəstələnmiş və ölüm yatağında yatmaqda idi. Doktor Dulafus və Ker Porter Kəmpili yaxından görüb halını bilmək üçün onun ziyarətinə getdilər.

* Xəmsə Əraka yaxın kiçik bir əyalət idi.

Hər ikisi onu gördüklərində sağalacağına dair ümüdlərini itirdilər. Lakin yenə də Kəmpil onların gəlişinə sevinmişdi. Onlar xəstədən ayrılmaq zorundaydılar. Çünkü Abbas Mirzə ilə bərabər Tehrana getməliydilər. Abbas Mirzə Kəmpilin sağalma ehtimalının olmadığını onlardan eşitdikdən sonra daha çox üzüldü. Abbas Mirzə özəl həkimi Kəmpilin ziyarətinə getdi. Ona sağalma və sağlıq diləklərini ilətib ayrıldı, Tehrana yola düşdü. Yol yarı olmadan Kəmpilin ölüm xəbərini ona söylədilər. Abbas Mirzə üzünü ingilislərə tutaraq dedi: Bilmirəm qürbətdə can verən sizin yurddaşınız üçün, yoxsa öz dostumun ölümü üçün ağlayım. Müsafirlər Abbas Mirzənin gözlərindən axan yaşa tanıq oldular.

***

Vəliəhd yay aylarını Xoyda keçirir və ordusunun böyük bir bölümü şəhərin kənarında yerləşirdi. Onun hər ilin yayında Xoyda olması bu şəhərin böyüməsinə, ticarət mərkəzi olmasına səbəb olmuşdu. Şəhərdə bir çox ağac əkilmiş və şəhərin görünümü qısa bir müddətdə dəyişmişdi. Abbas Mirzə üçün Xoy ayrıca hərbi bir önəm daşımaqda idi. Çünkü daima savaşa hazır halda bulundurduğu ordusunun eyitimi və məşqləri bu şəhərin çevrələrində olurdu.

1806-cı ildə Osmanlı paşaları ilə savaşa dönüşən ixtilaf hələ də həll olmamış qalmaqda idi. Zamanla bu ixtilaf böyüməyə başlayıb və 1821-ci ildə geniş çaplı savaşa dönüşdü, ancaq bu dəfəki lokal bir savaş deyildi. Savaş Quzey batıdan Güney Batıya qədər uzun bır sınır boyunca başlamışdı. Kirmanşahın elbayı (valisi) Məhəmmədəli Mirzə Dövlətşahi böyük bir təərrüzə başlamışdı. Dövlətşahi öz süvarilərini sürətlə sınıra çatdırmağı başarmış və çox asan müvəffəqiyyət əldə etmişdi. Çünkü qəflətən hücuma uğrayan Bağdad elbayı Davud Paşa həm hazırlıqsız yaxalanmışdı, həm də qarşı qoya biləcək önəmli gücü yox idi. Qacar tərəfi bu savaşa çox hazırlanmışdı. Burada belə bir sual ortaya çıxır ki, bu qədər iqtidar hərisi olan Dövlətşahi nədən Bağdadı işğal etməmişdir? Əcəba, xarici dövlətlərin müdaxiləsimi olmuşdur, yoxsa İraq din xadimlərimi bu savaşa qarşı çıxmışdılar? Çünkü Şiə inancının önəmli rəhbərləri bu ərazilərdə uyumaqdadır. Bu şəhərləri savaş yolu ilə ələ keçirmək üçün Hülakü Xan qədər dinsiz olmaq gərəkirdi. Lakin Dövlətşahi şiə gələnəklərinə çox bağlı idi. Din xadimlərinin fətvaları ilə hesablaşırdı. Özəlliklə də Abbas Mirzənin yerini almaq üçün din xadimlərinin dəstəyini almış durumda idi. Əcəba, din xadimlərimi Dövlətşahinin İraqı savaşla istila etməsini önlədilər? Nəcəf və Kərbəla kimi şəhərlərin top atəşinə tutulması şiə məzhəbinin müqəddəsatına toxunmaq anlamında idi. Lakin bütün bu dəlillərin ötəsində ən önəmli məsələ onun cismi vəziyyətinin dəyişməsi idi. O zaman 35-36 yaşlarında bulunan Dövlətşahi çox güclü bünyəsi ilə məşhur idi. Ancaq ürək ağrısı onu yaxaladı və çox keçmədən ağır bir qızdırmaya mübtəla oldu. Bu üzdən də Bağdad paşası ilə böyük savaşa girmədən geri dönmək zorunda qaldı. Geri dönüb və xəstəliyinə şəfa axtarmaq istəyirdi. Kərənd kəndində hiss etdi ki, ölmək üzrədir. Bu kənddə köhnə və artıq istifadə edilməyən sökük bir qalanın divarlarına söykənib can verdi. Onun cəsarəti və şücaəti inkaredilməz idi, lakin

həsəd onu məhv etmişdi. Dövlətşahinin ölümü Abbas Mirzəni ona qarşı yönəlmiş həsədlərdən rahat etmədi. Dövlətşahinin həsəd mirasını başqa qardaşları daşımaqdaydılar.

Ancaq bu savaşın önəmli qismi Qars, Bayəzid, Ərzurum çevrələrində getməkdə idi. Savaşa səbəb olan problemləri diplomatik yolla da çözmək mümkün idi. Lakin Osmanlı tərəfi savaşmaqda qərarlı görünürdü. Özəlliklə də kürd qaçaqçılar Azərbaycan kəndlərini talarkən Osmanlı tərəfindən dəstək görürdülər. Azərbaycan tacirləri soyulur və kəndlilərin, köçərilərin sürüləri qarət edilirdi. Bütün bu soyğunçular isə Osmanlı ərazisində yaşayan kürdlər idi. Qacar dövlətinin bunları önləmə uyarılarına Osmanlı diqqət etmirdi.

Abbas Mirzə bu dildaş qonşu ilə savaşmaq istəmirdi. Bu üzdən də barış yolu ilə məsələnin həllinə çalışırdı. Lakin 1807-ci ilin payızından etibarən İrəvanın elbayı olan Sərdar Hüseyn Xan belə düşünmürdü. Çünkü İrəvan elbayı üçün Osmanlı ilə savaş daha faydalı idi. Sonralar bəlli olur ki, Rusiya da İrəvan elbayını bu savaşın böyüməsinə təhrik etmiş, vədlərdə bulunmuşdur. Bu illər ərzində İrəvan elbayının imkanları böyümüşdü. Özəl strateji önəmi olan İrəvan üçün Fətəli Şah da diqqət yetirməkdə idi. İrəvanın güclü olması Rusiyaya qarşı çox əhəmiyyətli idi. Ruslar İrəvanda birikmiş bu savaş imkanlarını Osmanlıya qarşı kullanıb ortadan qaldırmaq istəyirdilər. Çünkü Rusiyanın sonrakı planlarına qarşı İrəvandakı hərbi üslər təhdid ünsürü kimi görünürdü.

Hüseyn Xan Qəzvində yaşayan Qacar soyunun bir boyuna mənsub idi. Lakin zəngin bir soydan deyildi. Ancaq savaş qabiliyyəti yüksək olduğu üçün Ağaməhəmməd Xan zamanından müxtəlif postlarda olmuş, tərəqqi etmiş və nəhayət, İrəvan elbaylığına qədər yüksəlmişdi. İşini qulluqçuluqdan başlayaraq genişlətmişdi. Morier onu 1814-cü ildə görmüşdür. Bu zaman çox yaşlı olan İrəvan elbayı hələ də gənclik duyğusundan məhrum deyilmiş. Hüseyn Xan kəsinliklə Abbas Mirzədən xoşlanmırdı. Şahzadənin reformları onu çox əsəbiləşdirirdi. Çünkü Azərbaycandakı həyat tərzinin yaxşılaşması bir gün Fətəli Şahı təhrik edə bilərdi ki, İrəvanın da yönətimini Azərbaycanla bir yerdə Abbas Mirzəyə tapşırsın. Bu üzdən də Abbas Mirzəyə qarşı için-için düşmənçilik duyğusu bəsləməkdə idi və intiqam almaq üçün münasib fürsət axtarırdı. Anadolunun köçəri türk Heydəranlu tayfası bir neçə bahar idi ki, sürülərini gətirib Səlmasın örüşlərində otarırdı. Hüseyn Xan bunu ən uyğun savaş aracı kimi kullanaraq onları əziyyət etməyə başladı, buna qarşılıq isə Ərzurum elbayı Məhəmməd paşadan gəldi. Məhəmməd paşa bu torpaqları Osmanlıya qatmaq istədi. Məhəmməd paşa deyirdi ki, Heydəranlu tayfasının çoxu orada yaşayır. Bu üzdən də bizim sürülərin oralarda otlamasına müsahidə edilməlidir. Abbas Mirzə öncə barış yolunu dənədi. Bu səbəbdən də Təbrizin böyüklərindən birisini heyətlə bərabər müzakirə üçün göndərdi. Lakin Məhəmməd Paşa elçi ilə çox pis rəftar etdi. Onların əllərinin bağlanıb zindana atılması əmrini verdi. Abbas Mirzəyə də bir məktub yazaraq yenə də iddia etdi ki, o torpaqlar Osmanlıya aiddir.

Abbas Mirzə savaşa girmək üçün atasından izn istədi. Abbas Mirzə Azərbaycan ordusuna hücum əmri verdi. Osmanlı paşası bu miqyasda həmləni gözləmirdi. Abbas Mirzənin ordusu qısa sürədə Səlmasın civarını Osmanlılardan boşaltdi. Öz hücumunu davam edən Şahzadə Van və Çaldıranı da ələ keçirdi. Özəlliklə Çaldıranda Osmanlı ordusu böyük məğlubiyyətə uğradı, bir çox əsir alındı və iki qəbzə top da ələ keçirildi. Savaş əsnasında Şiə din xadimlərinin anlaşaraq verdikləri fətvalar ortaya çıxdı. Din xadimlərincə müsəlmanlar arasında savaş olmamalı idi. Bu savaş davam edərsə İslamın düşmənləri bu durumdan yararlana bilərdi. Din xadimləri tərəfindən gələn bu yoğun barış istəkləri üzərinə Abbas Mirzə bütün Osmanlı əsirlərini heç qarşılıq istəmədən sərbəst buraxdı. Lakin Şahzadənin bu davranışı sərəsgəriyə[**]yə təsir etmədi. Paşa bir tərəfdən Torpaq qalanı ələ keçirmək istərkən, digər tərəfdən, də Ərzurumda güc birikdirirdi. Bütün yaxın şəhərlərdən Paşa üçün yardım gəlirdi. Çox keçmədən bəlli oldu ki, Məhəmməd Paşa əlli min nəfərlik bir ordu təşkil etmiş və böyük hücuma hazırlaşır.

Abbas Mirzənin Xoyda barındırdığı ordusunun sayı çox deyildi. Verilərə görə Şahzadənin Xoydakı ordusunun miqdarı on mindən artıq deyilmiş. Abbas Mirzə Təbrizdən və başqa yerlərdən yardıma gələn ordunu bəkləmədən bu ordunun komutanlığını üstlənib hücuma başladı. Çox böyük bir sürətlə Osmanlı sınırlarını basıb keçdi. Şahzadə, savaşı Osmanlı torpaqlarında davam etmək istəyirdi. Özəlliklə Ərzuruma gəlməkdə olan Osmanlı birlikləri bu şəhərə çatmadan Ərzurumu ələ keçirmək istəyirdi. Şahzadə, Osmanlı ordusunun həm texniki, həm düzən və həm də kəmiyyət olaraq Qacar ordusundan daha üstün olduğunu bilməkdə idi. Bu üstünlüyü sürətli bir əməliyyatla ortadan qaldırmaq istəyirdi. Şahzadənin ordusu gündə otuz ağac irəli gedirdi. Bu da Fransa heyətindən miras qalan təlimatın məhsulu idi. Bu savaş Abbas Mirzənin planladığı kimi yürüdü. Şahzadə bu savaşda qalib oldu. İngilis tarixçilərin yazdığına görə durum belə olunca Osmanlı tərəfi barış təklifində bulunmuş. Osmanlı tərəfindən önərilən barış planının ilkin maddəsində Abbas Mirzənin Osmanlı torpaqlarını tərk etməsi qeyd olunurdu. Abbas Mirzə hər an rusların hücumunu göz önündə bulundurduğu üçün bu təklifi qəbul edib və geri çəkildi. Abbas Mirzə savaşın davam etməsindən yana deyildi. Çünkü savaş davam etdikcə rusların qarşısında savunma gücü də azalırdı. Abbas Mirzə özünü və ordusunu məğlub olduğu savaşın intiqamını ruslardan almaq üçün hazırlayırdı. Barış anlaşması 1823-cü ildə "Ərzurum müqaviləsi" ilə sonuclandı. Bu müqaviləyə görə hər iki tərəf bir-birlərinin sınırlarını rəsmən tanıyırdılar.

1821-1823-cü illər Osmanlı-Qacar savaşının ayrıntıları haqda Abbas Mirzədən qalan bir neçə məktub bilgi verməkdədir. Bir Azərbaycan ordusu əsgərinin ən az üç Osmanlı əsgəri ilə savaşdığı bu savaşın ayrıntıları haqda ən

---

[**] Sərəsgəriyə Osmanlıda sınır şəhərlərin vali paşalarına verilən ləqəbdir.

mötəbər bilgi sadəcə, Şahzadənin ömrünün sonlarında yazdığı bir neçə məktubda əyan olmaqdadır. Bu məktublar da olmasaydı Azərbaycan ordusunun necə və nə şəkildə qalib gəldiyi sirlər dumanlığında qalacaqdı. Abbas Mirzədən miras qalan otuz məktubdan ancaq üçü bu savaş haqqında ipucları verməkdədir. Bu məktubların bəziləri tam savaş meydanında yazılmış bir psixolojini andırmaqdadır. Şahzadə, Çobanoğlu adında bir savaş meydanından ad çəkməkdədir ki, bu ad sadəcə, Abbas Mirzənin məktublarında və bir də General Paskeviçin xatirələrində qeyd olunmaqdadır. Başqa heç bir qaynaqda bu ada rastlanılmamaqdadır. Abbas Mirzə, oğlu Məhəmməd Mirzəyə yazdığı məktubunda Çobanoğlu savaş meydanındakı zəfərini Laçın Xan ləqəbli bir komutana borclu olduğunu yazır.[33] Laçın Xan ləqəbli bu Azərbaycan ordusu komutanlarından olan bir nəfər adının və kimliyinin gizlin qalmasını və yalnız ləqəbinin bəlli olmasını Abbas Mirzədən xahiş etmişdir! Ancaq Abbas Mirzə öz məktublarında bu komutanını o qədər önəmsəyir, onun haqqında o qədər qürurla danışır ki, belə bir şəxsiyyətin tarixdə məchul qalması adamı heyrətləndirir. Bu böyük insan kim imiş ki, heç şöhrət arxasınca olmadan Azərbaycan üçün bu qədər fədakarlıq etmiş, baş komutandan da istəmiş ki, onun adı gizlin qalsın və yalnız lazım gəldikdə ləqəbi tələffüz edilsin. Tarix bu tür şəxsiyyətlərə az rastlamışdır. Böyük bir imperatorluğun, Osmanlı ordusunu məğlub edən bir komutan adının çəkilməsini istəməmişdir!

Bu şəxsiyyətin kimliyi haqqında təsbit və təsəvvürdə buluna bilməmiz üçün 19-cu əsrin əvvəllərindəki olayları incələməmiz lazım olacaq. Yəni Şərqi Gürcüstanın Rusiyaya ilhaq edildiyi zamanlara dönməmiz gərəkəcək.

Birinci Erklinin oğlu Şahzadə Aleksandr Mirzə öz qardaşı oğlu Təhmurəslə Qacar dövlətinin ərazisində yaşaya bilmələri üçün Fətəli Şahın iznini almışdı. Onlar Qarabağ savaşı zamanı Təbrizdə yaşayırdılar. Şahzadə ilə çox yaxın münasibətdəydilər. Bu mühacirlərin yalnız olduqlarını və ya Abbas Mirzənin sarayında özlərini utanqac qonaq kimi aparmalarını, məğlub və aşağılıq kompleksi içində olduqlarını düşünmək yanlışdır. Tərsinə, Baqratiyon şahzadələri öz ailə üzvləri ilə bərabər tərəfdarlarını da gətirmişdilər. Bunların bir neçə yüz süvari oluşdura biləcək imkanları varmış.

Keçən səhifələrdə də gördüyümüz kimi, Şah və Abbas Mirzə Şərqi Gürcüstandakı xalq ayaqlanmaları qiyamlara çox ümid edirdilər. Gürcüstandan Qacariyyəyə ilk mühacirət Qacar-Rusiya savaşı zamanı başladı.

İllər keçdi və Qacariyyə zəfər qazanmaq yerinə böyük məğlubiyyətlərə məruz qaldı. Gülüstan müqaviləsi də imzalandı. Lakin Abbas Mirzənin Baqratiyon şahzadələrinə qarşı olan hörməti heç azalmadı. 20 il boyunca Təbrizdə yaşayan Baqratiyon şahzadələri artıq Azərbaycan kimliyinə alışmış və Azərbaycanın bir

---

[33]"Əhvalat və dəst xətthaye Abbas Mirzə" (Abbas Mirzənin əhvalatı və əl yazıları). Bu məktublar Tehranın Milli Kitabxanasında saxlanmaqdadır.

parçası olmuşdular. 1821-1822-ci illər arasında Abbas Mirzə Osmanlı ilə savaşarkən Baqratiyon ailəsinə mənsub başqa bir şahzadə də Abbas Mirzəyə gəlib və onu qəbul etməsini istədi. Abbas Mirzənin duz-çörəyini dadıb və onun duz-çörəyinə sadiq qalacağına and içdi. O, XII Qeorgi oğullarından birisi idi. XII Qeorgi Gürcüstana hökm edən son əmir idi. Bu şahzadə Gürcüstanda ruslara qarşı dirənənlərə qatılmış, ancaq bu tür mübarizə ilə o böyük və qocaman imperatorluğun geri püskürtülməsinin mümkün olmayacağını anlamış və ölkəsini tərk edib Təbrizə yola düşmüşdür. Lakin o zaman Qacariyyə ilə Rusiya savaş halında olmadıqları üçün bu işini gizlincə görməkdə idi. Əlbəttə, bu şahzadə bir çox yandaşları ilə bərabər gəlmişdi. Hətta sınırdan keçərkən ruslar onların məğlubedilməz və vur-qaç savaşının uzmanları olan köçərilər olduqlarını sanmış və işləri olmamışdır.

Bu gürcü şahzadəsinin öz kimliyini gizlin saxlamasının başqa bir səbəbi də var idi. O, Gürcüstanda qalan övladını öz zəngin mirasından məhrum etmək istəmirdi. Çünkü onun Rusiyanın ən sevimsiz düşməni Abbas Mirzənin yanında olması bəlli olsaydı, ruslar dərhal onun mal varlığına əl qoyacaqdı. Bu üzdən də Azərbaycan ordusuna qatıldığında Azərbaycanda çox yayğın olan və bahadurluq anlamı daşıyan Laçın Xan ləqəbini almışdır. Laçın Xan bir tərəfdən Azərbaycanda yaşaya bilməsi üçün Abbas Mirzədən xahiş etmişdi ki, onun haqqında Fətəli Şahla danışsın, digər tərəfdən də kimliyinin açıqlanmaması üçün ricada bulunmuşdu.

1823-cü ilin yayına dönəlim. Abbas Mirzə öz ordusunu Çobanoğlunda yerləşdirmişdi. Ancaq Abbas Mirzənin məktublarının incələnməsi ilə Çobanoğluna hakim olan rahatsızlıq və iztirablı halları anlamaq mümkündür. Abbas Mirzə mənsəb sahiblərini çağırmış və bir məşvərət şurası təşkil etmişdi. Casusların Osmanlı ordusu ilə ilgili gətirdiyi bilgilər dəyərləndirilirdi. Bəzi bilgilər çox aşırı səviyyədə idi. Guya Ərzurum paşası yetmiş minlik ordu və yüz qəbzə topla hücuma hazırlaşırmış. Necə qərara gəlməli idilər? Sürətlə bölgədən uzaqlaşmalımı idilər, yoxsa çox sayda olan Osmanlı ordusuna hücummu etməli idilər? Şahzadə hücumdan yana idi. Ancaq mənsəb sahibi komutanların çoxu hücuma qarşıydılar. On il sonra Abbas Mirzə yazdığı məktubunda hücumun baş tutmasında Laçın Xanın etkili olduğunu yazacaqdı: “Laçın Xan malını, cavan oğlunu fəda edərək mənim həyatımı qurtardı. Mənə zəfər şərəfi qazandırdı”[34] və “Əgər bircə gün gec gəlsəydi nə mən olacaqdım, nə sən, nə də ölkəmiz”.[35] Göründüyü kimi, bu məktublarda Şahzadənin dərin kədəri və Laçın Xanın onun uğrunda nə qədər fədakarca davranması hiss edilməkdədir. Abbas Mirzə, bütün oğulları və gürcü yandaşları ilə bərabər savaşa qatılmaqda qərarlı olan və qarşılığında da heç bir şey istəməyən gürcü şahzadəsi ilə necə davranacağını bilmirdi. Bu gürcü şahzadəsinin yalnız bircə istəyi var ki, əgər bu savaşda öləcək olursa, adı və kimliyi

[34]“Əhvəlat və dəst xətthaye Abbas Mirzə Qacar Naib-us Səltəne”.
[35]Eyni qaynaq.

açıqlanmasın. Başqa bir istəyi də Abbas Mirzənin onu süvarilərin komandanı etməsi idi.

Savaş sırasında Laçın Xanın oğlu Aleksandr Mirzə ölür. Oğlunun ölümünə şahid olan Laçın Xan savaşdan geri çəkilmir. Abbas Mirzə məktubunda yazır ki, "yurdundan sürgün olmuş və Çobanoğlunda ölən bu gəncin ölümünə bütün ordu, hətta atlar da ağlayırdı."[36]

***

Osmanlı ilə savaş və zəfər Azərbaycan ordusu üçün böyük özünə güvən sağlamışdı. Şahzadə bu savaşdan sonra Azərbaycan ordusuna olan güvənini bütünləşdirmişdi. Abbas Mirzə, Ərzurum barış anlaşmasının həmən imzalanmasından yana idi. Tam bu sıralarda on iki il sonra Şahzadənin ölümünə səbəb olacaq xəstəlik baş qaldırmışdı. Şahzadənin oğlu Cahangir Mirzə yazır ki, Abbas Mirzə, onu öldürəcək xəstəliyin ilk əlirtisini Ərzurum müqaviləsi ərəfəsində hiss etmişdir. Heç şübhəsiz ki, bu xəstəlik şahzadənin çocuqluq zamanında yaxalandığı, lakin Abbas Mirzənin güclü iradəsi hesabına ram edilmiş və sonradan təkrar baş qaldıran xəstəlik idi. 1810-1812-ci illər arasında Şahzadənin özəl həkimi doktor Karmək onu ölüm ayağına qədər gətirən bir xəstəlik haqqında bilgi verməkdədir. Bu xəstəlik zamanı Şahzadə altı ay ayağa qalxa bilməmişdir. Doktor Karməkin o zamankı diaqnozunda Şahzadənin sümük vərəminə tutulduğu qeyd olunmaqdadır. Eyni zamanda Şahzadənin qaraciyər xəstəliyi də var imiş.

Cahangir Mirzə və digər ailə üzvləri öz xatirələrində Şahzadənin bu xəstəliyə yaxalanması ilə ilgili dəqiq zaman bəlirtməməkdədirlər. Verilən bilgilər əsasında bilmək olmur ki, Şahzadə Osmanlı-Qacar savaşından öncə, yoxsa sonra bu xəstəliyə yaxalanmışdır.[37]

[36] Eyni qaynaq.
[37] Şahzadə 1248 hicri qəmərində (1833) vəfat etmişdir.

## BÖYÜK SINAQ

## GİRİŞ

Rusiyanın Şərqə doğru genişləmə siyasəti gec-tez Azərbaycan ordusu ilə yeni savaşları başladacaqdı. 1813-cü ildə Rusiyanın üstünlüyü ilə imzalanan Gülüstan andlaşması sadəcə, savaşın müvəqqəti olaraq durmasına səbəb oldu. Ancaq 1825-ci ildə bu atəşkəs durumunu bir neçə il də ayaqda tutmaq mümkün idi. Savaşın 10-15 il ertələnməsi Şahzadənin öz reformlarını Azərbaycanda tam gerçəkləşdirə bilməsi üçün bir şans idi. Bu üzdən də Şahzadə barışdan yana idi. Baxmayaraq ki, Gülüstan müqaviləsi onun qüruruna toxunmuşdu, lakin yenə də reformlar vasitəsi ilə güclənməyi tərcih etməkdə idi.

1826-cı ildə İmperator Birinci Aleksandrın ölümü ilə barışın davam etməsi üçün uyğun ortam yaranmışdı. İmperatorun gənc qardaşı Birinci Nikolay qanlı dekabr günləri olaraq bilinən böyük çatışmadan sonra iqtidara gəldi. Rusiyanın yeni imperatoru ilk çağlarda savaşdan yana deyildi. Özəlliklə onun iqtidara gəlişi ilə Yermolovun Qafqazdan geri çağırılacağı sanılırdı. Çünkü yeni imperator Yermolovu heç sevmirdi. Hətta ölən imperator zamanında da Yermolov Qafqaza hakim olmasını Arakçeyevə borclu idi. Arakçeyev, Birinci Aleksandra ən yaxın olan dövlət adamı idi.

Lakin zaman keçdikcə savaş qaçınılmaz bir duruma gəlməkdə idi. Həm də elə bir ortamda savaş qoxusu gəlməyə başlamışdı ki, Qacar dövlətinin dünyada heç bir müttəfiqi yox idi.

## BÖYÜK SINAQ

1824-1825-ci illərdə Abbas Mirzə, Tehranda ona qarşı yönəlmiş müxaliflərin çox gücləndiklərini müşahidə etməkdə idi. Digər tərəfdən, Gülüstan müqaviləsində sınırlar qəti olaraq bəlli edilməmişdi. Göyçayla Ərdəbil arası tampon (neytral) bölgə kimi nəzərdə tutulmuşdu. Bu da Abbas Mirzəni çox narahat edirdi. Şahzadə sınırların bəlli olmasını istəyirdi. Lakin onun bu davranışı öz-özlüyündə daha güclü durumda olan Rusiyanın savaşı başlatması üçün bir bəhanə ola bilərdi. Şahzadə bunun fərqində idi. Abbas Mirzə bilirdi ki, ona qarşı şəxsi kin bəsləyən Qafqaz hakimi ilə müzakirəyə başlamaq çətin məsələdir. Abbas Mirzə Gürcüstana bir heyət göndərib və Rus seçkinlərindən sınır məsələsini həll etmək üçün sərhədə gəlmələrini istədi. Şahzadənin göndərdiyi heyət Tiflisdə öncə tərəddüdlə qarşılandı. Bu üzdən də bir neçə həftə heç bir rəsmi şəxslə görüşmədən bəkləmək məcburiyyətində qaldı. Şahzadə Rusiyanın bu şəkildə davranacağını

öncədən təxmin etmişdi. Lakin heyətə tapşırıq vermişdi ki, görüşməkdə israrlı olsun. Nəhayət, Qafqazın hakimi görüşə izn vermişdi.

Abbas Mirzə Rus rəsmilərinin sınıra gəldiyini duyduğunda öz rəsmilərini də Bağır Xanın başçılığı altında görüş üçün görəvləndirdi. Bağır Xan o zaman Azərbaycanda nizam-intizamdan sorumlu olan bir görəv başında idi. Şahzadə ona çox güvənirdi. O da ömrünün sonuna qədər Şahzadənin bu güvənini doğrultdu. Özəlliklə Rus rəsmilərinin can güvənliyinə Abbas Mirzə çox önəm verirdi. Çünkü Abbas Mirzəni sevməyən hər hansı bir xanın təxribatı iki ölkə arasındakı savaşı tezləşdirə bilərdi. Şahzadə onların can güvənlikləri ilə bağlı çox əndişəli idi. Bu səbəbdən özü də müzakirələrin gedəcəyi yerə yaxın olmaq istəyirdi. Şübhə oyandırmasın deyə Qaradağa ova çıxmağı bəhanə edib və müzakirələrin getdiyi Xudafərinə yaxınlaşdı.

Müzakirələrdən sonra Rus heyətinə öz hörmətini bildirmək amacı ilə Şahzadə onları şikara dəvət etdi. Abbas Mirzə Qarabağın hakimi General Mədədovu da şikara dəvət etmişdi. Özəl həyatında çox qənaətcil olan Şahzadə yabançı müsafirlərinə çox əliaçıq davranırdı. Abbas Mirzə bütün Rus heyəti üzvlərinə hədiyyələr bağışladı. Rus heyəti Abbas Mirzəni daha güclü sanırdı və onun bu şəkildə barışdan yana olacağına inanmırdılar.

Abbas Mirzənin sülh uğrunda Rus qonaqlarına etdiyi bu xidmətlər Tehran tərəfindən yaxşı qarşılanmırdı. Bu müzakirələrdə dirək Tehrandan gəlmiş və müşahidəçilik görəvini yürüdən heyət ən çox Abbas Mirzənin rəqibləri cərgəsindən idi. İntriqa uzmanlarından ibarət olan bu heyət üzvləri Fətəli Şaha şayiə dolu bilgilər göndərdilər.

***

Hər il yay gəldiyində Fətəli Şah böyük ailəsi və bir çox saray adamları ilə bərabər Sultaniyyəyə gəlirdi. Artıq iyirmi il idi ki, bu, Sultaniyyəyə gəlmə bir gələnəyə dönüşmüşdü. Abbas Mirzə də hər il Sultaniyyəyə gəlir və atasının dərbarında bir neçə həftə qalırdı. Şahzadə, başqa ordulardan disiplininə və üstünlüyünə görə fərqlənən öz ordusunu Şahın hüzurunda göstəri yapmaq üçün hazırlamışdı. Şahın ordusu ilə Azərbaycan ordusu yan-yana idi, ancaq bir-birinə qarışmırdı.

1825-ci ilin yayında Abbas Mirzə bir çox şeylərin dəyişdiyini hiss etdi. O, atasına anlatmaq istəyirdi ki, Rusiya ilə savaşa girmək bizə məğlubiyyətdən başqa bir şey gətirməyəcək. Lakin Şah ilginç cavablar verirdi. Məsələn, deyirdi ki, “sənin reformun budurmu? Cavanların əyninə fərqli paltar geyindirib, gecə-gündüz onlara idman etdirirsən. Adını da qoymusan islahat! Qərbdəki islahatlar da bu şəkildəmi oluşmuşdur? İnanmıram. Bu islahat ki, bizə bu günə qədər heç bir şey verməmiş, heç bir müşkülümüzü həll etməmişdir.”

Şahın zehni, oğlunun gətirdiyi dəlilləri anlamaqdan çox uzaq idi. Şahzadə düşmənlərinin onunla atası arasında oluşdurduqları soyuqluğu aradan qaldıra

bilmirdi. Atasını anlada bilsin, yanlış düşünməsini önləyə bilsin deyə rəqib qardaşlarının ordularına silah verirdi, onlara da yardımda bulunurdu.

Abbas Mirzə Təbrizə döndüyündə qaçınılmaz bir savaşın eşiyində olduğunu hiss edirdi. Bu üzdən də onun başkəndi və eləcə də Xoydakı savaş üsləri aktivləşməyə başlamışdı. Topların vəziyyətindən tutmuş əsgərlərin özəl durumlarına qədər hər şeyin yoxlanılmasına əmr verdi. Payız gəldiyində isə sınır boyu gəziyə və araşdırmaya, sərhəd qalalarını yoxlamağa çıxdı. Bir daha şikar adı altında hərbi yoxlamasını gizlin saxlaya bildi. Bu yoxlamada böyük oğullarını və çox güvəndiyi bir neçə yaxınını da özü ilə bərabər aparmışdı. Bütün sınır boyunca gəzib yoxlama yaparaq, Osmanlı sərhədinə yaxın olan Arıklı adında yerdə durdular. Abbas Mirzənin oğlu Cahangir Mirzə yarım əsrdən sonra bu xatirəsini qələmə alacaq və günbatan çağı Ağrı dağının zirvəsinə bərabərcə baxıb zövq aldıqlarını anımsatacaqdır. Onlar Ordubadı, Naxçıvanı, Abbasabadı yoxladılar. General Paskeviçin yazdığına görə Abbas Mirzə, Abbasabad qalasını avropalı mühəndislərin təlimatı ilə yaptırmışdı. Şahzadə İrəvanın güneyində yerləşən bu qalanı çox önəmsəyirdi. Qalanın qorunma və içəridə su sistemi də özünü müdafiə edə biləcək şəkildə idi. Şahzadə buradakı saxlunun (ordu biriminin) durumunu yoxlayıb, qalanın komutanı Abdulla Xandan bilgi aldı. Durumdan razı olduğunu bildirdi. Sonra da Sərdarabada keçdi. Sərdarabad İrəvan xanı Hüseyn Xan tərəfindən tikilmiş geniş hasarları, möhkəm divarları ilə səciyyələnirdi. Bu hasarlar içindəki tarlalarda Bəyaziddən və Qarsdan gələn ermənilər tarım işləri ilə uğraşırdılar. Hasarların içində həm də buğda anbarları var idi. Bu anbarlar İrəvan xanına məxsus idi. Sərdarabad İrəvana yaxın məsafədə olduğundan dolayı Şahzadə üçün önəmli strateji anlam daşımırdı. Abbas Mirzə yanındakılarla birgə İrəvana vardı. Bu varış Şahzadə üçün çox çətin idi, çünkü İrəvan hakiminin ondan xoşlanmadığını bilirdi. Ancaq bu mərkəzi də yoxlamaq zorunda idi. Digər tərəfdən, fikirləşirdi ki, bəlkə bir şəkildə bu savaş ərəfəsində İrəvan xanı ilə zahirən də olsa münasibətləri normallaşdıra bilər. Hüseyn Xan Avropadan gələn hər şeyə nifrət edirdi. Abbas Mirzə də Avropa yönümlü olduğu üçün onun bütün reformlarına qarşı idi.

Hüseyn Xan savaşdan yana idi. Savaşın başlaması üçün əlindən gələni edirdi. Cahangir Mirzə açıqca yazır ki, “atamdan eşitdim deyirdi ki, savaşın başlamasının və torpaqlarımızın itirilməsinin səbəbkarı Hüseyn Xan oldu”.

Hüseyn Xan bütün kuralları görməzlikdən gələrək İrəvana gələn Şahzadəni qarşılamaq yerinə xəstəliyini bəhanə edərək Arana istirahətə getmiş və əqrəbalarını qarşılamaya göndərmişdi. Şahzadə bu davranışın açıq bir xəyanət olduğunun fərqində idi. Lakin bu kəz də həyatın ona öyrətdiyi səbir və dözümlə məsələni böyütməmək istədi. Böyütməmək istədi, çünkü böyük bir savaş ərəfəsində qarşıdurmaları basdırmaq istəyirdi. Savaşın başlanacağını Hüseyn Xan da bilirdi. Hüseyn Xan, Abbas Mirzənin savaşdan yana olmadığını da bilirdi. Hüseyn Xan çox şeyi bilirdi və bu üzdən bu şəkildə ədəbsiz davranmağa cəsarət edə bilmişdi.

Şahzadə durumu bir şəkildə düzəltmək zorunda idi. Bu üzdən də Hüseyn Xanla rastlandığında öncə onun əhvalını çox ciddi şəkildə sordu. Sonra da Hüseyn Xanın gözləmədiyi bir mövzudan söz açdı. Abbas Mirzə bu ziyarətin səbəbini bir xeyir iş olaraq açıqladı. Vəliəhd, Hüseyn Xanın qızını qardaşı oğullarından biri olan Mustafaqulu Mirzəyə istədi. Şah soyu ilə qohum olmaq Hüseyn Xan üçün bir imtiyaz idi. Hüseyn Xan bu olaydan çox mutlu olmuşdu. Bu məsələdən sonra Azərbaycanın güvənliyi haqqında danışmağa başladılar.

Şahzadə, Arazdan keçib yanındakılarla bərabər Təbrizə yola düşdü. Təbrizdə Rusiyanın nümayəndəsi Ambruje onun yolunu gözləməkdə idi. Ambruje Rusiyanın konsulundan Şahzadəyə bir məktub gətirmişdi. “Konsul” sözü ilk kəz olaraq eşidilməkdə idi. Konsul məktub vasitəsi ilə Birinci Aleksandrın ölümünü rəsmən Şahzadəyə bildirirdi.

Abbas Mirzə bir neçə ay Xoyda qalmaq qərarına gəldi. Çünkü Azərbaycan ordusunun ən önəmli hissələri Xoyda yerləşirdi. Şahzadənin oğulları bütün bu hərəkətlərdə onunla bərabərdilər. Abbas Mirzə Xoyda hiss etdi ki, oğullarının təhsili üçün diqqətsiz davranmışdır. Bu üzdən Şahzadə, dayısı Əmir Xan Sərdardan, onun çocuqlarına dərs verəcək uyğun birisini tapmasını istədi. Beləliklə, Hacı Mirzə Ağası müəllim olaraq Şahzadənin ailəsinə daxil oldu. Bu kişi vasitəsi ilə Abbas Mirzənin çocuqları, xüsusən Məhəmməd Mirzə, cəhalət qaranlığına sürüklənəcəkdi. Bu mövzu üzərinə, yəni şahzadələrin təlim-tərbiyəsi ilə bağlı Cahangir Mirzə “Tarix-e no” (yeni tarix) kitabında bilgi verməkdədir.

Təkrar yay fəsli gəldi. Abbas Mirzə hər zamankından daha tez Şahın xidmətinə çağırıldı.

Artıq əski gələnəklərə xas olan bir törən yox idi. Gözə çarpan, ancaq hərbi hazırlıqlar idi. Şah, imperatorluğun müxtəlif yerlərindəki qəbilələrin də başçılarını çağırmışdı. Bunlar da öz süvariləri ilə sanki gövdə göstərməyə gəlmişdilər. Bütün bu gəlmələr bir intizamsızlıq oluşdurmuşdu. Lakin bütün bu dəstələr geri çəkilib və qara geyinmiş əzadarlılara yol verirdilər. Başkəndin xəbərləri ağızdan-ağıza dolaşırdı. İnsanlar sel kimi Şah Abduləzimin ziyarətinə axın edirdi. Tehranla Şah Abduləzimin arası insan axını ilə dolmuşdu. Şah savaşdan yana tavır qoymağa təhrik edilmişdi, lakin Azərbaycan ordusuna gərəkən yardımı və büdcəni ayırmırdı. Azərbaycan ordusunun xərcini təmin etmək ancaq Azərbaycanın öz üzərinə düşürdü. Şahda etimadsızlıq da baş qaldırmışdı. Azərbaycan ordusuna nəzarət edəcək yüksək səviyyədə təlim görməmiş bir qrup ayırmışdı. Bu inzibatsız qrup Azərbaycan ordusunun savaş yetənəyini artırmaq yerinə öz yersiz və yetərsiz əməlləri, müdaxilələri ilə azaldırdı. Durumu bu şəkildə görən Abbas Mirzənin xəyalları qaranlıqlara gömülürdü.

Şahın qohumu olan Allahyar Xan, yenicə Asəf-əd Dövlə ləqəbini almış və başvəzir olmuşdu. O da savaşdan yana tutumunu ortaya qoydu. Onun kimi xarakterlər daha çox din xadimlərinin verdikləri fətvalara görə davranırdılar. Din

xadimləri fətva vermişdilər ki, savaşa qarşı çıxan kafirdir, dindən çıxmışdır və ölümü caizdir.

Abbas Mirzə atası ilə baş-başa söhbət etmək üçün fürsət əldə edə bilmədi. Abbas Mirzə savaşdan zərərli çıxacaqlarını bilirdi. Şahzadənin dostu Laçın Xan da bu sıralarda onun yanında idi. O da Şahın qəzəbini öz üzərinə çəkdi. Çünkü bu savaşın yersiz olduğunu açıqca söyləməkdən çəkinməmişdi. Şahzadənin ona olan hörmətini bilən saray yetkililəri və reform düşmənləri bilirdilər ki, Laçın Xan əslində Abbas Mirzənin baxışını ifadə etməkdədir.

Bu arada və bu gərgin durumda Şahzadə Mençikovun Tehrana gəldiyini öyrəndi. Tam yetkili olmayan Mençikov Rusiyada iqtidar dəyişikliyi xəbərini rəsmən Şaha duyurmaqla görəvli idi. Yeni iqtidar isə sınırlar mövzusunda müzakirəyə hazır olduğunu bildirirdi. Eyni zamanda Şah üçün böyük hədiyyələr göndərilmişdi. Fətəli Şah öncə tərəddüd etdi ki, Rusiya elçisinin Sultaniyyəyə gəlməsinə izn versin, ya yox. Savaş duyğusu zehinlərdə tam alovlanmışdı. Şah din xadimləri tərəfindən gələn fətvaların təsirində qalmasaydı barışı tərcih edərdi. Savaş küləklərinin əsdiyi bir ortamda Mençikovu necə qəbul etmələri mövzusunda tərəddüd içində qalmışdılar.

Mençikovu qəbuletmə məsələsi həm ilginc, həm də gülünc bir şəklə dönüşmüşdü. Qərara gəlindi ki, orta bir vəziyyətdə Mençikovu qəbul etsinlər: Mençikov yabançılara məxsus qarşılama törəni olmadan Şah tərəfindən qəbul edildi. Bu üzdən də Rusiya imperatorunun öz dəst-xətti ilə yazılmış məktubu dirək Şahın öz əlinə verə bilmədi. Bu səbəbdən də Şahın onu qəbul etməsi elçi üçün önəmsizləşirdi. Rusiya elçisi vəzirlərlə müzakirə etmək zorunda buraxıldı. Abbas Mirzə bu arada bu məsxərə durum qarşısında gülməmək üçün özünü zorla tuturdu. Abbas Mirzə ilə Mençikovun müzakirələrinə şahid olan Cahangir Mirzə yazır ki, Rus Şahzadəsi ən barışcıl davranışlarda bulunmaqda idi. Hətta rus şahzadəsi Abbas Mirzəyə Talış və Muğanın tamamən geri qaytarılması vədində də bulunmuşdu. Ortam get-gedə gərginləşirdi. Bu durumu görən şahzadə Mençikov dərhal geri dönüb vəziyyəti Moskvaya bildirməyə tələsdi.

İngilis tarixçi Vatson yazır ki, "Mençikovun gətirdiyi bahalı və dəyərli hədiyyələr Sultaniyyədə qalmışdı. Şah, elçidən dirək olaraq qəbul etmədiyi bu hədiyyələri Mençikov getdikdən sonra öz sarayına daşıtdırır ki, sonradan Abbas Mirzə onların dəyərini Rusiyaya öz hesabından ödəyir."[38]

Abbas Mirzə də dərhal Təbrizə geri döndü. Artıq savaşın başlanacağına əmin olan Şahzadə ancaq Azərbaycan ordusunun vəziyyətini gözdən keçirməklə məşğul oldu.

Özəlliklə mal-mülkləri Gülüstan müqaviləsindən sonra Rusiyanın işğalına məruz qaldığından Təbrizə qaçan xanlar bu savaşın həmən başlamasından yanaydılar. Onlar belə hesab edirdilər ki, Qacar dövləti qalib gələcək və bunlar da

[38]Vatson, Qacar tarixi, London, 1866, s. 208.

öz mülklərinə dönəcəklər. Fətəli Şah tərəfindən təsdiqlənən savaş planında hər bir xan öz dəstələri ilə ruslara qalmış mülkləri doğrultusunda hücuma başlayacaqdı. Bu üzdən də Mirmustafa Xanın oğlu Mirhəsən Xan Ərdəbildən Lənkərana doğru hərəkətə başladı. Söhrab Xan Gürcinin də iki alayı ona yardım amacı ilə görəvləndirildi. Şahzadə Şeyx-ül Məluk iki top alayı ilə Ərakdan Muğana tərəf hərəkət etdi. O, Mustafa Şirvaniyə, Hüseyn Xan və Hacı Xana ilhaq olmalı idi. Mustafa Şirvani, Hüseyn Xan və Hacı Xan Şəki xanının oğullarıydı. Onların da atalarının mülkü ruslar tərəfindən işğal edilmişdi.

Quba, Bakı, Şuşa xanlıqları üçün də bu şəkildə planlar hazırlandı. Sərdar Hüseyn Xan, Aleksandr Mirzə ilə əməkdaşlıq etmək mükəlləfiyyətində idi. O, Şorgöl* nahiyəsindən Tiflisə doğru getməli və Ları** qalasında onlarla birləşməli idi.

Abbas Mirzə artıq savaşın qapıda olduğunu görürdü. Lakin din xadimlərinin ordunun içində çığır-bağır salaraq cəhad çağrılarında bulunmaları onu çox rahatsız edirdi. Çünkü bu tür davranış Azərbaycan ordusunun nizam-intizamını pozurdu. Abbas Mirzə öz əsgərlərinə və onların eyitim səviyyəsinə din xadimlərindən daha çox inanırdı. Şahzadəyə görə din görəvlilərinin bu tür təbliğatları orduda heç bir ruh yüksəkliyi yarada bilmir, tərsinə ordunun disiplinini pozmaqda idi. Şahzadə din xadimlərinin söylədikləri bu boş lafların düşmənin texnolojisinə qarşı təsirsiz olacağı inancında idi. Bu üzdən də avropalı bir hərbi mütəxəssis onun üçün ölkə mollalarının hamısından dəyərli, önəmli idi. Digər tərəfdən, Şahın Azərbaycan ordusuna müdaxilə etməsi Abbas Mirzəni çox incidirdi. Şah, Abbas Mirzəyə qarşı açıq şəkildə düşmənlik edən oğulları; Şeyx-ül Müluk Mirzə və İsmayıl Mirzəni Azərbaycan ordusunun yardımına göndərdi. Abbas Mirzə bilirdi ki, onlar onu

---

* Şorgöl Güney Azərbaycanın Muğan mahalının Xoruzlu bölgəsində bir kəndin adıdır. (Bəlkə də burada nəzərdə tutulan başqa bir Şorgöldür) Buradakı Şorgölün eyni yer olduğu sanılmaqdadır. Şorgöl tərcüməçinin dünyaya gəlib boya-başa çatdığı Limli kəndinin qonşusu sayılır. Şorgölün çevrələrində bu kəndlər yerləşməkdədir: Şorgöl, Yanbulaq, Balabəyli, Məstalbəyli, Üçbulaq, Hamar kəndi, Nəzərəlibulağı, Tomar, İdəli, Aşağı Dəmirçili, Yuxarı Dəmirçili, Siyabkəndi, Milli kəndi, Qulamhüseyn kəndi, Pencallı, Sümüklü, Xəmməd, Təkbulaq, Tıbılğa, Ocaq qışlaq, İncilli, Çanaq, Qaraxanbəyli, Zeyvə, Poladlı, Bərzənd, Kolan kəndi, Şah təpəsi (Rəvayətə görə Nadir Şah bu kənddə başına tac qoyduğu üçün kəndin adı Şah təpəsi olaraq qalmış. Burada bir təpə vardır ki, bu təpəni bu düz yerdə torba ilə torpaq daşıyaraq salmışlar. Nadir Şah bu təpənin başına çıxaraq başına tac qoymuşdur), Onbirbəylər, Binə. Bu kəndlərin çoxu Biləsuvara, Germiyə tabedir. Bu arada kiçik bir şəhər olan Germi haqqında da burada bilgi vermənin faydası var. Germi XI əsrdə Böyük Səlcuqlar zamanında Azərbaycanda fəal bir bəylik olmuşdur. Anadolu fəth edildikdən sonra bu ərazilərə axın etmiş və Germiyan bəyliyi olaraq kiçik bir dövlət qurmuşlar. Osman Bəyin dövləti gücləndikdən sonra Germiyan kimi bir çox bəylik Osmanlı yönətiminə qatılmış və siyasi yaşamlarına son verilmişdir. Bu gün Güney Azərbaycanın Muğan ovalığında mövcud olan Germi şəhəri adını bu türk boyundan almışdır. (G.C.)

** Ları adında bir kənd Xiyav (Meşkin) şəhərinin yanında vardır. Bu gün bu kənd bol üzümü ilə məşhurdur. Lakin buradakı Ları Xiyava yaxın olan kənd kimi görünməməkdədir. Çünkü Xiyava yaxın olan Ları Gürcüstan yolunun üstündə deyildir. Digər tərəfdən, o zamankı savaşlar Xiyavın yaxınlarında olmamışdır. Burada adı keçən Ları yəqin ki, Quzey Azərbaycanda yerləşməkdədir.

kontrol etmək məqsədi ilə göndərilmişlər. Abbas Mirzə bilirdi ki, uzun müddət sarayda ona qarşı edilən intriqalar və fitnələr artıq öz nəticəsini verməkdədir. Azərbaycan ordusu səviyyəsində eyitilməmiş bu alaylar yardım yerinə Abbas Mirzənin ordusunun savaş qabiliyyətini düşürür və ümumi bir inzibatsızlıq yaratmaqdaydılar. Şah, ölkənin bütün ordularını sınıra yerləşdirib sonra da özü Ərdəbildə savaşın gedişinə nəzarət etmək istəyirdi.

Rusların zülmündən bezmiş işğal edilmiş torpaqların sakinləri öz əski zalım xanlarını gördüklərində sevinir və onları qardaşları kimi bağırlarına basırdılar. Yalnız bu insanların ruslara qarşı hərəkətlənməsi sınır bölgələrində sayları az olan rus ordusunun fərarına səbəb olurdu. Sınır postlar rus əsgərlərindən bu şəkildə boşalmışdı. Lakin bunlar çox rahat əldə edilən cüzi zəfərlər idi. Bu xəbərləri eşidən bir çox xanlarda və Şahda böyük zəfər umudu yaranırdı. Lakin Abbas Mirzə çox əndişəli idi. Çünkü o bilirdi ki, bu zəfərlər savaşsız əldə edilmişdir. Rus ordusunun texnoloji üstünlüyündən xəbərdar idi. Şahzadə savaşın zamansız başlanmasından rahatsız idi. Bu savaş onu zəfərə götürəcək savaşa bənzəmirdi. Çünkü onun orduda və Azərbaycanın ekonomik həyatında gerçəkləşdirmək istədiyi islahatlar yarımçıq qalmış, sonuca varmamışdı.

Abbas Mirzənin iki oğlu Cahangir Mirzə və Bəhram Mirzə də öz alayları ilə bu savaşa qatılacaqdılar. Ruslar özlərini toparlayıb və böyük bir hücuma başladılar. Rusların bu hücumundan hər kəs zərər gördü. Ruslar Araz çayını keçmək istəyirdi, lakin qarşısında Azərbaycan ordusunu görüb güclü dirənişlə rastlanırdı. Bu arada rusların dəqiq top atəşləri Azərbaycan ordusuna və digər ağır ziyan verməkdə idi.

Rusların ən önəmli gücləri Arazın üç ağaclığında yerləşən Kərsi adında bir yerdə idi. Rusların iki alayı temmuz ayında kəşfiyyat xarakterli əməliyyata başladı. Onlar bütün Qarabağda partizan savaşları edən birimlərlə qarşılaşacaqlarını sanırdılar, lakin qarşılarında Azərbaycan ordusunu gördülər. Azərbaycan ordusu olduğunu da topların səsindən anladılar. Bu şəkildə səliqəli top savaşı və intizamlı ordu bütün Qacariyyədə Azərbaycan ordusuna məxsus idi. Bunlar Abbas Mirzənin ordudakı reformlarının və modernizasiyonunun ürünü idi.

Azərbaycan ordusunun topxanası düşmənin irtibat sistemini pozmuş və arxadan gələn yardımı əngəlləmişdi. Azərbaycan topxanası düşmənin arxa cəbhəsindəki hədəfləri tam isabətlə atəş altına almışdı. Bu da rus piyadaları ilə savaşda üstünlüyün Azərbaycan ordusunda olmasını sağlamaqda idi. Digər şahzadələr də Fətəli Şahın dirək komandanlığı altında müxtəlif yerlərdə savaşa başlamışdılar.

Ogünkü savaşda Azərbaycan ordusu irəliləməyə başladı. Abbas Mirzə əmr etmişdi ki, əsirlərlə pis davranılmasın. Lakin bir neçə Azərbaycan ordusu mənsubları həyəcana qapılıb rusların başını kəsmişdilər. Abbas Mirzə qəti şəkildə bildirdi ki, bundan sonra kim əsir başı kəsəcək olsa güllələnəcəkdir. Eyni gün min rus əsgəri əsir alındı. Bu savaş uzun sürmədi. Çünkü rus birlikləri də bu tərəflərdə az idi. Bu ərazilər rahat ələ keçirildi. Abbas Mirzə ilk kəz olaraq oğullarını da bu

savaşa qatmışdı. Buna görə də sevinirdi. Çünkü onları hər zaman savaşçı olaraq görmək istəmişdi. Eyni gün bir çapar sürətlə Ərdəbilə varıb və Azərbaycan ordusunun irəliləməsi haqda Şaha bilgi verdi. Abbas Mirzə əsirlərlə nə qədər xoş rəftar etsə də, onların Ərdəbilə göndərilməsini əngəlləyə bilmədi. Şah əsirlərin Ərdəbilə göndərilməsini istəmişdi və yenə də onların başları kəsilə bilərdi.

Abbas Mirzə rusların buraxıb qaçdıqları iki qəbzə topu gördüyündə çox sevinmişdı. Mükəmməl imkanı olan bu topların ağzını düşmənə tərəf çevirdilər.

Şahzadənin ordusunun bulunduğu məkana yaxın bir yerdə Hacı Bəylər[39] oturmaqda idi. Hacı Bəylər kiçik bir bölgənin xanı idi. Əslində onun sahib olduğu yer İbrahim Xanın oğlu Mehdiqulu Xana mənsub idi. Mehdiqulu Xan Təbrizə mühacirət etdikdən sonra Hacı Bəylər oranı qəsb etmişdi. Rusların yenilməzliyinə güvənərək mühacir xanların ərazilərini ələ keçirib və ruslarla iş birliyi yapan bu xan Azərbaycan ordusunun qələbəsindən qorxuya düşmüşdü. Özəlliklə də Şeyx-ül Məlukun xidmətində olan Mehdiqulu Xan qardaşları ilə birlikdə öz torpaqlarına geri dönməkdəydilər. Rusların Qarabağdan uzaqlaşmasını görən Hacı Bəylər, Abbas Mirzənin yanında bulunmaq amacı ilə neçə yüz süvarisini Şahzadəyə təqdim etdi. Özəlliklə rus əsir əsgərlərinin Ərdəbilə göndərilməsini öz gözü ilə gördüyü üçün bütün ümidləri suya düşmüş kimi bir halı var idi. Hacı Bəylər Mehdiqulu Xanın qarşısında özünü qorumaq üçün biricik qurtuluş yolu kimi Abbas Mirzəyə yaxınlaşmağı görürdü. Abbas Mirzə də Azərbaycan ordusunun ona verə biləcəyi bilgilərə olan ehtiyacı nəzərə alaraq onunla sərt davranmadı.

Şah, Şuşanın fəth edilməsi üçün əmr vermişdi. Ağaməhəmməd Xanın da bu şəhərdə ölməsi və ya öldürülməsi Şuşanın işğal edilməsi zordur fikrini yaratmışdı. Digər tərəfdən, Qarabağın açarı olan bu şəhərin fəthi Qacar dövləti üçün çox önəm daşımaqda idi. Ancaq geri çəkilən rus ordusunun da bu şəhərdə yerləşdiyi xəbəri gəlirdi. Ruslar Şuşanı qorumaq üçün buraya böyük güc sövq etmişdi.

Azərbaycan ordusunun Kərsidəki qələbəsi Şaha çox umutlar təlqin etməyə başlamışdı. Şah qarşıdan gələn qışı Şuşada keçirmək istəyirdi. Lakin Abbas Mirzə başqa tür düşünürdü. O öncə Gəncəyə hücum etmək istəyirdi. 1803-cü ildən etibarən Cavad Xanın məğlubiyyətindən sonra rusların əlində olan Gəncədə böyük hərbi güc barınmaqda idi. Şahzadə, Gəncənin ələ keçirilməsi ilə eyni zamanda rusların bölgədə böyük itkiyə və məğlubiyyətə məruz qalacağı düşüncəsində idi. Rusiya Gəncədəki hərbi üs vasitəsi ilə bütün bölgələrə yardım göndərə bilirdi. Abbas Mirzə bu şəhəri həmən ələ keçirmək istəyirdi.

Şahzadənin ağlından keçəni öyrənən Hacı Bəylər iki gün boyunca Abbas Mirzəni ikna etməyə çalışdı ki, Şuşanı almaq Gəncəni almaqdan daha rahatdır, indi Şuşanı savunacaq önəmli ordu yoxdur, ilk öncə Şuşanın alınması məsləhətdir deyə

[39]Cahangir Mirzənin "Yeni Tarix" kitabında bu adamın adı Hacı Ağalarbəy olaraq keçər.

söylənib durdu. Hacı Bəylər Şuşa sakinləri ilə də təmasda olduğunu iddia edirdi. Ona görə Şahzadə hücuma başladığında şəhərin içində də ayaqlanma olacaqmış.[40]

Şahzadə bir tərəfdən Şahın iradəsi üzrə, digər tərəfdən, çevrəsinin təlqini nədəni ilə öncə Şuşaya hücum etməklə razılaşdı. Ordu Şuşaya doğru hərəkət etdi. Şuşanın mühasirəsinin uzun sürəcəyi düşünüldüyü üçün böyük sursat və ərzaq daşınmaqda idi. Heç şübhəsiz ki, bu hərəkətlilik Şuşada bulunan rus ordusunun gözündən qaçmırdı. Günlər keçdi, ancaq möhkəm qalalarla qorunan bu şəhərdəki ruslardan Azərbaycan ordusuna qarşı heç bir hərəkət və top atəşi görünmədi. Şahzadə Şuşaya hücum etmək üçün tələsmirdi. Düşünürdü ki, Şuşa əhalisinin də daxildə uyğun zamanda ayaqlanması şəhərin fəthini asanlaşdıracaqdır. Bu səbəbdən də dayısı Əmir Xan Sərdarı gözləməkdə idi. Şuşanın fəthindən sonra ona qatılacaq olan dayısının başçılığındakı Xoydan gələn ordu ilə bərabər Gəncəyə hücum etməyi planlamışdı. Böyük oğlunu səkkiz min nəfərlik piyadənin sərkərdəsi olan Əmir Xanın yardımçılığına təyin etdi. İki min ordu ilə Şahzadəyə qatılan Mərəndin hakimi Nəzərəli Xana Gəncəyə hücum etmək üçün hazır bəkləməsinə əmr etdi. Ruslardan qalmış doqquz qəbzə topun dərhal təmir edilib işlərliyinin sağlanmasını istədi.

Bu üç kişini önəmli postlara təyin etməsi müxtəlif səbəblər üzündən yaxşı nəticə verməyəcəkdi. Lakin bu sonuclar haqda Şahzadə öncədən təsbitdə bulunamazdı. Digər tərəfdən, tərcih ediləcək başqa güvəniləcək şəxslər yox idi.

Hacı Bəylərin yaratdığı Şuşa əhalisinin üsyan umudu yavaş-yavaş suya düşürdü. Əhalinin ayaqlanma məsələsindən heç əsər-əlamət yox idi. Bu üzdən Şahzadə Şuşanın tam mühasirəsinin gerçəkləşməsi amacıyla şəhərin çevrəsində xəndək qazılmasına əmr etdi. Şeyx-ül Məluk Mirzə, Yusif Topçu, Kəngərli qəbiləsinin rəisi Ehsan Xan cəbhənin müxtəlif yerlərində bu işlərdən sorumlu idilər.

Şahzadənin çevrəsində hər kəs zəfərdən danışırdı. Kərsi savaşından sonra rusların savaşma cəsarəti olmayacağı haqda sözlər dolaşırdı. Mülkləri Rusiyanın istilasında qalmış xanlar bu savaşa daha çox ümid bağlamışdılar. Sərdar Hüseyn Xan və İskəndər Gürci birlikdə Qarakilsədə və Başaparanda rusları məğlub edib geri püskürtmüşdülər. Rusların etirafına görə Gürcüstanda hər an ayaqlanma baş verə bilərdi. Lənkəran təkrar fəth edilmişdi. Bakı sularında buğda yükü daşıyan iki gəmi ələ keçirilmişdi. Ancaq Gəncə hər an Şahzadənin fikrini məşğul etməkdə idi. Şahzadə bilirdi ki, Gəncə ələ keçirilməyənə qədər rusların böyük həmlə təhlükəsini gözləmək lazımdır.

Cəbhədə müxtəlif şayiələr gəzirdi. Rusiya imperatoru bu məğlubiyyətdən dolayı çox əsəbləşmiş və Yermolovu görəvindən almışdır. Onun yerinə başqa bir general təyin edilmişdir. Təzə Qafqaz hakimi imperatorun barış siyasətindən yana idi.

---

[40] Hacı Bəylər məsələsinə aid olan bölüm Cahangir Mirzənin "Yeni tarix" əsərindən alınmışdır.

Bu arada Şuşanın mühasirəsinə aid işlər davam etməkdə idi. Qala divarlarının altında xəndək qazmaq çox çətin idi. Məhərrəm ayının gəlməsi və yas törənlərinin başlaması belə, xəndək qazma işini əngəlləmədi. Bu arada iki din xadimi öz dini təbliğatlarına davam edirdilər. Bunlar Molla Əhməd Nəraqi və Axund Molla Məhəmməd Muğani idi. Bu iki şəxs əyinlərindəki qara paltarla ordunun içində dolaşıb və cəhad təbliğatı edirdilər. Bu savaşın müsəlmanlarla kafirlər arasında olduğu haqda təbliğat aparırdılar. Ancaq Abbas Mirzə din xadimlərinin bu tür davranışlarından kəsinliklə xoşlanmırdı. O bilirdi ki, bu təbliğatlarla rus topları qarşısında müqavimət göstərmək olmaz. O, dini xurafatın təbliği yerinə batılılaşmağı, Batı texnolojisini mənimsəməyi tərcih edirdi.

Bu sırada çaparlar Başvəzir Allahyar Asəf-əd Dövlənin gəldiyini duyurdular. Başvəzir Damğandan və Simnandan yardımçı güc gətirmişdi. Abbas Mirzə, yaltaqlıqda ustad olan və intriqa uzmanı bu vəzirdən heç xoşlanmırdı. Başvəzirin ona qarşı etdiyi bütün düşmənçilikdən xəbərdar idi. Başvəzir nə savaş taktikasından anlayır, nə də savaşçı idi. Sadəcə, onun ən böyük amacı gördükləri işləri ilə şahın rzasını, diqqət və hörmətini qazanmaq idi. Ayağının tozu ilə çatan Başvəzir əsəbiləşdi ki, sürətlə davranılmır. Başvəzir düşünürdü ki, tam onun gəlişi sırasında Şuşa ələ keçirilərsə Şahın yanında daha da etibar qazanmış olur. Başvəzirin bu tür davranışına Abbas Mirzə müdaxilə etdi. Hər kəsin gözünün önündə onların münasibətləri pozuldu. Ancaq mühasirə işi get-gedə təkmilləşirdi. Sentyabrın (eylülün) ortalarında Şuşaya girmə planlaşdırılmışdı. Ancaq Şəmkirdən gələn məğlubiyyət xəbəri çox olumsuz təsir göstərməyə başladı. Bu xəbər Şahzadənin sentyabrın ortasına bəlirlədiyi Şuşaya hücum planını alt-üst etdi. Carçılar ordunun dəyişik yerlərində dolaşıb və hücum gününün dəyişdiyini söyləyirdilər.

Cahangir Mirzə bu xəbəri duyduğunda çaparaq atasının olduğu çadıra gəldi. Abbas Mirzənin çadırı dövlət yetkililəri ilə dolu idi. Asəf-əd Dövlə, Mustovfi-ul Məmalikdən həmlənin gecikməsinin səbəbini sorurdu. Onun bu davranışı Şahzadənin hüzurunda çox yersiz və ədəbsiz hərəkət kimi görünürdü. Şahzadə Məhəmmədəli Mirzənin göndərdiyi məktubu Başvəzir Asəf-əd Dövləyə verib və yüksək səslə oxumasını istədi. Başvəzir məktubu oxuduqca rəngi üzündən qaçır və heyrətini gizlədə bilmirdi. Məhəmməd Mirzə məktubda yazmışdı ki, onun səkkiz minlik ordusu Gəncənin yaxınlığında Şəmkirdə General Mədədovun ordusu ilə savaşa girmişdir. Zaman keçdikcə bu savaşda Məhəmməd Mirzənin məğlub olma xəbəri də Abbas Mirzəyə gəlmişdir. Məhəmməd Mirzənin Şəmsəddinli çobanlarından aldığı bilgiləri yanlış dəyərləndirməsi onun məğlubiyyətinə səbəb olmuşdur. Bəlkə də bu çobanlar ruslar tərəfindən alınmış və onların istədikləri bilgiləri Məhəmməd Mirzəyə vermişdilər. Çobanların dediklərinə görə rusların o bölgədə böyük birimləri olmamış və sadəcə, Tiflis ermənilərindən olan kiçik bir alay varmış.

Məhəmməd Mirzə dayısı Əmir Sərdarla birlikdə bu veriləri doğru-dürüst dəyərləndirmədən ordunu Şəmkirə doğru yönəldərlər. Rus ordusunun başında duran General Mədədov anladı ki, onlar bu hesabsız həmlələri ilə böyük xətaya yol vermişlər. Bu üzdən böyük bir hiyləyə əl atdı: əsas ordusunu və topxanasını saxlularda gizlin saxlayaraq kiçik bir bölümü Məhəmməd Mirzənin həmlə etdiyi yerə sövq etdi. Bu savaşda öncə zahirən Qacarların üstün olduqları görünürdü. Məhəmməd Mirzənin əsgərləri zəfərin qazanıldığını zənn edib, özlərini yaralı, əsir rus əsgərlərinin üstünə atıb onların başlarını kəsib özləri ilə götürürdülər ki, gətirib Şaha verib ödül alsınlar. Bu şəkildə ordunu bir intizamsızlıq sarmış oldu.

Mədədov bu fürsətdən istifadə edərək gizlin qalan ordusuna hücum və toplara atəş əmri verdi. Məhəmməd Mirzənin ordusuna qorxudan vəlvələ düşməyə başladı. Məhəmməd Mirzənin dayısı Əmir Xan top gülləsindən yara alıb öldü. Onun ölümü orduda düş qırıqlığı yaratdı. Məhəmməd Mirzə orduda yaranmış dağınıqlığı nə qədər bərpa etməyə çalışsa da düşmənin güclü top atəşi buna imkan vermirdi. Məhəmməd Mirzə məğlub oldu. Onun topları da təxrib edildi. Şahzadə Məhəmməd Mirzənin özü də az qala əsir düşəcəkdi ki, bir neçə xidmətçisinin hesabına qurtuldu. Şəmkirdəki məğlubiyyət Gəncədəki rus ordusunun geniş əməliyyata başlamasına imkan yaradırdı.

***

Təhlükəli bir durum yaranmışdı. Abbas Mirzə düşündü ki, Şuşanın mühasirəsini buraxıb və təcili savunma sisteminə keçməlidir. Təcili olaraq toplanan hərbi şurada Şuşanın mühasirəsindən vaz keçilməsi haqda öz dəlillərini ortaya qoydu. Şurada çox gərgin və qəti söhbət edirdi. Onun qətiyyəti və qərarlılığı, hətta Başvəzir Asəf-əd Dövləni də səssiz qalmağa zorladı. Özəlliklə Şəmkirdə məğlub edilib və intizamı, düzəni pozulan ordunun o şəkildə geri dönüb Şahın gözünə görünüb onu ümidsizliyə uğratmasına da müsaidə etmədi. Şahzadə Şuşanın geri alınacağı ilə ilgili ayrı bir zaman hücuma keçilməsi haqda qətiyyətlə danışdı. Abbas Mirzənin bu qərarlılığı qarşısında Başvəzir öz nifrətini içində boğaraq səssiz qalmağı tərcih etdi. Xüsusən eşidəndə ki, Şah Arazın sahillərinə yaxınlaşmışdır, Başvəzir daha çox narahat olurdu. Çünkü o, Şahdan ayrılıb Şuşaya doğru hərəkət etdiyində Şaha xoş xəbərlərlə dönəcəyini vəd etmişdi. Şuşanın mühasirəsinin gecikdiyini görən Fətəli Şah şəxsən əməliyyat mərkəzinə yaxınlaşmaq və əməliyatı kontrol etmək istəmişdi.

Azərbaycan ordusu Gəncəyə doğru irəliləyişində yerli əhalilərin əngəlləmələri ilə rastlandı. Çoxu ermənilərdən olan bu əhalinin heç şübhəsiz ki, öncədən ruslar tərəfindən alınmaları, Şahzadəyə qarşı təxribat ünsürü kimi kullanılmaları söz konusu olmuşdur. Ermənilər ruslar tərəfindən donatılmış silahlarla Şahzadənin ordusuna qarşı savaşmağa başlamışdılar. Bu da ordunun sürətli şəkildə yer dəyişdirməsinə mane olurdu. Lakin bu dəstələri zərərsizləşdirmək Azərbaycan ordusu üçün çətin iş deyildi. Azərbaycan ordusu Gəncəyə doğru irəlilədiyi ərəfədə Şahzadəyə qorxunc bir xəbər gətirdilər: Gəncə

qalasını savunmaqla görəvli olan Mərənd hakimi Nəzərəli Xan öz alayını oradan geri çəkib və Şahzadə Məhəmməd Mirzənin ordusu bulunan yerə getmişdir.

Artıq rusların qarşısında duracaq bir alay qalmamışdır. Azərbaycan ordusunun gəlişindən umutlanan Gəncə əhalisi yavaş-yavaş umutsuzluğa düşməkdə idilər. Şəhərin bir çox məhəllələrindən və kəndlərdən insanlar dəstə-dəstə nalə və fəryad edərək Araz çayına doğru, Azərbaycan ordusunun bulunduğu zənn edilən yerlərə qaçırdılar. Nəzərəli Xanın bu xəyanəti Abbas Mirzəni çilədən çıxarmışdı. Bu üzdən də dərhal Nəzərəli Xanın onun hüzuruna gətirilməsini əmr etdi. Şahzadə onun rütbələrini alaraq arxası üstə çullu bir eşşəyin üstünə bağlanmasını istədi. Nəzərəli Mirzəni hər yerdə, xüsusən başçısı olduğu öz alayının içində dolaşdırıb və aşağılayırdılar. Eşşəyin başını çəkən adam məsxərə ilə "Şah gəldi" deyə bağırırdı. Sonra da Abbas Mirzə, Nəzərəli Xanı Mərəndə göndərdi. Mərəndə bir məktub yazaraq Nəzərəli Xanın öldürülməsini əmr etdi. Nəzərəli Xan Mərənddə cəlladlar tərəfindən boğulub öldürüldü. Sonradan böyük sınaqda Nəzərəli Xanın oğulları intiqam hissi ilə bəzi işlər görəcəklərdi.

Abbas Mirzənin ordusu Tərtərdə yerləşmişdi. Abbas Mirzə Tərtərdə hərbi Şuranın çağırılmasını istədi. Bu şurada Başvəzir, Qulamhüseyn Xan Sipəhdar, Azərbaycan və digər vilayət ordularına mənsub mənsəb sahibləri iştirak edirdilər. Şahzadə Cahangir Mirzə və Şahzadə Bəhmən Mirzə də bu şuraya qatılmaqdaydılar. Dərhal bir qərara gəlinməli idi. Əldə edilən xəbərlərə görə Rusiyanın yeni Qafqaz hakimi böyük bir ordu ilə əməliyyat səhnəsinə yaxınlaşmaqda imiş. Hələ bu yeni Rus komandirinin adı bəlli deyildi. Lakin əsgərlərinə olan üstün münasibəti dildən-dilə düşmüşdü. Qafqazdakı rus əsgərlərinin yeməklərində və geyimlərində yenilik sağlanmışdı. Abbas Mirzə, onun əsgərlərinə verdiyi önəm konusunda bilgi aldığı zaman anladı ki, gerçək bir savaş komutanı ilə qarşı-qarşıyadır. Bu da Şahzadəni dərindən əndişələndirməyə başladı. Hərbi Şurada bir neçə sual öz cavabını axtarırdı. Gəncəyə həmlə edilsinmi? Əgər Gəncəyə həmlə edilər və Gəncəni almaq mümkün olmaz, Qacar orduları məğlub olarsa, o zaman Qarabağdan geri çəkilmək zorunlu olacaqdır. Bəlkə geri dönüb Şuşanın fəthi üçün bütün güclərini səfərbər etsinlər deyə sorular Hərbi Şurada ortaya qoyulur və cavabını arayırdı. Başqa bir yol da var idi və bu yol daha rasional görünürdü. Heç bir hücuma başlamadan möhkəm müdafiə sisteminə keçilməli və düşmənin həmləsini bəkləməli idilər. Digər tərəfdən, bu bəkləmənin yanı sıra partizan savaşları üçün eyitilmiş savaşçılarla düşmənə vur-qaç taktikasını uyqulayaraq onu zəiflətmək də bir çıxış yolu kimi ortaya qoyulurdu. Lakin çoğunluq bu şəkil savaşa qarşı idi. Başvəzir israrla savaşdan yana olduğunu söyləyir və savaş meydanında düşməni məğlub etmək gərəkir deyə basdırıb dururdu.

Abbas Mirzə avropalı müşavirlərinin söylədiklərini xatırlayırdı. Avropalı danışmanları ona bir neçə kərə söyləmişdilər ki, heç bir zaman Avropa üsuluna yenicə alışdırmaq istədiyin ordunu Avropa sistemi ilə donatılmış, Avropa

texnolojisi ilə təchiz edilmiş bir ordu ilə savaşa soxma! Məhəmməd Xan Əmir Şahzadənin zaman qazanma təklifini dəstəkləyirdi. Lakin Hərbi Şuraya belə, nüfuz etmiş onun düşmənləri Şaha yanlış bilgilər verməyə davam etməkdə idilər. Abbas Mirzə bu gedişlə Şah tərəfindən xainlik suçu ilə damğalana bilər qorxusu ilə öz iradəsini Hərbi Şurada tətbiq edə bilmədi. Başvəzirin təklifləri qarşısında Şahzadə təslim olmaq zorunda qaldı. Hərbi Şurada qırx minlik ordu müxtəlif alaylara ayrıldı və hər alayın da komutanları bəlli oldu. Başvəzir Asəf-əd Dövlə Sipəhdarla birlikdə Ərak ordusuna komutanlıq edəcəkdilər. Şahzadə Şeyx-ül Məluk Qaradağ, Mərənd və Mazəndəran alaylarının komutanlığını üstləndi, ona 12 qəbzə də top verildi. Abbas Mirzənin böyük oğlu Məhəmməd Mirzə ən seçkin alaylara komutan təyin edildi. Minbaşılıq rütbəsinə yüksələn İbrahim Xan Bakui 2000 nəfərlik ordu ilə ön cəbhədən hücum edəcəkdi. Bəhmən Mirzə başqa bir alaya fərman verəcəkdi. Bəhmən Mirzənin süvariləri Avşarlardan oluşmaqda idi. Cahangir Mirzə atasının əski dostu Əhməd Xan Müqəddəmin oğulları ilə bərabər Marağa alayını kontrol edəcəkdilər. Əhməd Xanın oğulları minbaşı Cəfərqulu Xan və yenə də minbaşı Hüseyn Xan paşai Azərbaycan ordusunun ən başarılı komutanlarından idilər. Zillül Sultanın oğlu Məhəmmədhüseyn Mirzə müxtəlif birimlərlə ordunun arxasında zəxirə və dəstək güc kimi qalacaqdı. Bir çox görəvlər paylaşıldı. Həmədan alayının Tüfəngçi birimlərinin komutanlığı Həmədanlı Qaragözlülərə tapşırıldı. Məhəmməd Xan Əmirnizamla Yusif Xan Gürciyə də topxananın komutanlığı verildi.

Abbas Mirzə öz ordusunu Tərtər çayının sahillərindən Gəncəyə tərəf sövq etməyə başladı. Gəncənin iki ağaclığında yerləşdi. Kəşfiyyatçı və vur-qaç birimləri rus ordusunun bir ağaclığına qədər yaxınlaşmışdı.

Bu arada Rus ordusunun Qafqaz üzrə hakimi Abbas Mirzə üçün də bəlli olmuşdu. Adının ətrafında miflər dolaşan bu şəxs general Paskeviç idi. Paskeviç Qafqazda Yermolovu əvəz etməkdə idi.

İki ordu bir-birindən 2-3 ağac məsafədə Gəncə savaş meydanında qarşı-qarşıya idi. Paskeviç möhkəm səngərlər inşa etdirərək ordusunu hər tür qafil hücuma qarşı qoya bilmişdi. Digər yandan rus ordusu yaxşı qidalanır, yaxşı ərzaqla təmin olunurdu. Rus ordusu sükunət içində savaş əmri bəkləməkdə idi. Ancaq bəzi xəbərlər Paskeviçin riyaziyyatçı qafasını qarışdırırdı. Məsələn, Şəmsəddinlu qəbiləsinin çobanları Paskeviçə İrəvan xanının Çaldır dağlarından keçdiyini söyləmişdilər. Ancaq sürətli araşdırmalar nəticəsində bu xəbərin doğru olmadığı bəlli oldu. Fəqət bu xəbər doğru olsaydı belə, General Paskeviç öz planından vaz keçməyəcəkdi. Çünkü o bilirdi ki, savaşın taleyi Abbas Mirzə ilə olan dirək toqquşmadan asılı olacaqdır. Sentyabr* (Eylül) ayının 12-dən 13-nə keçən gecə ruslara sədaqəti ilə bilinən bir erməni Paskeviçə xəbər gətirdi ki, Şahzadə bu gecə səhərə yaxın hücuma başlayacaqdır. Əcəba, bu şəkildə ansızın, qəfilcə həmlə

* Bu, Rusiya tarixi ilə verilmişdir. 25-26 sentyabr Qrigori tarixinə dəng gəlir.

etmək Abbas Mirzəninmi planı olmuş? Yalnız bu şəkildə bir plan dildən-dilə düşməmək şərti ilə məqbul və uğurlu ola bilərdi. Sonrakı Qacariyyə-Rusiya münasibətlərini çox dərindən etkiləyən bu savaşın bir çox yönü bəlirsiz olaraq qalmaqdadır. Yağmurun yağdığı bir gecədə, şumlanmış torpaqlarda ansızın həmlə edib düşməni mühasirəyə almaq mümkün idi?

Cahangir Mirzənin verdiyi məlumata görə Abbas Mirzə son anda qərarını dəyişdirmək istəyirmiş. Lakin bu məlumat yetərli deyil və bu yanlış taktiyə bəraət qazandıra bilmir. Bəzi alaylar gecənin qaranlığında yollarını azıb və başqa səmtə tərəf yürümüşlər. Nəm torpaq və zığ irəliləməni əngəlləyirdi. Yolunu azmış bəzi alaylar qarşı-qarşıya gələrək irəliləməni əngəlləyir və bir-birinə girərək intizamsızlıq yaradırdı. Gün doğduğunda istiqamətlər bəlli oldu. Yorğun düşmüş əsgərlər atəş yaxıb və özlərini qurutmaq istəyirdilər. Yağmur altında islanmış silahlarını qurutmaq və silmək zorundaydılar.

Rus qərargahında ordunun durumu bambaşqa idi. İsti bir yeməkdən sonra yaxşıca istirahət etmiş əsgərlər təbil səsi ilə meydanda toplaşdılar. Qısa sürədən sonra Şahzadənin də ordusunda təbillərin gurultusu eşidilməyə başlandı.

Rus ordusu iyirmi mindən artiq inzibatlı nəfərə sahib idi. Bunların içində yaxşı təlim görmüş qazaqlar da var idi.

Rus kəşfiyyatçıları xəbər gətirdilər ki, Abbas Mirzənin ordusunu görmüşlər. Kəşfiyyatçılar hətta Şahzadənin ordusunun sayı haqda da bilgi verdilər. On səkkiz alaydan və hər bir alayın min nəfərdən oluşduğunu qeyd edirdilər. Aralıqlarla üç və ya dörd qəbzə top nəzərdə tutulmuşdu. Arxada ehtiyatda olan yüngül topxanalarla bərabər Şahzadənin özəl qvardiyası yerləşmişdı. Təqribən iyirmi min süvari iki cinahda mövqe tutmuşdu.[41]

1826-cı il sentyabr ayının 15-ci gününün sabahı idi. Uzun intizardan sonra savaş saat doqquzda başladı. Gəncə savaşında iştirak edən Cahangir Mirzənin söylədiklərini olduğu kimi burada gətiririk:

"Rus ordusunun saldatları və topxanası Qacar orduları ilə qarşı-qarşıya durmuşdu. Qacar dövlətinin rəmzi olan, üzərində günəş və aslan rəsmi olan bayraq Şahzadənin başının üstündə dalğalanırdı. Baş keşikçi Məhəmməd Əmin Xan Qacar öz nəfərləri ilə Şahzadəni qorumaqla görəvli olduğu üçün ordunun mərkəzində sakin idi. Rus sərdara Abbas Mirzənin bulunduğu yer məlum olmuşdu. Abbas Mirzənin bayraqların altında olduğu Paskeviç tərəfindən təsbit edilmişdi. Bu üzdən də bütün top atışlarını və saldatların hücumunun o mərkəzə doğru olmasını istəmişdi. Bu arada bəlli oldu ki, rus ordusu tutduğu pozisyonu dəyişdirmədən savunma durumunda qalacaqdır. Qacar orduları da ya hücuma keçməli, ya da bəkləməli idi ki, rusların təpkisini öyrənsinlər. Böyük ehtimala görə on gün də

---

[41] Qacar ordusunun miqdarını Paskeviç iyirmi min, Cahangir Mirzə isə otuz beş min olaraq qeyd etməkdədir.

Qacar ordusu bəkləyəcək olsaydı, rus ordusu yenə də pozisyonunu dəyişdirməyəcəkdi.

Şahzadə orduya hücum əmri verdi. Savaş və hücum təbilləri və zurna çalındı. Piyadələr öndə yavaş-yavaş ruslara qarşı yürüməyə başladı. Marağa alayının on iki qəbzə topu ordunun mərkəzində hazır durumda idi. Digər on iki qəbzə böyük top Şahzadə ilə Məhəmməd Xan Əmirnizamın dirək əmirləri altında idi. Şahzadədən əmr gəlmədən atış haqları yox idi. İki ordunun bu qədər bir-birinə yaxınlaşmasına rəğmən ruslar tərəfindən heç bir təpki görünməməkdə idi. Abbas Mirzə toplara atış əmri verdi. Topların atışının yanı sıra Mirzə Əli Gəraylının əmrindəki süvarilər hücuma başlayıb və rus süvarilərinin düzənini pozdular. Bu anda rusların da topları atışa başladı. Ruslar Abbas Mirzənin durduğu yeri təsbit edib və bütün mərmilərini o yerə atırdılar. Hədəfləri Şahzadə və ordunun qəlbi olan mərkəzi dağıtmaq idi. Bu zaman Şahzadədən mənə bir əmr gəldi. Bizim alay toplarını sürətlə irəli çəkib və güllələrin ruslara çatacağı yerdə yerləşdirib və dərhal atışa başlamalıydıq. Silahlı piyadələrimizlə ruslarla döş-döşə savaşmalıydıq. Şahzadənin duaçısı olan bu bəndə də alayımla bərabər atlardan enib baş komandirin əmrini uyqulamağa başladıq. Mənim alayım sürətli bir hücuma başlayıb saldatlarla artıq tam üz-üzə silah və süngü savaşına başlamışdı. Rus toplarının gülləri bizim başımızın üstündən keçib Şahzadənin bulunduğu yerə isabət edirdi. Abbas Mirzə bu durumu gördüyündə Asəf-əd Dövlənin ordusunun önündə rusların olmadığını öyrənib və onları köməyə çağırdı. Asəf-əd Dövlə ağır davrandığı və sürətlə özünü yetişdirmək istəmədiyi üçün Şahzadə savaş meydanının sağ tərəfinə çəkilmək zorunda qaldı. Şahzadənin savaş meydanının sağ tərəfinə çəkilməsinə rəğmən rus topxanaları daha sürətli və ardıkəsilməz bir şəkildə ordunun mərkəzini hədəf alaraq atışlarını davam edirdi. Rus toplarının atəşi altında düzənini itirən Avşar və Marağa alayları yavaş-yavaş savaş qabiliyyətlərini itirirdilər. Bu vəziyyəti müşahidə edən ruslar ön cəbhədə savaşan əsgərlərə yardım göndərdilər. İki min saldat Marağa topxanasını almaq üçün hücum etdilər. Hamısı birdən “hura” çəkərək Marağa alayını mühasirə etməyə başladılar. Marağa alayı komutanının bir saldat tərəfindən öncə qolları kəsildi və sonra ürəyinə bir güllə sıxılaraq öldürüldü. Sonra da Marağa alayının bayraqdarları hədəf alınaraq öldürüldülər. Qoruyucum mənə xəbər gətirdi ki, arxamızdakı alaylarımız məğlub edilmiş və bizim bu az sayda nəfərlərimizlə savaşmağımızın anlamı yoxdur. Əgər bizim toplarımız da işdən düşsə hamımız ruslar tərəfindən əsir alınacağıq. Mən tabeliyimdə olan orduya geri çəkilmə əmri verdim. Geri çəkildiyimizdə gördüm ki, arxada olan bütün nəfərlərimiz qaçmışlar. Mənim də atımı xidmətçim minmiş və qaçmışdır. Əgər ilk hücumda rus süvariləri darmadağın edilməsə idi, bu savaşdan bir nəfərimiz belə diri çıxmayacaqdı. Bu savaşda iki qəbzə top düşmənə qalsa da qalanlarını geri çəkə bildik. Şahzadə mənim atımın xidmətçi tərəfindən qaçırıldığını öyrəndiyində iyirmi süvari ilə bir yedək atı mənim ya cənazəmi, ya da canımı savaş meydanından qurtarmaq üçün görəvləndirmişdi. Mən bu yedək at

vasitəsi ilə özümü savaş meydanından qurtardım. Bir təpənin başında Şahzadə ilə görüşdüm."[42]

Cahangir Mirzə davam edir ki, təpənin başında rus ordusunun Qacar ordularını təqib etdiyini görürdük. Sanki ovçu ovu təqib edərcəsinə bizimkilər təqib edilirdilər. Ordunu saran ümüdsüzlük səbəbi ilə fərarların da sayı çoxalmışdı. Bir neçə top gülləsi də qaçanların arxasınca sıxışdırıldı, lakin artıq təqib də durdurulmuşdu.

Şahzadə öz oğulları və məğlub ordusu ilə Araza doğru geri çəkilməyə başladı. Bütün topları savaş meydanından çıxarmağı başarmışdılar, ancaq yolda iki qəbzə top bataqlığa batdı. Şahzadə, Uğurlu Xanın süvarilərinə bu topları bataqlıqdan çıxarmalarına əmr etdi. Gəncə savaşının başlanğıcından beş yüz nəfərlik bir Tatar süvarisi çevrədə dolaşmaqda idi. Hansı tərəf qalib gəlsə idi ona qatılmağı gözləyirdilər. Bu 500 süvari indi məğlub tərəfi təqib etməyə və onlardan bac almaq üçün hücuma başlamışdı. Bilirdilər ki, bu məğlub tərəfdən bir şey əldə edə bilərlər. Bu Tatar süvarilər iki batmış toplarla uğraşan Uğurlu Xan və süvarilərinin əllərini bağlayıb ödül almaq üçün ruslara apardılar.

Abbas Mirzə Arazdan keçdikdən sonra ordunun Bəhramlı adında bir təpədə durmasını istədi. Abbas Mirzə burada ordunu düzənə tabe etmək istəyirdi. Müxtəlif yerlərə qaçmış əsgərlər də gəlirdilər. Ancaq Şahzadənin sağlığının yerində olmadığı açıqca görünürdü. Ölümcül bir səssizlik Abbas Mirzənin ruhunu və vücudunu sarmışdı. Elə bir durumda idi ki, ordu komutanlarının bir-birləri ilə yüksək səslə nəzakətsiz davranmalarına belə laqeyd idi. Bu ortamda Abbas Mirzə savaşla ilgili bir raport yazıb Şaha göndərdi. Bu raportda mindən artıq ölü və dörd mindən artıq əsir haqqında bilgi verilirdi.

Əsir düşənlərin çoxu Asəf-əd Dövlənin komutanlığında olan Ərak alayından idi. Asəf-əd Dövlə bu alaydan gərəkli məqamda istifadə edəməmiş və savaşın nəticəsini gözləməyə başlamışdı ki, qərarını savaşın gedişinə görə versin. Şahzadənin ordusu isə fərar etməyə başladığı zaman bu alay da qaçmağa çalışaraq dağlıq yolla özlərini Naxçıvana çatdırmağa cəhd etmişdilər. Lakin Mədədov casusları vasitəsi ilə onların fərar istiqamətini öyrənib çoxunu əsir almışdı.

***

Məğlubiyyət xəbərini duyan Fətəli Şah Abbas Mirzəni hüzuruna çağırdı. Şahzadə, Bəhramludakı ordunun başçılığını Məhəmməd Xan Əmir Nizama tapşırıb oğulları ilə bərabər neçə yüz nəfərlik güvənlik süvariləri ilə yola düşdü. Asəf-əd Dövlə Süpəhdar da onlarla birgə yollandı

Yermolov oktyabrın (ekimin) 22-də yazırdı ki, Şah Əhərdədir. Abbas Mirzə, Şahın yanına gedir və dağılmış ordusunu təkrar bir düzənə tabe etməyə çalışır.

[42]Cahangir Mirzə "Yeni tarix".

Təqribən bir ay Gəncə savaşından keçməkdə idi. Bu müddət ərzində Abbas Mirzənin ordusu isti bir yemək yeməmişdi. Çünkü geri çəkilmə sürəci doğru-dürüst yeməyin hazırlanmasına əngəl olmuşdu. Digər tərəfdən, məğlubiyət duyğusunu yaşayan orduda sıcaq yemək yemə zövqü də yox idi. Lakin Abbas Mirzənin dərdi bunlardan da böyük idi. Rusların istilasına uğrayan bir çox kəndlərin əhalisi çocuqları ilə bir yerdə fərar edirdilər. Onların çoxu, özəlliklə çocuqlar yolda aclarından ölürdü. Şahzadənin gözlərinin önündə insanlar dəstə-dəstə saldatların zülmündən Arazın bu tərəfinə doğru qaçırdı, Azərbaycan ordusunun baş komutanı, Azərbaycan hökmdarı Abbas Mirzədən yardım diləyirdilər. Bir çox kəndlilərin qızları saldatlar tərəfindən təcavüzə məruz qalır və bir çox gənc qızlar da təcavüz qorxusundan özlərini yaxır və ya dəyişik yollarla intihar edirdilər. Bu hadisələri eşidən Şahzadə danışmağa belə söz tapa bilmirdi. Bütün bu olaylar onu dərindən sarsıdırdı. Azərbaycan ordusundan imdad diləyən bu bədbəxt insanlara Abbas Mirzə yardımçı ola bilmədiyi üçün çox üzülürdü. Şahzadə öz yeməyini də əsgərlərin yeməyi səviyyəsinə endirmişdi. Heç bir özəl ov ətini qəbul etmirdi və əsgərlərindən fərqlənmək istəmirdi.

Şah, Ərdəbilə yaxın bir məkan olan Şaməsbi* adında bir yerdə bulunmaqda idi. Şaməsbidə bir hərbi şura düzənləndi və Abbas Mirzənin təkrar Araz sahilinə geri dönməsi qərarlaşdırıldı. Təkrar yeni komutanların təyini üçün yeni qərarlar verildi. Şeyx-ül Məluk Mirzə və Həsən Xan Talış, Xəzər dənizini qorumaqla görəvləndilər. Həsən Xan İrəvanı qorumaqla əmirləndi.

Rus ordusunun bu zəfəri imperatoru həvəsləndirmişdi. Rus İmperatoru Yermolova belə bir məktub yazdı: "İrəvanı ələ keçirmə fürsətini qaçırmamalıyıq. İstər savaş yolu ilə, istərsə də İrəvan hakimini para ilə almaq yolu ilə İrəvanı ələ keçirməliyik". Onlar Sərdar Hüseyn Xanın ruh halını yaxşı bilirdilər. Lakin Hüseyn Xan rusların altun təklifləri qarşısında təslim olmamışdı.

Abbas Mirzə bu savaşı istəməmişdi. Şahzadəyə görə bu savaş doğru zamanlanmamışdır. Bu savaş hərb taktikasından heç bir şey bilməyən, sadəcə, cəhad əmri kimi rahat fətva verməyi başaran din xadimlərinin, Şahzadənin rəqiblərinin istəkləri üzərinə baş vermişdi. Sanki onlar bu savaşın məğlubiyyətlə sonuclanacağını bilirlərmişcəsinə hərəkət etmişdilər. Savaşa hazırlıq zamanı hər kəs Abbas Mirzənin savaşdan yana olmadığını açıqca görmüş, sezmişdi. Artıq Tehran mollalarının və Abbas Mirzənin düşmənləri kimi davranan şahzadələrin Abbas Mirzə ilə mübarizə etmək üçün əllərinə yaxşı bəhanələr düşmüşdü. Abbas Mirzənin çox güvəndiyi və nisbətən modernləşmiş Azərbaycan ordusunun

---

*Bu yer bu gün də Şaməsbi olaraq qalmaqdadır. Ərdəbillə Sərein (Sərcin Savalanın ətəklərində yerləşən kiçik bir şəhərdir. Buradan təbii qaynar sular fışqırmaqdadır. Bu təbii sularda yuyunub şəfa bulmaq amacı ilə dünyanın çeşidli yerlərindən buraya turist gəlməkdədir. Bir neçə isti göl müalicəvi önəmə sahiblər. Səreinin ən böyük isti gölü Gamış gölüdür. Bu üzdən də bu şəhər get-gedə böyüməkdədir.) arasında olan bu ərazi Ərdəbil şəhəri böyüdüyü üçün artıq Ərdəbilə yapışmış sayılır. (G.C.)

məğlubiyyəti Şahzadənin qardaşlarını və din xadimlərini sevindirməkdə idi. Bu məğlubiyyət Abbas Mirzənin reformlarına və Qərbləşmə yönündəki islahatlarına böyük zərbə endirmişdi. Digər tərəfdən, Abbas Mirzə xanların da söylədiklərinin boş lafdan başqa bir şey olmadığını sezdi. Yalnız öz torpaqlarına geri dönmək üçün savaşan bu xanlar rusları güclü gördüklərində bu istəklərindən vaz keçməyə başlamış və bu kəz Fətəli Şaha sadəcə, İslam Dünyasının padşahı kimi baxmışdılar. Bəzi xanlara da ruslar tərəfindən öz ərazilərində yerləşdiriləcəkləri konusunda xəbər gəlmişdi. Quba xanı Əhməd Xan, Bakı xanı Hüseynqulu Xan, Şirvan xanı Mustafa Xan öz səbatsızlıqlarını çox tez ortaya qoydular. Lakin məğlubiyyət acısı, əldən getmiş torpaqların sevdası, rusların təkrar irəliləmə ehtimalı Şahzadənin iç dünyasında savaş istəyini artırırdı. Ancaq Şahzadə özünü yalnız hiss etməyə başlamışdı. Onun planlı və daha gəlişmiş ordu ilə savaşa başlamasına Tehranın "mənəvi" hakimləri olan mollalar tərəfindən izn verilməyəcəyini hiss edirdi. Fətəli Şah məcburən din xadimlərinin fikirləri ilə bu dəfə daha çox hesablaşmalı idi. Çünkü beləcə bu məğlubiyyətin acısını unutmaq üçün onların otoritəsindən yararlana bilərdi. Din xadimlərinin fikrincə, məğlubiyyətin səbəbi Abbas Mirzənin kafir ölkələrə məxsus olan islahatları Azərbaycanda gerçəkləşdirməsi idi.

Şəki Xanı Hüseyn Xan kiçik bir savaşda ruslar tərəfindən öldürülmüşdü. Onun cibindən Şahzadənin bütün xanlıqlara yazdığı bir məklub çıxmışdı. Şahzadə bu məktubda yazırdı: "Məndən sorursunuz ki, savaşdan əlimi çəkmişəm? Xeyr, savaş mənim üçün hələ bundan belə başlayır." Gerçəkdən Rusiya Abbas Mirzəni hər zaman böyük bir təhdid ünsürü kimi görürdü. Məğlubiyyətdən sonra Rusiya istihbaratının "Abbas Mirzə, Xudafərin civarında iyirmi beş minlik ordu düzənləmişdir" raportu bu təhdidin açıq örnəyidir. Ancaq böyük bir ehtimala görə Rusiya Şahzadənin maliyyə sıxıntısı haqqında bilgili imiş. Bu bölgənin ağır keçən qışında Azərbaycan ordusunun ehtiyaclarını və yeməyini təmin etmək çətin bir iş idi. Bu üzdən də Şahzadə bir çox piyadə nəfərlərinin evlərinə dönmələrini istədi. Şahzadə onların baharda geri dönəcəklərinə güvənirdi. Yalnız süvarilər vasitəsi ilə hərbi məşqləri davam etmək istəyirdi. Savaşın ağırlığı dolayısıyla Azərbaycan əyalətinin büdcəsi boşalmışdı. Abbas Mirzə ordunun azuqəsinin istehsalına nəzarət etmək üçün bir neçə həftəliyinə Təbrizə getdi.

Gəncə və Qarabağdan gələn qaçqınlar kütləsi qida problemini daha da şiddətləndirirdi. Gəncə və Qarabağ kəndləri, demək olar ki, öz sakinlərindən boşalmışdı. Rus adını duyduqlarında kəndlilərin canına qorxu düşürdü. Bəzən də bu qaçqın kütlələr çarəsizlikdən xanların vədlərinə inanıb, onların arxasınca gedirdilər. Abbas Mirzə bir an belə bu qaçqınların durumuna etinasız qalmırdı. Qışın başladığı bir ərəfədə ayaqyalın, əyinlərində yar-yamaqlı köhnə paltarlarla Araz boyunca dağılmış olan bu qaçqınların vəziyyəti Abbas Mirzəni çox rahatsız edirdi.

Bütün bu problemlərin ötəsində Abbas Mirzə bir də ailəsindəki müşküllərlə üz-üzə idi. Vəliəhdlik adayı olan böyük oğlu Məhəmməd Mirzə əskidən öyrətməni

olmuş yalançı dərviş Hacı Mirzə Ağasının təsirinə düşərək, xürafata sövq edilmişdi. Məhəmməd Mirzə Avropadan gələn hər şeyə nifrət edirdi. Avropadan gələn yeni paltarları öncə suya çəkdirib, qüsl verdirib sonra geyinirdi. Dərvişin yönləndirməsi ilə riyazətə çəkilmiş və çox yemək yeməyi ilə bilinən Məhəmməd Mirzə, yalnız çörək və sirkə yeməklə yetinirdi. O, dərvişin etkisi altında qalaraq öncə təsəvvüfi davranışa, sonra da xürafata yönləndirilmişdi. Abbas Mirzə düşünürdü ki, əcəba Məhəmməd Mirzənin vəliəhd və taxt-tacın varisi olması üçün israr etməlidirmi? Digər yandan, Abbas Mirzənin daimi eşi və vəliəhdin anası Şahzadə xanım, Ələsgər Xan vasitəsi ilə Məhəmməd Mirzənin vəliəhd edilməsi haqda bəzi işlər görürdü ki, onun bu işlərinin yaxşı olmayan nəticələrini öndəki səhifələrdə görəcəyik.

***

Abbas Mirzənin qardaşı oğlu Şeyx-ül Məluk, Talış bölgəsində ona tapşırılan postu tərk etmişdi. Özünü tələm-tələsik Tehrana dönməkdə olan Şaha çatdırmaq istəyirdi ki, onu postda saxlamağa çalışan Məhəmməd Xan Qaragözlüdən ona şikayət etsin. Şah özü də artıq bu məğlubiyyətdən sonra savaşdan bezmişdi. Şah buyruq verdi ki, qadınlarından biri olan Nuşafərin Zenganda onun istiqbalına gəlsin.

Qaradağ postu ona tapşırılan Şahzadələrdən birisi də o qədər diqqətsiz davranmışdı ki, o yerlər General Mədədovun partizanlarının və hərbi qruplarının hücumu üçün açıq qalmışdı. Mədədovun partizanları və hərbi qrupları Arazdan keçib, Əhərdə və Ərdəbildə əməliyyat etmişdilər.

Payızdan etibarən savaş susqun və durğun şəkildə davam edirdi. Mədədovun ara-sıra hücumları savaşı ayaqda tuturdu. General Mədədovun kiçik çaplı bu hücumları bir növ nəbz yoxlama xarakteri daşıyırdı. Bu o demək idi ki, Azərbaycanı böyük bir təhlükə təhdid etməkdədir. Çünkü artıq Gəncə savaşından sonra hər kəsdə rusların daha güclü olduğuna inam yaranmışdı. Mədədov bu kiçik həmlələri ilə Qacar tərəfinin hələ özünü toparlaya bilməmiş olduğunun qənaətinə varırdı. Bu da başqa böyük miqyaslı həmlə üçün ruslara fürsət verməkdə idi. Təbrizin təhdid altında olduğu fikri ortalıqda dolaşırdı. Bu üzdən də şəhərin müdafiəsi üçün bəzi önləmlər alınırdı. Digər tərəfdən, qış dolayısı ilə məzuniyyətə buraxılan əsgərlər geri çağırıldılar. Lakin Mədədovun bu kiçik miqyaslı hücumlarının qarşısı alındı.

Mədədov çox maraqlı və qorxmaz bir xarakterə sahib idi. Əslən Qarabağlı idi. Süvariliyi Qarabağda öyrənmişdi. Bu bölgənin adamı olduğu və bölgəni yaxşı tanıdığı üçün bir çox əməliyyatlarda başarılı olurdu.

Təbrizin də təhdid edilməsi üzərinə Abbas Mirzə Şaha bir məktub yazdı. Bu məktubda Şeyx-ül Məluk və Seyf-ül Məluk kimi bəzi şahzadələrin öz postlarında gərəkli etina və özəni göstərməmələrindən şikayətlənirdi. Onların bu davranışlarının onda böyük şübhə doğurduğunu yazırdı. Gələcək, Abbas Mirzənin haqlılığını isbatlayacaqdı. Baxmayaraq ki, onun bu məktubu Tehranda ona qarşı

yeni nifrət və kinlərin ortaya çıxmasına nədən oldu. Abbas Mirzənin rəqibləri onu Şahın nəzərindən salmaq üçün uyğun bəhanə tapa bilmirdilər. Söylədikləri dəlillər Şahı təsirləndirə bilmirdi. Şah öz hesablamasında Abbas Mirzəyə olan ehtiyacını onların söylədikləri ilə ölçürdü və bu hesablamada Abbas Mirzənin ağırlığı ortaya çıxırdı. Ancaq Şahzadənin rəqibləri Abbas Mirzəyə qarşı Şahı təsirləndirə biləcək ən uyğun bəhanəni tapmışdılar. Onlar müxtəlif yollarla Şaha çatdırdılar ki, Abbas Mirzə mərkəzin nəzarətindən uzaq olmaq üçün Azərbaycandan heç yerə çıxmır. Bu, Şahı etkiləyəcək ən güclü bəhanə idi. Onlar bilirdilər ki, balıq sudan kənarda yaşaya bilmədiyi kimi Abbas Mirzə də Azərbaycandan kənarda ölü kimi bir şey olacaqdır. Abbas Mirzənin qərbləşmə reformlarını durdurmanın ən uyğun yolu onu Azərbaycandan ayırmaq idi. Çünkü başqa vilayətlərdə Şahzadə bir neçə səbəb üzündən bu reformlarını gerçəkləşdirə bilməzdi: Birinci ona görə ki, Abbas Mirzə heç bir Qacariyyə vilayətinə Azərbaycan qədər içdən və könüldən bağlı deyildi. İkinci, ona görə ki, heç bir vilayət Azərbaycan qədər Abbas Mirzəni qəbul etməzdi. Üçüncü, ona görə ki, Azərbaycanda yarımçıq buraxıb gedəcəyi reformları başqa vilayətdə gerçəkləşdirə bilməsi zaman və imkan baxımından mümkün deyildi.

***

Bahar gəlmək üzrə idi. Düşmən yeni bir savaş üçün hazırlıq görürdü. Çox qısa bir zaman içində Üçkilsəni işğal etdilər. Bu da İrəvanı mühasirəyə almanın ilk işarəsi idi. Abbas Mirzə sürətli bir şəkildə ordusunu nizamlamaqla məşğul idi. Üçkilsənin işğal olunması Şahın ağlında Abbas Mirzəyə qarşı yaranan şübhəni ortadan qaldırmışdı. Çünkü ruslara qarşı Abbas Mirzəni əvəz edə biləcək kimsə yox idi. Abbas Mirzə ta çocuqluğundan Azərbaycanda böyümüş və bu ölkə ilə özdəşləşmişdi. Şahda yeni bir həyəcan yaranmışdı. Qarşıdan gələn yayı Sultaniyyədə deyil, savaş sınırlarına yaxın bir yerdə keçirmək istəyirdi.

Savaşın ağır xərci Azərbaycanın belini bükməkdə idi. Maliyyə və vergiləri artırmaq lazım idi. Abbas Mirzə məcburən bu işə getmək zorunda idi. Baxmayaraq ki, vergiləri artırmaq Abbas Mirzənin başlatdığı reform sürəcinə qarşı idi. Lakin Şahzadənin başqa çıxış yolu yox idi. O, Azərbaycanı qorumaq üçün yenə də Azərbaycana arxalanmalı, Azərbaycan əhalisinə dayanmalı idi. Jamse Morier (Cemz Moryer) in yazdığından belə anlaşılır ki, Abbas Mirzə Şahın Azərbaycana gəlməsinə qətiyyən sevinmirmiş, həm də üzülürmüş. Çünkü Azərbaycan ordusunun xərcini təmin etməkdə zorluq çəkən Abbas Mirzə Şahın və çevrəsindəki böyük ekipin və dəstələrin də xərcini azərbaycanlıların üzərinə yükləməli idi. Bu üzdən də hər dəfə Şahın Azərbaycana gəlişini duyduğunda onun üzgün olduğu bütün davranışlarından bəlli olurmuş. Bu dəlilə görə də atasına bir məktub yazaraq Şahən-şahın yerinə yardımçı orduların Azərbaycana gəlməsi daha faydalı olur və savaşın gedişinə olumlu etki göstərir deyə mülahizələrdə bulundu. Şahzadə Şahın bu il də Sultaniyyədə istirahət etməsini arzu edirdi. Bu məktublar Fətəli Şahı əsəbiləşdirir və oğluna qarşı şübhələrin təkrar güclənməsinə səbəb olurdu. Şah

zənn edirdi ki, Abbas Mirzə artıq özünü Azərbaycan padşahı kimi aparmağa başlamışdır. Bu nədənlə də onun Azərbaycana gəlişini istəməməkdədir.

Şah öz ordu birimləri ilə tələsik bir vəziyyətdə Təbrizə yola düşdü. Şah o günə qədər heç ağzına almadığı sözləri danışır və şübhələrini açıqca söyləyirdi. Bu da çevrədəkilərin şaşqınlığına səbəb olmuşdu. Şah deyirdi ki, eşitmişəm Abbas Mirzə ruslarla gizlincə danışığa başlamış. Hər kəs düşünürdü ki, Şah Təbrizə doğru bu alışılmadıq sürətli hərəkəti ilə Abbas Mirzəni ruslarla birləşib mərkəzə qarşı əməliyyata keçmədən öncə yuvasında basmaq istəyir.

Abbas Mirzə atasının başqa bir dönəmə mənsub olduğunu düşünürdü. Bu əski yönətim şəkli ilə gəlişməkdə olan rus ordusunun qarşısında müqavimət etmək olmaz deyə düşünürdü. Qacar dövlətində avropalılarla geniş miqyaslı münasibətdə olan ilk şəxs Abbas Mirzə idi. Şahzadə avropalılar vasitəsi ilə konkret vətən anlayışını öyrənmiş və dinlərin uydurduğu obstrakt insan tipinin ötəsində vətəndaş insan tipini düşünürmüş. Azərbaycan insanlarına sadəcə, vergi ödəməsi gərəkən bir arac və Tanrı bəndəsi kimi baxmır, həm də onlara birər vətəndaş, ancaq və ancaq Azərbaycana aid insanlar kimi baxmağa başlamışdı. Abbas Mirzənin bu vətəndaşlıq anlayışı sadəcə, Azərbaycanı ehtiva etməkdə idi. Çünkü başqa vilayətlərlə onun əlaqəsi yox idi. Başqa vilayətləri başqa şahzadələr idarə edirdi. Abbas Mirzə avropalı müşavirlərindən bir çox texniki və hərbi bilgi öyrənmişdi, lakin öyrəndiyi ilk mənəvi dəyər siyasi, iqtisadi, ictimai və tarixi içəriyi olan vətən sevgisi və milli coğrafıya idi. 1789-cu il Böyük Fransa inqilabı bütün Qərbdə milli dövlət anlayışını ortaya qoymuşdu. Bu devrimin gətirdiyi ulusçuluq duyğusu özəlliklə Fransa ordusu tərəfindən həmən özümsəndi. Fransa ordusunda güclü bir milliyyətçilik şüuru və duyğusu dalğalanmaqda idi. Bu üzdən də Fransanın ordusuna mənsub olan albaylar və digər görəvli şəxslər istər-istəməz bu düşüncəni də özləri ilə bərabər getdiyi ölkələrə aparırdılar. Qərbin gəlişməsinin səbəblərini irtibatda olduğu qərblilərdən öyrənməyə çalışan Abbas Mirzə milli dövlət anlayışı haqqında da fransız albaylardan bir çox şeylər öyrənmiş, bu haqda onlara sorular yönəltmiş və onun düşüncəsini alt-üst edəcək cavablar almışdı. Şahzadə Fransada 1789-cu ildə baş verən inqilabın mahiyyəti və amacı haqda bir çox bilgilər edinmişdi. Bütün çocuqluq xatirələri ilə Azərbaycana bağlı olan Şahzadə Qərb modeli miliyyətçilik fikrini bildikdən sonra, sadəcə, duyğu planında deyil, həm də şüur planında Azərbaycana bağlanırdı. Azərbaycan onun üçün Qacar vilayətlərinin hər hansı biri kimi deyildi. O, batılılardan aldığı, mənimsədiyi görüşləri Azərbaycanda tətbiq etməyə çalışırdı. Azərbaycanlılara dindaş insanlar kimi baxmırdı, çünkü dində vətəndaş anlayışı yoxdur. Dində vətəndaş yoxdur, insan vardır, mücərrəd insan tipini rəmzləşdirməkdə, çağrışdırmaqdadır dinlər. Cümhuriyyətçilik və sekular düşüncəni dünya tarixinə gətirən Böyük Fransa inqilabının istəkləri Abbas Mirzəni uzun-uzun düşündürməkdə idi. Şahzadə hiss edirdi ki, həqiqətən də Azərbaycan insanı onun üçün İslam dininin təlqin etdiyi hər hansı bir insan deyildir. O, Azərbaycan insanının onun qəlbində və şüurunda bir

ayrıcalıq daşıdığını duymaqda idi. Bu hiss onda sövqi təbii şəkildə yaranmış, əmələ gəlmişdi. Şahzadə hiss edirdi ki, Qacar imperatorluğu başqa yerlərdə torpaq itirərkən dərin bir rahatsızlıq hissi keçirməməkdədir. Ancaq Azərbaycanın başına gələn ən kiçik fəlakət belə onun ruhunu sarsıdırdı. Şahzadə keçirdiyi bu hissləri fransızlardan aldığı ulusçuluq fəlsəfəsi ilə təfsir etməyə çalışırdı. Nədən Azərbaycan onun üçün bu qədər ayrıcalıq daşımaqda idi? Onunla irtibatda olan fransız hərbçilər öz xatirələrində Şahzadənin 1789-cu il Fransa devriminin ulusçuluq mahiyyəti ilə daha çox ilgiləndiyini, bu haqda daha çox sorular sorduğunu yazmaqdalar. O, Azərbaycan insanına konkret vətəndaş kimi baxırdı. Bu ayrıcalıq isə vətəndaşlıq məfhumunu idrak edə bilməyən və ya mənafelərinin xətərə girməsi dolayısı ilə dərk etmək istəməyən din xadimlərini və digər çevrələri çilədən çıxarır, çox rahatsız edirdi. Şahzadənin Azərbaycana bu qədər bağlılığı Fətəli Şahı belə şübhələndirirdi. Şah düşünürdü ki, Abbas Mirzənin qərblilərlə bu qədər özəl və uzun məşvərətlərinə bəlkə də izn verməməli imiş. İstər Şahzadənin qərbli özəl həkiminin, istərsə də onunla irtibatda olan batılı elçilərin, hərbçilərin və diplomatların verdikləri verilərə görə o, Azərbaycanın sadəcə, bir vilayət olaraq görünməsindən rahatsızlıq duymaqda imiş. Abbas Mirzə Azərbaycanın tarixi statusunun dəyişilməsindən yana imiş. Şahzadə Azərbaycanı vətən olaraq görür və azərbaycanlılara da vətəndaş kimi baxırdı. Bu üzdən də bu vətənin insanlarının vergilərini Tehrana vermək istəmir, atasının anlamsız ağır xərcləri üçün xərcləmək istəmirdi.

Şah öz qəlbinin dərinliyində Abbas Mirzənin xain olacağına inanmırdı, ancaq ağlında baş qaldırmış bu şübhəni də söyləməkdən geri qalmırdı. Şah, Təbrizə varmadan Ucan yolu ilə Xoya tərəf sürətlə hərəkətinə davam etdi. Abbas Mirzə təkrar atasının gəlməməsi üçün bir daha bəzi istəklərdə bulundu, lakin Şahın gəlməkdə israrlı olduğunu bildiyində təslim olmaqdan başqa çarə görmürdü. Atasını qarşılamaq üçün şəhəri tərk etdi. Yenə də Şaha vardığında atından enib Şahın qarşısında diz çöküb alnını Şahın atının ayağının altındakı torpağa qoydu. Şahın Azərbaycana gəlişi Abbas Mirzəni çox üzmüşdü. Çünkü bu gəliş keçmişdəki kimi yenə də məğlubiyyət üçün şərait yaradacaqdı.

Şah şan-şöhrəti dünyada dolaşan Abbas Mirzənin onun qarşısında bu şəkildə davranmasından çox razı görünürdü. Abbas Mirzə ayağa qalxıb gözləri atasının gözlərinə sataşdığında Şahın bütün şübhələri ortadan qalxmışdı. O sədaqətli gözlər yalan söyləmirdi. Şah, Şahzadəyə səmimi və gülücük dolu bir işarə edərək bərabərcə yola düşdülər. Bir az öncəyə qədər Şahın içini yaxan şübhələrdən əsər qalmamışdı.

Sonra da uzun-uzun söhbət etdilər. Abbas Mirzə bütün durumu təfərrüatı ilə atasına anlatmağa başladı. Şahzadələrin öz postlarında böyük səhvlərə yol verdiklərini və bu üzdən də bu səhvlərdən düşmənin istifadə etdiyini söylədi. Bəlkə də daha uzun və günlərcə danışmaq istərdi, lakin cəbhələrdən gələn xəbərlər Abbas Mirzəni önləm almağa məcbur etdi.

Qafqaz hakimi İrəvanı mühasirə etməkdə qərarlı idi. 1827-ci ilin yayında bölgədə bir yoluxucu xəstəlik yayğınlaşmışdı. Bu üzdən Rusiya İrəvanın mühasirəsini ertələmişdi. Ancaq Qafqaz hakimi, yardımçı ordu çatar-çatmaz İrəvanı mühasirə etməkdə qərarlı idi. Bu zaman Paskeviç qərargahını Naxçıvana daşımışdı.

***

Cahangir Mirzənin Səlyanı və bu civarda olan kiçik kəndləri müvəqqəti olaraq ələ keçirməsi bir az ruh yüksəkliyi yaratmışdı.

Araz və Kür çayı dənizə tökülmədən öncə bir-birinə qovuşub güclü bir çay oluşdururlar. Suyun dənizə qovuşduğu yerdə çayın şirin suyu ilə Xəzərin şor suyu arasında kiçik bir yarımada oluşmuşdur. O zaman düşmən yalnız dəniz yolu ilə bu yarımada ilə irtibat qura bilirdi. Bu mərkəz rusların çox önəmli üslərindən biri idi. Çünkü Həştərxandan gələn yük və xüsusən buğda yüklü gəmilər burada ləngər salır, yüklərini boşaldırdı. Bu yeri işğal edən ruslar oranın Azərbaycan ordusu tərəfindən saldırıya uğrayacağını zənn etmədiyi üçün zəif bir saxlunu bu mərkəzin qorunması üçün saxlamışdılar. Cahangir Mirzə bu mövzunu bildi və oraya hücum etmək istədi. Bir gecə öz nəfərlərini təchizatları ilə bir neçə qayığa mindirib o mərkəzə doğru yola düşdü. Cahangir Mirzənin nəfərlərinin güllə səsinə oyanan neçə yüz nəfərdən ibarət olan rus saxlusu oraya böyük bir ordunun hücum etdiyini zənn edib dəniz yolu ilə fərar etdi. Cahangir Mirzə bir neçə həftəliyinə bu mərkəzi öz əlində bulundurdu. Səlyan bir il öncə Qacar ordularının geri çəkilməsi ilə ruslar tərəfindən işğal edilmişdi. Ancaq Səlyan əhalisi Cahangir Mirzədən və nəfərlərindən istiqbal etdilər.

Şahın şübhələri qısa sürəliyinə ortadan qalxmışdı. Fətəli Şah yanında bulundurduğu böyük ordunu Abbas Mirzənin əmrinə vermək istəmirdi. Bu böyük ordu belə həssas bir dönəmdə çox ciddi işlər görə bilərdi. Ancaq Azərbaycan ordusunun işinə qarışmağı da özünə rəva bilirdi. Bununla da məğlubiyyəti qətiləşdirirdi.

Abbas Mirzə barıt və digər savaş vəsilələrinin istehsalına nəzarət etmək üçün dərhal Təbrizə getməli idi. Təbrizdə də bir çox nizamsızlıqla və intriqalarla rastlanırdı. Şahzadə sarayının ən önəmli adlarından biri Ələsgər Xan hər fürsətdə özünə var-dövlət toplamaqla məşğul olur və buna görə də hər tür intriqadan və fürsətdən yararlanmağa çalışırdı. Naxçıvanın iki ağaclığında yerləşən Abbasabadın komutanlığını Ehsan Xana vermişdi. Ehsan Xanın bu işlər üçün bir yetənəyi yox idi.

Abbasabad qalası Şahzadə üçün çox önəm daşımaqda idi. Çünkü onun savunma sistemi fransızlar tərəfindən donatılmışdı. Düşmən ordusu Azərbaycanın içlərinə tərəf irəliləyə bilməsi üçün bu qaladan keçməli idi. Abbasabad qalasına yönəlik təhdidi nəzərə alan Abbas Mirzə bu qalanın savunması ilə bağlı bir dənəmə yapmaq istədi. Ümdə nəfərlərini xətərə soxmaq istəməyən Abbas Mirzə bir neçə piyadə alay, süvarisi və dörd qəbzə topla (hamısı bir yerdə 10.000 nəfərlik ordu)

Abbasabadın yaxınlığında yerləşmiş rus alaylarını mühasirəyə almaq istədi. Plan belə idi ki, öncə bir neçə dəstə kəşfiyyat amacı ilə gecənin qaranlığından istifadə edib rus qərargahına yaxınlaşacaq, sonra ruslar onları təqib etdiyində Abbas Mirzə başqa istiqamətdən hücuma başlayacaqdı. Araz çayının o tərəfində nisbətən geniş olan Gəçlər adında bir düzənlik vardı. Hər tərəfi açıq olan Gəçlər düzənliyi Abbasabad qalasının hər tərəfdən görünməsini sağlayırdı. Bu üzdən də rus saxlusu Azərbaycan alaylarının hərəkətlərini kontrol altına ala bilirdi. Qarşı tərəfdə bu düzənlik təpələrlə sınırlanırdı. Şahzadə öz komutanları ilə bu təpələrin arxasında qazılmış xəndəklərdə yerləşdilər. Alaylar isə təpələrin müxtəlif yerlərində səngər tutdular. Uyğun zamanı gözləməkdə idilər. Öncə bu planın istənildiyi kimi yürüdüyü sanılırdı. Ruslar Azərbaycan ordusunun kəşfiyyat dəstələrini təqib etməyə başladılar. Beş rus alayı Arazı keçib onları təqibə başladı.

Abbas Mirzə kiçik qardaşlarından biri olan Əlinağı Mirzəni öz yanında bulundurmaqda idi. Abbas Mirzə bu qardaşı ilə çox yaxın idi və ona bir çox mövzular haqqında danışır, danışdıqca da özünü rahat hiss edirdi. Asəf-əd Dövlə Əlinağı Mirzənin də onların yanında olmasını Şahdan istəmiş, Şah da izn vermişdi. Şübhəsiz ki, Əlinağı Mirzə gizlincə Şaha bilgilər ötürürdü. Yayın istisi dözülməz vəziyyətə çatmışdı. Bu yay istisində onlar öz planlarının qaydasında gedəcəyini düşünürdülər. Ancaq Abbas Mirzə və çevrəsindəki komutanlar düşündülər ki, Abbasabad qalasının hakimi Ehsan Xanı da plandan xəbərdar etmələri gərəkir. Lakin Ehsan Xan Abbasabad qalasının hakimliyini Şahzadə sarayının böyük xocası Ələsgər Xanın vasitəçiliyi ilə almışdı. O, bu postda uzun zaman qalacağına inanmırdı, bu üzdən də düşməndən bir ödüllər almaq fikrində idi. Ehsan Xanın bilməsi zəruri olmayan bir çox hərbi sirlər haqqında çox bilgi birikdirmişdi. Ehsan Xan gizlincə bir çapar göndərib və Abbas Mirzənin bütün planlarını Paskeviçə çatdırdı. Qalanın bütün savunma sistemi haqda düşmənə bilgi verdi. Özəlliklə bu savaşda Abbas Mirzənin şəxsən iştirak edəcəyi haqda da bilgi verdi.[43]

Rus alayları Azərbaycan ordusuna mənsub kəşfiyyat dəstələrini təqib etməkdə idi. Artıq rus ordusu Şahzadənin bütün planları haqda bilgi sahibi idi. Bu səbəbdən General Aristov Naxçıvandan yola düşüb və yardıma gəldi. General Aristov çox böyük bir təchizatla gəlmişdi. Çayın bu tərəfindən o tərəfinə körpü sala biləcək bütün təchizatı ilə gəlmişdi. Rus alayları Azərbaycan kəşfiyyat dəstələrini təqib edərkən Abbas Mirzə ilə qarşılaşacaqlarını və arxadan da General Aristovun onlara yardıma gələcəyini bilirdi. Çox keçməmişdi ki, rus topxanası Gəçlər düzəngahını atəş altına aldı. General Aristovun qüvvələri Calalbulaq dərəsindən keçdiyi üçün rus tarixçilər bu savaşın adını Calalbulaq olaraq yazmışlar. Lakin biz Cahangir Mirzənin yazdığı bilgiləri daha doğru olaraq bilirik və bu savaşın adını "Yeni tarix"də olduğu kimi Gəçlər olaraq yazırıq. Abbas

---

[43] Cahangir Mirzə,Yeni tarix.

Mirzənin əsas hədəfi rusları Abbasabad çevrəsindən uzaqlaşdırmaq olduğu üçün buraya çox birlik sövq etməmişdi. Bir ingilis tarixçi yazır ki, bu savaşda Asəf-əd Dövlə fərar etdi və öz əmrində olan alayını da geri çəkdi. Abbas Mirzə geriyə çəkilmə zorunluluğunu duyduğunda bu işi fərar şəklində deyil, bir intizamla etmək istədi. Piyadələr və özəl qvardiya Şahzadənin çevrəsində idi, lakin düşmənin amansız top atəşi onlara savaşmaq imkanı vermirdi. Abbas Mirzənin əsir alınması üçün ruslar çox münasib fürsət yaxalamışdılar. Qazaqlar geri çəkilməkdə olan Abbas Mirzəni bir neçə dəfə mühasirəyə aldılar. Şahzadənin yanında bulundurduğu bayraqdarlarından bəziləri öldü və bəziləri də əsir düşdü. Abbas Mirzə əsir düşməməsi üçün atdan enib və piyadələri ilə bir yerdə düşmənlə savaşa başladı. Şahzadənin piyadələrə qatılması piyadə nəfərlərdə ruh yüksəkliyi yaratmışdı. Onlar Şahzadəni qorumaq üçün ölüm-dirim savaşına girmişdilər. Rus piyadələri ilə Azərbaycan ordusunun piyadələri iç-içə girmiş və süngülərlə savaşırdılar. Artıq Abbas Mirzə savaşın tam ortasında idi və Azərbaycan piyadələrinin məğlubiyyəti durumunda Şahzadə ya öldürüləcək ya da əsir alınacaqdı. Abbas Mirzə biricik qurtuluş yolunu son nəfəsinə qədər savaşmaqda görməkdə idi. Bir çıxış yolu var idi, o da rus piyadələrini məğlub edib geri püskürtmək. Şahzadə artıq qılıncı və tüfəngi ilə savaşırdı. Şahzadənin özəl qvardiyası onu nə qədər qorumağa çalışsalar da artıq iş bu durumu aşmışdı. Şahzadə hər kəsə son nəfəsinə qədər savaş əmri vermişdi və özü də artıq bir əsgər kimi savaşırdı. Bir neçə dəfə şahzadəni hədəf alan düşmən gülləsinə və qılıncına onun fədailəri gövdələrini sipər etdilər. Asəf-əd Dövlənin fərar etməsinə, Azərbaycan ordusuna yardımın gəlməməsinə rəğmən, zaman keçdikcə rus piyadələrinin sayı azalırdı. Sanki Başvəzir və başqaları da bu savaşda Şahzadənin əsir düşməsindən yanaydılar. Şahzadənin əsgər kimi savaşa qatılması Azərbaycan ordusunun gücünü və savaş qabiliyyətini hədsiz dərəcədə yüksəltmişdi. Sonralar bu savaşla ilgili xatirələrini yazan General Paskeviç əsas hədəflərinin Şahzadəni əsir almaq olduğunu söyləyəcəkdi. Lakin Şahzadənin Azərbaycan ordusunun piyadələri ilə bir yerdə başarılı savaşları düşmənin bu hədəfə çatmasını önləmişdir. Şahzadənin əsir alınması üçün lazımi bilgiləri, Şahzadənin hansı istiqamətdə olduğunu Ehsan Xan ruslara çatdırmışdı. Çox sayda piyadələrinin ölümünü görən ruslar hücumu durdurmaq zorunda qaldılar.

***

Bu ağır savaşdan sonra geri dönən Abbas Mirzəni sevindirən bir şey vardısa, o da Xoyun civarındakı Çorusda qoyub getdiyi ordunun yerində olması idi. Çorusda gözətçilər hətta təkbaşına gələn nəfərə belə giriş izni vermirdilər. Şahzadə gələnə qədər hətta dövlət rəsmilərini belə içəri buraxmamışdılar. Şahzadə gəldiyində isə ehtiram göstərgəsi olaraq böyük bir istiqballa içəri alındı.

Bir neçə gündən sonra Abbas Mirzə üzücü xəbərlər aldı. Ruslar Abbasabad qalasının qarşısında başqa bir savunma qalası təşkil etmişdilər. Ehsan Xanın xəyanəti bəlli olmuşdu. O öz xəyanətini çox ustalıqla yerinə yetirmişdi. O, Abbas Mirzəyə sadiq olan mənsəb sahiblərini qaladan uzaqda saxlamağı başarmışdı.

Qalanın boşalmasına əmr vermiş və düşmənin hücumu və qalanı işğalı üçün uyğun zəmin yaratmış və sonra da etdiklərini düşmənə xəbər vermişdi. Ehsan Xanın bu xəyanətinə Kəngərli alayı da qatılmış və iş birliyi ilə xainlik etmişdilər.

Abbasabad məğlubiyyəti Qacar-Rus savaşının xarakterində, gedişində böyük bir dönüşün olduğunu isbatladı.

Bu sıralarda rus ordusunun qərargahına bir diplomatik mərkəz də əkləndi. Bu diplomatik mərkəzin başında Qriboyedov adında bir şəxs durmaqda idi. Qriboyedov şair və ədib birisi idi. Qriboyedovun Qafqaz hərbi üssündə diplomat seçilməsini buna bağlayırdılar ki, onun qadını Rusiyanın müttəfiqi olan gürcü əyanlarından birinin qızı imiş.

Qriboyedov bir heyətlə Xoya gəlib və bu savaşın anlamsız olduğu haqda öz fikirlərini söyləmişdi. O, barış planını da özü ilə bərabər gətirmişdi və bu planı da Xoyda açıqladı. Bu plana görə Arazın quzeyindəki ərazilər ruslara buraxılmalı, Qacar dövləti savaş suçlusu olaraq yeddi yüz min tümən qızıl para ödəməli idi. Bu qədər məbləğin rus barış planında yer alması Fətəli Şahı çox rahatsız etmişdi, o, gedən ərazilərdən daha çox bu məbləğ konusunda əndişələnirdi.

Şah, büdcəsinə bu qədər ziyanın gəlməsindən çox əsəbiləşmişdi. Lakin rədd cavabı vermədən əvvəl böyük şuranın təcili toplanmasını istədi. Rəqib şahzadələr və digər dövlət böyükləri yenə də bu fürsətdən yararlanaraq Şahı Abbas Mirzəyə qarşı qoymağa çalışdılar. Lakin bütün bunlara rəğmən Abbas Mirzəni də böyük şuraya çağırdılar. İrəvan hakimi Sərdar Hüseyn Xan da böyük şurada bulunmaqda idi. Sərdar Hüseyn Xan İrəvanın ruslara buraxılmasına qəti şəkildə etiraz edirdi.

Sərdar Hüseyn Xan yaşlanmasına rəğmən İrəvanı savunacağında qərarlı idi. O, qardaşı Sərdar Həsən Sarı Aslanla bərabər İrəvanın gəlişməsinə əmək sərf etmişdi. İndi onu bu rahatlıqla ruslara buraxmaq istəmirdi. Lakin artıq Hüseyn Xan savaş və savunma texnikası baxımından çox geri qalmışdı. Güclü rus ordusunun qarşısında İrəvanı savuna biləcəkləri sanılmırdı. Sərdar Hüseyn Xan İrəvanı rus ordusu qarşısında savuna biləcəkləri haqda Şahı razı salmağı başarmış, Qriboyedova rədd cavabı verilməsini rica etmişdi. Bu toplantı müddətincə Abbas Mirzə səssiz qalmağı tərcih etdi. Onun solğun rəngi çox əzab çəkdiyini göstərirdi. Bilirdi ki, artıq atasının güvənini itirmişdir. Bilirdi ki, artıq Azərbaycan ordusunu təmin edəcək maddi gücü qalmamışdır və ordunun ibtidai ehtiyaclarını bərtərəf etməkdə belə zorluq çəkməkdə idi. Məğlubiyyətlər və özəlliklə Abbas Mirzənin daha çox Təbrizdən kənarda olması və Azərbaycanın mərkəzinə nəzarət edə bilməməsi Təbrizin büdcəsinin boşalmasına səbəb olmuşdur. Abbas Mirzə daima yollarda idi, savaşlarda və alaylara nəzarət hərəkətliliyində idi. Bu üzdən də ürətimə (istehsala) nəzarət edə bilmirdi. Artıq nizamsızlıq Azərbaycanı sarmış durumda idi. Özəlliklə Şahzadənin məğlubiyyətləri bu kaosu daha da artırırdı. Abbas Mirzə artıq hiss edirdi ki, Azərbaycan ordusu ilə böyük savaşlara qatılması mümkün olmayacaq. Həm büdcə yoxluğu, həm də Azərbaycandakı ruh düşkünlüyü

bu intizamsızlığı get-gedə artırırdı. Digər tərəfdən, Rusiya gündən-günə güclənir və işğalçılıq meyillərini artırırdı.

Abbas Mirzə başından bəri başlanmasını istəmədiyi savaşın suçlusu kimi təqdim olunurdu. Abbas Mirzə Hüseyn Xanın söylədiklərinə qatılmırdı. O bilirdi ki, İrəvan rusların uzun müddətli mühasirəsi və hücumu qarşısında müqavimət göstərə bilməz. Ancaq İrəvanın Azərbaycandan ayrılıb ruslara verilməsini də öz savaşçı qüruruna sığdıra bilmirdi. Bu üzdən də içini böyük bir dərd sarmışdı. Bütün ruhu ilə bağlı olduğu Azərbaycanın parçalanmasını görürdü. Bu yurdun bütövləşməsi üçün nə qədər savaşsa və canını təhlükələrə atsa da müvəffəq ola bilməmişdi. Müvəffəq ola bilməyəcəyini də gördüyündə içini sarmış bu fəlakəti ancaq səssizlik içində daşıyırdı. Abbas Mirzə bilirdi ki, Rusiya Fətəli Şahın rədd cavabını eşitdiyində İrəvanın mühasirə işinə başlayacaqdır. Sadəcə, bu mühasirə Rusiyanın hazırlaşmasına görə bir az gecikə bilərdi, ancaq başlayacağı yüzdə yüz idi. Abbas Mirzə düşünürdü ki, özü də rusların imkanlarından bərxurdar olsaydı bütün Qafqazı Azərbaycana qatardı. Abbas Mirzə bundan sonra Rusiya ilə olacaq hər bir savaşın məğlubiyyətlə sonuclanacağına inanırdı. Çünkü bölgənin ən böyük savaş imkanına sahib olan Azərbaycan ordusu həm intizam, həm də mali imkan olaraq çökmüşdü.

Şah Rusiyanın elçilərini rədd cavabı ilə yola saldı. Şah böyük bir qətiyyətsizliklə savaşdan yana olduğunu və ya savaş durumunun davam etməsini istəyirdi.

Xəzərin sahilində yerləşən Səlyan adlı kiçik bir kəndin Cahangir Mirzə tərəfindən geri alınması böyük həyəcanla və abartılaraq təbliğ edilir, Abbasabad məğlubiyyətini ört-basdır eləmək üçün kullanılırdı. Səlyanı geri alan komutanlar ödülləndirilsələr də lakin hərbdən anlayan hər kəs bilirdi ki, Səlyan uzun müddət Azərbaycan ordusunun kontrolunda qala bilməz. Bu üzdən Cahangir Mirzə öz ordusu ilə bir yerdə ruslar tərəfindən əsir alınmasın deyə Abbas Mirzədən əmr gəldi ki, Ərdəbilə doğru geri çəkilsin. Səlyan Azərbaycan ordusundan tamamən boşaldıldı.

Barış müzakirələri durdurulmuş, savaş təkrar başlamaq üzrə idi. Abbas Mirzə artıq Tehrandan heç bir maddi yardım ala bilmirdi. Hər şey cığırından çıxmışdı. Şahzadə əsgərlərinin qarnını zorla doyururdu. Düşündü ki, rusların ərzaq üssü olan Üçkilsəyə ani bir hücum edərsə ordusunun ehtiyacını oradan əldə edə bilər. Bir zamanlar Üçkilsədə Fətəli Şaha və Abbas Mirzəyə Napoleon Bonopartın qələbələrindən danışan və Abbas Mirzəyə ruslarla savaşmaq üçün Fransa ilə ittifaqı önərən erməni keşişi artıq rusların yanında yer almış və Azərbaycan ordusuna qarşı öz nifrətini ortaya qoymağa başlamışdı.

Abbas Mirzə bu ən son əməliyyatını bir şans olaraq dənəmək istəyirdi. Bu üzdən də ən yaxşı və inanılır nəfərlərini, komutanlarını bu hücuma hazırladı. 5000 nəfər piyadə və 5000 nəfər də Avşar və Şahsevən ellərindən oluşan süvari təşkil etdi. İyirmi səkkiz top da bu hücumda kullanılacaqdı.

Abbas Mirzə Üçkilsəyə doğru irəlilədiyində bəklədiyi qarşıdurma Üçkilsənin səkkiz ağaclığında gerçəkləşdi. Abbas Mirzə, General şahzadə Dolqorukinin komutanlığını etdiyi birimlə qarşılaşdı. Savaş öncə cüzi şəkildə başladı. Ancaq zaman keçdikcə daha geniş miqyasda və hərtərəfli davam etdi. Dolqorukinin yaxın əqrəbası olan bir rus albayı öldürüldü. Generalın öz dizini də güllə dəldi. Şahzadə Dolqorukini kilsənin içinə apardılar. General Karkufeski top atışlarının səsini Üçkilsənin sağ tərəfindən eşitmişdi. Bir neçə alayla topların yerləşdiyi tərəfə sürətli bir hücuma başladı. Bu hücum savaşın iki istiqamətdə geniş miqyasda davam etməsinə səbəb oldu. Bu üzdən də Abaran* savaşı olaraq bilinən bu savaşı tarixçilər eyni anda iki savaş kimi tanımlarlar. Günün sonunadək üstünlük Azərbaycan ordusunda idi. General Dolqorukinin yaralanmasından başqa bir çox rus albayları öldürülmüş, yaralanmış və bir çox saldat əsir alındı. Düşmən əsgərlərinin cəsədləri savaş meydanını doldurmuşdu. Azərbaycan ordusunda qələbə sevincinin çağlamasına qarşı Şahzadə çox da mutlu görünmürdü. Bilirdi ki, bu qələbənin aqibəti yoxdur. O, rus ordusunun qarşılıq verəcəyinə əmin idi. Digər tərəfdən, maliyyə qaynağının olmaması üzündən, ordusunun uzun zaman savaşa qatlaşa bilməyəcəyini bilirdi.

General Karkufeskinin düşərgəsində bir şayiə yayılmağa başlamışdı. Söyləntilərə görə Abbas Mirzə Üçkilsəni mühasirəyə alıb və Gürcüstana da hücum edəcəkmiş. Gürcüstan müxaliflərini də yanına alıb və gürcülərin üsyanına dəstək verəcəkmiş. Çünkü Baqratiyon Şahzadələrindən bir neçəsinin Abbas Mirzənin yanında olduqları bəlli idi.

## İRƏVANIN İŞĞALI VƏ AZƏRBAYCANDAN AYRILMASI

Ancaq Abbas Mirzə hiss etdi ki, artıq əlində heç bir savaş imtiyazı qalmamışdır. Bu üzdən də hücumlardan əl çəkib və sadəcə, İrəvanı savunmağı planladı. O günə qədər qardaşının kölgəsində görünməz olan Həsən Xan Sarı Aslan İrəvan qalasının savunulmasını öz üzərinə götürmüşdü. Şahzadə onun ordusunun yardımına getdi. Altı minlik ordusu və iyirmi topu ilə onun mövqeyini gücləndirdi. Sonra düşündü ki, öz üslərindən (qərargahlarından) birinə getsin və Sərdarabad qalasının müdafiəsini yaşlı Sərdar Hüseyn Xana tapşırsın. Cahangir Mirzənin verdiyi bilgilərə görə, Abbas Mirzə ruslarla qarşı-qarşıya gəlməsin deyə Osmanlıya aid olan Bayəzid və Çaldıran bölgələrindən keçmək zorunda qaldı. Bu keçişi üçün də Osmanlıdan heç bir etiraz gəlmədi.

***

---

*Watson, Abaran savaşını Astrik adı ilə qələmə almaqdadır. Astrik də bu savaş bölgəsinin içində olmuşdur. Watson, Azərbaycan ordusunun qəhrəmanlıqlarından və rus albaylarının ölümündən söhbət edir. (Watson Robert Grant “A History of Persia”, London 1866, s. 232).

Abbas Mirzə Təbrizə çatdığında yorulmuş və savaş qabiliyyətini itirmiş əsgərlərini mürəxxəs edib, məzuniyyətə buraxdı. Savaş qabiliyyəti olan birimləri isə Təbrizin 20 kilometrliyində yerləşən Şindabada apardı. İkinci oğlu Bəhmən Mirzə ağır topların və topçuların kiçik bir bölümünü Xoya aparmaq, orada saxlamaqla görəvləndirildi.

1827-ci ilin sentyabr ayı idi. Sonrakı həftələr İrəvanı savunmanın son həftələri olacaqdı. Rusiya İrəvanın mühasirəsi üçün hazırladıqlarını tamamlamış, güclü piyadə, topxana və süvari birimlərini İrəvana doğru yönləndirmişdi. Qalanın bütün darvazaları qapanmış və mühasirə tam şəkildə gerçəkləşmədən öncə, dövlət çaparlarından başqa kimsənin üzünə açılmırdı. Bəzən də Həsən Xan Sarı Aslan öz süvariləri ilə şəhərin dışına çıxıb, sürətli bir yoxlamadan sonra geri dönürdü. Bu yoxlamalarda Həsən Xan Sarı Aslan qala dışına çıxdığında ətraf kəndlərdə nə qədər ərzaq-filan tapsa idi, talayıb qalanın içinə daşıtdırırdı. Çünkü uzunmüddətli mühasirə qarşısında yeyəcək bol olmalı idi. Bu üzdən də bir çox kəndlilər həm savaş üzündan, həm də talanmalar səbəbi ilə Osmanlı torpaqlarına üz tuturdular.

Çox zaman keçmədən mühasirə işi tamamlandı. Sentyabrın 23-də General Paskeviç şəhərin güneyində bir təpəni ələ keçirdi. 24-də toplar bu təpədə yerləşdirildi. 25-də səhər erkəndən qala atəşə tutuldu. Qalanı savunanlar böyük bir cəsarətlə bu atəşə cavab verirdilər. 28-29-da Sarı Aslan atəşin kəsilməsini istədi. Qalanın bir yeri möhkəm xəsarət almışdı və dərhal onarılması gərəkirdi. Ayın 30-da təkrar düşmənə cavab atəşləri başladı. Qalanın bir neçə yerində atəşlər susdurulmuşdu. Lakin müxtəlif yerlərdə direniş davam edirdi. Rusların top atışları qalanın divarlarında böyük dəliklər açırdı. Evlərin divarları yıxılır və şəhərin içi cəhənnəmə dönmüş, toz-torpaqdan göz gözü görmürdü. Bu gərgin durumda qalanın içində üsyan əlamətləri də nütfələnməyə başlamışdı. Sarı Aslanın Sərdar Hüseyn Xana və Şahzadəyə göndərdiyi çaparlar yolda ruslar tərəfindən yaxalanmışdı.

Oktyabrın 1-də əhali qalanın divarları üstündə bəyaz parçalar qaldırdı. Qalanın darvazaları qırılmışdı. İrəvanda bulunan bütün ordu əsir alındı. Bir məscidin içində səngər tutan Sarı Aslan da sonunda əsir düşdü.

## RUS ORDUSUNUN TƏBRİZİ İŞĞAL ETMƏSİ

İrəvanın düşməsi general Paskeviçin irəliləməsinə imkan yaratmışdı. O, uzun zaman idi Təbrizi, Şahzadənin başkəndini işğal etməyi qafasına taxmışdı. Paskeviçə görə Abbas Mirzədən birdəfəlik qurtarmanın yolu Təbrizi işğal etmək idi.

Şahzadə öz azalmış və yorğun düşmüş, düzəni pozulmuş ordusunu Təbrizin savunmasına hazırlarkən, Tehrana bu məzmunda bir məktub yazdı: “Artıq savaş

gücümüz qalmamışdır, sülh etmək zorundayıq”.[44] Ancaq Şahın ətrafını sarmış digər Şahzadələr və Abbas Mirzənin rəqibləri bütün bu fəlakətlərin səbəbkarı kimi Abbas Mirzəni görürdülər. Abbas Mirzənin varlığını öz övladlarının gələcəyi üçün təhdid ünsürü kimi görən Şahın qadınları da hər gecə Abbas Mirzənin arxasınca Şaha qeybət edir, onun yenilikləri ölkəni bərbad etdi deyə şikayətlənirdilər. Padşahın Abbas Mirzəyə qarşı qızması üçün hər tür zəminin hazır olduğu bir ortamda Şahzadənin bu məktubu Şaha çatdırıldı. Şah hiddətlə Abbas Mirzəyə qızmağa başlamışdı.

İrəvanın və Sərdarabadın düşmə xəbərini Şahzadə Şindabadda eşitdi. Şindabadda Şahzadə daha qorxunc bir xəbər də eşidəcəkdi: Təbrizin ruslar tərəfindən işğal edilmə xəbərini! Artıq onun ailə üzvlərinin və qadınlarının da ruslar tərəfindən əsir alınıb və hətta namuslarına təcavüz edilmə məsələsi Şahzadənin ağlından keçirdi. Səltənət ailəsinə mənsub olan bu insanlar düşmən üçün çox önəmli girov və əsir olaraq nəzərə gəlirdi. Çünkü düşmən bu əsirləri geri vermək üçün böyük imtiyazlar ala bilərdi. Digər tərəfdən, Təbrizin işğalı Abbas Mirzənin sonu kimi bir şey idi. Sadəcə, bu şəhərdə mövcud olan Şahzadənin var-dövləti, ordu qərargahları talanmayacaqdı, Azərbaycan ordusunda da təmiri mümkün olmayan ruh düşgünlüyü yaranacaq, ordu savaş qabiliyyətini daimi olaraq itirəcəkdi. Şahzadəni şaşırdan Təbrizin müqavimətsiz təslim olması idi. Təbriz uzun zaman idi kaosa sürünməkdə idi. Şahzadə daima səfərlərdə olurdu. Digər tərəfdən, Şah, Azərbaycanı öz kontrolunda saxlaması və Şahzadəyə olan şübhələrini bərtərəf etməsi üçün Asəf-əd Dövləni Təbrizə nəzarət etməyə göndərmişdi. O isə öz eyş-işrəti ilə məşğul idi və əhalinin nifrətini qazanmışdı. Əhali Asəf-əd Dövlənin başçılığı altında şəhərin müdafiəsinə qalxmaq istəməmişdi. Təbrizin işğalı zamanı Şahzadəni sevən bir çox insan şəhərdən kənarda idi. Böyük oğullarından biri Xoyda, digəri də Ərdəbildə idi. Digərləri də müxtəlif qərargahlarda idilər. Yalnız böyük xoca Ələsgər Xan Şahzadənin nümayəndəsi olduğunu iddia edirdi. Ələsgər Xan, Şahzadə Xanımın (Abbas Mirzənin Qacar soyundan olan xanımı) himayəsi ilə hər kəsdən çox rüşvət alsaydı, onu iş başına gətirirdi.

Təbrizin ruhani rəhbəri Mirzə Yusif yenicə ölmüşdü. Onun var-dövlət düşgünü olan oğlu gənc ruhani Mir Fəttah əhalinin fikrini azdırmaq üçün çox uyğun faktor idi. Mir Fəttah fətva vermişdi ki, artıq müqəddəs İslam-Kafir savaşı bitmişdir, Tanrı rusların yardımçısı olmuşdur. Tanrının iradəsinə tabe olub ruslara itaət etməliyik.

Beləliklə, Təbriz heç bir direniş göstərmədən təslim olmuşdu. Ancaq düşmən Təbrizə qədər necə gəlmişdi ki, kimsə bilməmiş və yol boyunca heç bir

[44] Əhvalat və dəst xətthaye Abbas Mirzə Naib-üs Səltəne (Abbas Mirzənin tərcümə-i halı və əlyazmaları).

qarşıdurma olmamışdı? Bu mövzu özü ayrıca bir tarixdir. Aylar öncədən Təbrizin işğalı üçün Paskeviç hər tür hazırlığı etmişdi. Casusları vasitəsi ilə Təbrizin savunma imkanlarını öyrənmiş, iqtisadi həyatı haqda bilgi əldə etmişdi. Bu üzdən də Abbas Mirzə Təbrizdə olan hərbi imkanları daşımadan bu şəhər işğal edilməli idi. Digər tərəfdən, Təbriz, Abbas Mirzənin həm çox güvəndiyi, həm çox sevdiyi şəhər olmanın yanı sıra, Şahzadə burada bir çox reformlar gerçəkləşdirmişdi. Bu şəhərin işğalı ilə eyni zamanda Abbas Mirzənin heysiyyətinə böyük zərbə endirir, gələcəkdə onun şah olma şansını əlindən ala bilərdilər. Çünkü Abbas Mirzənin Fətəli Şahın ölümündən sonra tac-taxt sahibi olması Rusiyanın mənafeyinə qarşı idi. Bütün ölkəni Avropa ilə ittifaqa götürmə gücü olan və bu vəsilə ilə də güclü və modern bir məmləkət yarada biləcək bir şəxsin şah olması Rusiyanın bölgədəki çıxarlarını təhdid edirdi. Bu üzdən də Şahzadənin başkəndi işğal edilməli idi.

Abbas Mirzə, Abaran savaşında zəfər qazanmasına rəğmən geri çəkilməsi Rusiyanı Şahzadənin qaynaqlarının tükənməsi konusunda şübhələndirmişdi. Bu şübhəni dəqiqləşdirmək üçün araşdırmalar aparılmış və haqlı olduqları ortaya çıxmışdı. Bu nədənlə də Paskeviç böyük bir cəsarətlə dirək Təbrizə doğru irəliləməyə başlamışdı. Paskeviç özü Culfa yolu ilə Təbrizə tərəf hərəkətə başladı. General Aristov isə bir sütun ordusuyla Naxçıvandan Təbrizə doğru hərəkətlənib və Mərənd yolu ilə Şahzadənin başkəndinə doğru hərəkətə davam etdi.

Cahangir Mirzənin yazdığına görə Nəzərəli Xanın edamından sonra Mərənd xanları Şahzadəyə qarşı düşmənlik duyğusu bəsləməyə başlamışdılar. Bu xanlar intiqam üçün fürsət axtarırdılar. Ona görə də bu xanlar Naxçıvanda General Aristova varıb və Təbrizin kaotik durumunu anlatmış, Təbriz baş ruhanisi Mir Fəttahın mövqeyini ona bildirmişlər. Generala demişdilər: "Təbrizdə az əhali var. Təbriz əhalisi sizin gəlişinizdən yanadır. Mir Fəttah da belə düşünür. Əgər siz Abbasabad qalasında min nəfər qoyub və üç min nəfərlik orduyla Mərənd istiqamətindən Təbrizə hücum etsəniz, şəhəri təslim ala bilərsiniz. Siz Təbrizə yaxınlaşdığınızda əhali üsyan edib və sizə yardımçı olacaq."[45] Sonra da rus ordusunun hansı yollarla Təbrizə gəlməsi üçün bələdçilik də etmişlər. General Aristov 3.000 piyadə, 1.000 qazaq və on topla Təbrizə yola düşmüşdü. Rus ordusu Təbrizin altı ağaclığında olan Sofyana çatdığında şəhərin əhalisində təslimiyyət duyğusu yaranmağa başlamışdı. Çünkü Şahzadənin başkəndinin burnunun ucunda olan rus ordusu heç bir dirənişə rastlanmadan buraya qədər gəlmişsə, Təbrizə də girəcəkdir demək idi.

Asəf-əd Dövlə və Ələsgər Xan dəqiq bilgi öyrənmək üçün Sofyana tərəf bir neçə süvari göndərdilər. Düşmənin Təbrizin dörd ağaclığında olduğu öyrənildi. Şahzadəyə sadiq olan barmaq sayı adamlar həmən Təbrizin iyirmi ağaclığındakı qərargahda olan Abbas Mirzəyə xəbər verməkdən yanaydılar. Bəziləri də fərardan yanaydılar. Ruhani rəhbərin təsiri altında olan çoğunluq isə Mir Fəttahın

[45]Cahangir Mİrzə, "Yeni tarix".

yönləndirməsinə tabe idi. Təbrizin baş mollası Mir Fəttah fətva vermişdi ki, yalnız bir çıxış yolu vardır: Rus fatehin iradəsinə təslim olmaq! Asəf-əd Dövlə də Mir Fəttah kimi düşünməkdə idi, lakin zahiri təşrifatı qorumaq üçün iki topun Gəcil darvazasında yerləşməsinə əmr verdi. Rus ordusunun Təbrizə girişi bu darvaza yolu ilə mümkün idi. Bir neçə top gülləsi də düşmənə tərəf sıxışdırıldı. Lakin Mir Fəttah fətva vermişdi ki Təbriz dirənməməlidir. Bu üzdən öz tərəfdarlarını toplayıb və Gəcil darvazasının ağır ləngələrini rusların üzünə açıq qoydu. Rus fateh, Mir Fəttah tərəfdarlarının böyük təntənəli istiqbalı ilə şəhərə daxil oldu. Asəf-əd Dövlə fərar edib, bir tanışının evində gizlənmişdi. Lakin Mir Fəttahın tərəfdarları onun yerini öyrənib, ruslara təslim etdilər.

General Aristov yağmalanmanı durduruncaya qədər şəhərin bir çox yerləri, özəlliklə zəngin yerlər bütünü ilə talanmışdı. Təbrizin təslim olması Şahzadənin ailəsinə də təsir etmişdi. Artıq bütün rəqabət hissləri sönmüş və hər kəs bir otaqda Şahzadə Xanımın çevrəsinə toplaşmışdı. Abbas Mirzənin saray işlərinin məsulu olan Mirzə Məhəmməd Xan Laricani, Şahzadə Xanımın sarayına yaxınlaşdı. Bu adam çox təcrübəli bir xidmətçi idi. Mazəndəranla Savadkuh süvariləri onun əmrinə tabe idi. Şahzadə Xanımın hüzurunda səsini yüksəltməyə cəsarət edə bilməyən Mirzə Məhəmməd Xan ilk dəfə olaraq yüksək səslə bağırır və yüksək gurultu ilə Xanımın qapısını çalırdı. Bütün davranışlarından qorxu hissi tökülürdü. Şübhəsiz ki, bu da Şahzadə Xanımı və çevrəsindəki digər ailə üzvlərini daha da qorxudurdu. Məhəmməd Mirzə, Şahzadə Xanıma dedi ki, kəcavə hazırdı, Sizi Əraka və Xəmsəyə tərəf qaçıracaqlar. Ancaq Abbas Mirzənin ailəsi General Aristov üçün çox önəmli girovlar ola bilərdi. Bu üzdən də onların şəhərdən çıxa bilməmələri üçün heç şübhəsiz ki, öncədən planları varmış. Rus süvariləri Şahzadə Xanımı bütün ailə üzvləri ilə bir yerdə Təbrizin iki ağaclığında yaxaladılar. Ancaq onlara toxunmamaq üçün General Aristov əmr vermişdi.

***

Böyük ehtimala görə ruslar Abbas Mirzənin özünü də əsir almaq istərdilər. Abbas Mirzə də Təbrizin düşməsindən sonra bu təhlükəni hiss edib Xoydakı qərargahını tərk etdi. Daha güvənli yerə getmək zorunda qaldı. Xoydakı qərargahın komutanlığını oğlu Bəhmən Mirzəyə tapşırıb, özü isə hələ güvənli olan Urmuya (Urmiyeye) getdi. Abbas Mirzə hər gün yeni bir xəyanət xəbəri eşidirdi. General Paskeviçin Təbrizə girərkən qarşısında qurban kəsilməsi Şahzadənin qüruruna toxunmuşdu. Bilirdi ki, bütün bunların hamısını Mir Fəttah etmişdir. Mir Fəttah, Marağa, Əhər, Ərdəbil xanlarına məktub yazmış və ilahi iradənin qarşısında təslim olmalarını istəmişdi. Abbas Mirzənin kafir ölkələrlə yaxınlaşıb və onlar kimi davranması üzündən Tanrı bu torpağı cəzalandırmışdır. Tanrı iradəsinə qarşı gəlmək günahdır deyə fətvalar vermişdi.

Abbas Mirzə Urmu və çevrəsində çox hörmətlə qarşılandı. Bu bölgənin insanları Abbas Mirzənin onları kürd soyğunçulardan qurtardığını unutmamışdılar. Ancaq Abbas Mirzə artıq insanların üzünə dik baxa bilmirdi. Başkəndinin

dirənmədən təslim olması onu çox təhqir etmişdi. Bu bölgənin insanları isə onun istiqbalına varıb və ətəyindən öpürdülər. İnsanların onu bu şəkildə qarşılaması Şahzadəni bir az da olsa sakitləşdirirdi. Deməк ki, hələ də xalq arasında hörməti məhfuzdur. Lakin o bölgənin də böyük xanları Təbrizin işğal olunmasını eşitdiklərində içlərində Şahzadəyə qarşı olan əski nifrətləri baş qaldırdı. Hər kəs bilirdi ki, artıq Şah, Abbas Mirzəni sevməməkdədir. Hər an onun bütün rütbələrinin Şah tərəfindən alınma ehtimalı var idi. Hər kəsin ağlında gəzən bir sual var idi ki, Abbas Mirzənin səlahiyyətləri qardaşlarından hansına verilə bilər? O bölgənin də xanları Abbas Mirzənin artıq sərgərdan və zavallı birisi olduğu qənaətinə varmış və intiqam almaq fikrinə qapılmışdılar. Şahzadə bu kinli baxışları hiss edirdi. Onların xəyanətlərindən qorunmaq üçün özü ilə bərabər kiçik süvari dəstəsi gəzdirirdi. Ancaq Şahzadənin büdcəsi tükənmişdi, bu kiçik dəstədən ibarət olan süvariləri təmin etməkdə zorluq çəkirdi. Digər tərəfdən, ağlında belə bir fikir gəzirdi ki, məğlubiyyəti qəbul etməli və Paskeviçlə bir şəkildə təmasa keçməlidir. Bu üzdən Paskeviçə bir məktub yazdı. Məktubu ona çatdırmaq üçün yanında gəzdirdiyi özəl qvardiyanın komutanı Bijən Xana verdi. Özü isə Səlmasın çevrəsində bir yerdə yerləşib cavab gözlədi. Bu qərargah nisbətən güvənilir idi. Digər tərəfdən, bəzi ordu komutanları da buraya gəldilər. Məsələn, Sərdar Hüseyn Xan ayaqda qalan ordusu ilə bərabər buraya gəldi. Şahzadə Hüseyn Xanın oraya gəlməsindən rahatsız kimi görünürdü. Çünkü savaş zamanı ortaya çıxan müttəfiqlik duyğusu məğlubiyyət üzündən ortadan qalxmışdı. Keçmişdə olduğu kimi hər şey onları bir-birindən ayırırdı. Şahzadə, Hüseyn Xanın xəyanət etməsindən çəkinirdi. Çünkü hər şeyini itirmiş, Sərdar Hüseyn Xan, Şahzadəni təslim etməklə çox şeyə nail ola bilərdi. Bu kiçik qərargahda diqqəti cəlb edən xaricilərin daha çox gözə dəyməsi idi. Şahzadə bu ağır günlərində İngiltərə diplomatları ilə əlaqə saxladı.

İngiltərənin yeni diplomatı Mək Donald özəl qələm müdiri Kompbellə bərabər Şahzadənin yanında idi. Rus ordusu Təbrizə girdikdən sonra İngiltərə dərhal Abbas Mirzə ilə təmasa keçmək istədi. Çünkü bilirdilər ki, sülh müzakirəsində başı əyyaşlığa qarışmış Fətəli Şah iştirak etməyəcək, Şahzadə iştirak edəcəkdir. Bu üzdən də bu barış müzakirəsi İngiltərənin bölgədəki, özəlliklə Hindistandakı mənafeyini təhdid etməməli idi. Çünkü Rusiyanın planlarından birisi də Qacar ölkəsi yolu ilə Hindistana girmək idi. Bu səbəbdən də İngiltərə sülhün təfərrüatını öyrənmək üçün Abbas Mirzənin qəbuluna həmən bir diplomat göndərmişdi. Fətəli Şah da İngiltərənin arabuluculuğuna olumlu baxırdı.

Albay Məkdonald öz xatirələrində şöhrəti Avropanı saran Şahzadəni ilk dəfə necə gördüyünü anladır. Şahzadə yorğun və xəstə bir halda bir çinar ağacının altında oturmuşdu. Bulunduğu qərargahın mövqeyindən dolayı bu yabançının xəyanət edə biləcəyinə inanmırdı. Bu üzdən də bəzi içini üzən sıxıntılarını ona söyləməyi rəva bildi. Savaşdakı məğlubiyyətin üzücü təsirindən başqa, başqa özəl sıxıntıları da vardı. Uzun zaman idi, Şah ona yardım etmirdi. Bütün qaynaqları

tükənmişdi. Hətta ona sadiq qalan barmaqsayı adamların belə ehtiyaclarını bərtərəf edə bilmirdi. Abbas Mirzə düşünürdü ki, bu sadiq insanların dözümlərinin bir həddi var. Onlar da getsə, onun aqibəti necə olar? İntiqam almaq üçün uyğun fürsət axtaran nə qədər düşmən var idi. Lakin artıq Abbas Mirzə İngiltərə üçün lazımlı bir insana dönüşmüşdü. İngilis diplomatın söylədiklərinin nə qədər doğru olub-olmadığı mübahisə mövzusu ola bilər. Lakin Mək Donaldın dediyinə görə, Şahzadə ondan 3.000 tümən borc istəmişdir.[46] Mək Donald heç tərəddüd etmədən Şahzadənin bu istəyini yerinə yetirdi. Lakin siyasət dünyasında bu kimi yardımlar qarşılıqsız və təmənnasız olmur. Mək Donald Səlmasda bulunduğu zaman dövlətinin təlimatı üzərinə 1814-cü ildəki anlaşmanın bəzi maddələrinin ibtalını istədi. Bunun qarşılığında isə İngiltərənin Abbas Mirzəyə maliyyə yardımını təklif etdi. Abbas Mirzə Mək Donaldın bu istəyinə bir neçə aydan sonra müsbət cavab vermək zorunda qalacaqdı. Yəni Azərbaycanın işğal olunmuş bir çox bölgələrini para ilə geri almaq zorunda qaldığı zaman İngiltərənin bu istəyi ilə razılaşacaqdı. İngiltərə 1814-cü il müqaviləsindən iki maddənin çıxarılmasını istəyirdi. Bu müqaviləyə görə Qacar dövləti savaşa girdiyi zaman İngiltərə ona yardım etməli idi. İngiltərə 250.000 tümən qarşısında bu bəndin silinməsini istəyirdi. Bu məbləğ rusların savaş ziyanı olaraq istədikləri miqdarın tam yarısı idi. Rusiya ya bu məbləğin ödənilməsini, ya da Qəzvinə qədər Rusiyanın idarəsinə keçilməlidir təklifini gətirmişdi. Mək Donald öz katibini Paskeviçlə görüşmək üçün Təbrizə göndərdi. Lakin Paskeviç İngiltərənin arabuluculuq önərisini qəbul etməmiş, ingilis nümayəndəsini geri göndərmişdi. Ancaq Abbas Mirzənin göndərdiyi Bijən Xanı Təbrizdə bəklətməkdə idi. Təbrizdə qərargahını qurmuş olan Paskeviç böyük bir arxayınlıqla davranırdı. Nə edəcəyini yüz ölçüb bir biçirdi. İngiltərənin devriyə girməsini heç istəmirdi.

Təbrizdə məhbus olan əski Başvəzir Asəf-əd Dövlə rusların kontrolunda Tehranla əlaqə saxlaya bilirdi. Asəf-əd Dövlə ağlında xüsusi planlar hazırlamışdı. Paskeviç onu qəbul etdiyində bütün bu planlarını ona açıqlayacaqdı. O, rus generalına dedi ki, məsələ sizin düşündüyünüz kimi mürəkkəb deyildir. Siz bilmiş olun ki, Fətəli Şahın ən nifrət etdiyi şey onun xəzinəsinə ziyan gətirən hadisələrdir. Bu üzdən də savaş zərərinizi nə qədər çox olaraq Şaha təqdim etsəniz, bir o qədər də tez başarılı olarsınız. Şah öz büdcəsini ölkəsindən daha çox sevir. Asəf-əd Dövlə, Abbas Mirzənin durumu haqqında da rus generalına bilgi verdi. Əski Başvəzir dedi ki, Şahzadənin artıq Şahın yanında etibarı qalmamışdır. Ən sonda isə Paskeviçə təklif etdi ki, daha çox imtiyaz qazanmaq istəyirsinizsə Fətəli Şaha təklif edin ki, Qacar dövlətini müzakirələrdə və masa başında Asəf-əd Dövlə təmsil etsin. Şahın yaxın qohumu olan bu əski Başvəzirin təklifləri qısa bir süreliyinə Paskeviçi tərəddüdə saldı. Lakin onun ləhnindən və davranışlarından xoşlanmadığı üçün

[46]Watson Robert Grant, “A History of Persia”, London 1866, s. 234.

Abbas Mirzəni tərcih etdi. Paskeviçin Abbas Mirzəni tərcih etməsi həm də İngiltərənin Şahzadəyə verdiyi önəm üzündən idi. Digər tərəfdən, rus generalı hesab edirdi ki, onun istəyəcəyi məbləği nə Fətəli Şah, nə də başqa dövlətlər Asəf-əd Dövləyə güvənib borc verərlər. Paskeviç İngiltərə kimi böyük bir dövlətin rəsmi elçisinin o anda Abbas Mirzənin yanında olduğunu bilirdi.

Abbas Mirzə qorxunc məğlubiyyətinə rəğmən özünü toparlamağa çalışırdı. Xanların və qardaşlarının xəyanəti hər an onun başına yeni bir fəlakət aça bilərdi. Paskeviç yazır ki: "Abbas Mirzəni əsir almaq imkanım var idi. Xanlardan bir neçəsi mənimlə əlaqə saxlayıb, onu yaxalayıb mənə təhvil vermələri haqda razılığımı istəyirdilər"[47]

## TÜRKMƏNÇAY MÜQAVİLƏSİ

Tehranla olan irtibatlar zorlaşmışdı. Azərbaycan ordusunun məğlubiyyətindən, Abbas Mirzənin fərar etməsindən sonra bir çox yağılar baş qaldırmış, yolçuları soyurdular. Bir neçə dövlət karvanları belə, soyğunçular tərəfindən soyulmuşdu. Belə bir vəziyyətdə Abbas Mirzə Təbrizə göndərdiyi elçisinin geri dönməsini bəkləyirdi. Bijən Xan geri döndü və rus generalın istəklərini Şahzadəyə çatdırdı. Fateh general, Abbas Mirzənin önünə çox ağır şərtlər qoyurdu. Bu şərtlərə görə, Abbas Mirzə Azərbaycanın bir çox bölgələrindən imtina etməli idi. Abbas Mirzə bu şərtlərə təslim olmaq istəmirdi, bu üzdən uzun-uzun düşünmək zorunda qaldı. Rus Generalına üz-üzə görüşmək təklif etdi. Paskeviç bu təklifi qəbul etdi. Miyana ilə Təbrizin arasında olan və Təbrizin beş ağaclığında yerləşən Tufarqan görüş yeri kimi müəyyənləşdirildi. Şahzadə Urmunun hökumətini Nəcəfqulu Xan Avşara tapşırdı. Şaha çatdırmaq üçün bir məktub yazıb qardaşı Qasım Mirzəyə verib Tufarqana yola düşdü. Şahzadə Tufarqana gedərkən sadəcə, beş yüz süvari yanına aldı. Qalan kiçik qrupunda komutanlığın Mərhəmətabadda Bəhram Mirzəyə buraxdı. Şahzadə öz qrupuna Məhəmməd Xan Əmirintizam, İbrahim Xan Sərdar, Fətəli Xan və oğlu Xosrov Mirzə kimi bəzi önəmli komutanlarını da aldı. Şahzadənin sağlıq durumu çox ağır olduğu üçün təxt-i rəvanla səfər etmək zorunda qalmışdı. 1827-ci ilin noyabr ayı idi. Şahzadə Tufarqana doğru hərəkət edərkən ağlından min tür şeylər keçirdi. Bu riski etməyə dəyərmi? Özünü kiçik bir qrupla düşmənin ortasına çəkməkdə idi. Onu Tufarqanda əsir ala bilərlərmi? Bu kimi suallar Şahzadənin ağlında dolaşırdı. Ancaq o, bu görüşü gerçəkləşdirməkdə israrlı idi. Özünü taleyin gətirəcəyi hadisələrin axarına buraxmışdı.

General Paskeviç öz diplomat heyəti ilə birgə Tufarqanda Şahzadəni bəkləməkdə idi. Rus general buraya çox hazırlıqlı gəlmişdi. 3.000 piyadə, 1.500

---

[47]Marşal Prens Paskeviç, 2. cild, s. 26.

süvari ilə bərabər Abbas Mirzənin yolunu gözləyirdi. Paskeviçin istəyi üzərinə general Bənkendurov, Şahzadə Dolqoruki və Albay Piski məğlub Şahzadəni qarşılamaq üçün onun qarşısına getdilər.

Şahzadə, Paskeviçin onun qarşısına bir çox önəmli insanları göndərdiyini duyduğunda o da bir qarşılıq verib və Paskeviçə güvəndiyini isbatlamaq istədi. Bu üzdən də bir çox süvarilərini geri göndərib, yalnız 150 və bir neçə danışmanları ilə bərabər görüş yerinə hərəkətinə davam etdi. Şahzadə düşünürdü ki, əgər onu əsir almaq niyyətləri olsa, zatən ətrafındakı kiçik ordusu ilə qarşılıq verəcək durumda deyildir. Bu üzdən də ətrafındakı dəstənin sayını daha da azaltdı. General Bənkendurov, Abbas Mirzə yaxınlaşdığında ona ehtiram əlaməti olaraq dəstəsinə "hazır ol" əmri verdi. Şahzadə atdan enib rus əsgərlərinə hərbi salam verdi. İlk görüşdə Abbas Mirzə savaşın yanlış olduğu fikrini savundu. Bu savaşın olmaması üçün əlindən gələni etsə də ancaq başarılı ola bilmədiyini söylədi və əklədi ki, bəlkə hələ tezdir, lakin zamanında bu savaşın səbəbkarları bəlli olacaqdır.[48] Bəlkə də Şahzadə savaş suçlularının ifşa olunacağını söylədiyində özünün Şah olacağı dönəmi nəzərdə tuturdu. Çünkü ancaq o zaman düşünülməmiş davranışlarla Azərbaycanın başına bu fəlakətləri gətirənlərlə hesablaşa bilərdi. Sonrakı gün Şahzadə Tufarqana doğru hərəkət edərkən General Kont Şuşteln onun qarşısına gəlib, ikinci qarşılama törənini gerçəkləşdirdi. Abbas Mirzə dodaqlarında acı bir təbəssümlə Generala dedi: "Sizə də maraqlı görünmürmü ki, öz vətənimdə Sizin qonağınız kimi davranmalıyam?!"[49]

Şahzadə Tufarqana çatdığında, Paskeviç özü onu çox təmtəraqla qarşıladı. Sonra da Şahzadə öz heyəti ilə bərabər Paskeviçin başçılıq etdiyi heyətlə baş-başa görüşdü. Şahzadə burada bir çox uğursuzluğunun səbəblərini Paskeviçə etiraf etdi və dedi ki, çevrəsini böyük bir xəyanət çəmbəri sarmışdır.[50] Atası haqqında heç bir olumsuz şey söyləməsə də ancaq Paskeviçə bunu açıqca dedi ki, Fətəli Şah istədiyiniz məbləği ödəməz. Ona Qaimməqamla birgə Şahla müzakirə etmək üçün Tehrana getməsini təklif etdi.

Tufarqan müzakirəsi iki ay sürdü. Müzakirə sürəcində önəmli bir problemlə rastlanıldı. Abbas Mirzənin qarşı tərəf olaraq tanımlayan rəsmi bəlgə (sənəd) yox idi. Digər tərəfdən, savaşın bitməsinin imzalanması aralıq ayının ikisinə qərarlaşdırılmışdı, ancaq hələ Tehran ödənməsini üzərinə götürdüyü savaş ziyanının ilk qismi olan on milyon rublu göndərməmişdi.

İngilis səfirliyinə bağlı olan albay Mək Donald və Doktor Mək Nil müzakirənin həmən ilk başından Tufarqanda idilər. Lakin öncədə qeyd olunduğu kimi Paskeviç onların arabuluculuq rollarını istəməməkdə idi. Meydana çıxan bütün problemlər Abbas Mirzəni ingilislərə yaxınlaşdırırdı. Səlmasdan Tehrana

---

[48]"Daneş"dərgisi 3-cü sayı. "Birinci Nikolay səltənətinin tarixi". Çevirən Richard Xan.
[49]"Marşal Prens Paskeviç" kitabı.
[50]Cahangir Mirzə "Yeni tarix".

gedən ingilis heyəti başkənddə Şahla da görüşmüşdür. Belə anlaşılır ki, Şahın Şahzadəyə qarşı olan qəzəbini yatıran ingilis heyəti olmuşdur. Çünkü bu məğlubiyyət və Abbas Mirzənin rəqiblərinin mərkəzdəki fitnələri Şahı çox etkiləmiş və Abbas Mirzəyə qarşı çox qızğın hala gətirmişdi. Lakin İngiltərə üçün Qacar dövlətində ən uyğun şəxs kimi Abbas Mirzə təsbit edilmişdi. Bu üzdən də İngiltərə sülh müzakirəsində Abbas Mirzənin Qacar dövlətini təmsil etməsindən yanaydı. Bu müəmmalı ingilis diplomatı Abbas Mirzəni çox təsirləndirmişdi. Abbas Mirzə isə gərgin durumdan çıxmaq üçün ondan borclar alır, ingilis diplomat isə Şahzadənin bu istəklərini təmin edirdi. Bəlkə də ingilis diplomatın öz dövlətini təmsilən bəzi vədlərdə bulunaraq, Fətəli Şahı etkiləməsə idi, Abbas Mirzənin başına böyük bəlalar gələ bilərdi.

Dekabr ayının 10-da Şahzadə son tərəddüdlərindən sonra sülh haqqında dialoq bəlgəsini imzalamaq qərarına gəldi. Müzakirələr ocaq ayında da davam etdi, lakin Şahdan hələ də bir xəbər yox idi. Şahın səssizliyi bu müzakirələri qəbul etməməsi kimi yozulurdu. Dekabr ayının 12-də məlum oldu ki, Mərhəmətabadda olan Abbas Mirzənin qoşunları Marağaya doğru hərəkətlənmiş və Tehran yolunda qərargah qurmuşdur. Paskeviç Şahzadənin bu hərəkətindən şübhələnməyə başladı. Lakin Abbas Mirzə dedi ki, bu işi Paskeviçə qarşı deyil, öz güvənliyimi saxlamaq üçün etmişəm. Olayların analizi Abbas Mirzənin söylədiklərinin doğru olduğunu göstərir. Paskeviç, Şahzadənin bu hərəkətinə qarşılıq verdi. Ucan qərargahında yerləşən Barun Duruzen adlı bir generalına əmr etdi ki, Miyanaya tərəf hərəkətlənsin. Abbas Mirzə Paskeviçin nədən belə davrandığını sorduğunda, rus generalından cavab gəldi ki, bu tərəflərdə güvənlik sağlamaq zorundayıq ki, Tehrandan gələcək olan savaş qəramətinin qorunması asan olsun.

1828-ci il yanvar ayının əvvəllərində Qacariyyənin dış işləri bakanı Əbülhəsən Xan Tehranın yazdığı barış müqaviləsi ilə Tufarqana gəldi. Paskeviç, Abbas Mirzənin imzaladığı mətnə edilən ən kiçik dəyişikliyi belə qəbul etmədi. Yenidən başdan başlayan müzakirələr çıxmaza girirdi. Bu arada Paskeviç tərəfindən görəvlənən albay Ligerov Şahzadənin güvənliyindən sorumlu idi.

Rus baş komandanı Tehranda olub bitənlərdən xəbərsiz deyildi. Çünkü Təbrizin baş müctəhidi Mir Fəttah əldə etdiyi bütün bilgiləri ona çatdırırdı. Şahzadə Həsənəli Mirzə öz süvariləri ilə bərabər Xorasandan Tehrana gəlmişdi. Süvarilərin əlində isə qara bayraqlar var idi. Şahzadə Həsənəli Mirzə deyirdi ki, İmam Rza Məşhəddə bir din xadiminin yuxusuna girmiş, bu qara ələmi ona vermiş və demiş ki, bu ələmi Şahzadə Həsənəli Mirzəyə çatdır. Ona söylə ki, rusları müzakirə ilə deyil, qılınc gücünə Azərbaycandan çıxarsın[51].

Həsənəli Mirzənin bu sözlərlə Tehrana gəlməsi bir həyəcan yaratmışdı. Tehran bazarından tutmuş ən aşağı sinifə qədər hər kəs həyəcan içində idi.

---

[51]Cahangir Mirzənin “Tarixe no” (yeni tarix) əsəri.

Ruhanilərin yeni bir cəhad fətvası ilə ortaya çıxacaqlarını bəkləyirdilər. Şübhəsiz ki, bu həyəcan Şahın sarayında da hiss edilirdi. Lakin Abbas Mirzənin düşmənləri çox böyük bir arxayınlıqla öz işləri ilə məşğul idilər.

Bu savaşın bütün günahını Abbas Mirzənin üstünə atırdılar. Bir halda ki o, bu savaşa qarşı idi Şaha təkrar-təkrar əldən getmiş qalaları, topları, dağılan orduları xatırladaraq, onu Şahzadəyə qarşı təhrik edirdilər. Fətəli Şah keçmişdə çox ümid bəslədiyi oğlunu indi aşağılayıcı sözlərlə təhqir edirdi. Fətəli Şah iki səbəbdən dolayı Abbas Mirzəni vəliəhdlikdən məhrum etməmişdir: 1. Abbas Mirzə Azərbaycandakı dayanaqlarını təkrar örgütləndirib Tehrana qarşı çıxa bilərdi. 2. Xarici güclər ruslarla müzakirədə Şahzadənin Qacar dövlətini təmsil etməsindən yanaydılar.

Həsənəli Mirzə elan etdi ki, rusların savaş bədəli kimi istədikləri altunların Tehrandan çıxmasına izn verməyəcəkdir. Digər şahzadələr də Həsənəli Mirzədən yana tutum sərgiləməkdəydilər. Tehrana çağırılmış bir çox qəbilə başçıları Həsənəli Mirzəni müqəddəs savaşın sərdarı kimi təhlil edir, alqışlayırdılar.

Abbas Mirzə Tufarqanda General Paskeviçin tənqidlərinə məruz qalmışdı. General deyirdi: "Siz iki aydır məni Tufarqana dəvət etmişsiniz, dövlətimin digər işləri ilə bu iki ayda məşğul ola bilməmişəm, ancaq heç bir irəliləyiş ortada yoxdur. Siz ya Rusiyanı aldatmaq istəyirsiniz ya da artıq sizin bütün səlahiyyətləriniz Tehran tərəfindən alınmışdır və sözlərinizin, imzanızın keçərliliyi yoxdur."[52] Rus General, Abbas Mirzəyə çox hörmət etsə də, lakin heç bir səlahiyyəti olmayan bir şəxslə də müzakirələri sürdürmək istəmirdi. Hər tərəfdən ona bilgi gəlirdi ki, Şahzadə Şahın yanında etibarını itirmişdir. Yanvarın sonlarında Paskeviç Şahzadəyə Tufarqanı tərk edib Tehrana hücum etmək istədiyi haqda bir mesaj göndərdi. Abbas Mirzə xəstə idi və ayaqlarının ağrısı onu çox incidirdi. O, Paskeviçin bu hərəkətinin gətirə biləcəyi ziyanı göz önündə bulundurduğunda çox rahatsız oldu. Xəstə halı ilə Paskeviçlə görüşmək istədi. Şahzadə, Paskeviçdən xahiş etdi ki, baron Duruzenin əmrində olan ordu Qaflan dağını Tehrana doğru aşmasın ki, o, (Abbas Mirzə) Tehranla əlaqə saxlayıb qısa sürədə dəqiq bilgi əldə edə bilsin.

Abbas Mirzənin Azərbaycanı, Ərdəbil istisna olmaqla bütünü ilə işğal edilmişdi. Yalnız Ərdəbil qalası Məhəmməd Mirzənin və Cahangir Mirzənin komutanlığı altında idi və işğal edilməmişdi. Ərdəbildə Benədəti adında İtalyan bir topçu qalanın savunmasında mühüm rol üstlənməkdə idi. Abbas Mirzə rus ordusunun Tehrana yürüşünün durdurulması qarşısında Ərdəbil qalasını təslim edəcəyini təklif etdi. Yurdu əlindən çıxmış Şahzadə böyük bir ümüdsüzlük içində Tufarqanı tərk edib və kiçicik qoşununun bulunduğu Mərhəmətabada tərəf yola düşdü. Gorus adlı bir yerdən keçdiklərində Tehrandan gələn çapar onlara çatdı. Çapar Şahın imzası ilə Şahzadəyə bir məktub gətirmişdi. Məktubda Şahzadəyə

---

[52]Eyni qaynaq.

müzakirələri sürdürməsi üçün tam səlahiyyət verilirdi. Həm də ruslara ödəniləcək olan savaş bədəli altunun ilk qisminin yola düşdüyü haqda bilgi verilirdi.

Fətəli Şah anlamışdı ki, nə ruhanilərin dəstəyi ilə küçələrdə bağırıb savaş propaqandası aparan, İmam Rzanın yuxulara, röyalara girərək mesaj göndərdiyini söyləyən Həsənəli Mirzə, nə də Şeyx-ül Məlukla bir yerdə savaşın davam etməsini istəyən Hüseyn Xan Sərdar bir iş görə biləcək durumda deyillər. Özəlliklə rus ordusunun Tehrana tərəf yürümək istəməsi Şahı ciddi olaraq düşündürməyə başlamışdı. Fətəli Şah düşünürdü ki, Həsənəli Mirzə Xorasanda Rzaquluxanın ayaqlanmasını basdıra bilməmişsə, 3-4 minlik ordusu ilə möhtəşəm rus ordusuna nə edə bilər? Bu üzdən də Padşah, xəzinəsinin güvənilir baş mühafizi Mənuçehr Xanı 500.000 tümən Abbas Mirzəyə çatdırmaq üçün görəvləndirdi. Bu, ruslara ödəniləcək ilk savaş bədəli idi.

Abbas Mirzə bu məktubu aldıqdan sonra istiqamətini dəyişdirib, Qaflan dağına doğru hərəkət etdi. Ucanda olan Paskeviçə mesaj göndərdı ki, müzakirələrin yürüməsi üçün artıq tam səlahiyyətə sahibdir.

Paskeviç Tehrana hücum edəcəyini açıqca duyurmuş və böyük bir birimlə hərəkətə başlayıb Ucana qədər gəlmişdi ki, Abbas Mirzənin mesajını aldı. Bu üzdən də Miyananın yaxınlığında kiçik bir kənd olan Türkmənçaya getdi. Şahzadənin də müqaviləni imzalaması üçün oraya gəlməsini istədi. Böyük bir ruhi gərginlik içində olan Abbas Mirzə, Türkmənçaya doğru hərəkət edirdi. Tehrandan gələn altunlar da Türkmənçaya yetişmişdi. Artıq uzun müzakirə üçün bir şey qalmamışdı, rus fatehin əmrinə tabe olmaqdan başqa bir çarə yox idi. Rusların Tufarqanda hazırladıqları anlaşma bir mətn halına gətirilmişdi. Öncə Paskeviç bu mətni imzaladı. Sonra da Şahzadə öz imzasını və möhürünü hazırlanmış mətnin altına atdı. Türkmənçay müqaviləsinə görə İrəvan, Naxçıvan və Talış bölgəsinin bir qismi rusların idarəsinə keçir və Astara sınır olaraq müəyyən edilirdi. Savaş ziyanı da 10.000 kron (beş milyon tümən) nəzərdə tutulurdu. Müqavilənin 7-ci maddəsi Abbas Mirzəni vəliəhd və Fətəli Şahın canişini kimi tanıyırdı. Müqavilənin ticarətlə və Qacariyyədə olan rus vətəndaşlarının haqları ilə ilgili maddələri də var di.

Paskeviç müqavilə dolayısıyla Fətəli Şahı təbrik etmək üçün baron Duruzeni görəvləndirdi. Onun yanı sıra Tehrandakı Rus əsirlərinin işləri ilə məşğul olan Kont Tolstoy da Tehrana yolçu oldu. Paskeviç öz elçiləri vasitəsi ilə Şaha böyük hədiyyələr də göndərdi.

Bu arada Abbas Mirzə çox ağır xəstələndi. General Paskeviç onun əyalətinə gedib və iki top ona hədiyyə etdi. Şahzadə savaş alətlərindən çox xoşlanırdı. Bu üzdən də yorğun surətinə acı bir təbəssüm qondu.

Paskeviç ona 600 xəstəni özündə barındıra biləcək bir xəstəxanasının olduğunu söylədi. Bu zaman Abbas Mirzə dərindən bir ah çəkdi və əhvalı daha da dəyişdi. Şahzadənin ən böyük arzularından birisi Azərbaycan ordusu üçün Avropa modeli xəstəxana təsis etmək idi.

## SAVAŞLAR VƏ SİYASİ OYUNLAR

## GİRİŞ

Savaş sonlarında Rusiya Azərbaycanın müxtəlif yerlərində rus fatehlərin əlində oyuncağa çevrilən xanlıqlardan öz mənafeyi üçün yararlanmaq istədi. Tufarqan müzakirə sürəcində Fətəli Şahdan gec cavab gəldiyində, Paskeviç bu böyük ərazini də Rusiya torpaqlarına qatmaqla təhdid etdi. Abbas Mirzə böyük bir fədakarlıq hesabına bir neçə şəhəri də para ilə geri aldı. Paskeviç bir neçə bölgəni öz əlində saxlamaqda idi. Bu bölgələrdən istədiyi savaş ziyanını aldıqdan sonra çəkilməyi qərarlaşdırmışdı.

Azərbaycanın qalan hissəsi rus ordusundan boşaldıqdan sonra Abbas Mirzə təkrar inzibatlı bir ordu oluşdurmağa çalışdı. Abbas Mirzə ömrünü sərf edib təşkil etdiyi bütün nizam-intizam ruslar tərəfindən təxrib edilmişdi. Bir zamanlar Abbas Mirzənin ordusu elə bir mövqeyə sahib idi ki, Sankt-Peterburq belə Azərbaycan ordusunda olub-bitənlərlə maraqlanırdı. Abbas Mirzə kəsinliklə təkrar savaşın başladılmasından yana deyildi. Lakin Qriboyedovun Tehranda qətlə yetirilməsi Rusiya-Qacar münasibətlərini təkrar çıxmaza soxmuşdu. Bu üzdən Abbas Mirzə biricik çıxış yolunu Osmanlıya yaxınlaşmaqda gördü. Molla Şərif adında bir elçi gizlin bir müqaviləni imzalamaq üçün Şahzadə tərəfindən İstanbula göndərildi. Lakin savaş ehtimalı azalmışdı. Sankt-Peterburqu rahatsız etməyə başlayan Abbas Mirzənin təkrar mövcud etdiyi Azərbaycan ordusu, ancaq ölkə içində asayişi bərqərar etməklə məşğul oldu. Fətəli Şah isə boşalmış xəzinəsini doldurmaq üçün əyalətləri ən çox para ödəyən oğullarına, nəvələrinə satırdı. Bu zaman Xorasanda böyük üsyanlar baş qaldırdı. Türkmən xanlarının Qacar dövlətinə qarşı bu ayaqlanmaları durdurmaq üçün Abbas Mirzə öz ordusu ilə Xorasana göndəriləcəkdi. Bir az öncə qeyd olundu ki, Həsənəli Mirzə bu ayaqlanmaları durdura bilməmişdi.

## SAVAŞLAR VƏ SİYASİ OYUNLAR

Şahzadənin ömrünün son iki ilində yazdığı məktublar vasitəsi ilə onun ruh halları haqqında bilgi əldə etmək mümkündür. Bu məktublarında Şahzadə Azərbaycanın parçalanmasının onun belini bükdüyünü yazır. Eləcə də bu məktublar aracı ilə onun 1827-ci il noyabr ayı ilə 1828-ci il fevral ayı arasında təhəmmül etdiyi çətinliklər haqqında bilgi əldə etmək mümkündür.

Ölü dəfnindən dönərcəsinə gənclik xatirələri ilə iç-içə olan başkəndi Təbrizə gəlirdi. Lakin başkəndində umutsuz görünmək istəmirdi. Bu üzdən Türkmənçay kəndindən yola düşüb Həştrud yolu ilə Təbrizə gələrkən, nə edəcəyi haqda düşünürdü.

Təbriz rus ordusunun işğalında olduğu zaman bütün bəzirganlar, din xadimləri, tayfa və qəbilə başçıları ruslarla iş birliyinə getmişdilər. Bu üzdən də rus ordusu Təbrizi tərk etməyə başladığında onları ümidsizlik sarmağa başlamışdı. Onlar bu qədər möhtəşəm bir ordunun Təbrizdən çıxmayacağı qənaətindəydilər. Bu üzdən də ruslarla iş birliyi edən bir çox Təbriz sakini Rusiyaya fərar etmək qərarına gəldilər. Abbas Mirzə xəstə olduğu üçün təxt-i rəvanla daşınırdı. Onların fərar etməmələri üçün bir neçə məktub yazıb və çaparlara verdi. Bu məktubu carçılar Təbrizin meydanlarında yüksək səslə əhaliyə duyurdu. Bu məktublarda Abbas Mirzə ruslarla iş birliyi edənlərin davranışlarından təəssüfləndiyini söyləyərək onların əfv edildiyini də yazırdı. Abbas Mirzə onların Təbrizdə qalıb və Azərbaycanın qalxınması üçün bir yerdə, bərabərcə çalışmalarını istəyirdi. Baxmayaraq ki, Abbas Mirzə bu xainlərə qarşı intiqam hərəkətlərinin qarşısını bütünü ilə ala bilmədi, lakin bilgisi dairəsində verdiyi sözü tutdu. Ancaq Şahzadədən xəbərsiz bəzi intiqamalma hərəkətləri də olur və ruslarla iş birliyi edənlər məhkəməsiz-filansız öldürülürdülər.

Şahzadə Təbrizə girdiyində şəhərdə önəmli bir dəyişikliyin olmadığını sezdi. Çünkü şəhərin könüllü və dirənişsiz təslim olması üzündən ruslar heç bir təxribat törətməmişdilər. Yalnız Şahzadənin sarayında qiymətli əşya nə varsa, hamısı aparılmışdı. Digər tərəfdən, Abbas Mirzə Xoyu və Urmunu da para ilə geri almaq zorunda idi. Bu üzdən Azərbaycanın müxtəlif yerlərində olan mal varlığında qənaət edilmə əmri verdi. Abbas Mirzə bu borcları ödəyə bilmək üçün hər kəsi çalışmağa çağırdı. Bəzi din xadimləri və onların yandaşları tacirlər Laçın Xandan şikayətlənirdilər ki, evində bir çox altun və gümüş saxlamaqdadır. Laçın Xan dədələrinin yadigarı olan bir neçə çox qiymətli əşyaları Gürcüstandan gələrkən özü ilə gətirmişdi. Abbas Mirzə məktublarında onun özü qədər bu məğlubiyyətdən dolayı üzgün olan bu dar gününün dostunu riyakar insanlar qarşısında savunduğunu yazır.

Laçın Xan, Şah tərəfindən də sevilmirdi, çünkü savaşa hazırlıq zamanı hərbi şurada bu savaşın doğru olmadığı, ruslara qarşı savaşın zamanı olmadığı haqda görüş bildirmişdi. Müxtəlif xanların savaşla ilgili verdikləri bilgilərin yanlış olduğu görüşündə idi. Ona görə, Rusiya xanların kiçik və gücsüz göstərdiklərindən daha çox güclü idi. Bu üzdən də sadəcə, Şahın antipatisini qazanmamış, xanların düşməni halına gəlmiş, savaşa cihad gözü ilə baxan din xadimlərinin də qəzəbinə tuş olmuşdu. Onun can güvənliyinin rəhni, ancaq Abbas Mirzə idi. Abbas Mirzənin müşaviri Qaimməqam savaş öncəsi Abbas Mirzədən fərqli düşünməsinə rəğmən yenə də öz vəzifəsindən alınmadı. Abbas Mirzənin başvəziri qalmağa davam etdi. Ancaq yenə də Qaimməqam Fətəli Şahın Laçın Xana olan qəzəbini təhrik edirdi. Çünkü Qaimməqam onu öz rəqibi kimi görürdü. Abbas Mirzə kimsəyə Laçın Xana güvəndiyi qədər güvənmirdi.

## QRİBOYEDOVUN ÖLDÜRÜLMƏSİ

1828-ci ilin payızında Abbas Mirzə Tehrana getdi. Bu səfərdən məqsəd Mək Donaldla bağladığı müqaviləyə Şahın da razılığını və təsdiqini almaq idi. Mək Donaldla Şahzadə arasındakı anlaşmaya görə, 1814-cü il müqaviləsindən iki maddə silinməli və buna qarşılıq isə İngiltərə 250.000 tümən ödəməli idi. Bu məbləği isə Qacar dövləti savaş suçlusu kimi Rusiyaya ödəməli idi. Şah öz xəzinəsinə az zərər gəlsin deyə bu müqaviləyə müsbət yanaşmaqda idi. Abbas Mirzə atası ilə görüşdə Sankt-Peterburqa səfər etmək istədiyi haqda da danışmışdı. Şahzadə, rus İmperatoru ilə görüşərək, Türkmənçay müqaviləsində bəzi güzəştlərin olması mövzusunda İmperatordan istəkdə bulunacaqdı. Abbas Mirzənin Rusiyanın başkəndinə səfərini əngəlləmələr göstərir ki, bu haqda Şahzadə başarı əldə edə bilərmiş. Bu maneə özəlliklə Qriboyedov tərəfindən törədilməkdə idi. O, General Paskeviçin diplomat qrupuna daxil idı. General İrəvanı fəth etdikdən sonra ona diplomatik görəv vermişdi. O, Türkmənçay müqaviləsindən sonra isə Tehrana səfir olaraq təyin edilmişdi. Qriboyedov ədəbiyyatçı və şair idi. Bu üzdən İmperator Birinci Nikolay tərəfindən sevilməməkdə idi. Çünkü Birinci Nikolay aydın insanlara olumsuz yanaşırdı. Digər tərəfdən, Qriboyedov Dekabristlərə özgü (xas) olan bir fikir daşıyıcısı idi. Bu üzdən də bir sürə həbsdə olmuşdu. O zamankı verilərin incələnməsi göstərir ki, onun Tehranda qətlə yetirilməsinə İmperatorun ciddi təpki göstərməməsinin də səbəbi bu imiş. Fətəli Şah da Qriboyedovdan xoşlanmırdı. Abbas Mirzə bu səfər zamanı İmperatora hədiyyələr haqqında da atası ilə danışdı. Abbas Mirzə bilirdi ki, bu səfərə getdikdən sonra düşmənləri yenə də ona qarşı planlar hazırlamağa başlayacaq və onu Şahın yanında pisləyəcəklər. Türkmənçay müqaviləsində Rusiyanın Abbas Mirzəni vəliəhd kimi tanıması Şahzadənin düşmənlərinə böyük zərbə vurmuşdu. Çünkü onun canişinliyi uluslararası düzeyə daşınmışdı. Digər tərəfdən, İngiltərə də müzakirələrdə tərəf müqabil kimi Abbas Mirzəni görmək istəyirdi. Bütün bunlar Abbas Mirzənin düşmənlərini başda Asəf-əd Dövlə olmaq üzrə hamısını bezdirməkdə idi. Abbas Mirzə nə qədər bağışlamaqdan yana olsa da, ancaq Asəf-əd Dövlənin riyakarlığını və xainliyini unutmurdu. Bilirdi ki, bu adam əlinə fürsət düşdüyü zaman ona xəyanət edəcəkdir. Abbas Mirzə ömrünün sonlarında Asəf-əd Dövlənin ihanətlərini xatırladaraq onun cəzasını Tanrı verəcəkdir, deyə söyləmdə bulunmuşdu. O zaman Asəf-əd Dövlə vəzirlikdən kənarlaşdırılmış və sarayın qalaları içindəki evində Abbas Mirzəyə qarşı təxribat yapmaqla məşğul idi. Lakin o, Adına məscidində moizə ilə məşğul olan mollalarla sıx irtibatda idi. Din xadimlərinin və Asəf-əd Dövlənin ortaq düşmənləri Abbas Mirzə idi. Din xadimləri düşünürdülər ki, Fətəli Şahdan sonra Abbas Mirzə şah olarsa onların işləri necə olacaq. Çünkü Şah olacaq Abbas Mirzənin avropalaşdırma imkanları daha da genişlənəcəkdir. Toplumun dini cəhalət içində qalmasını öz mənafelərinə uyğun görən ruhanilər və Asəf-əd Dövlə kimi adamlar Şahzadənin avropalaşma reformlarına qarşı sərt çıxırdılar. Onun Şah

olmasını əngəlləmək üçün hər tür fitnə-fəsada əl atırdılar. Bir çox din xadimləri açıq söyləməsələr də gizlin-gizlin onun dindən çıxıb və xristian olduğu haqda fətvalar verirdilər.

1829-cu il şubat ayının gecələrinin birində bir çapar Şahzadəni yuxudan oyadıb ona gözlənilməz, diksindirici bir xəbər çatdırdı: Rusiyanın elçisi bütün heyəti ilə bir yerdə Tehranda qətl edilmişdir!

Abbas Mirzə şaşqınlıqdan nə edəcəyini bilmirdi. Çünkü Rusiya ilə savaşa girməmək üçün hər tür yola baş vurduğu bir dönəmdə, İmperatorla görüş səfərinə hazırlaşdığı bir zamanda bu gözlənilməz hadisə onun bütün planlarını alt-üst etməkdə idi. Şahzadə bu hadisə haqqında dəqiq bilgi almadan, öncə inana bilmirdi, bir şayiə olacağını sanırdı. Lakin çox keçmədən olay, ayrıntıları ilə Şahzadəyə bəlli oldu. Tehranın elbayı olan Abbas Mirzənin qardaşı Zill-ül Soltandan gələn bir məktub olayın doğruluğunu təsdiqləyirdi. Sonra da Şahdan bir məktub gəldi ki, necə olursa-olsun yeni savaşın çıxması əngəllənməlidir. Şah, savaşın əngəllənməsini sağlayacaq ancaq bircə kişiyə güvənirdi. O da Abbas Mirzə idi. Digər tərəfdən, Şah hər ehtimala görə Rusiyanın savaş elan etməsi durumunda yanız qalmasın deyə təcili olaraq müttəfiq aramağa başladı. Qriboyedovun öldürülməsi Şahdan və Tehran elbayı Zill-ül Sultandan xəbərsiz baş vermişdi. Bu hadisə ən çox Abbas Mirzənin düşmənləri və din xadimləri tərəfindən təşkil edilmişdi. Məqsəd isə Abbas Mirzənin Sankt-Peterburqa səfərini önləmək idi.

Tehran əhalisi, o zaman səfirlərin Tehranda olduğundan xəbərdar olurdular ki, bu səfirlər öz heyətləri ilə bir yerdə başkəndin mərkəzi xiyabanlarında görünməyə başlayırdılar. Şah tərəfindən də sevilməyən Qriboyedov dini məsələlərə müdaxilə etməsə idi, mollaların ona qarşı fətva verməsinə bəhanə yaratmazdı. Asəf-əd Dövlənin ona qarşı nifrəti 1827-ci ilin yayında ilk görüşləri zamanı başlamışdı. İndi isə Asəf-əd Dövlə həm ondan, həm də Şahzadədən intiqam alması üçün çox uyğun bəhanə əldə etmişdi.

Türkmənçay müqaviləsinin bir maddəsi də Qafqaz əsilli xristianlara aid idi. İstər savaş əsiri və ya başqa səbəblərdən dolayı olsun, Qafqazdan Qacariyyənin müxtəlif yerlərinə aparılmış xristianlar haqqında da Türkmənçay müqaviləsində bir maddə yer almışdı. Bu insanlar istər qadın və ya kişi olsun azad buraxılmalıydılar ki, öz yurdlarına dönüb-dönməmə haqqında özləri qərar versinlər. Bu insanların geriyə dönüşündən yana olan Qriboyedov Türkmənçay müqaviləsindəki bu maddəni yürürlüyə qoymaq istəmişdi. Gürcüstana dönmək istəyənlərdən biri hər kəsi heyrətə salan Yəqub Xan idi. Yəqub Xan Gürcüstanın əsilzadələrindən idi. Otuz ilə yaxın Fətəli Şah sarayının önəmli xidmətçilərindən biri kimi tanınmaqda idi. Bu müddət ərzində həm özünə uyğun iş bulmuş, həm də çox zənginləşmişdi. O, Qriboyedovun yanına gedib və Gürcüstana dönmə istəyini bildirdiyində Qriboyedov təəccüblənmiş və niyə saray həyatından, imkanlarından ayrılmaq istədiyini ondan sormuşdu. Ona "Gürcüstana döndüyündə hansısa məchul bir insan kimi adi həyat yaşayacağını bilib-bilmədiyini" sormuşdu. Yəqub Xan geri

dönməkdə israr etdi. Qriboyedova Qafqazdan gətirilmiş Asəf-əd Dövlənin sarayında sanki həbsdə imiş kimi yaşayan iki erməni qadınının durumunu anlatdı. Yəqub Xan Qriboyedova dedi ki, onları zorla müsəlman olmağa, müsəlman kimi davranmağa və qapanmağa zorlamışlar.

O zaman müsəlman qadınların evdə məhbus kimi yaşamaları sosial törələrin icabatlarından idi. Müsəlman qadınlar bunu bir növ qadına hörmət kimi anlayırdılar. Qadınların sosial hadisələrin arxasında özlərinə məxsus bir həyatları var idi. Qadın ağlının gəlişməməsi üçün dini törələr hər tür əngəl yaratmışdı. Qadın həyatı anlamsız bir sirlər içində itib batmışdı. İslamda qadın şəhvət qaynağı olan ət yığını kimi anlaşılmaqdadır. Kişilər isə bu durumdan çox razı idilər. Xüsusən hər hansı bir ailənin toplumsal (sosial) statusu yüksəldiyi zaman o ailədə qadınlara olan basqı daha da şiddətlənirdi. Bir dövlət adamı, qadınının nə şəkildə yaşamasını gizlin saxlayır və ictimai yerlərdə görünməməsi üçün hər tür önləmlər alırdı. Qriboyedov, Allahyar Asəf-əd Dövlənin siqə qadını olan iki ermənini səfirliyə gətirtmiş və onlardan geriyə dönüb-dönməyəcəkləri haqda sormuşdu. Erməni qadınlar geri dönməkdən yana olduqları üçün səfirlikdə saxlanılmışdılar. Bu hadisədən Asəf-əd Dövlə yararlanıb, Qriboyedovdan intiqam almaq fikrinə düşdü. Lakin o, bu işini Fətəli Şahdan gizlin və ruhanilər vasitəsi ilə etmək istəyirdi. Çünkü Şahın artıq ona qarşı heç bir hörməti qalmamışdı. Asəf-əd Dövlə də din xadimlərinin arasında gizlincə sıx irtibat yaranmağa başladı. Tehranda bir neçə kişi bir yerə toplaşıb söhbət etdiyində mütləq Asəf-əd Dövlənin namusunun ayaqlanmasını danışır, qadınlarının Qriboyedov tərəfindən zorla evindən çıxarılıb aparılmasını dartışırdılar. Bu söz-söhbət ağızdan-ağıza dolaşıb bütün şəhəri sardı. Dindar kəsimin "müsəlman" qadınların namusunu qurtarma duyğusu qabarmışdı. Tehran elbayı bu həyəcanın bir intiqamla nəticələnəcəyini zənn etmədiyi üçün rus səfirliyinin güvənliyini sağlamaq amacı ilə heç bir önləm almamışdı. Lakin əhalinin dərin dini duyğuları çox sərt şəkildə coşmağa başlamışdı. Torpağının ruslar tərəfindən işğal olunmasına təpki göstərməyib susan bu əhali və onun dini rəhbərləri sanki İslamı qəbul etmiş iki erməni qadınının intiqamını almaq üçün macəra axtarırdılar. Xatırladalım ki, rus ordusu Təbrizə girdiyi zaman din xadimlərinin istəyi üzərinə onların qarşısında qurban kəsmişdilər. Tarix boyu mövcudluqlarını toplumun bu şəkildə cəhalətinə borclu olan din xadimləri isə intiqam və "namus davası" atəşini körükləyirdilər. İslam ölkələrində bu tür kor duyğulardan yararlanaraq toplumu sürətli bir şəkildə örgütləndirmə çox rahatdır. İslam tarixində bu tür cəhalət qaynaqlı hərəkətlərə çox rastlanılmaqdadır. Din xadimləri İslamın təhqir olunduğunu sanırdılar. Lakin iki erməni qadınının İslamla nə ilgisi ola bilərdi. Əslində isə heç bir ilgisi yox idi. Sadəcə, şəxsi hesablaşmalar söz konusu idi. Hər zaman olduğu kimi, din xadimlərinin və siyasətbazların əlində oyuncaq olan İslam isə ortalıqda bir arac olaraq kullanılmaqda idi. Tehranın Adinə məscidindən hərəkətə başlayan böyük bir qrup əllərində qara bayraqlar daşıyırdı. Tehran elbayı (valisi) tərəddüd içində qaldı ki, bu yığıncağa müdaxilə etsin ya yox.

Çox qısa bir sürədən sonra əhalinin hərəkəti iğtişaşa dönüşdü. Əhalinin birdən-birə şiddətə əl atması bir çox vəzirləri və Tehran elbayı Zill-ül Sultanı şaşırdı. Artıq istəsəydilər də fətvalar üzündən ağlını itirmiş bu əsəbi əhalini kontrol edə bilməzdilər. Əsəbi əhali bağıra-bağıra rus heyətinin bulunduğu mərkəzə doğru hərəkət etdi. İslam psixolojisini bilməyən Qriboyedov durumu bu şəkildə gördüyündə, onların para ilə satın alına biləcəyini zənn etdi. Səfirliyin qapılarını möhkəmcə qapayıb və pəncərələrdən noxdaları din xadimlərinin əlində olan əhalinin qarışqa kimi qaynaşdığı yerə para səpməyə başladılar. Lakin əhalinin sanki gözü kor olmuş və bu kağızların pul olduğunu görmürdülər. Səfirliyin qapısını qırmağa başladılar. Lakin əhalinin içində olan din xadimlərinin casusları hər şeyi düşünmüşdülər. Onlar bağırırdılar ki, bu kağız yarpaqlara aldanmayın. Həm intiqamınızı alın, həm də içəridə altun kisələri var, o altunları da qarət edəcəyik. Əhali balta ilə və əllərinə gələn hər nə varsa onunla qapını qırmağa nail oldu. Əhali sadəcə qarşılarına çıxan rusları deyil, səfirliyin bəkçisi olan Qacar məmurlarını da əllərindəki qılınc, qəmə və bıçaqla öldürürdü. Bu olayda ancaq səfirliyin katibi olan Malzov qaçıb canını qurtara bilmişdi. Başda Qriboyedov olmaq üzrə hamısı qətl edildilər.

***

Bu olaydan sonra Rusiyanın intiqam amacı ilə hücum edəcəyi sanılırdı. Lakin aylar keçdi və ruslar hücum etmədi. Ancaq müxtəlif səbəblərdən dolayı Abbas Mirzə Təbrizdə sıxıntı içində idi. Abbas Mirzənin büdcəsi boş idi. Şahdan da heç bir yardım gəlməməkdə idi. Arzularının şəhəri olan Təbrizin qalxınması üçün heç bir iş edə bilmirdi. Bütün bunlara rəğmən Abbas Mirzə 1829-cu ilin yayında savaşdan sonra ilk kəz olaraq ordusunun böyük göstərisini hazırladı. Azərbaycan ordusunun paradını izlədi. Rusiya hər zaman Abbas Mirzədən ehtiyat edirdi. Daima onun Osmanlı və ya Avropa gücləri ilə birləşib intiqam alacağından ehtiyat edirdi. Ancaq onlar bilmirdilər ki, mali əksiklik Abbas Mirzəni elə çökdürmüşdü ki, hələlik bu planları ağlında daşımamaqdadır. Yalnız Abbas Mirzə böyük bir özən və iradə ilə Azərbaycan ordusunun sadəcə, ayaqda durmasını sağlaya bilirdi. Şahzadə iki ay Ucanda qaldıqdan sonra 14 alayı 14 topla bir yerdə təkrar aktiv hala gətirməyi başardı. Bu parada qatılmaq üçün ingilis heyətini də dəvət etdi.

Abbas Mirzə düşünürdü ki, nədən rus imperatoru Qriboyedovun intiqamını almaq istəmir? Bu intiqam üçün onun əlində hər tür imkan mövcuddur. Qriboyedov hadisəsindən sonra General Paskeviçin Abbas Mirzəyə yazdığı təhdidkar məktublar yerini yumşaq məktublara buraxmağa başlamışdı. Bunun yalnız bir səbəbi var idi, o da rus imperatorunun Qriboyedovu önəmsəməməsi. Rus imperatoru hesab edirdi ki, keçmişdə Dekabristlərlə bir yerdə Çara qarşı çıxan bir şəxs uğrunda savaşa qatılmağa dəyməz.

Lakin Sankt-Peterburqda daima Abbas Mirzə ilə ilgili olaraq bir rahatsızlıq duyulmaqda idi. Düşünürdülər ki, Şahzadə özünü toparlayıb savaşa başlayacaqdır.

Abbas Mirzənin Osmanlı ilə gizlin anlaşması haqda Rusiya bilgi əldə etmişdi. Rusiya bu gizlin anlaşmanı bir ihanət kimi yozurdu. Bu ihanəti ortadan qaldırmaq üçün Qacar dövləti tərəfindən önəmli bir heyətin Sankt-Peterburqu ziyarət etməsini bəkləyirdi. Ancaq bu heyətin başında önəmli bir şəxsiyyət durmalı idi ki, istənildiyində Qriboyedovun intiqamını onu girov saxlayaraq ala bilsinlər. Qriboyedov hadisəsi Abbas Mirzənin səfərinin baş tutmasını əngəlləmişdi. Bu üzdən Abbas Mirzə öz oğlu Xosrov Mirzəni bu səfər üçün nəzərdə tutdu. Xosrov Mirzə atasının ən yaxın danışmanı olmuş, Tufarqandakı müzakirələrdə də iştirak etmişdı. Həlta General Paskeviç ona "Yarım Abbas"[*] olaraq xitab etməkdə idi. "Yarım Abbas" türk dilində, yəni Abbasın yarısı deməkdir. Abbasın yarısı deməkdə Paskeviç Abbas Mirzənin yarısı kimi bir anlamı nəzərdə tuturdu. Şübhəsiz ki, rus generalın ona bu şəkildə xitab etməsinin səbəbləri var idi. Xosrov Mirzə zəka və siyasi davranış olaraq atasına bənzəməkdə idi.

Gənc Xosrov Mirzə öz heyəti ilə bir yerdə Sankt-Peterburqa yola düşdü. Xosrov Mirzəni Gürcüstanda çox yüksək səviyyədə qarşıladılar. Lakin Xosrov Mirzə özünü Rusiya-Qacariyyə dövlətləri arasındakı münasibətlərin qurbanlığı kimi sanırdı. Düşünürdü ki, Qriboyedovun intiqamını ondan alacaqlar, ancaq bu qurbanlığa hazır idi. Sankt-Peterburqda Xosrov Mirzəni qəbul etmə törəni yaylıq sarayında gerçəkləşdi. Sankt-Peterburq, Abbas Mirzənin Ucandakı hərbi paradından və ordusunu təkrar döyüş halına gətirməsindən, İstanbulla gizlin anlaşmasından xəbərdar idi. Xosrov Mirzə öz davranışlarında özünə tam bir güvən örnəyini sərgiləyərək İmperatorla görüşə hazırlaşırdı. Rus imperatorunun önündə diz çökərək, qılıncının ucunu öz sinəsinə tərəf tutaraq ona təqdim etdi. Xosrov Mirzə atasının problemlərini həll etmək üçün fəda olmağa hazır idi. İmperator, Xosrov Mirzənin girov olaraq saxlanılmasını da düşünmüşdü. Bu üzdən də iki ay müddətincə rəhinə kimi saxlanılan Xosrov Mirzə ilə bir diplomat kimi deyil, bir çocuqmuş kimi davranırdılar. Xosrov Mirzə iki ay müddətincə qaldığı sarayda oranın memarlıq gözəlliyi ilə bağlı heyrətlərini gizlədə bilmirdi. Olayların axışı Rusiyanın Avropa və Osmanlı ilə olan münasibəti fərqli düzeyə gəlmişdi. Bu hadisələr Rusiyanı Qacariyyə ilə barışcıl irtibata girməyə zorlayırdı. Bu üzdən də Xosrov Mirzənin bu ziyarəti Rusiya tərəfindən Qacar dövlətinin Qriboyedov hadisəsi ilə bağlı üzr istəməsi kimi yozumlandı. Qacar dövləti ilə münasibətlərin normallaşdırılması qərarlaşdırıldı.

***

Xosrov Mirzənin bu başarısı onun mövqeyini dəyişdirdi. Ona olan sayqı hər kəs tərəfindən artmağa başladı. Abbas Mirzə oğlunun bu başarısından çox qürur duymaqda idi. Lakin Abbas Mirzənin oğulları arasında da rəqabət və həsadət baş qaldırmışdı. Bu da Abbas Mirzəyə öz qardaşlarını xatırladır və rahatsızlığına səbəb

---

[*] Bu ifadə tərcümə edilməmişdir. Əsərin orijinal şəklində "yarım Abbas" olaraq getməkdədir.

olurdu. Savaş sıralarında Abbas Mirzə tərəfindən Naib-ül Səltənə (canişin) kimi nəzərdə tutulan Məhəmməd Mirzə ilə öz üstün zəkası ilə fərqlənən Cahangir Mirzə arasında yaxın qardaşlıq münasibətləri yaranmışdı. Bu iki qardaş Ərdəbil qalasının təslim edilməməsi üçün bərabər və bir yerdə çalışmışdılar. Abbas Mirzə düşünürdü ki, sadəcə, yaşca böyük olmaq canişin olmaq üçün yetərli deyil. Atanın ədalət haqqında bu hissi isə Məhəmməd Mirzəni rahatsız etməkdə idi. Məhəmməd Mirzə açıq şəkildə rahatsızlığını dilə gətirməsə də, lakin Abbas Mirzə onun davranışlarından və arxadakı giley-güzarından xəbərdar idi. Hər bir şahzadənin ətrafında öz tərəfdarları toplanmışdı. Hər kəsin tərəfdarı olduqları şahzadələrin üstün məziyyətlərindən danışırdı.

Digər tərəfdən, başqa şahzadələr də öz davranışlarında sərbəst kimi görünürdülər. Yenicə Kirmanşahın elbayı olmuş Məhəmmədəli Mirzə Dövlətşahinin oğlu Məhəmmədhüseyn Mirzə öz çevrəsinin təsirinə qapılaraq Xuzistan və Loristanı da öz yönətiminə tabe etmiş, bu iki əyalətdə elbay olan şahzadələri öz yanına almışdı. Son savaşda başarısızlıq göstərdiyindən təhqir olan Şeyx-ül Məluk da şahzadələr cərgəsində idi. Şahzadələr arasında savaşlar olur və şəhərlər mühasirə edilirdi. Məsələn, Məhərrəm ayının yas mərasimi sıralarında Bürucerd hücuma məruz qaldı. Fətəli Şah, Məhəmməd Hüseyn Mirzənin hərəkətlərini Xuzistanda və Loristanda durdura bilərdi. Lakin nə onun hərəkətini tənqid etdi, nə də onu pisləyəcək bir hərəkətdə bulundu. Əslində Şah öz övladları və nəvələri arasında bu şəkildə qarşıdurmalardan xoşlanırdı. Şah, şahzədələrin bir-birlərini öldürməyəcək səviyyədə olan savaşlarına xoşgörü ilə baxırdı. Şahzadələrin əyalətlər uğrunda savaşmaları səbəb olurdu ki, onlar Fətəli Şahın təkəlində olan şahlığa və iqtidara göz dikməsinlər. Şah öz sarayına şahzadələrdən oluşan bir qvardiya təşkil etmək istəyirdi. Bu vəsilə ilə Şaha daha yaxın olub və gələcəkdə böyük paylar almaq üçün şahzadələr arasında çox ciddi rəqabətlər başlamışdı.

Rusiyanın işğalına məruz qalmayan əyalətlər də artıq şahzadələrin savaşları üzündən çox zor duruma düşmüşdü. Şaha ard-arda şikayətlər gəlirdi. Digər tərəfdən, şahzadələr arasında gedən bu savaşlar Şahın xarici ölkələrdəki imajını zədələməkdə idi. Ölkə genəlinə egəmən ola bilməyən bir şah kimi anlaşılmaqda idi. Xarici ölkələr, bu şəkildə davam edərsə Qacar imperatorluğunun parçalanacağını və müxtəlif dövlətlərə dönüşəcəyini ön görürdülər. Bu üzdən də Şah önləm almaq zorunda qaldı. Ən yaxşı sərdarlarından biri olan Qulamhüseyn Xan Sipəhdarı öz ordusu ilə bərabər düzən sağlamaq və şahzadələrə qulaqburması vermək üçün savaş bölgəsinə göndərdi. Abbas Mirzədən istənildi ki, qardaşları arasında hakimlik etsin. Böyüklük göstərib, onların ixtilaflarını həll etsin. Xəstə durumda olan və Azərbaycandan ayrılmaq istəməyən Abbas Mirzə qardaşı oğlu Şeyx-ül Məluku öz vəkili kimi şahzadələr arasında arabuluculuq etmək amacı ilə görəvləndirdi.

Şiraz əyaləti iki qardaş; Hüseynəli Mirzə ilə Həsənəli Mirzənin kontrolunda idi. Bu iki qardaş çox var-dövlət toplamış və yavaş-yavaş mərkəzə qarşı çıxmağa başlamışdılar. Mərkəzə ödəmələri gərəkən vergini bütün ixtarlara rəğmən ödəmirdilər. Şah bunları yerində oturtmaq üçün öz ordusu ilə Şiraza səfər etmək istədi. 1829-cu ilin yayında Şah öz ailə üzvləri və ordusu ilə Şiraza yollandı. Heç bir şavaş olmadan Hüseynəli Mirzə və Həsənəli Mirzə Şahın istiqbalına gəlib, vəfadarlıqlarını ortaya qoydular. Onların, Qacar imperatorluğunun Şahına qarşı savaş elan edəcək gücləri, cəsarətləri yox idi. Şah, Şiraz problemini həll etdikdən sonra Həmədanda ailəsi ilə bir yerdə dincəlməyi düşündü. Lakin Xuzistanın isti çöllərindən keçərkən Şahın qadınları çox rahatsızlanmışdılar. Şah, Həmədanda yerləşdikdən sonra Abbas Mirzəyə bir məktub yazıb onun da Həmədana gəlməsini istədi. Abbas Mirzə oğlu Xosrov Mirzə ilə bir yerdə Həmədana getdi. Xosrov Mirzə, Rusiya imperatoru ilə görüşünün nəticələrini Şaha söyləyəcəkdi. "Yeni tarix"in yazarı Cahangir Mirzə, ayrıntılarını söyləmədən Şahın Abbas Mirzə və Xosrov Mirzə ilə çox yüksək səviyyədə davrandığını yazır. Abbas Mirzənin gəlişi münasibəti ilə şənliklər edilmiş və böyük bir qarşılama törəni gerçəkləşmişdir.

***

Abbas Mirzə Azərbaycandakı öz işlərini təqib etmək üçün Təbrizə döndü. O, özəl həyatında əskisindən də daha artıq qənaət edirdi. Bacısı qızlarının cehizlərini özü təmin etdi. Abbas Mirzə ömrünün sonlarında gəlininə, canişinlik üçün nəzərdə tutduğu oğlunun eşinə yazdığı bir məktubda ailə məfhumuna nə qədər önəm verdiyini xatırlayır.

Abbas Mirzənin eşi və vəliəhdin anası, ərinin xəstəliyindən sui-istifadə edərək öz iqtidarını gündən-günə artırdı. O, Hacı Ələsgər Xanın suçlarının ifşa olunub cəzalanmasını əngəlləyə bilmişdi. Xatırladaq ki, Hacı Ələsgər Xan, Ehsan Xanın Abbasabadın hakimi təyin olunmasında Şahzadənin eşi ilə bir yerdə plan hazırlamışdılar. Ehsan Xanın isə Abbasabad savaşında ihanət etdiyini keçən səhifələrdə oxuduq. Ehsan Xan, Abbas Mirzənin bütün planlarını ruslara vermişdi. Bu savaşda Abbas Mirzə az qala əsir düşməkdə idi. Ölümündən sonra özündən 46 övlad buraxan Abbas Mirzənin özəl həyatı haqqında bilinən ancaq bu qədərdir. Bu 46 övladın çoxu Şahzadə öldüyündə çocuq yaşlarındaydılar.

Xorasandan gələn xəbərlər Abbas Mirzəni üzməyə başlamışdı. Çünkü o bölgənin xanlarının dövlətə qarşı başqaldırılarını kimsə durdura bilməmişdi. Digər tərəfdən Mərkəzi Asiya, İngiltərə ilə Rusiyanın çıxarlarının toqquşduğu məkana dönüşmüşdü. Abbas Mirzə bu bölgədə savaşmağı və Qacariyyə dövlətinin sınırlarını böyütmək istəsə də, ancaq Azərbaycandan ayrılmasını heç təsəvvür edə bilmirdi. Get-gedə sümük vərəmi onu daha da zəiflətməkdə idi. Qarabağın dağlarında at belində savaşlarda olan Abbas Mirzə üçün bu qədər xəstəlik və həkimlərin kontrolunda olmaq çox üzücü idi. Bu arada Abbas Mirzə özəl həkimi olan ingilis doktor Karməklə öz dostluğunu 1833-cü ilə qədər davam etdirdi. Bu ildə onların ikisi də vəfat edəcəklərdi. Abbas Mirzə öz həkiminə güvənir, inanırdı.

Həkimi ona demişdi ki, hələlik ciddi təhlükə yoxdur, ancaq ayaqlarınız şişməyə başladığında təhlükə ciddiləşəcəkdir.

Abbas Mirzənin təhsil üçün Avropaya göndərdiyi bir çox öyrəncilər dərslərini bitirib, fərqli sahələrdə ixtisas alıb geri dönmüşdülər. Mirzə Baba bunlardan birisi idi. Mirzə Baba Avropada tibb oxumuşdu. İndi isə doktor Karməkin yardımçılığını etməkdə idi. Abbas Mirzənin özəl bərbəri olan Hacı Baba da Abbas Mirzənin ilaclarının zamanında istifadəsi üçün yardımçı olurdu. Abbas Mirzənin yazdığı məktublarından bəlli olur ki, o, ölümünü hiss etdikcə, Laçın Xan və onun ailəsi haqda daha çox əndişələnməyə başlayırmış. Abbas Mirzə düşünürdü ki, Şahın antipatisinə tuş olan Laçın Xan onun ölümündən sonra necə yaşayacaqdır. Həm də ona qarşı geniş çaplı düşmənliklərin olduğundan da xəbərdar idi. Abbas Mirzənin vəziri Qaimməqam, Laçın Xanın ən böyük rəqiblərindən biri idi. Abbas Mirzə məktublarında yazırdı: “Laçın Xanın şəxsiyyəti və fədakarlığı haqqında yazmaq istərkən qələm əlimdən düşür.”[53] Abbas Mirzənin məktublarından başqa bir məsələ də bəlli olmaqdadır. Tam o illərdə Rusiya, Laçın Xanın izini bulmuşdur. Rusiya, Gürcüstanın soyluları ilə daha yaxın münasibət saxlamaq və mal varlıqlarını özlərinə geri qaytarmaq siyasətini izləməyə başlamışdı. Bu üzdən də Rusiya Laçın Xana geri döndüyü təqdirdə var-dövlətinə sahib olacağı haqda təklifdə bulunmuşdu. Lakin Şahzadənin məktublarından bəlli olur ki, Laçın Xan Rusiyanın bu istəyini rədd etmişdir.

***

1830-cu ilin payızında vəba xəstəliyi Təbrizi sarıb sökməkdə idi. Bütün çalışmalar durdurulmuş, ölüm sağdan-soldan, hər tərəfdən can almaqda idi. Bu bəlanı durdurmaq üçün o zaman heç bir imkan da yox idi. Sadəcə, bu xəstəliyə yaxalanmamanın bir yolu var idi, o da xəstəliyin mərkəzi olan Təbrizi tərk edib başqa yerlərdə yerləşmək. Əllərində imkan olan bütün insanlar şəhəri tərk edib, Savalan və Səhənd dağlarının ətəklərində məskunlaşdılar. Abbas Mirzə ailə üzvlərini sağlıqlı köşklərindən birində yerləşdirdi. Özü isə Təbrizin bir neçə ağaclığında yerləşən Bağ-i Səfa mülkünə daşındı.

Yayın son küləkləri vəba xəstəliyinin buxarlarını silib süpürüb apardıqdan sonra Şahzadə ordusunu Ucanda düzənli hala gətirməyə çalışdı. Şahzadə boşalmış xəzinəsini doldurmaq üçün vəziri Qaimməqamla məşvərət etdi. Hiyləgər vəzir Qaimməqamın təklifi xəzinəni doldurmaq üçün uyğun plan idi. Lakin bu plan Şahzadənin dürüst insan xarakteri ilə çəlişməkdə idi, təzad təşkil etməkdə idi. Dünyada dürüstkarlığı ilə tanınan Abbas Mirzə bu planı qəbul edə bilməzdi. 30 il boyunca Azərbaycana hakim olan Şahzadə heç bir vəzifəni paraya satmaq istəmir, para qarşılığı kimisə hansısa vəzifəyə gətirmək istəməmiş, hətta bu tür siyasətə qarşı da sərt çıxmışdı. İndi isə onun vəziri Qaimməqam ona xəzinənin

[53] Əhvalat və dəst xəthaye Abbas Mirzə.

doldurulması üçün vəzifələrin və valiliklərin satışını önərməkdə idi. Qaimməqam təklif edirdi ki, bütün şəhərlərin hakimləri işlərindən alınsın və bu vəzifələr satışa buraxılsın. Hər kəs daha çox para versə şəhərin hakimliyi ona verilsin. Qaimməqam gerçək bir siyasətçi idi. Bu şəkildə işlərin öhdəsindən rahatca gələ bilər, büdcədəki boşluğu doldura bilərdilər. Ancaq onun uyğuladığı siyasət bir çox hallarda Şahzadənin səliqəsi və doğruluq xarakteri ilə uyuşmamaqda idi. Baxmayaraq ki, bir çox yazarlar və araşdırmaçılar Abbas Mirzənin vəzirinə olan etimadından, güvənindən söhbət etməkdədirlər, lakin Şahzadənin bir neçə məktubu isbat edir ki, o, Qaimməqamdan razı deyilmiş. Bəzən də ona çox qızırmış. Cahangir Mirzə açıq şəkildə öz başına gələn müsibətlərdən dolayı Qaimməqamı suçlamaqdadır. Ancaq Abbas Mirzə onun bəzi xidmətlərini və idarəçilikdə olan təcrübələrini nəzərə alaraq onu tamamən də uzaqlaşdırmaq istəməmişdi.

Abbas Mirzənin Təbrizdə olmadığı bir zamanda Təbrizi ziyarət edən bir yabançı Qaimməqam haqqında çox gülünc bir imaj yaratmaqdadır. Bu yabançının yazdığını olduğu kimi gətirəlim:

“Bu adamı (Qaimməqamı) çox zinəti olmayan böyük bir evdə təsəvvür edəlim. Bu ev daima gediş-gəlişlərə səhnə olmaqdadır. Çünkü o, bütün səxavəti ilə mehmannəvazlıq etməkdədir. Ondan öncə onun atası da bu şəkildə davranmışdı. Hədsiz dərəcədə yaraşıqsız geyinən bu vəzir çox uzun boyludur. Həddindən artıq yemək yeyir, özəlliklə inanılmaz dərəcədə yemiş (qovun) yeyir. Nizam-intizamsız dağılmış olan kağızlar ətrafını sarmışdı. Bu intizamsızlıq içində bəzi işlər görürdü. Bir gün önəmli bir kağızı axtarmağa başladı və tapa bilmədi. Katiblərindən birini müttəhim etdi ki, onu sən itirmişsən. Ancaq bir neçə saatdan sonra o kağızı öz cibindən tapdı. Sürətlə oxuma yetənəyi çox yüksəkdir. Kağızı gözlərinin önündə tutur və bir neçə saniyəyə onu oxuyur.” Zahirən çox şişirdilmiş bir tip kimi görünsə də, bu şəxs ancaq Qaimməqam ola bilər. Söylənənlərə görə o olmasa imiş, Abbas Mirzə ödəyəcəyi borcların qaynaqlarını tapa bilməyəcəkmiş.

Ucan qərargahında yay fəslinin son günləri keçməkdə idi. Bu günlərdə Şahzadəyə elə bilgilər gəldi ki, bu xəbərlər onun həyatının istiqamətini dəyişdirəcəkdi. Yəzd şəhərinin hakimi olan Abbas Mirzənin qardaşı Zill-ül Sultan ona bir məktub göndərərək yazmışdı ki, bu şəhər və Kirman artıq imperatorluğun bir parçası kimi deyildir. Gerçəkdən imperatorluqdan bağımsız şəkildə davranmaqdadır. 1828-ci il hadisəsindən sonra iqtidarını artırmış olan Həsənəli Mirzə yerli xanlıqlarla, özəlliklə Rzaquluxan adlı bir şəxslə birləşərək Yəzdi mühasirəyə almış və işğal etmişdi. Zill-ül Sultan məktubunda yazırdı ki, “...onların bu özbaşınalığını yalnız inzibatlı Azərbaycan ordusu durdura bilər.” Ancaq Azərbaycan ordusunun bu iğtişaşı durdura bilməsi və onlarla savaşa girməsi üçün Fətəli Şahın onayı (təsdiqi) gərəkirdi. Şah, Azərbaycan ordusuna başqa əyalətlərdə əməliyyat izni verməkdən çəkinirdi. Çünkü bu əməliyyatda Azərbaycan ordusunun qalib gəlməsi Abbas Mirzəni sadəcə, Azərbaycanda deyil, bütün imperatorluqda sevilən bir sərkərdəyə dönüşdürəcəkdi. Şah da belə olmasını istəmirdi. Lakin başqa

çarəsi də yox idi. Ya bu bölgələrin imperatorluqdan ayrılışına izn verməli, ya da Azərbaycan ordusuna Azərbaycanın sınırları dışında əməliyyat keçirməyə müsaidə etməli idi. Əslində Abbas Mirzə özü də bu əməliyyata qatılmaq istəmirdi. Çünkü başqa bir əyalətin savaş xərcini Azərbaycana yükləmək istəmirdi. Çünkü Şahzadə bilirdi ki, Azərbaycan ordusu bu əməliyyata qatılsa, mərkəzdən ona heç bir maddi yardım gəlməyəcəkdir. Ruslara ödənilən borclar Azərbaycana yükləndiyindən dolayı artıq Azərbaycanın nəfəsi kəsilmək üzrə idi. Azərbaycan ordusunun toparlanıb, toplanıb və geniş hərbi manevrlər etməsi üçün uyğun mərkəzlər bulunmamaqda idi. Bir çox yerlər ruslar tərəfindən təxrib edilmişdi. Ən sonda Ərdəbil bu iş üçün seçildi. Çünkü Ərdəbil ruslara təslim edilən ən son qala olmuşdur. Bu üzdən də orada böyük təxribat yapılmamışdı. Çünkü Ərdəbil anlaşma ilə ruslara təhvil verilmişdi. Bu şəhərin modern imkanlarla təchiz edilmiş qalası və savunma sistemi olduğu kimi durmaqda idi.

İlk hərbi birimlər Məhəmməd Mirzənin komutanlığında hərəkətə başladı. Toplar, 2.000 süvari və 4.000 piyadə Məhəmməd Mirzənin əmrində idi. Qısa bir sürədən sonra Abbas Mirzə özü də təqribən bir o qədər ordu ilə hərəkət etdi. Bu səfərdə Təhmasib Mirzə, Xosrov Mirzə və Abbas Mirzənin qardaşı oğlu Şeyx-ül Məluk Abbas Mirzəyə eşlik etməkdə idilər. Bu sıralarda Abbas Mirzənin oğullarından biri əmrində olduğu ordusu ilə Kürdistanda əməliyyata başlamış və Qacariyyənin iqtidarını orada tətbiq etməyə çalışmışdı. Azərbaycan ordusu Azərbaycan sınırlarını tərk etdikdən sonra Azərbaycan bir xərabəzarlıq kimi görünməyə başlamışdı. Azərbaycan təqribən 30 il müddətində öz canı, varı və dövləti ilə oluşdurduğu ordusunu geri dönməmək üzrə yola salırdı.

Sonralar Abbas Mirzə övladlarına yazdığı məktublarda Azərbaycandan uzaqda qalmanın onu nə qədər üzdüyünü yazırdı. O, məktublarında Azərbaycanı xatirələrinin yuvası kimi anımsayır.

Abbas Mirzənin Yəzdə doğru hərəkət etdiyi zaman bu şəhəri quraqlıq çökərtməkdə idi. Həsənəli Mirzə Azərbaycan ordusunun yaxınlaşdığını duyduğunda dərhal Yəzdi tərk edib Kirmanda yerləşməyi düşündü. Çünkü Kirmanın savunma sistemi və qalaları Yəzdlə müqayisədə daha möhkəm və güvənilir idi. Həsənəli Mirzə hesab edirdi ki, Kirmanda Abbas Mirzə ilə qarşı-qarşıya gələ bilər. Abbas Mirzə Yəzdə yetişdiyində bir qurtarıcı sifəti ilə gəlməsinə rəğmən ciddi bir istiqballa qarşılanmadı. Çünkü şəhər aclıq və səfalət içində məhv olmaqda idi. Bu şəhər bir ordunun ehtiyaclarını necə sağlaya bilərdi? Bu üzdən Abbas Mirzə iki gündən artıq orada qalmadı. Təkrar ordusunu Kirmana doğru hərəkətə keçirdi. Lakin heç tələsmirdi, çünkü yağı olmuş qardaşına fikirləşmək üçün fürsət tanımaq istəyirdi. Abbas Mirzə sülh yolu ilə Kirmana girmək istəyirdi. Yağı olmuş qardaşına çaparlar aracı ilə məktublar göndərib və təslim olmasını dövlətə qarşı baş qaldırmasından vaz keçməsini dilədi.[54] Kirman əhalisinin

[54] Cahangir Mirzə "Tarixe no".

bəlləyində (yaddaşında) qorxunc bir xatirə yaşayırdı. Kirman 1790-cı ildə Zəndiyyənin son qalası durumundaydı. Bu ildə Ağaməhəmməd Xan Qacar Kirmanı fəth etmək üçün ordusunu səfərbər etmişdi. Şəhər əhalisi Lütf Əli Xan Zəndi savunduqları üçün Ağaməhəmməd Xan Qacar Kirmanı aldıqdan sonra şəhər sakinlərinin çoxunu öldürmüşdü. Bu üzdən də şəhər əhalisinin xatirəsində hələ də canlı olan bu hadisə onları Həsənəli Mirzənin yanında olmamağa sövq edirdi. Bu arada Abbas Mirzənin Kirman əhalisinə göndərdiyi mesajlar da şəhərin bazarlarında ağızdan-ağıza dolaşırdı ki: "Yalnız dövlətə baş qaldıranları təqib edəcəyik və əhali ilə işimiz yoxdur. Yəzddəki durumu gördük və çox rahatsız olduq. Kirmanın da Yəzd kimi aclıq səviyyəsinə düşməsini istəmirik. Azərbaycan ordusu burada qalmağa gəlməməkdədir. Kirmanda əmin-amanlığı bərqərar etdikdən həmən sonra Azərbaycana dönəcəyik. Ordunun xərcini Kirman əhalisinə yükləmək kimi niyyətimiz yoxdur."

Böyük ehtimalla Kirmanda hələ açıq şəkildə Həsənəli Mirzəyə qatılmayan saxlunun önəmli şəxsiyyətləri bazar əhli ilə gizlin münasibət qurub və Abbas Mirzənin göndərdiyi mesaja olumlu cavab vermələrini istəmişlər. Lakin Həsənəli Mirzə dirənmək fikrində idi. Xüsusən Abbas Mirzənin nifrətini içlərində daşıyan bir çox adamlar da ona savaşmağı təlqin edirdi.

Bu arada Kirmana xəbər gəldi ki, Azərbaycan ordusu Kirmanın bir ağaclığındadır. Bu xəbər gəldikdən sonra üsyankar şahzadənin rəftarı dəyişilməyə başladı. Sanki bir şəbəh onun ruhunu işğal etmişdi. Bir çox təzadlı əmrlər verir və sanki əmrlərinin keçərliliyi olmadığını sezmişdi. Əcəba onun əski xatirələrimi baş qaldırmağa başlamışdı? Çocuqluqdan bəri Abbas Mirzənin bütün alanlarda ondan üstün olduğunu bilirdi. Abbas Mirzənin barış elçiləri qala divarlarının arxasında "təslim olun!" çağrışları ilə bağırırdılar. Bu arada Həsənəli Mirzənin müttəfiqləri inanılmaz bir hadisəyə şahid oldular. Dirənmək üçün fərman verməsi yerinə Həsənəli Mirzə, Abbas Mirzəni qarşılamaq və istiqbalına varmaq üçün hazırlığa başlamışdı.

Azərbaycan ordusu qalanın kənarlarında yerləşmişdi. Abbas Mirzə qardaşının təslim olub və onun qarşısına gəlməyə hazır olduğunu duyduğunda əmr verdi ki, onunla bir şahzadə kimi davranılsın. Sonra da onu öz çadırına dəvət etdi. Onlar çadırda artıq yaxın əqrəba kimi söhbətləşirdilər. Abbas Mirzə iki il öncə onu vəliəhdlikdən almaq istəyən qardaşına qarşı çox ədəblə davrandı. Onu bir qrup süvari ilə Tehrana göndərdi. Fətəli Şah əmr verdi ki, onu kontrol altında bir evdə saxlasınlar. Lakin bu onun üçün böyük bir cəza sayılmırdı. Bu arada Abbas Mirzədən intiqam almaq amacı ilə Həsənəli Mirzəyə qatılan bir çox xanlar Kirman qalasını tərk edib və dirənmək üçün öz qalalarına pənah apardılar.

Bahar yaxınlaşmaqda idi. Azərbaycan ordusu geri dönməyə hazırlaşırdı. Azərbaycan ordusuna mənsub olan hər kəs Şahzadənin özü kimi təkrar Azərbaycana dönmələrindən dolayı sevinirdilər. Lakin bilmirdilər ki, tale onlar üçün başqa bir macəra hazırlamaqdadır.

Şahzadələrin boğuşmalarının bitməsindən arxayın olan Fətəli Şah, Novruz bayramını daha rahat və təmtəraqla keçirmək istəyirdi. İsfahan bağları bahar fəslini Tehran bağlarından daha tez qarşılayır. Bu üzdən də Şah öz hərəmsərası ilə bir yerdə Novruzu İsfahanda keçirmək fikrində idi. Bu səfərdə diqqəti cəlb edən və gələnəklərə uyğun olmayan bir hadisə baş verdi. Şah, sadəcə, öz ordusuna güvənmədi, Ərak və Mazəndəran orduları da bu səfərdə Şaha eşlik etdilər.

Əyləncə mahiyyətli səfərin bu qədər geniş önləmlərlə yapılması hər kəsin ağlında soru işarəti oluşdurmaqda idi. Çünkü Şah, öncəki səfərlərində bu qədər önləm almamış, sadəcə, özünün özəl qoruyucu ordusuna kifayət etmişdi. Abbas Mirzənin düşmənləri yenə də Şahı etkiləməyi başarmışdılar. Şaha dolayısı ilə anlatmışdılar ki, bütün Şahzadələr bir-birləri ilə çəkişərək çökmüşlər, baxmayaraq ki, o çəkişmələrin Şaha ziyanından daha çox faydası var idi. Meydanda qalan və güclü olan ancaq Abbas Mirzədir. Abbas Mirzə sadəcə, yenilikçi zehniyyəti ilə Padşaha qarşı təhlükə ünsürü deyildir, həm də ölkədə inzibatına və disiplininə görə birinci yerdə duran ordusu ilə də təhdid amilidir. Azərbaycan ordusunu Şaha qarşı yönləndirib və iqtidarı bütünü ilə ələ keçirə bilər, deyə ard-arda imalar və işarələrdə bulunulurdu. Bu imaları Şah önəmsəmiş və mühafizə gücünü gücləndirməyə başlamışdı. Abbas Mirzənin düşmənləri Türkmənçay müqaviləsindən sonra onun və ordusunun bir daha yüksəlməmək üzrə çökəcəyini sanmışdılar. Lakin Abbas Mirzə təkrar ayaqda idi. Azərbaycanın birinci və Qacariyyənin ikinci şəxsi kimi qədd ələm eləmişdi. Bu da din xadimləri başda olmaq üzrə bütün əski qafalı kəsimi rahatsız etməkdə idi.

Abbas Mirzə Kirmandan İsfahana doğru irəlilərkən Padşah da dərin bir əndişə və şübhə içində bu şəhərə doğru irəliləməkdə idi. Nadir Şahın oğlunun başına gətirdiyi fəlakət o zaman hələ unudulmamışdı. Nadir Şah öz oğlundan şübhələnərək onun gözlərini kor etmiş və bununla da etdiyi bütün işlərini də varissiz buraxmış, xanədanın da gələcəyini uğursuzluğa və aqibətsizliyə gömmüşdü. Nadir Şahın oğlunu kor etmə macərasından o zaman təqribən yüz il keçməsinə rəğmən iqtidar münasibətlərində kurallar dəyişməmişdi. Hər kəs bu şəkildə bir hadisənin ola biləcəyini sanırdı. Özəlliklə Abbas Mirzənin yenilikçi dünya görüşünə qarşı olan din xadimləri və mənsəb sahibləri belə bir hadisənin oluşması üçün gecə-gündüz fitnələr törədir, planlar hazırlayırdılar. Fətəli Şahın ağlına şübhə dolmuşdu, bu şübhənin dəf olma yolunu axtarırdı. Uzun düşüncədən sonra Fətəli Şah Abbas Mirzədən qurtarma yolunu tapmışdı. Ona və müşavirlərinə görə Abbas Mirzənin təkrar Azərbaycana dönüşü əngəllənməli idi. Çünkü Abbas Mirzə yalnız Azərbaycanda güclüdür. Yalnız Azərbaycanda daha da güclənib və təhdid ünsürü olma təhlükəsini davam etdirə bilərdi. Şah düşündü ki, bütün əyalətlərdə artıq sabitlik bərqərardır. Sadəcə, Xorasanda iğtişaş vardır. Bu üzdən də Abbas Mirzəni bu iğtişaşı yatırtmaq üçün görəvləndirmək istədi. Bu işi ilə bir güllə ilə iki hədəf vururdu. Həm Abbas Mirzənin ordusunun zəifləməsini sağlayır, həm də Xorasandakı iğtişaşlardan qurtarmış olurdu. Hər kəs bilirdi ki, Azərbaycandan

uzaqda qalan Abbas Mirzə ölü kimi bir varlığa dönüşəcək. Çünkü Xorasanda nə yenilikçi reformlarına davam edə bilərdi, nə də Xorasan əhalisi Azərbaycan xalqı qədər ona sahib çıxardı.

***

Səfəvilər ehtişamından boşalmış İsfahan, Fətəli Şahın gəlişi ilə təkrar bir ünə qovuşmaqda idi. Bütün yaxın əyalətlərin elbay (vali) şahzadələri öz hədiyyə sürüləri, naxırları ilə İsfahana gəlmiş və Şaha olan sədaqətlərini, vəfadarlıqlarını sərgiləyirdilər. Abbas Mirzə, Kirman hökumətini oğlu Xosrov Mirzəyə tapşırdı. Bir neçə xanı ətrafına alıb hələ də Kirmanın güvənliyini təhdid edən Rzaquluxanı təqib edib, yaxalamaq üçün isə ordunun böyük bir bölümünü oğlunun əmrinə buraxıb İsfahana yola düşdü. Abbas Mirzə sadəcə, kiçik bir ordu və yüngül topxanası ilə İsfahana gəldi. Şah, Abbas Mirzənin bu kiçik ordusunun paradını izlədi. Ard-arda savaşlara qatılan və xüsusən böyük məğlubiyyətdən sonra təkrar özünü bu şəkildə toparlayan Azərbaycan ordusunu və onun komandanını alqışladı. Padşah, Abbas Mirzəni Xorasan məmuriyyətinə göndərəcəyindən dolayı bir anlıq üçün də olsa içindəki şübhəni bir yana almış və Şahzadəni övməyə başlamışdı. Şahzadə bilmirdi ki, bu övgünün arxasında Azərbaycandan əbədi olaraq ayrılma planı yatmaqdadır. Abbas Mirzə atasının Xorasan əməliyyatına "yox" deyə bilməmişdi. Xorasan ismən Qacariyyəyə aid idi, əslində isə mərkəzə bir o qədər də tabe deyildi. Məşhəddə Şahın kiçik oğullarından biri olan Əhmədəli Mirzə hakim olaraq görəv başında idi. Lakin onun heç bir idarəçilik qabiliyyəti yox idi. Ancaq Mirzə Musa adında bir qələm əhli onun yardımçısı idi. Xorasan kimi kaos içində çağlayıb duran bir məmləkəti Əhmədəli Mirzənin yönətə biləcəyi sanılmırdı. Bu üzdən də Şah, öncə İrəvanın əski hakimi yaşlı Hüseyn Xan Sərdarı Əhmədəli Mirzəyə yardımçı olaraq göndərmək istədi. Artıq yüz yaşını doldurmuş olan Sərdar Hüseyn Xan bu işə razı oldu. Lakin tam atlanıb yola düşərkən əcəl onu yaxaladı. Hüseyn Xan, Xorasana səfər öncəsində dünyasını dəyişdi.

Şah, Xorasanda istiqrarın bərqərar olunması üçün Abbas Mirzəni görəvləndirdi. Abbas Mirzə heç sormadı ki, nədən bu görəv ona verilir. Çünkü sadəcə, bu sorunun sorulması ilə Şahın şübhələrinin tüğyan edib və Abbas Mirzəni sərt şəkildə cəzalandıracağı bəlli idi.

Bir neçə gündən sonra Şah hər kəsi, özəlliklə Abbas Mirzəni də heyrətləndirəcək bir nitq etdi. Fətəli Şah, zərrin paltarlar içində, başında parlayan tacı ilə şəhərin törən mərkəzində bütün dövlət ərkanının hazır bulunduğu bir zamanda yüksək səslə Abbas Mirzənin üstün cəhətlərini övgü ilə xatırladı və davam etdi ki, artıq bu gündən sonra Şahzadə sadəcə, Azərbaycanın elbayı (hakimi) deyildir, Xorasanın da elbaylığı Abbas Mirzəyə verilir. Abbas Mirzə həm Azərbaycanın, həm də Xorasanın valisidir. Abbas Mirzənin böyük oğlu Məhəmməd Mirzəni də övdü. Ona bir şeylər verməsə də gələcəkdə arzularına çatmasını diləyib və zamanında vəliəhd olmasını arzu etdi.

O gün bir çox insanın ürəyi nifrətdən az qala partlamaqda idi. Əcəba, illər boyu islahatçı Şahzadəyə qarşı planlar çizən din xadimlərinin və bəzi dövlət adamlarının işlərinin nəticəsi bumu olmalı idi? Şahzadə zəifləmək yerinə daha da güclənmişdi. Ancaq bu güclənmə ödülü ilə də Azərbaycandan daimi olaraq uzaqlaşacaqdı. Padşah isə böyük bir qürur və inancla Abbas Mirzə vasitəsi ilə İmperatorluğun sınırlarının Ceyhun və Seyhuna qədər genişlənəcəyindən söhbət edirdi.

Abbas Mirzə, İsfahanı Xorasana doğru tərk etmədən öncə Azərbaycan ordusunun Xorasana intiqalı üçün bütün işləri gördü. Eləcə də Kirmanın idarəsi üçün təkrar yeni tapşırıqlar verdi. Şah, Şeyx-ül Məluku Kirmanın yönətimi üçün təyin etmişdi. Qaragözlü xanlarının fərmanı altında olan Həmədan alayları Şeyx-ül Məlukun əmrinə verilirdi. Qaragözlü xanları Qacarlara sadiq olmalarını bir neçə kərə isbatlamışdı.

Ancaq Kirmanda hökumət edən Xosrov Mirzəyə daha çətin görəv verilmişdi. Xosrov Mirzə, Yusif Xan Topçu ilə bir yerdə Azərbaycan ordusunun böyük bir hissəsini topları ilə bir yerdə Kirman və Xorasan arasında yerləşən qumsal çöllükdən keçirib Xorasana sövq etməli idilər.

## XORASAN OLAYLARINA GİRİŞ

Buxara və Xeyvə əmirləri Çingiz Xan imperatorluğunun kiçik qalıqları olan özbək toplumuna hökm etməkdəydilər. Onlar türkmən xanlıqları ilə sıx irtibatdaydılar. Türkmən xanlıqlarının Xorasandakı Qacarlara qarşı dirənişlərini dəstəkləyirdilər.

Səfəvi şahları və sonra da Nadir Şah bir çox kürd sərkərdələrini ailələri və qəbilələri ilə bir yerdə Xorasana yerləşdirmişdilər. Bu şəkildə bir sınır qvardiyası oluşdurmağı düşünmüşdülər. Türkmənlər isə kürdlərin buraya yerləşməsinə başdan bəri qarşı çıxmış və onları öz düşmənləri kimi görürdülər. Bu coğrafiyada yerləşdirilən kürdlər isə özlərini özbək və türkmən qarşısında qorumaq zorunda qalmışdılar. Mərkəzi iqtidarların da himayəsini arxasına alan kürd silahlı dəstələri özbək-türkmən təhlükəsini önləmək üçün bir arac kimi kullanılmaqda idi.

Lakin kürdlər artıq dörd nəsl idi burada yaşamaqda idilər, yerli əhalinin dəyərlərinə zamanla uyum sağlamışdılar. Bəzən də öz mənafelərini yerli əhali ilə birləşməkdə görürdülər.

Xatırlatmaq gərəkir ki, Türküstanın uzantısı olan Xorasanın savaşçı qəbilələri bəzən bir liderin ətrafında birləşib və cahangüşalığa, fütuhata başlayıb qısa ömürlü imperatorluqlar qururdular. Dehli padşahlığı bunlardan birisidir.

XVII əsrdə Səfəvi şahları bu qəbilələrin dağınıqlığından yararlanıb hakimiyyətlərini o ərazilərə qədər götürməyi başarmışdı. Ancaq sonralar İsfahan mərkəzli Səfəvi iqtidarı çökdüyündə, bu bölgələrin xanları üsyana qalxmış və Səfəvi mirası nə varsa, hamısını yerlə yeksan etmişdilər.

Nadir Şah iqtidara gəldikdən sonra onları öz dağlarına tərəf geri püskürtdü. Lakin bu ərazilərin insanlarının savaş qabiliyyətinə bələd olduğu üçün bir çoxunu öz ordusunda yerləşdirdi. 1747-ci ildə Nadir Şahın öldürülüşündən sonra Abdaliyan qəbiləsindən olan Nadir Şahın Əhməd Xan Dəvərani adında bir sərdarı varislik iddiasında bulundu. Bu da ona Xorasanın işlərinə müdaxilə haqqı verirdi. Əhməd Xan Dəvərani heyrətamiz işlər görməyə başladı. Dehliyə təkrar hücum etdi. Qısa sürədə böyük bir imperatorluq qurmağı başardı. Onun imperatorluğu Herat, Bəlx, Qəndhar, Keşmir, Lahur, Multan, Pişavər, Kabil, Bəlucistan və bütün Xorasandan ibarət idi. Onun imperatorluğu varisləri tərəfindən parçalandı. Ancaq Əhməd Xan soyundan olan şahzadələr öz iddialarını sürdürməkdə idilər. Qacarlar bəzən bu şahzadələri bir-birinə qarşı qoyub, hər iki tərəfin savaşaraq çökmələrini sağlayırdı. Artıq Abdaliyan sərkeş, üsyankar rəiyyətlər kimi bir sosial status almış durumdaydılar. Herat və Qəndhar isə Qacar dövlətinə vergi ödəyən bağımsız əmirliklər şəklindəydilər.

Xorasan xanlarının üsyanlarını yatırmaq amacı ilə bu bölgəyə gələn Abbas Mirzənin başqa planları da var idi. O, Qacariyyə dövlətinin sınırlarını Ceyhuna tərəf genişlətmək fikrindəydi. Xorasan üsyanlarını yatırmaq üçün öncə Heratı ələ keçirməyi düşündü. Lakin Abbas Mirzəni rahatsız edən ciddi bir hadisə var idi: İngiltərə məsələsi. Abbas Mirzə bilirdi ki, Hindistanda bu qədər güclənmiş olan İngiltərə gec-tez Türküstana doğru açılmağa başlayacaqdır. Qarşısında belə bir güclü dövləti görməsi onun xəyallarını alt-üst edirdi.

Herat o zaman bağımsız bir əmirnişin idi. Buraya Kamiran Mirzə hökm etməkdə idi. Abbas Mirzə öncə Heratı almağı ağlına qoymuşdu.

Abbas Mirzənin Xorasana gəlişi ingilisləri çox rahatsız etməyə başlamışdı. Mərkəzi Asiyada Rusiya ilə İngiltərənin çıxarılarının qarşı-qarşıya gəldiyi bir dönəmdə Azərbaycan ordusunun Xorasana gəlməsi İngiltərəni əndişələndirməyə başlamışdı. İngilislər düşünürdülər ki, Abbas Mirzə ruslarla gizlin anlaşaraq Xorasana gəlmişdir. Rusiyanın Abbas Mirzəyə hərbi yardımından ehtiyat edirdilər.

## XORASAN OLAYLARI

Peyğəmbər soyundan olduğu söylənilən Məsumə xanımın məzarı bir sürü ziyarətçini şor suları ilə məşhur olan Qum şəhərinə sövq etmişdi. Bir çox dövlət adamları məzarlarının burada olmasını arzu edirdi, Məsumənin məzarının yanında! Sanki bu dünyada etdikləri zülm və sitəmləri Məsumənin aracılığı ilə o dünyada hesablarından sildirə biləcəklərmiş kimi bir xurafi inanc mövcud idi. Qısa bir sürədən sonra həyata göz yumacaq olan Fətəli Şah da Məsumənin məzarının yanında axirət dünyası üçün yer ayırmışdı. Bu üzdən özünün də məzarının burada olacağını düşünən Şah bu məkanın onarımına çox əhəmiyyət verməkdə idi.

Abbas Mirzə öz ordusu ilə bir yerdə bu məkandan keçməkdə idi. İstəyənlərə gedib Məsumənin məzarını ziyarət etmələri üçün izn verdi. Ordu Xorasana doğru

hərəkətinə davam etməkdə idi. Damğanda Azərbaycandan gələn çaparlar Abbas Mirzənin yolunu gözləməkdə idilər. Ordu Damğana çatarkən Azərbaycan əyalətinin elbayı təyin edilən Feridun Mirzənin məktubunu Abbas Mirzəyə verdilər. Feridun Mirzə, Abbas Mirzənin oğlu idi. O, Kirmana yollanarkən oğlunu Təbrizin hakimi olaraq təyin etmişdi. Abbas Mirzə Təbrizdə olub bitənlərdən xəbərdar oldu. Feridun Mirzə atasına Laçın Xanın yazdığı bir diləkçəni də göndərmişdi. Abbas Mirzə Laçın Xanın bu diləkçəsinə bir sonrakı düşərgədə, yəni Şahrudda cavab yazacaqdı. Abbas Mirzənin bu məktubunu olduğu kimi gətiririk:[55]

"Laçın Xan, Sizin diləkçəniz Feridun Mirzə tərəfindən Damğanda mənə çatdırıldı. Sağlığınızın yerində olması məni çox sevindirdi. Rəcəb ayında Xorasana gəlmənizi istəmişsiniz. Bu istəyiniz gerçəkdən də mənim hədsiz sevincimə səbəb oldu. Umarım ki, bütün işlərinizi yerbəyer edib və üç ayın içində Xorasanda olursunuz. Əmin-əd Dövlə cənablarına yazacağam ki, Tehrana gəldiyinizdə Sizi qarşılasın və dərhal izn alıb Xorasana gətirsin. Oğlum Feridun Mirzəyə də yazmışam ki, bütün səfər ehtiyaclarınızı və bütün istəkləriniz, nə varsa yerinə yetirsin. Siz də çəkinməyin və Təbrizdə nə ehtiyacınız olursa Feridun Mirzəyə söyləyin. Sənin Tiyul[*]un haqqında da Feridun Mirzəyə yazmışam. Onlar sənin mülkündür, necə istəyirsən elə də düzənlə. Bu, artıq sənin biləcəyin işdir. İstəsəniz Tehrandakı Məhəmməd Mirzə[*]nin Tiyuluna da baş çəkib və istədiklərinizi əldə edə bilərsiniz. Məhəmməd Mirzə Mehranabaddakı tiyulunu çox gözəl vəziyyətə gətiribdir. Yaxşı imarətlər tikmiş və tikməkdədir. Tanrı izn verərsə, özünüz yaxından görəcəksiniz. Mənim sağlığımla ilgili sorular sormuşsunuz. Tanrı Sizdən razı olsun. Siz Azərbaycana çox xidmətlər etmişsiniz. Bu haqda nə qədər də yazsam azdır. Sizin xidmətləriniz haqda öz övladım Məhəmməd Mirzəyə yazmışam. Bu arada Sizin bacınız oğlu Zal Bəyə Tehrandan xələt göndərməyi unutmuşam. Bu səbəbdən də öz əynimdəki arxalığımı göndərirəm. Ona verməniz rica edirəm. Sizin övladınız və bacınız oğlu mənim də övladlarım kimi sayılırlar. Zal Bəyi öz atasının adı Zəki Xan adı ilə çağırsanız, daha yaxşıdır. Xorasana çatdığımda təkrar məktub yazacağam.

## NAİB-ÜS SƏLTƏNƏ ABBAS QACAR VƏLİƏHD- ŞAHRUD[56]

Bu məktubun ləhni Abbas Mirzəni yaxşı bir ailə başçısı kimi göstərməkdədir. Məsələn, Azərbaycan ordusuna əməyi keçən insanları tiyulla ödülləndirməsi diqqəti cəlb etməkdədir. Şahzadənin duyğusal və qəlbi həyatı da

---

[55] Bu məktubun orijinalı Tehranın "Səltənət kitabxanası"nda saxlanılmaqdadır.

[*]Tiyul, Padşah tərəfindən bəzi insanlara verilən mülk idi. Bu mülkdə o şəxsin mal davarı, atları da yerləşirdi (G.C).

[*]Laçın Xanın 3-cü oğlu.

[56]Məktubun farsca mətni "Əhvalat və dəst xəthaye Abbas Mirzə" kitabından alınmışdır.

burada sərgilənməkdədir. Bu məktubda Şahzadə haqlı insanları çox incə yöntəmlə dəyərləndirməyi bacaran bir sərkərdə kimi sezilməkdədir. Abbas Mirzənin bu insancıl davranışları sonralar hətta onun rəqibləri tərəfindən də övgü ilə anımsanacaqdır.

***

Abbas Mirzənin Azərbaycan ordusu ilə Xorasana gəlmə xəbəri sürətlə yayılmışdı. Qış səssizliyinə dalmış türkmən çadırlarında artıq bu haqda söhbət edilirdi. Azərbaycan ordusunun Xorasana yaxınlaşması həyəcan yaratmağa başlamışdı. Adətən qış fəslində bu bölgələrdə islaq və ürəkbulandırıcı qoxusu olan keçə alaçıqların içində insanlar bahar fəslində edəcəkləri işlər və savaşlar haqda danışardılar. Türkmənlərdə savaşa qatılmaq üçün məcburiyyət yox idi. Sadəcə, bir kişi alaçığının önünə savaşa hazırlıq anlamını daşıyan bir kiçik bayrağı taxdığında o alaçığın ətrafını könüllü savaşçılar alırdı. Savaşmaq üçün məcburiyət söz konusu olmasa da o coğrafiyanın özəlliyi insanları savaşmağa zorlamaqda idi. Türküstan coğrafiyası kaos və savaş coğrafiyası kimi təsbit edilmişdir. Savaşsız mümkün deyildi. Türküstan coğrafiyasının özəlliyi budur. Burada uzun sürəli bir sərmayənin və zənginliyin oluşması mümkün olmamışdır. Çünkü bir yerdə bir az zənginlik birikdiyi zaman başqa güclü və fürsəti yaxşı dəyərləndirən qəbilə tərəfindən talan edilmişdir. Bu hadisə tarix boyu bir təsəlsül şəklində davam etmişdir. Bu üzdən də bu bölgədə soylu bir aristokrasi oluşmamışdır. Bir qəbilə və ya bir sülalə iqtidara gəldiyində özündən bir öncəki nailiyyətlərin kökünü kəsirdi. Rişəsini qurudurdu ki, təhdid ünsürləri ortadan qaldırılsın. Bu çəkişmə və kaos davam edə-edə gəlmişdir. Çadırnişin türkmənlər üçün, özəlliklə onların savaş araclları olan atların yemini təmin etmək çox önəmli məsələ idi. Azərbaycan ordusu yaxınlaşdıqca onlar bütün problemlərini göz önündə bulundurmağa başlamışdılar. Artıq yüksək səslə danışanların səsləri səssizliyə bürünmüşdü.

Daima Şahzadənin adı dillərdə dolaşırdı. Azərbaycandan bu qədər uzaq olan bu coğrafiyada Abbas Mirzənin məğlubiyyətləri haqqında heç bilgiləri yox idi. Ancaq onun ordusunun topları və ağır silahları ilə ilgili çox söz-söhbət gəzirdi. Vur-qaç savaşının mütəxəssisi olan türkmənlərin qorxusu ağır silahlardan, xüsusən toplardan idi. Çünkü vurduqlarından sonra artıq qaçışa imkan qalmırdı. Savaş texnolojisi gəlişdikcə vur-qaç savaşçılarının da fütuhat istedadları tarixə gömülüb qalırdı. Artıq, sürətlə qaçan atlarla, qıyqacı ox atmaqlarla tarix yaratmaq qeyri-mümkün hala gəlməkdə idi. Uzun mənzilli toplarla on minlərcə süvari sürüsünü uzaqdan atışla darmadağın etmək mümkün idi.

Şahzadə haqqında bəzi mitolojik söyləntilər də ortalıqda dolaşmaqda idi. Bəziləri deyirdilər ki, Şahzadə kürd xanlarına bənzəməz. Onu gedib öz sarayında ziyarət etmək çətin məsələdir. Sadəcə, təslim olmaqla bu işin olması mümkündür. Həm də onu altun-filanla aldatmaq da çətin məsələdir. Daş kimi bir qəlbi var.

Türkmən kəndləri aclıq və səfalət içində qıvrılıb durmaqda idi. Bəzi türkmən xanları Bocnurd, Dərgəz, Qoçan və Sərəxs kimi türkmən şəhərlərinə

casuslar göndərib bu şəhərlərin hakimlərinin və əhalisinin Abbas Mirzəyə olan tutumunu öyrənməyə çalışırdılar. Məşhəd şəhərinin icra işlərindən sorumlu və Əhmədəli Mirzənin vəziri olan Mirzə Musa türkmənlərlə gizlin-gizlin irtibat qurmağa başlamışdı. Türkmən xanları bütün türkmənləri öz yanlarında bulundura bilmələri üçün məzhəb fərqliliyini də sıx-sıx gündəmə gətirirdilər. Şiə Azərbaycan ordusunun gəlib sünni Türkmənistana hökm edəcəyinin mümkün olmayacağını təbliğ edirdilər. Digər tərəfdən, Əhmədəli Mirzənin Abbas Mirzəyə qarşı həsədini, nifrət və kinini də körükləməyə başlamışdılar. Əhmədəli Mirzə başından bəri Abbas Mirzəni sevməməkdə idi. Xorasan xanları onun bu duyğusundan yararlanmağa çalışırdılar. Əhmədəli Mirzə də özünü xanların dəstəyi ilə gücləndirib və Azərbaycan ordusuna qarşı çıxmaq istəyirdi. Bir çapar həyəcanlı bir şəkildə xəbər gətirdi ki, Azərbaycan ordusu Şahrudu tərk etmiş və Bəstama yaxınlaşmaqdadır. Bu qasidin tutub dilini kəsdilər ki, niyə belə bəd xəbərlər gətirirsən!

***

Abbas Mirzəyə qarşı bir plan oluşdurmaq amacı ilə şahzadə Əhmədəli Mirzə, Mirzə Musa, Rzaquluxan, Qoçan elxanı və bütün kürd sərkərdələrinin qatılımı ilə bir şura düzənləndi. Digər önəmsiz xanlar isə bu şuradan çıxacaq ortaq qərara təslim olacaqlarını bildirdilər. Şurada təklif olundu ki, Məşhədin darvazaları Azərbaycan ordusuna qarşı qapansın və kəsinliklə açılmasın. Məşhəd əhalisinə də təbliğ edilsin ki, Azərbaycan ordusunun mənsubları uzun müddətdir daima savaşlara qatıldıqları üçün vəhşiləşmişlər. Azərbaycan ordusu Məşhədə girsə, İmam Rzanın məzarındakı xəzinəni də talan edib aparacaqdır. Onlar düşünürdülər ki, qış boyunca Abbas Mirzənin Məşhədə girişini əngəlləyə bilsələr, Şahzadə ordusunun ehtiyaclarını bu soyuq havalarda təmin edə bilməyəcək və Azərbaycan ordusunun düzəni ehtiyac üzündən dağılacaqdır. Baharda isə Abbas Mirzə ordusunu toparlayana qədər ona hücum etmək mümkün olacaqdı.

Bu şurada qərara alındı ki, Abbas Mirzənin Məşhədə yaxınlaşmasına izn verilsin. El-el xanlardan Abbas Mirzəyə itaətə hazır olduqları haqda məktublar gəlirdi. Lakin Abbas Mirzə öz ehtiyatını əldən vermədən dərin-dərin düşünür və bölgədən gələn, casusları vasitəsi ilə gətirilən xəbərləri yaxşı-yaxşı dəyərləndirirdi. Bu şurada toplanan insanlar Şahzadənin illər boyu sürən savaşlarda birikdirdiyi təcrübəni nəzərə almadıqları üçün yanlış hesab yapırdılar. Bu planlar Abbas Mirzə üçün çocuq oyuncağı kimi bir şey idi. Abbas Mirzə ona ard-arda gələn bu məktubların arxasındakı təhdid planlarını dərhal sezə bilmişdi. Abbas Mirzənin Məşhədin yaxınlığında bir kürd qalasını amansızca məğlub etmə xəbəri Məşhədə gəldiyində bu şuradakı  ittifaq öz-özünə çözülməyə başladı. Artıq birlikdən deyil, hər ağızdan bir səs çıxmağa başlamışdı. Xanlar başlarına çarə qılmaq üçün öz qalalarına geri döndülər. Çevrələrinin boşalmasını görən Əhmədəli Mirzə və onun vəziri Abbas Mirzəyə olan sonsuz nifrətlərinə rəğmən ona qarşı gəlməməyi düşündülər. Abbas Mirzəni qarşılamaq üçün göstəri hazırlıqlarının başlanmasına

əmr verildi. Lakin üzlərində qorxu əlaməti açıqca görünməkdə idi. Azərbaycan ordusuna qarşı düzənlədikləri şura haqqında Abbas Mirzə bilgi əldə etdikdən sonra onlarla necə davranacağından əndişələnirdilər. Bu şura haqqında Abbas Mirzə ayrıntılı şəkildə bilgi sahibi olmasına baxmayaraq özünü elə aparırdı ki, sanki heç bir şey bilməməkdədir. Bu önəmsiz qardaşı ilə mehribanca davrandı. Kirman valisi Həsənəli Mirzə kimi Məşhəd valisi Əhmədəli Mirzəni də Tehrana göndərdi.

Abbas Mirzə, Səbzvara hərəkəti zamanı oğlu Məhəmməd Mirzə də yardımçı alayı ilə atasına qatıldı. Qış çox ağır keçməkdə idi. Şahzadə xəbərdar oldu ki, yenicə tərk etdiyi Sultan meydan şəhərinin yaxınlığında kiçik bir kənd vardır. Güclü qalaları və savunması olan bu kənddə Rzaquluxan, kürd elxanları barınmaqda idi. Çöllükdə yapılmış olan bu qala uzaqdan görünürdü. Abbas Mirzə, müxtəlif tayfalardan savaşçı kimi kürd elxanlarına və Rzaquluxana qatılan birliklərin pusquda olmasından ehtiyat edirdi. Abbas Mirzə əmr verdi ki, möhkəm mıxlanmış darvazanı döyüb və Şah adına təslim olma ixtarı versinlər. Şahzadə hələ xuşunətə, zora əl atmamışdı. Təslim çağırısına cavab gəlmədiyi üçün Azərbaycan ordusuna atəş əmri verildi. Bu qalanı ələ keçirmək neçə gün zaman alacaqdı. Palçıq qalanın divarlarını top mərmiləri söküb yerlə bir edirdi. Durumu bu şəkildə görən Rzaquluxan Şahzadəyə bir çapar göndərib onun pis qarşılanmasının günahkarı saxludakı yetkililər olmuşdur deyə öz günahlarının bağışlanmasını istəmişdi. Lakin Rzaquluxanın bu hiyləsi də baş tutmadı. Qalaya hücüm daha da şiddətləndi. Qala təslim alındıqdan sonra Abbas Mirzə qalaya zorla gətirilmiş silahlı qrupları cəzalandırmadan azad buraxdı. Onlar öz evlərinə döndülər.

Abbas Mirzə təhdid ünsürlərini bir-bir dəf etdikdən sonra özü ilə bərabər gətirdiyi on minlərcə insanın ehtiyaclarını təmin etmək haqqında düşünməyə başladı. Xorasanı ağır qış şərtləri öz istilasında bulundurmaqda idi. Ordusunun ehtiyaclarını Məşhəd, Nişabur və Səbzvar arasında paylaşdırdı. Bahardakı yeni əməliyyatlara daha güclü ordu lazım idi. Oğlu Təhmasibi Azərbaycandan hərbi birliklər gətirmək üçün Təbrizə göndərdi.

İstiqrar öncə zorluqla sağlanıldı. Xosrov Mirzənin başçılıq etdiyi ordudan və Yusif Xanın əmrində olan ağır topxanadan xəbər yox idi. Bunlar Kirmanı tərk etdikdən sonra qumsal çöllüyə varmışdılar, bu üzdən ağır bir səfər çətinlikləri ilə qarşı qarşıyaydılar. Su qıtlığı qumsal çöllüyün bütün güvənliyini təhdid edirdi. Hər ehtimala görə onların qumsal küləklər və ya başqa səbəblər üzündən yollarını azması böyük fəlakətə səbəb ola bilərdi. Belə bir hadisə bütün ordudan əl üzmək anlamında idi. Bütün ordu susuzluqdan qumsallığın içində məhv ola bilərdi.

Ancaq Məşhədə xəbər gəldi ki, Xosrov Mirzə öz ordusu ilə qumsal çöllərdən uzaqlaşmış və insan yaşayan yerlərə yaxınlaşmışdır. Təbəs vahələri Xosrov Mirzəni yaxşı qarşılamışdı. O bölgənin kiçik xanları hətta Xosrov Mirzəyə qatılıb, öz hörmətlərini Abbas Mirzəyə bildirmək üçün Xorasana yola düşmüşdülər. Ancaq Təbəsin yaxınlığında olan və möhkəm qalaları ilə səciyyələnən Tərşiz şəhəri düşmənlik etməyə başladı. Bu şəhərin mühasirəsi və

alınması iki ay sürdü. Ən sonda bu nahiyənin Məhəmməd Xan Qərai adında bir xanının Xosrov Mirzə ilə iş birliyi nəticəsində şəhər zəbt edildi. Məhəmməd Xan Qərai özü istiqlaldan yana idi. Ancaq bəlli səbəblər üzündən 1832-ci ildə Azərbaycan ordusuna yardım etmək zorunda qalmışdı. O kiçik şəhərdə 10.000 xəlvər buğda ehtikar edilmişdi. Xosrov Mirzə bu buğdanı öz əsgərləri arasında paylamaq yerinə bazarda satışa buraxıb gəlirini orduya xərclədi. Bu qədər buğdanın satışa buraxılması Tərşiz əhalisini sevindirmişdi. Çünkü o soyuq qış günlərində ehtikar üzündən şəhərdə aclıq hiss edilməyə başlamışdı.

***

Bahar gəlmiş və Məşhədin, Nişaburun bağları meyvə ilə dolmuşdu. Abbas Mirzə yeni savaşlar üçün hazırlıq görməyə başlamışdı. Abbas Mirzəyə qarşı çıxan xanların heç birinin qalaları Əmirabad qalası qədər möhkəm və savunma açısından mükəmməl deyildi. Əmirabad Məşhəd və Qoçan arasında yerləşməkdə idi. Rzaquluxan Azərbaycan qalalarından təsirlənərək bu qalanın savunma sistemini oluşdurmaq üçün səkkiz il zaman sərf etmişdi. Bu baharda Abbas Mirzənin ilk hədəfi bu qalanı almaq idi. Bu qalada Yusif Xan adında bir tatar hökm sürməkdə idi. Onun yaxşı saxlusu var idi. Bu saxlunun nəfərləri müxtəlif qəbilələrdən təşkil edilmişdi. Yusif Xanın əmrində bir neçə top da var idi.

Şahzadənin bəklədiyi yardımçı alaylardan az bir qismi gəlib çatdı. Ancaq Rzaquluxan Abbas Mirzənin intizamlı ordusunun üstünlüyündən xəbərsiz deyildi. Bu üzdən də riskə girib Azərbaycan ordusu ilə üz-üzə savaşa girmədi. Qoçana sığınıb və orada savaş hazırlıqları yapmağa başladı. Rzaquluxan bir az da Əmirabadın dirənəcəyinə ümid bağlamışdı. Qalanın mühasirəsi onun çevrəsində xəndək qazmaqla başladı. Xəndək qazmaq, yəni mühasirənin ciddi şəkildə başlanması anlamında idi. Abbas Mirzə, Xosrov Mirzənin və topçu Yusif Xanın yetərincə irəli getdiklərini görüb hücumu ertələdi. Onlara əmr verdi ki, mühasirə edilənlərlə danışmaq mümkün olan bir yerdə qərarlaşıb onlara təslim olma çağırısında bulunsunlar. Bütün çağırılar geri çevrildi. Təslim olmağa yaxınlaşmadılar. Abbas Mirzə qalanın atəşə tutulmasına əmr verdi. Qarşı tərəfdən də top atəşi ilə cavab verildi. Hər iki tərəf ağır itki verməyə başladı. Azərbaycan ordusunun içində qəzəb bağırtıları get-gedə artırdı. Çünkü qazılan xəndəklərdə bir çox azərbaycanlı öldürüldü. Bu üzdən Azərbaycan ordusu daha da intiqamçı bir rəftarla savaşmağa başlamışdı. Cahangir Mirzə yazır ki, Əmirabad divarlarının xəndəklərində bir neçə yabançı mütəxəssis öldü. Abbas Mirzənin Laçın Xana yazdığı bir məktubda da bu haqda məlumat verilməkdədir. Bu yabançılar kimlər olmuşlar? Fərari ruslarmı olmuş əcəba? Bu yabançılar haqqında övücü bir şeylər yazmaq istərdik, lakin onların kimlikləri haqqında heç bir bilgi və qaynaq yoxdur. Həm Abbas Mirzə, həm də Cahangir Mirzə bu savaşda yabançıların öldüklərini yazmışlar. Ancaq onların kimlikləri haqqında heç bir ipucu buraxmamışlar.

Abbas Mirzə mühasirə edilənlərin dirənişlərini təqdir etsə də bu dirənişin qısa sürədən sonra qırılacağına tam əmin idi. Ağır topların qalaya atəş açmalarına

əmr verildi. Top mərmiləri qalanın divarlarını yıxıb aşırırdı. Divarlar elə dağılmışdı ki, artıq mühasirə olunanlar gözlə görünürdü. Onlar daşı daşın üstünə qoyub səngər düzəltməyə çalışırdılar. Təkrar top atışları qalanı toz-torpağa bürüdü. Qalanın içində saxlanılan barıt anbarına mərmi isabət etmişdi və partlayışın səsi hər kəsi dəli etməkdə idi. Artıq Azərbaycan ordusunun qalanın divarlarından dırmaşaraq içəri girməyə ehtiyac qalmamışdı. Böyük-böyük dəliklər açılmışdı. Bu dəliklərdən içəri keçmək çox rahat idi. Dirənişin qırılmasına az zaman qalmış topxananın rəisi Yusif Xan bir düşmən gülləsi ilə öldü. Abbas Mirzənin çox yaxın dostu Laçın Xanın oğlu Yusif Xanın ölümü Şahzadəni çox etkilədi. Yusif xanın ölümü ilə də Abbas Mirzə öz vicdanında özünü Laçın Xana daha çox borclu sanırdı. Lakin necə olursa-olsun bu qalanı ələ keçirmək zorundaydı. Yusif Xanın məqamını alay komutanı olan Qasım Xana verdi və ona əmr etdi ki, qalaya hücum edən Bəhram Mirzəyə kömək etsin. Azərbaycan ordusu hücumun son aşamasına başlamışdı. Hər tərəfdə hücum təbili çalınırdı. Bayraqdarlar Azərbaycan ordusunun bayraqlarını qalanın müxtəlif yerlərində yüksəltmişdilər. Azərbaycan ordusu viranə qalmış və tüstülənən qalaya tam daxil olmuşdu. Abbas Mirzə bir tərəfdən qalanın içindəki ailələrin, var-dövlətlərinin əsgərləri tərəfindən yağmalanmasını istəmir, digər tərəfdən də bu qədər savaşdan sonra yağmalama istəyində olan əsgərlərini haqlı sayırdı. Bu üzdən iyirmi min tümən əsgərlərinə ödül ayıraraq şəhərin yağmalanmasını əngəllədi. Bu savaşla ilgili Şahzadənin Laçın Xana yazdığı bir məktubdan parçalar gətiririk:

“...Laçın Xan, Sizin yeriniz boş idi. Oğlunuz Yusif Xan böyük qəhrəmanlıqlar göstərdi. Bütün Azərbaycan ordusunun üzünü ağ etdi. Bu qəhrəmanlıq Sizin soyunuza xas olan bir şey. Tanrı izn verərsə, Heratın fəthində Siz özünüz də iştirak edərsiniz.”[57] Sonra məktubunu Laçın Xana aid işlərlə davam edir və bu ibarələrlə bitirir: “Mənim boynumda olan Sizin haqqınızı ödəyə bilmək üçün Tanrı mənə ömür versin və yardımçım olsun.”[58]

Abbas Mirzə Azərbaycan ordusunu xərabə qalmış və tüstülənən qalanın yaxınlığında yerləşdirdı. Bu arada Məhəmməd Mirzə öz alayı ilə atasına qovuşdu. Məhəmməd Mirzəyə özəl bir görəv tapşırıldığı üçün qalanın mühasirəsinə qatılamamışdı. Abbas Mirzə tam bu savaşa qərar verdiyi zaman xəbər gəldi ki, Xeyvənin əmiri Allahqulu Törə, bütünü ilə türkmənlərin yaşadığı Sərəxs şəhərinin yaxınlıqlarına varmış və Sərəxsin türkmən hakimi Salur Xanla gizlin irtibata keçmişdir. Türkmənlərin Sərəxsdə bir kölə bazarı var idi. Bu bazarda müxtəlif yerlərdən yağmalanmış var-dövlətlər də satılırdı.

Sərəxs və digər şəhərlərin hakimi ilə özbək əmirinin gizlin irtibatları var idi. Abbas Mirzə düşündü ki, Əmirabad savaşında məğlub olarsa arxadan da Allahqulu

[57] Eyni qaynaq.
[58] Eyni qaynaq.

Törə, Azərbaycan ordusuna hücum edəcəkdir. Bu üzdən oğlu Məhəmməd Mirzəni Sərəxsdə özündən ayırdı. Məhəmməd Mirzə Sərəxsin ətrafında yerləşib və heç bir təhrikedici hərəkətdə bulunmadan özbəklərin üzərindən diqqətini ayırmadı. Əmirabadın Azərbaycan ordusu tərəfindən alınma xəbəri gəldikdən sonra Xeyvə əmiri Məhəmməd Mirzəyə ədəbli və möhtərəmanə bir məktub yazıb göndərdi. Sonra da öz ordusu ilə bir yerdə Xeyvəyə yola düşdü.

***

Abbas Mirzə öz işini hələ tam bitirməmişdi. Əmirabadın 10 ağaclığında yerləşən Qoçanı da ələ keçirmək zorunda idi. Qoçan üsyankar kürd xanlarının mərkəzi idi. Rzaquluxanın isə get-gedə rahatsızlığı artırdı. Düşünürdü ki, niyə gözləməlidir ki, Abbas Mirzə gəlib onu yuvasında bassın. Xorasan bölgəsində Azərbaycan ordusu bütün ordulardan üstün durumda idi. Abbas Mirzə isə bütün iradəsi ilə üsyankar şəhərləri təslim etməkdə qərarlı idi. Rzaquluxan düşünürdü ki, Abbas Mirzə də başqaları kimi hədiyyələr qarşısında əfv etməsini bilər, sadəcə, hədiyyələrin dəyərini artırmaq lazımdır.

El xanı Rzaquluxanın elçiləri bir neçə kərə Şahzadənin qərargahına gəlib və çeşidli şəkildə təkliflərini təqdim etdilər. Azərbaycan ordusu Qoçana tərəf hərəkətə başlarkən bu elçilərin sayı çoxalmağa başlamışdı. Abbas Mirzə bütün hallarda yalnız qeydsiz-şərtsiz təslim olmağı önərirdi. Ancaq Qoçana tərəf yürüş etməyə də tələsmirdi. Çünkü Əmirabad savaşı Azərbaycan ordusunda bəzi boşluqlar oluşdurmuşdu. Bu üzdən də Şahzadə, fərari ruslardan oluşan alayın və Azərbaycanda Təhmasib Mirzənin əmrində olan Mazəndəran alayının yardıma gəlməsini bəkləyirdi.

Qoçan saxlusunda 12.000 nəfər bulunmaqda idi. Bu saxlunun tərkibi bəluçlardan, bocnurdlulardan, zəfəranlılardan və çinaranlulardan oluşmaqda idi. Ancaq el xanının təbii müttəfiqləri olan türkmənlərin sayı hamısından çox idi.

Mühasirə başlamışdı. Saxlunun nəfərləri qalanın dəliklərindən mühasirənin tamamlanması üçün edilən işləri görə bilirdilər. Qısa bir sürədən sonra ağır topların atışları gecə vaxtı başladı. El xanının cəsarəti Xeyvə əmirinin ordusunu geri çəkməsi ilə sönməyə başlamışdı. Atış gücləndikcə Rzaquluxanın qorxusu artırdı. Təkrar Şahzadəyə elçi göndərib və daha çox hədiyyələr vədində bulundu. Şahzadənin cavabı isə əskisi kimi idi: Tam təslimiyyət. Rzaquluxan durumu belə gördüyündə təslim olmaqdan başqa çarənin olmadığını düşündü. Təslim olmaq üçün şəxsən özü Abbas Mirzənin hüzuruna gedib və təslimiyyətini elan etməli idi. Abbas Mirzənin vəziri Qaimməqamın ən kiçik oğlu Rzaquluxanı gətirmək üçün getdi. Təslim olmağı ölüm kimi dəyərləndirən Rzaquluxan əyninə bir kəfən geydi. Əlinə bir sıyrılmış qılınc alıb Şahzadənin hüzurunda qarnını söküb özünü öldürməyi düşünmüşdü. Abbas Mirzə daima belə düşünürdü ki, cəsarətli bir rəqib zərurət icabı təslim olarsa, onunla xoş davranmaq lazımdır. Bu üzdən də Rzaquluxan hərbi ehtiramla qəbul edildi. Abbas Mirzə onun cəzalandırılmasından vaz keçdi. Lakin sonradan Şah, Abbas Mirzənin bu şəxsi səliqəsinə uyğun

davranmadı. Rzaquluxanın bayrağı altında olan saxlunun sərkərdələri azad buraxıldılar.

Qoçanın bütün savunma sistemini söküb dağıtdılar. Lakin qalanın içi bir o qədər də zərər görmədi. Şahzadə qalanın içinə girib Rzaquluxanın qorxunc sarayına daxil oldu. Əmr verdi ki, hamamı isitsinlər. Günlər boyunca yuyunmamış Şahzadə buranın hamamında yuyundu. Sonra Rzaquluxanın böyük oğlunu qəbul etməyə razılıq verdi. Bu oğlan anası tərəfindən Abbas Mirzəyə bir neçə hədiyyə gətirmişdi. Bu hədiyyələrin rəmzi anlamı var idi.[59]

Bu əşirət yapılı toplumda başçıların ailəsi bir sülalə oluşdururdu. Bölgənin yaşamı və düzəni onların iradəsindən və nüfuzlarından asılı olurdu. Bu sülalə dağıldığında bölgəni kaos bürüyürdü. Bu səbəbdən Abbas Mirzə, Rzaquluxanın oğlu Sam Xanı onun yerinə hakim təyin etdi. Hakim təyin etdi ki, bu ailəyə olan sayqı və ya qorxu səbəbilə bölgədəki kaos önlənsin.[60] Lakin qalanı təkrar onarıb səngər halına dönüşdürməsini, böyük ordu oluşdurmasını ona yasaq etdi. Bununla da Sam Xan heç bir zaman atasının intiqamını almaq amacı ilə bölgədə özünə müttəfiq arama kimi bir duyğuya heç qapılmadı.

Bölgədə istiqrarın tam sağlanması amacı ilə Salur Xanın əmrində olan Sərəxs də bütünü ilə ələ keçirilməli idi. Bu türkmənlər dirək olaraq öz çıxarları uğrunda savaşmırdılar. Özlərinə bənzər tayfalar üçün silah təşkil edirdilər və qarşılığında isə kölə alırdılar. Onların Xeyvə əmiri ilə geniş ticari əlaqələrinin təməlində də bu durmaqda idi.

Sərəxsin mühasirəsinə başlamadan öncə bir neçə zəruri iş üçün Məşhədə getdi. Hələ Qoçanda ikən Herat hakimi Kamran Mirzənin oğlu Yarməhəmməd Xan Şahzadənin ziyarətinə gəldi. Bu qonaq da Xorasan xanlarını bir-bir məğlub edən Azərbaycan ordusunu yaxından görmək istəmişdi. Yarməhəmməd Xan nə qədər Abbas Mirzənin qarşısında hörmətlə davransa da, Abbas Mirzə Heratın da Qacar imperatorluğunun bir parçası olmasını qonağına söyləməkdən vaz keçmədi. Abbas Mirzə, boyük bir ədəb və nəzakətlə Yarməhəmməd Xanı qəbul etmişdi. Xosrov Mirzəni isə görəvləndirmişdi ki, onu yola salmaq üçün Məşhədə qədər yola salma törəninə eşlik etsin. Məşhəddə isə ən yaxşı bir evi onun qalması üçün nəzərdə tutdular. Ancaq Yarməhəmmədi qorumaqla görəvli olan gözətçilər Abbas Mirzənin həyatının sonuna qədər onu (Yarməhəmmədi) əsir kimi saxladılar.

O zaman bütün şəhərlərin mühasirəsi bir-birinə bənzəməkdə idi. Eyni yöntəmlə mühasirə edilən Sərəxs Abbas Mirzənin qələbəsi ilə sonuclandı. Şahzadə Qoçanda olduğu kimi türkmənlərin də istəklərini böyük bir qətiyyətlə rədd etdi. Onlara da təslim olmamaları təqdirdə savaşın qaçınılmaz olacağını söylədi. Bu savaşda Salur Xanın müxtəlif hiylələri üzündən şəhər təslim alındıqdan sonra

---

[59] Watson (Robert Qrant) “A History of Persia” London, 1866.

[60] Eyni qaynaq.

Abbas Mirzə əsgərlərinin yağmalama istəyinə müsbət cavab verdi. Bu şəhərdə illər boyu kölə alış-verişi sonucunda barınan altun və gümüşlərin Azərbaycan əsgərləri tərəfindən talan edilməsi başlandı. Başqa yerlərdə olduğu kimi Sərəxsin də savunma sistemi çökərtildi. Salurların cəsarəti basılmışdı və onların məğlubiyyəti Türküstanda böyük əks-səda oyatdı. Abbas Mirzə bu sınırın qorunması üçün ciddi önləmlər almağı düşündü. Ən yaxşı güvənlik önləmi bu idi ki, Qacar ərazisinə gələn karvanların Salur türkmənlər tərəfindən qorunacağını Xeyvə əmirinə qəbul etdirsin. Həm də Xeyvə əmiri ona tabe olan köçəri qəbilələrin Xorasana hücumlarını əngəlləməyi üzərinə götürməli idi.

Bu qələbənin mənəvi tərəfi var idi ki, Şahzadə öldükdən sonra hamısı yoxa çıxdı. Lakin Qacar dövlətinin etibarı qorunmuş və Şahzadənin Ceyhuna qədər uzanma istəyi gerçəkləşmişdi. Sərəxs macərası bitdikdən sonra Şahzadə Məşhədə geri döndü. Şahzadəyə xəbər gəldi ki, bir yabançı gəlmiş və Şahzadə ilə görüşmək istəyir. Şahzadə bu yabançının qarşılanması üçün gərəkən bütün işləri etdi. Ancaq yabançı ilə qarşılaşdığında heyrətdən nə edəcəyini bilmirdi. Qarşısında Təbriz dostu Mək Nil durmaqda idi. Şahzadə çox sevinmişdi. Sonra da uzun-uzun bir yerdə müzakirələrə və söhbətlərə başladılar. Şahzadə deyirdi: "Xatırlayırsanmı, sənə söyləmişdim ki, Doğudakı savaşlarımda mənə eşlik et? Siz mənim dəvətimi ciddiyə almamışdınız. Ancaq bir az gecikmə ilə gəlmişsiniz. Amma hər halda səni bir zamanlar xəyalımda təsəvvür etdiyim yerdə görməkdəyəm". Abbas Mirzə unutmamışdı ki, Tufarqanda ruslarla müzakirə zamanı ingilislər ona çox böyük yardım etmişdilər.

Rusiya ilə İngiltərənin Mərkəzi Asiya ilə ilgili olaraq yeni rəqabətləri başlamışdı. Mək Nil bu siyasət icabı Abbas Mirzə ilə görüşmək üçün görəvləndirilmişdi. Çünkü Abbas Mirzə ilə əskidən münasibətləri var idi. O, Xorasanda və Türküstanda İngiltərənin çıxarılarını təqib edəcək ən uyğun diplomat idi. İngiltərə, bölgəni tanımaq üçün önəmli yatırımlar yatırmağa başlamışdı. Mək Nildən başqa bir çox ingilis, türkmən milli paltarlarına bürünərək və ya din adamları şəklində bölgədə görəv yapmağa başlayacaqlardı. Xüsusən də türkməncəni, ərəbcəni və farscanı öz ana dilləri kimi öyrənib danışan ingilislər ən çox din adamları, din xadimləri və dərvişlər biçimində bölgədə dolaşmaqdaydılar. Çünkü dini otoritənin kütlənin mənəviyyatı və əxlaq sistemi üzərində olan egemenliyi daha yüksək səviyyədə idi. Bu vəsilə ilə ingilis dərvişlər həm bölgənin özəlliyini yaxşı tanıyır və mərkəzə bilgi verirdilər, həm də kütlənin dini ehtiyaclarını bərtərəf edirdilər. Beləliklə də bu dərvişlər kütlənin inanc nəbzini əllərində tutaraq istədikləri istiqamətə yönləndirə biləcəklərdi. Sonralar ingilis dərvişlərin bu çalışmaları nəticəsində İngiltərə, Mərkəzi Asiya ilə bağlı çox başarılı və tutarlı siyasət izləyəcəkdi. Bütün qəbilələrin özəlliklərini bilmək üçün ingilislər, hətta köçəri tayfaların içində belə illər boyu onlar kimi yaşayacaq və onlar kimi yaylağa, qışlağa köç edəcəkdilər.

Mək Nil Xorasanda və Türküstanda Abbas Mirzənin önəminə şahid olmaqda idi. Başqa bir rəsmi ingilis məmuru türkmənlərin və özbəklərin içində öz işi ilə məşğul idi. Bu məmur söylədiyində ki, Abbas Mirzə ruslarla savaşarkən məğlub olmuşdur, kimsə inanmırdı. Türkmənlər və özbəklər arasında "qorxunc Şahzadə" ifadəsi hörmət və ehtiram yaradırdı. Mək Nil, Abbas Mirzənin fikirlərini və xəyallarını o qədər öyrənmişdi ki, Şahzadənin də Send*də gözü olduğunu bilmişdi. Send isə İngiltərənin çox önəmsədiyi bir bölgə idi. Buraya nə Abbas Mirzəni, nə də Rusiyanı buraxmaq fikrində idi. Çünkü Sendin başqa güclər əlində olması Hindistandakı İngiltərə mənafeyini təhdid edə bilərdi. Send, İngiltərə üçün Hindistanla ilgili olaraq güvənlik sınırı sayılırdı. Bu səbəbdən də bu bölgənin qorunması ilə bağlı hər türlü tədbirləri almışdı. İngiltərə üçün bölgədə mərkəz tabeli güclərin olması bir təhdid ünsürü sayılırdı. Kiçik xanlıqların kiçik bölgələrdə yarım dövlət şəklində olması İngiltərə üçün daha əlverişli idi. Bu üzdən də Abbas Mirzənin bütün bölgəni bir mərkəzə tabeetmə istəyi İngiltərəni rahatsız etməkdə idi.

***

Qış fəsli bir daha əməliyyatları durdurmuşdu. Abbas Mirzəni müvəqqəti olaraq tərk edən xəstəlik təkrar baş qaldırmışdı. Qış günləri onun Tehrana səfər etməsi üçün uyğun deyildi. Baxmayaraq ki, Tehranda olub və Herata hücum konusunda Şahla məşvərət etmək, həm də 1832-ci ilin yay savaşlarıyla ilgili Şaha bilgi vermək istəyirdi. Şahzadə payızın əvvəllərində Azərbaycan ordusunun böyük bir qismini azad edib evlərinə göndərdi. Şahzadəyə görə, artıq onlar yorulmuşdular, evlərinə, Azərbaycana dönüb ailələrinin yanında yaşamaları gərəkirdi. Evlərinə dönənlərin çoxu Azərbaycanın kiçik məchul kəndlərindən idi. Bu gün Abbas Mirzənin xatirələri və hörməti Azərbaycanda hələ də yaşayırsa, bunun səbəbi də elə budur. Şahzadə Azərbaycanda bütün xalq təbəqələrinin tanıdığı bir şəxsiyyət idi. Onun ölümündən sonra isə bu geri dönən əsgərlər çocuqlarının adını Abbas Mirzə qoyacaq və Şahzadə ilə bağlı xatirələrini nağıllaşdırıb öz çocuqlarına və nəvələrinə danışacaqlardı. Baxmayaraq ki, Abbas Mirzə Xorasanda öldü ancaq onun mənəviyatına sahib çıxan, hətta yasını saxlayan Azərbaycan oldu. Azərbaycan xalqı onun adını öz nağıllarına, tarixi xatirələrinə yazdı. Abbas Mirzə öldükdən sonra Azərbaycanda yeni doğulan uşaqların adını "Abbas Mirzə" qoyurdular. Azərbaycan xalqı, onu kürdlərin talanından qurtaran, rusların zülmündən azad etməyə çalışan bir kişinin adını əbədiləşdirib hər gün ağzında tələffüz etmək üçün Abbas Mirzənin adını çocuqlarına verirdi, çocuqlarının Abbas Mirzə kimi Azərbaycana sahib çıxmalarını istəyirdi. Abbas Mirzənin ölüm xəbəri Azərbaycanda duyulduğunda Urmiyədə, Ərdəbildə, Zenganda, Muğanda, Xoyda, Gəncədə, Qarabağda, Şəkidə, Bakıda, Naxçıvanda və

*Send, indi Pakistanda yerləşməkdədir.

Azərbaycanın adları bilinməyən kəndlərində dünyaya gələn çocuqların adı “Abbas Mirzə” olaraq qoyuldu. Abbas Mirzəni zor və hiylə ilə Azərbaycandan ayırıb Xorasana göndərsələr də mənəvi baxımdan Azərbaycan ona sahib çıxdı. Çünkü Abbas Mirzə öz ruhu və mənəviyyatı ilə Azərbaycana bağlı idi. O, bunu Azərbaycanda xalqın daha rifah içində yaşaması üçün gerçəkləşdirdiyi islahatlarla isbatlamışdı. Abbas Mirzə, Azərbaycanı, ancaq və ancaq Azərbaycanı çağdaş dünyanın bir parçası etmək istəyirdi.

Şahzadə, gedənlərin yerini yeni və daha gənc olan birimlərlə doldurmağı qərarlaşdırmışdı. Baharda Xosrov Mirzə özü ilə bərabər yeni alaylar gətirəcəkdi. Şahzadə bilirdi ki, onun istəyinə Qarapapaq və Ayrımlı[*] tayfaları rədd cavabı verməzlər.

Qışın səssizliyinə batmış bu bölgələrdə yapılması gərəkən bir sürü işlər var idi. Bu ərazilər Nadir Şahdan sonra ilk kəz olaraq mərkəzi iqtidara tabe edilirdi. Lakin biri digərinin ardınca gələn məktublar Şahzadəni Azərbaycana bağlayırdı. Abbas Mirzə isə Azərbaycanda oğlu Feridun Mirzəni öz yerinə təyin etmişdi. O, bütün Azərbaycan xanlarını zorla özünə tabe edib və onlardan əkinçilərin, rəiyyətlərin haqlarını tanımalarını istəmişdi. Gələn məktublar isə xanların təkrar başqaldırılarından danışırdı. Abbas Mirzə əndişələnirdi ki, xanların başqaldırısı onun Azərbaycanda etdiyi bütün işləri alt-üst edər, Şahzadənin şöhrətinə zərər verər. Abbas Mirzə məktublarının birində yazır: “Vəliəhdin olduğu qədər Şahın düşməni yoxdur”[61] Abbas Mirzənin bu ləhni göstərir ki, Azərbaycanda durum heç də yaxşı deyilmiş və xanların baş qaldırıları təhdid halına dönüşmüş imiş. Abbas Mirzə, Feridun Mirzəyə yazır: “Umarım ki, səlamətsiniz. Orada işlərin öz məhvərində yürüməsi üçün gərəkən özəni göstərmənizi istəyirəm. Azərbaycan məmləkəti mənim evim və əhalisi isə öz övladımdır. Məni buraya bütün ölkə düzeyində istiqrar sağlansın deyə Azərbaycan xalqı görəvləndirib göndərmişdir. Ömür vəfa edərsə öz evim Azərbaycana dönəcəyəm. Gərəkən bütün şeyləri sənə söyləmişəm, təkrar təkid edirəm ki, Azərbaycanda istiqrarın qorunması üçün lazım olan təlaşları edin. Bunu da bilmiş olun ki, bütün Azərbaycan xalqının sizi sevməsi gərəkir...”.[62]

Abbas Mirzə yazdığı məktublarında qeyd edir ki, bu məktubları gecənin gec saatlarında yazmışdır. Məktublarda və fərmanlarda tarix yazılmamışdır. Bu səbəbdən də bu fərmanların və məktubların təxmini tarixini məktublarda işarə etdiyi hadisələrlə müəyyən etmək mümkündür. Abbas Mirzəni qardaşlarının hiylələri və düşmənçilikləri çox üzməkdə imiş. Burada onun qəzəbini və əndişələrini ifadə edən bir məktubunu gətiririk. Bu məktub qardaşlarından birinə və böyük ehtimalla öz oğlu kimi sandığı Qasım Mirzəyə yazılmışdır:

---

[*]Qarapapaq və Ayrımlı tayfaları bu gün daha çox Qərbi Azərbaycanın bölgələrində, Urmuda, Sulduzda və civarlarında yaşamaqdadırlar. (G.C)

[61] Əhvalat və dəst xəthaye Abbas Mirzə.

[62] Əhvalat və dəst xəthaye Abbas Mirzə.

“Hörmətli və məqamlı qardaşım! Məktublarınız vasitəsi ilə sağlığınızın yerində olmasını öyrənincə çox sevindim. Uzun zaman idi bir-birimizlə əlaqə saxlaya bilməmişdik. Ancaq sanmazdım ki, mənim qardaşım qəflət edib məni unudar”.[63] Sonra eyni məktubda Şahzadənin xatirələri onu Laçın Xana doğru sövq edir. Laçın Xanın Osmanlı ilə savaş zamanı onun haqqında etdiyi fədakarlıqdan və qəhrəmanlıqdan danışır, Laçın Xana nə qədər borclu olduğunu söyləyir. Bu məktubların sətirləri arasından bəzi hadisələrin ayrıntılarını üzə çıxarmaq mümkündür. Bu məktublardakı verilərdən, məlumatlardan yola çıxaraq Çobanoğlu savaşlarının bəzi təfərrüatını da anlamaq mümkündür. Eyni zamanda Abbas Mirzənin məktublarında o zamana görə çox yüksək səviyyədə olan bir vətənsevərlik duyğusu bulunmaqdadır. Çünkü o dönəmlərdə vətən məhfumu yox idi. Vətən məfhumunu milli dövlət olqusu doğmuşdur. İmperatorluq duyğusu daha çox yayğın idi. Lakin bütün davranışlarında və məktublarında Abbas Mirzə özünü sanki İmperatorluğa deyil, Azərbaycan adlı vətənə mənsub bilməkdədir. Feridun Mirzəyə yazdığı məktubunda “mənim evim Azərbaycandır” yazaraq xitab edir. Digər bu kimi yazılarında, davranışlarında da Abbas Mirzə Azərbaycana mənsub olduğunu açıqca və israrla söyləməkdədir. Eyni zamanda Xorasanda bulunduğu müddətcə Azərbaycanda gerçəkləşdirdiyi reformlara bənzər bir işlər etməməsi də göstərir ki, o, burada uzun zaman qalmaq fikrində olmamış və reformlarının uzantısını Azərbaycana döndüyündə davam etmək istəmişdir. Məktublarından bəlli olur ki, Xorasanda bulunduğu zaman xəstəliyi şiddətləndikcə fikrən və xəyalən daha çox Azərbaycanı düşünməyə başlamışdır.

Nadir Şah və varislərinin aqibəti Şahzadəni çox düşündürürdü. Dehlinin fatehi ən istedadlı və başarılı oğlunun gözünü kor edərək, Avşarlar səltənətinin gələcəyini qaranlığa gömmüşdür. Sonra da Nadir Şahın qardaşı oğulları taxt-tac mirası uğrunda bir-birinin canına düşdülər. Bunların arasında başarılı olan Adil şah, Nadir soyuna yaxın olan bütün insanların gözlərini kor etdi ki, daha varislik iddiasında olacaq kimsə qalmasın. Abbas Mirzə bunları ağlından keçirdiyində dərin əndişəyə dalırdı. Din xadimlərinin, qardaşlarının və digər rəqiblərin fitnəsi nəticəsində bir neçə kərə onun özü də Nadir Şahın oğlu kimi az qala fəda edilməkdə idi. Bu olayları göz önündə bulunduran Şahzadə ən istedadlı övladlarının gələcəyindən əndişələnirdi.

Abbas Mirzə 2 il Xorasanda qaldı. Bu zaman içərisində xəstəliyinin onu get-gedə ölümə tərəf götürdüyünü hiss edirdi. Ancaq heç durmadan məmləkətin işləri ilə uğraşır və Herat savaşı üçün hazırlıq görürdü. Abbas Mirzənin adı təkrar dünya gündəminə girmişdi. Ancaq bu dəfə ruslarla savaşaraq deyil, Türküstandakı zəfərlərindən dolayı idi. Bu üzdən Abbas Mirzə və Azərbaycan ordusu Türküstanda çıxarılan olan böyük dövlətlər üçün təhdid ünsürü olmağa başlamışdı. 1832-ci ilin yayında Hindistanda yayımlanan ingilisdilli bir qəzetdə bu sətirlər

[63] Eyni qaynaq.

gözə dəyməkdə idi: “Qacariyyədən gələn bir məktuba görə, Abbas Mirzə otuz min ordu ilə Herata hücum etməyə hazırlaşır. Rusiyanın Abbas Mirzəyə yardım etməsi sanılır.” Sonra da bu xəbər üzərinə “Mərkəzi Asiyada böyük hadisələrin baş verməsi bəklənir” başlıqlı təhlillər eyni qəzetdə yer almaqda idi. Əslində Abbas Mirzə, Rusiya ilə bir ittifaqa girmə məsələsini düşünməkdə idi. İngiltərəni də ən çox rahatsız edən bu idi. Lakin hissiyyatı buna izn vermirdi. Türkmənçay müqaviləsindən sonra ruslara qarşı dərin bir nifrət daşıyırdı. Nə qədər öz duyğularını gizlətməyə çalışsa da ancaq bu konuda başarılı ola bilmirdi. Ruslarla ittifaqa girə bilmirdi. Digər tərəfdən, düşünürdü ki, əski düşmənlərlə ittifaqa girmək yeni problemlər ortaya çıxara bilər. Bəlkə də bu, onun duyğularının uydurduğu bəraət idi. Abbas Mirzə Mərkəzi Asiyada yayılma politikasının İngiltərənin çıxarıları ilə nə qədər kontaktda ola biləcəyi haqda hesablar edirdi. Çünkü İngiltərə Hindistanla sınırlı qalmayıb və Türküstana doğru uzanmaq istəyirdi. Bu amac uğrunda isə bir sürü casuslar Türküstana göndərmişdi. Mərkəzi Asiya toplum və qəbilə yapısını (strukturunu) dərindən öyrənməkdə idi.

Doktor Vulf adında müəmmalı və macəraçı bir ingilis Mərkəzi Asiyada elmi araşdırma yapmaqda idi. Şahzadə, Xorasanı yönətdiyi müddətcə bu müəmmalı adam Məşhəddə qalırdı. Vulf araşdırmaları nəticəsində panik və həyəcan yaradacaq xəbərlər uydurub toplumun içində yaymaqda uzman idi. Məsələn, 1832-ci ildə yazırdı: “Bu diyarda xəbərlər çox tez yayılır. Hər yerdə söylənilir və inanılır ki, vəliəhd Abbas Mirzə bir rus qızı ilə evlənmiş, dinini də dəyişdirib xristian olmuşdur. Buna qarşılıq isə Rusiya Abbas Mirzəyə Xeyvəni işğal etmək üçün əlli minlik ordu vermişdir.” Bu şayiələr hardan qaynaqlanırdı? Abbas Mirzənin Batı həyatına özənimi bu şayiələrin yaranması üçün psixoloji zəmin hazırlamaqda idi. Abbas Mirzənin Türküstandakı hərbi davranışlarını öz çıxarlarına qarşı görən İngiltərə isə bu şayiənin toplum tərəfindən gerçək kimi qəbul ediləcəyini yaxşı bilirdi. Lakin Abbas Mirzə Hind fatehləri Moğul şahzadələr kimi iqtidar uğrunda bu işlərə gedəcək karakterə sahib deyildi. Abbas Mirzə bir neçə kərə məktublarında yazmış ki, “... başıma gələn bütün müsibətləri Tanrı sınağı kimi anlamışam”. Bəlkə də bu şəkildə Tanrı iradəsinə güvənərək məğlubiyyətlərinin acısını azaltmaq istəmişdir. Digər tərəfdən, Abbas Mirzənin bir rus şahzadə ilə evləndiyini axtarmaq yersizdir. Çünkü Şahzadənin həyatında belə bir hadisə olmamışdır. Sadəcə, Abbas Mirzənin gürcülərlə çox yaxın dostluq münasibətləri var idi. Abbas Mirzənin reformist olması, gürcülərlə sıx münasibəti, toplumun bütün reformist düşüncəyə qapalı olması, İngiltərənin artıq Şahzadənin Türküstan qələbələrindən narahat olmağa başlaması, Şahzadənin rəqiblərinin və din xadimlərinin düşmənçiliyi hamısı bir yerdə bu şəkildə şayiənin yaranmasına uyğun zəmin yaratmaqda idi. Şahzadənin din dəyişdirmə şayiəsi onun bütün nüfuzunu ortadan qaldıra bilərdi. Çünkü İslam ayinində bu tür davranış irtidad və ya mürtədlik (dindən çıxma) olaraq bilinməkdədir ki, bunun da cəzası çox ağırdır.

1832-ci ildə Baqration şahzadələrinin yönətimindən çıxmış Gürcüstanda yeni bir ayaqlanma və qiyam başlamışdı. Erkli soyundan olan üç şahzadə xanım da bu ayaqlanmaya qatılmışdılar. Bunlar əskidən olduğu kimi yenə də Abbas Mirzə ilə ittifaqdan yanaydılar. Çünkü təqribən 25 il boyunca Abbas Mirzənin Gürcüstana olan münasibətindən çox məmnun idilər. Bir müəmma kimi saxlanılan Laçın Xandan başqa digər gürcü Şahzadələrin də Azərbaycana mühacirəti davam edirdi. Abbas Mirzənin dirək müdaxiləsi nəticəsində Fətəli Şah, Aleksandr Mirzə ilə taxt-tacını itirmiş padşah kimi davrandı. Bu üç Şahzadə xanımın biri Erklinin nəvəsi Tamara idi. Tamara xanım yeraltı örgütləndirmə istedadı nəticəsində gürcüləri gizlincə təşkilatlandıra bilmışdı. Tamara daima ruslara qarşı müttəfiq axtarırdı. Beyt-ül Müqəddəsi ziyarət adı ilə Orta Doğuya getmiş və Misir Əmiri Məhəmmədəli ilə gizlincə görüşmüşdü. Digər Şahzadə xanım isə Tekla idi. Tekla yaşlanmış, saçlarının bəmbəyaz olmasına rəğmən bir gənc xanım kimi Gürcüstanın istiqlal davasına qatılmışdı. Bu şahzadə xanımlar yurdlarına vəfalı qalaraq direnişlərinin cəzasını Gürcüstandan Rusiyanın soyuq Sibirlərinə sürgün edilərək çəkəcəklərdi. Üçüncü şahzadə xanım isə Ribsime idi. Ribsime öz oğulları ilə bu dirənişə qatılmışdı. Heç şübhəsiz ki, Abbas Mirzə və gürcü Şahzadələri arasında gizlin münasibətlər olmuşdur. Bu münasibətləri Laçın Xan da düzənləyə bilərdi. Həmin şahzadə xanımların xristian oluşları isə toplumda fərqli fikir yaratmağa başlamışdı. Abbas Mirzənin bunlarla evlilik planı yapma kimi görüşü ortaya çıxmışdı. Şübhəsiz ki, Gürcüstan olayları ilə ilgilənən Tehranda oturan Şahzadənin düşmənləri bu şayiələrin yaranmasında və necə yaranmasında planlar çizmişdilər. Abbas Mirzənin Mərkəzi Asiya ilə ilgili davranışlarından və istəklərindən xoşlanmayan İngiltərə də onun düşmənləri cərgəsində yer almağa başlamış və bu şayiələrin necə yaranıb yayılmasına yardımçı olmaqda idi.

***

Qış fəsli bitmək üzrə idi. Abbas Mirzənin ağrıları şiddətlənmişdi, lakin bununla belə Xosrov Mirzənin gətirməkdə olduğu hərbi birimlər haqqında düşünməyə başlamışdı. Xəstəliyinin bu şəkildə gücləndiyi bir halda belə Herata hücumun komutanlığını özünün etməsini düşünürdü. Bu barədə fərari rus albayları ilə də müzakirələr edirdi. Bu rus zabitləri qısa bir sürə sonra Məhəmməd Mirzənin, Samsam Xanın və Abbas Mirzəyə bağlılığı ilə bilinən Bufskinin komutanlığında edəcəkləri böyük işləri ilə parlayacaqlardı.

Abbas Mirzə həyatındakı ən son Novruz bayramını Məşhəddə keçirib və Tehrana yola düşdü. Şah, Xorasan olayları ilə bilgi əldə etmə üçün Şahzadənin Tehrana gəlməsini istəmişdi.

Ən son üsyankar xanlar da təslim olmuşdular. Bu xanlar içində ən önəmlisi Heydəri xanı idi. Abbas Mirzə, Herat savaşının ayrıntılarını atası ilə müzakirə etmək üçün tələsirdi. Bilirdi ki, hiyləgər vəziri Qaimməqam içdən-içə onun bu əməlindən narazıdır. Sonra da anladı ki, Qaimməqam Herata hücumu önləmək üçün Şaha yanlış bilgilər vermişdir. Şahın Herata hücum edilməsindən yana olduğu

bəlli idi. Lakin Qaimməqam Abbas Mirzənin sağlıq durumunun yaxşı olmadığını bəhanə gətirərək Şahı ikna etməyə çalışmışdı. Qaimməqam deyirdi ki, Herata hücumun komutanlığını sağlığı yerində olmayan Abbas Mirzəyə buraxmaq divanəlikdir. Qaimməqam komutanlığın Məhəmməd Mirzəyə verilməsindən yana idi.

O dönəmin tarixi ilə məşğul olan əksər araşdırmaçılar Abbas Mirzəni vəzirinin təsiri altında olan birisi kimi tanımlamaqdalar. Ancaq Abbas Mirzənin Qaimməqama göndərdiyi mesajlar və Şahzadənin məktubları araşdırıldığında bəlli olur ki, Şahzadə bu vəziri keçmiş xidmətlərindən və ya verə biləcəyi faydalardan dolayı vəzirlik məqamında bulundurmaqda imiş. Çünkü məktublarında Qaimməqamdan razı qalmadığı açıqca sezilməkdədir. Abbas Mirzə Qaimməqama yazır: "Necə oldu ki, pis niyyətli adamların sözlərini qəbul etdin və bizim iltifat və hörmətlərimizi görməzlikdən gəldin. Hər zaman sizə demişdim ki, ləcbazlıq, inadkarlıq etməyin, təkəbbürlü davranmayın. İnsan heç bir zaman şeytana uymaqla yararlı çıxa bilməz".[64] Yola düşmə zamanı Abbas Mirzə hər zamankından daha artıq bitkin və yorğun görünürdü. Ancaq yenə də Tehrana yola düşdü.

***

Başkəndə yaxınlaşdığında sarayın məmurlarından biri olan Yəhya Xan silahlı dəstələrlə Şahzadəni qarşılamağa gəldi. Şahzadənin nəzdində Xorasanın məğlub xanları da bulunmaqda idi. Bu xanlarla əsir kimi davranılmırdı, sadəcə, hər ehtimala görə Xorasandakı üsyanları durdurmaq amacı ilə saxlanılmaqdaydılar. Lakin Şah istəmişdi ki, bu məğlub xanlar başkəndə girmədən öncə məmurlara təhvil verilsin. Onların əllərini boyunlarına bağlayıb başkənddə gəzdirmək, xalqa göstərmək üçün zəncirlədilər. Çünkü Fətəli Şah üsyankar xanları bu şəkildə cəzalandırmaqdan xoşlanırdı. Həm də onların zəncirlənmiş şəkildə saraydakı törən protokolunda yerlərini almaları qərarlaşdırılmışdı. Şahın bu tür davranışı zamanın vəhşi ədalət anlayışı ilə örtüşməkdə idi. Hüquq və məhkəmə anlayışının olmadığı yerdə şəxsi intiqam hissləri öz hökmünü verməkdə idi. Məğlub və məhkum xanlar özləri Şahın bu davranışından heyrətlənməmişdilər, çünkü onlar da öz iqtidar yörələrində bu şəkildə davranmaqdaydılar.

Qoçan el xanı, Heydəri xan və önəmsiz sərkərdələrdən heç biri edam edilmədi. Onlar Azərbaycanın ən uzaq və məchul kəndlərinə sürgün edildilər. Qoçan el xanı Azərbaycana yollanarkən bir səhər karvansaraların birində ölü olaraq bulundu. Digərləri də yarım əsir kimi ömürlərini sona ərdirdilər. Onlardan biri Osmanlıya qaçıb Bursada yerləşdi.

Ancaq Yəzdin yağısı Rzaquluxanın ölümü başqa tür oldu. O, keçmişdə Məhəmmədəli Mirzənin ailəsinin dar-nədarını əlindən almış və evlərindən bayıra atmışdı. Məhəmmədəli Mirzə məhbusu tələb etdi. Rzaquluxanı Şahzadə

---

[64] Eyni qaynaq.

Məhəmmədəli Mirzənin iqamətgahına aparıb bir odaya buraxdılar. Bütün ailə üyələri hər kəs əlinə bıçaqdan, qayçıdan, qəmədən, baltadan bir şey alıb ona hücum etdi. Rzaquluxan paramparça edildi.

Atasından bir çox insanlıq dərsi almış Cahangir Mirzə belə, bu öldürmə macərasını adi bir hadisə kimi yazmaqdadır.

Təşrifat işləri sona ərdikdən, xanların hesablarına yetişildikdən sonra Şah, Abbas Mirzə ilə ikili söhbət üçün zaman ayırmışdı. Əmr verdi ki, Abbas Mirzəni ən yaxşı bir sarayda yerləşdirsinlər. Bu imarəti Şah sevgililərindən biri olan Nuşafərin üçün yapdırmışdı. Şah, oğluna hər tür iltifat yağdırmağa başlamışdı. Çünkü imperatorluğu bir çox bəlalardan ancaq Abbas Mirzə qorumuş, bir çox şahzadənin öhdəsindən gələ bilmədiyi Xorasanda da Fətəli Şahın otoritəsini ancaq Abbas Mirzə sağlamışdı. Lakin Şahzadənin düşmənləri yenə də aktiv idi. Şahzadəyə qarşı bir şey edə bilməyəcəklərini görüb, Abbas Mirzə ilə bərabər gələn və müxtəlif yerlərdə yerləşdirilən adamlara qarşı plan hazırlamağa başladılar. Şahın sarayının güvənliyi əvvəlki kimi deyildi. Bəzən oğurluqlar olurdu. Törən mərasimləri üçün nəzərdə tutulan bir çox altun yoxa çıxdı. Yalnız bəlli olmadı ki, bu altunlar şübhə yaratmaq üçün qəsdən gizlədildi, yoxsa gerçəkdən də oğurlandı. Şaha aid olan bütün əşyalar müqəddəs sayılırdı. Bu altunların ortadan yox olması sadəcə, maddi ziyan olaraq deyil, həm də Şahın qüdsiyyətinə qarşı çirkin plan kimi anlaşılırdı. Bəlkə bu oğurlanmış əşyadan vaz keçilə bilərdi, lakin elə ki, bunun arxasında Şahın canına qəsd planı dilə gətirildi, məsələ çox ciddiləşməyə başladı. Şahzadənin xidmətçilərini suçlamaqla onun öz şəxsiyətinə də zərbə vururdular. Dərbarda çalışan fitnə uzmanları bilmirdilər ki, artıq bu kimi hadisələrlə Abbas Mirzənin şəxsiyyətini şübhə altına ala bilməzlər. Şah üçün Xorasanda istiqrarın sağlanması hər şeydən önəmli idi. Digər tərəfdən, oğurlanan altunların bir neçə qatı məğlub xanlardan altun alınıb mərkəzə, Şaha hədiyyə olaraq gətirilmişdi. Fətəli Şah o an keçmişdə din xadimlərinin və digərlərinin təsirinə düşərək, Abbas Mirzədən şübhələnməsi dolayısıyla peşmanlıq duyğusuna qapılmışdı. Şah açıqca görürdü ki, Xorasanın fatehini xəstəlik çökərtmək üzrədir. O, düşünürdü ki, fateh oğluna qarşı ədalətli davranmayıbdır.

***

Şahın bir çox qadınları içində öncədən Tavus xanım olaraq tanınan, sonra da Tac-əd Dövlə olaraq bilinən xanımın ayrıca bir yeri var idi. İsfahandan olan bu qadın yazıb-oxumağı da bacarırdı, bəzən Şahla məktublaşaraq əlaqə saxlayırdı. Bu qadının üstünlüyü başqa qadınlara da təhmil edilmişdi və Şahın qadınları onun ayrıca bir yerinin olması ilə barışmışdılar, çünkü o həm də bir din xadiminin qızı idi. Padşahın bir çox sirlərini bilməkdə idi. Şah da onun sirdaşlıq etməsinə xoş görü ilə baxırdı. Qadınlar içində yalnız onun "Çeşmə imarəti"nə gəlmə haqqı var idi.[65] Çeşmə imarəti Fətəli Şahın ən önəmli sarayı idi.

[65] Tarix-e Əzodi.

Abbas Mirzənin bu önəmli yerdə istirahət etməsi, bir növ onun Xorasandakı əməllərini təqdir etmə mahiyyəti daşımaqda idi. Abbas Mirzə özünü bütün səfərləri boyunca yanında bulundurduğu doktor Karməkin müalicəsinə buraxdı. Çeşmə imarəti bütün dedi-qodulardan uzaq olduğuna görə Şahzadənin dincəlməsi üçün uyğun məkan idi. Orada xidmətçi qadınların və kişilərin sayı çox az idi. Kimsə xəbər vermədən oraya girə bilməzdi.

Bir gecə Şah, oğlu ilə uzun saatlar bir yerdə olmaq istədi. Şahzadə bu fürsəti gözləməkdə idi. Çünkü varislik və vəliəhdlik haqqında Şahın təkrar rəsmi və kətbi görüşünü öyrənmək istəyirdi. Lakin Şahzadə öz ölümünün yaxında baş verəcəyini xatırladıb, özündən başqa kimi varis olaraq nəzərdə tutduğunu şahdan öyrənmək istəyirdi. Şah bu soruya cavab verməkdən çəkinirdi. Ancaq Şah ilk kəz olaraq oğlunu bu qədər uzun dinləməyə başlamışdı. Abbas Mirzə qardaşlarının ittihamları qarşısında vaxt tapıb özünü savuna bilməmişdi. O gecə Abbas Mirzə illər boyu çəkdiyi əziyyətləri dilə gətirir və ürəyini atasına boşaldırdı. Bütün hər şeydən xəbərdar olub, ancaq susub və Şahın verəcəyi ədalətli qərarı bəklədiyini söylədi. Şahzadə atasına anlatmağa çalışdı ki, Azərbaycanda başlatdığı reformların dinə qarşı heç bir yönü yoxdur və ayaqda dura bilməmiz üçün bu reformların sürətini gücləndirməliyik. Din xadimləri müctəhidlərin söylədiyi kimi, ruslarla savaşa səbəb olan onun islahatları olmamışdır. Abbas Mirzə atasına anlatdı ki, Tufarqanda ruslarla müzakirə yürütdüyündə onun çəkdiyi əzabları din xadimləri və qardaşları çəkmədilər. Onlar Azərbaycanı mənim qədər sevmədikləri üçün Azərbaycanın böyük bir qisminin ruslar tərəfindən işğal edilməsinə üzülmədilər. Ancaq mən Gülüstan və Türkmənçay müqavilələrinin sancılarını hələ də yaşayıram və son nəfəsimə qədər də yaşayacağam. Mənim yurdum, yuvam olan bu məmləkətin parçalanma ağrıları ruhumu incitməkdədir. Bilirəm ki, sağlığım Azərbaycanı təkrar bütövləşdirməyə müsaidə etməyəcək. Bu da mənim üçün çox ağır bir dərddir. Məzarımda belə Azərbaycanın parçalanma ağrılarını yaşayacağam. Çünkü Gəncədən, Dərbənddən, Qarabağdan, Naxçıvandan rusların zülmündən qaçan azərbaycanlılar din xadimlərinə və mənim qardaşlarıma sığınmırdılar. Onlar Azərbaycan ordusuna, mənə sığınırdılar. Mənə sığınan bu insanlara bir iş görə bilmədiyim üçün gündə yüz dəfə ölürdüm. Çünkü məni ayaqda tutan Azərbaycan əhalisi və Azərbaycan ordusu oldu. Xorasanda sabitliyi sağlayan da Azərbaycan ordusu, Azərbaycan oğulları oldu. Padşahım, mən bütün şəxsiyyətimi Azərbaycana borcluyam, Tehran bütünü ilə mənə qarşı çıxdığında arxamda duran Azərbaycan oldu, həyatıma məna verən, məni cəsarətləndirən Azərbaycan xalqı oldu. Bütün ruhumla, vicdanımla və vücudumla Azərbaycana borcluyam. Bu durumda öz ordumu sonucunu öncədən təxmin etdiyim bir savaşa soxarmı idim? Abbas Mirzə atasına xatırlatdı ki, İrəvanın işğalından öncəki rusların daha yüngül barış planı ilə Asəf-əd Dövlə, Hüseyn Xan, Şahzadələr və bu savaşı cihad olaraq dəyərləndirən

din xadimləri müxalifət etdilər. Şahım da onların bu tutumları qarşısında savaşdan yana oldu. Tufarqan müzakirəsində ingilislərdən yardım istəmək zorunda qaldığında nə qədər aşağılanıb, əzab çəkdiyini söylədi, savaşdan yana tutum sərgiləyən din xadimlərinin onun başkəndi Təbrizin dirənməməsi üçün necə də ilahi fərman çıxarıb, fətva verdiklərini dedi. Şah bütün bunları bilməkdə idi, ancaq surətində ölüm əlamətlərini görən oğlunu dinləmək istəyirdi. O xatırlayırdı ki, bir neçə kərə çevrəsindəkilərin təsirinə düşərək az qala Nadir Şahın oğluna etdiyini etmək istəmişdi. Şah həm oğlunun söylədiklərinin təsirinə qapılaraq, həm də onun bu qədər yorğun və düşgün olduğunu gördüyü üçün gözlərindən yaş axmağa başlamışdı. Abbas Mirzəni bağrına basıb yanağından öpdü. Abbas Mirzə təkrar danışmaq istəyirdi, ancaq Şah onun susmasını istədi və dedi: "Hər şeyi söylədin, hər şey anlaşıldı. Başqa heç bir şey söyləmə".[66]

Şahzadə oğluna xitabən yazdığı məktubda deyir: "Şah iltifat göstərib və ağlar gözləri ilə mənim üzümdən öpdü. Danışmamdan sonra gözlərindən yaş axa-axa Tanrıya səcdə etdi".[67]

Abbas Mirzənin bu görüşlə ilgili oğlu Məhəmməd Mirzəyə yazdığı məktubda verilən bilgi ilə Cahangir Mirzənin "Tarix-e no" kitabında verilən bilgilər örtüşməkdədir.

Sonrakı günlərdə Şah oğlunu ikna etməyə çalışdı ki, Xorasana dönməsin. Şah yay fəslini Həmədanda istirahət etmək istəyirdi. Abbas Mirzədən də onunla bərabər Həmədana gəlməsini istədi. Lakin Abbas Mirzə Herata hücumun planlarını hazırlamaq üçün Xorasana dönməkdə qərarlı idi. Təkrar Abbas Mirzə hiss etmişdi ki, Şah sanki Qaimməqamın təsirinə düşmüşdür. Möhkəm bir iradə ilə söylədi ki, hələ mənim istirahət etmə zamanım gəlməmişdir, mən bir savaşçıyam və savaşçının da yeri və istirahət mərkəzi savaş meydanlarıdır.

Firuzkuh və Kalpuş yolu ilə Xorasana doğru hərəkətə başlayan Abbas Mirzə yolda Heratın mühasirəsi üçün Məşhədi tərk edən Məhəmməd Mirzəyə uzun bir məktub yazdı. Bu məktubda yuxarıda şərh edilən Şahla görüşünü anlatdı və Məhəmməd Mirzəyə müjdə verdi ki, artıq sən özünü taxt-tacın varisi kimi saya bilərsən. Bütün yaxınları və dostları ilə ilgili, özəlliklə Laçın Xanla bağlı olaraq oğluna sifarişlər etdi. Məktubda xəstəliyinin ağır bir həddə gəldiyini də gizlətməməkdədir, özəlliklə ayaqlarının ağrısından və qızdırmadan gileylənməkdədir. Məktubun bir bölümündə yazır: "Heç bir zaman rahatlıq üzü görmədim. Həddindən artıq zəhmət və əziyyət çəkdim. Yalnız heç bir zaman həyatımdan gileylənmədim, daima qarşıma çıxan olaylar qarşısında Tanrıya şükr etdim. Sizin və nəslinizin rahat səltənət etmənizi arzu edirəm."[68] Səfər sürəsincə savaş fikrindən də vaz keçmirdi. Herat Abbas Mirzəyə görə, Xorasanın bir şəhəri

[66] Əhvalat və dəst xəthaye Abbas Mirzə.
[67] Eyni qaynaq.
[68] Eyni qaynaq.

idi. Məşhəd və Nişabur kimi. Əhməd Xan Dəvərani soyuna mənsub olan şahzadə Herata hökm edə bilər, ancaq bunun bir şərti var. Öncə Qacar imperatorluğunun hakimiyyəti altına girməlidir. Bunu da yalnız silah gücü ilə etmək lazım idi.

O zaman Herat, Mərkəzi Asiyanın ən çox nüfuzlu, ən mürəffəh və bolluq olan şəhərlərindən biri idi. Burada ticarət, bəzriganlıq işləri yaxşı gedir və müxtəlif peşələr gəlişmiş durumda idi. Çingiz Xanın nəvəsi Tuli Xan bu şəhəri fəth etmişdi. Sonra da təqribən 100 ildən sonra Əmir Teymurun idarəsinə tabe olmuşdu. Sonra isə bir neçə Teymur soyundan olan şahzadələr bu şəhər üstündə bir-birinə girdilər. Ancaq bir Teymuri sülaləsi Heratı kültür, mədəniyyət və ticarət mərkəzinə dönüşdürməyi başardı. XV əsr Heratın altun tarixi olaraq bilinməkdədir. Sonrakı savaşlar belə əsrlər boyu bu mərkəzdə birikən mədəniyəti çökdürə bilmədi.

XIX əsrin əvvəllərində artıq Herat, Şah Hüseyn Bayqaranın sənət və metafizikdən danışdığı, rəssam Behzad[*]ın sənət əsərlərinin boy göstərdiyi mərkəz deyildi. Lakin yenə də ticarət və bəzirganlıq açısından öz önəmini qorumaqda idi. Heratın anbarlarının əhəmiyyəti ona “bəndər[**]” ləqəbini qazandırmışdı. Şəhərin darvazalarına yaxın bazarında Ön Asiyanın və Mərkəzi Asiyanın müxtəlif dillərində danışan tacirlərlə rastlanmaq mümkün idi. Tacik, yəhudi, özbək, türkmən, hindi və... şəhərin bazarında öz işləri ilə məşğul idilər. Lakin ümdə ticarət hindlilərin əlində idi. Bu üzdən də Hindistandan gələn əşya və mallar Heratın bazarında daha çox gözə çarpmaqda idi.

Şahzadə Xosrov Mirzə və Şahzadə Əhməd Mirzə atalarının istəyi üzərinə Heratın qalası qarşısında Məhəmməd Mirzəyə qatılmışdılar. Şahzadələr fərari ruslardan oluşan alayın komutanı Səmsam Xanın yardımı ilə qalanın mühasirə hazırlıqlarını bitirmək üzrə idilər. Lakin onların bu hərəkətləri müxtəlif qəbilələrin və fars dilində danışan türkmən tayfalarından olan Hezarələrin dəstəyini arxasına alan Abdali şahzadəsi Kamran Mirzəni heç də dəhşətə soxmurdu. Çünkü bu qəbilələrin daima mühasirə edənləri bezdirib təngə gətirəcəyindən əmin idi. Bu üzdən də direniş hazırlıqlarına başlamış və ağır topları ilə bir yerdə bəkləmə mövqeyində idi. Çox az şəxsi təşəbbüslə davranıb və daha çox məşvərətlə hərəkət edən Məhəmməd Mirzə anlamışdı ki, Heratın mühasirəsi Qoçanda, Əmirabadda, Sərəxsdə olduğu kimi asan olmayacaq. Digər tərəfdən, öncəki mühasirələrə Abbas Mirzə ən güclü birimləri ilə komutanlıq etmişdi.

Abbas Mirzə yenicə Məşhədə çatmışdı ki, Məhəmməd Mirzədən bir mesaj aldı. Məhəmməd Mirzə atasından həmən Heratın nıühasirəsinə qatılmağı rica etmişdi. Abbas Mirzə əməliyyata rəhbərlik etmə niyyətindən vaz keçməmişdi. Bu üzdən də sürətlə Herata doğru hərəkətə başladı. Tam bu sırada müxtəlif yerlərdə görəv başında olan alaylar və mühasirəyə özgü ağır toplar Herat savaşına qatılmaq

---

[*]Behzad Şah İsmayıl Səfəvi zamanında ünlü bir rəssam olmuşdur.
[**]Bəndər, yani liman (G.C.)

üçün hərəkətə keçmiş və Məşhədə çatmışdılar. Lakin Abbas Mirzənin durumu çox gərgin idi. Qızdırması və ağrıları çox şiddətlənmişdi. Bu səbəbdən də Herata gedişini ertələdi. Hazır bulunan alayın komutanlığını Qaimməqama verdi və özü istirahətə çəkildi. Abbas Mirzənin hərbi birimin komutanlığını hərbçi olmayan Qaimməqama tapşırması heyrət doğurmuşdu. Baxmayaraq ki, Qaimməqamdan xoşlanmadığı da bəlli idi və onu özəlliklə savaş meydanlarında güvənilir birisi kimi görmürdü.

Ordu Məşhədin bir neçə saatlığında yerləşmişdi. Müxtəlif birimlər hərəkət etmək üçün əmr bəkləyirdilər. Dəhşətli ağrılar nəticəsində hərəkətsiz qalan Şahzadə hər saat ordunun durumu ilə bağlı bilgilər alırdı. O, hiss etdi ki, hiyləgər vəziri ordunun Herata tərəf hərəkətini yubatmaqdadır. Abbas Mirzə, öz zəifliyinə qalib gəlməyə çalışıb ordunun toplandığı yerə tərəf hərəkət etdi. Ancaq atın üstündə otura bilmədiyi üçün təxt-i rəvan üstündə daşındı. Ölüm ayağında olan bu sərkərdənin qəzəbi ordunun üst düzey yetkililərini çox etkilədi. Üst düzey yetkililəri çağırıb onlara xəbərdarlıq etdi ki, bu savaşın komutanlığını şəxsən özü yürüdəcəkdir. Sağlamlığını itirmiş bir durumda ordunun paradını izlədi. Bu hadisələr baş verdiyi zaman Qaimməqam qərargahda deyildi. Xəbərdar olduğunda tələm-tələsik özünü qərargaha çatdırdı. Onun və gücü tükənməkdə olan Şahzadənin arasında nələrin danışıldığı bəlli deyil. Lakin vəzir bir neçə həftə boyunca ertələdiyi Herata doğru hərəkəti həmən başlatmaq zorunda qaldı. Ancaq artıq Şahzadə heç bir ciddi hərəkət edə biləcək durumda deyildi. Bütün fiziki gücünü itirmək üzrə idi.

Abbas Mirzənin ərginlik yaşına ərmiş oğulları ataları ilə ata-oğul münasibətləri dışında həm də ortaq xatirələri paylaşmaqda idilər. Bir neçə savaşlarda yan-yana savaşmışdılar. İndi isə onlardan bəziləri Azərbaycanda qalmış, qalanları da Heratın mühasirəsi əməliyyatmda idilər. Sanki tale, onun bütün yaxınlarını ölüm ayağında ondan uzaqda saxlamaq istəmişdi. Laçın Xan isə sağlıq durumundan dolayı əski dostu Abbas Mirzənin yanında bulunmamaqda idi. Laçın Xan, Abbas Mirzənin ölümündən sonra qısa sürəli yalnızlıq həyatı yaşayıb, bu yalnızlığa dözə bilməyib öldü. Xorasan savaşlarında Abbas Mirzəyə yaxınlığı ilə tanınan Səmsam Xan Məhəmməd Mirzənin yanında idi. Doktor Karmək Tehranda və Məşhəddə tapılmayan dərmanları gətirmək üçün Təbrizə göndərilmişdi. Artıq Doktor Karməklə Şahzadə arasında heç bir zaman təkrar görüşmək imkanı olmayacaqdı. Çünkü Doktor Karmək Təbrizə səfəri zamanı ağır qızdırma üzündən ölmüşdü. Təsadüf üzündən Abbas Mirzənin digər iki azərbaycanlı özəl həkimi olan Mirzə Baba həkimbaşı və Hacı Baba, Şahzadənin yanında deyildilər. Təbrizli olan bu iki həkim öncədən aldıqları məzuniyyət səbəbi ilə Şahzadənin yanında bulunmamaqdaydılar. Bu iki həkim Məşhədin quru, cansıxıcı və bezdirici iqlimindən və zahidanə həyatından xoşlanmırdılar.

Şahzadə qərargahdan döndükdən sonra sağlığı o qədər pozulmuşdu ki, ətrafındakılar Abbas Mirzənin sağlıq durumu ilə bağlı Şaha və Məhəmməd

Mirzəyə xəbər çatdırmaq istədilər. Padşah hər şeydən xəbərdar idi. Çünkü doktor Karmək Şaha demişdi ki, Şahzadənin ayaqları şişməyə başladığında, ölümü yaxınlaşmış deməkdir. Artıq ayaqlarındakı şiş, qarnına qədər uzanmışdı. Arsniklə qarışmış donuz yağını bədəninə sürtdülər. Şahzadənin halında qısa sürəliyinə bir yaxşılaşma görünməyə başladı. Bir neçə gün ard-arda yatdığı odanı tərk edib Herata hərəkətin hazırlığı üçün qərar verdi.

O zaman Cahangir Mirzə Məşhəddə olmasa da atasının həyatının son günlərinə aid bütün xatirələri böyük bir özən və diqqətlə toplamışdır. Abbas Mirzənin ömrünün sonlarındakı həyat tərzini Şahzadənin yanında olan insanlardan soraraq qələmə almışdır. 1833-cü ilin yayında Abbas Mirzə bir odanın bucağında xəstəlik yatağında idi. Bu otağın geniş imkanları yox idi. Şahzadənin həyatının sonlarından əldə edilən verilər göstərir ki, ona yaxşı xidmət edilməməkdə imiş.

Bir gün Məşhədin yaxın küçələrində dolaşıb geri dönmüşdü. Çox yorğun idi və canı bərk ağrıyırdı. Yatağına uzanıb yatdı. Bütün verilər göstərir ki, bu zaman evdə ona xidmət edəcək kimsə yox imiş. Yalnız yanında olan 12 yaşında kiçik qızı varmış. Atasına xidmət etməkdən zövq alan bu kiçik şahzadə xanım atasının yanından ayrılmırmış.

Qısa bir sürədən sonra Abbas Mirzə ürək bulantısı üzündən yuxudan oyandı. Yardım istədi və qan qusmağa başladı. Özünü toparladığı zaman hiss etdi ki, vücudunda böyük bir dəyişiklik yaranmış. Ölüm titrətməsi bütün vücudunu titrədirdi. Öncələr ölümlə qarşılaşmaqdan qorxmadığını sanırdı. İndi isə ölüm qorxusu vücudunu sarmışdı. Yaşamaq istəyirdi. Yüksək səslə baş xidmətçi Hacı Ələsgərin çağırılmasını istədi. Amma nədən bu son nəfəslərində önəmsiz bir xidmətçini çağırmaqda idi? O xidmətçi ki, daima öz mənafeyini ərbabından daha üstün bilmişdi. Əcəba, ona bir sifarişmi söyləmək istəyirdi? Ən çox ehtimal edilən budur ki, həyatının sona ərməsini görən Şahzadə, yanında bir tanışın olmasını istəmişdir. Şahzadənin kiçik qızı Hacı Ələsgərin gəlməsi üçün adam göndərdi. Bir az zamandan sonra Hacı Ələsgər gəldi. Ancaq bu müddət içində kiçik şahzadə qız atasını heç tərk etmədi. Abbas Mirzənin ömrünün sonundakı ayrıntıları bu kiçik qızdan öyrənmiş, qələmə almışlar. Dışarıdan İmam Rza məqbərəsinə gələn sürü-sürü tənbəl, cahil və ölülərdən imdad diləyən kölələrin bağıraraq ağlaşmaları, İmam Rzaya ehtiyaclarını bərtərəf etməsi üçün qaba və zırıltılı yalvarış səsləri gəlirdi! Kiçik Şahzadə xanım atasının yanında keçənin üstündə dizi üstə oturmuş və qorxusundan hərəkət edə bilmirdi. Lakin qorxmasına rəğmən gözlərini atasından ayırmır, atasının həyatdakı son hərəkətlərini, son sözlərini diqqətlə izləyirdi. Abbas Mirzə, illərin yorğun Azərbaycan savaşçısı olan Abbas Mirzə təslim olmaq üzrə idi. Artıq heç bir yardım onu həyata gətirə bilməzdi. Kiçik qız atasının "Azərbaycan, Azərbaycan" deyə sayıqladığını eşidirdi. Abbas Mirzə son olaraq özünü toparlayıb üzünü Azərbaycana tərəf çevirməyə çalışdı. Kiçik qız atasının dodaqları arasında səslənən bu pıçıltını eşitdi: "A..z..ə..r..b..a..y..c..a..n..., Azərbaycan..."

Hacı Ələsgər gəldiyində heç bir yardımın faydası olmayacağını gördü. Şahzadə ölmüşdü. Şahzadənin ölüm xəbəri yayılsa idi, Xorasanı kaos və iğtişaş bürüyərdi. Bu üzdən Abbas Mirzəyə sadiq olan neçə nəfərdən ibarət bir güvənlik şurası oluşdu. Şura qərara aldı ki, sürətli çaparlarla Şaha və Heratın qalalarının qarşısında olan Abbas Mirzənin vəliəhdlik varisi Məhəmməd Mirzəyə dərhal xəbər vermək lazımdır. Tehrandan cavab xəbər gələnə qədər Şahzadənin ölümünü gizlin saxlamalı idilər.

Şahzadə bir neçə kərə övladlarına və yaxın dostlarına söyləmişdi ki, öldüyündə onun torpağa dönüşmüş cəsədini çox önəmsəməsinlər, ancaq onun idealını təqib etsinlər. Demişdi ki, harada ölsə də ruhu daima Azərbaycanda olacaq. Şahzadənin yaxınları və Xorasan hökumətinin yetkili şəxsləri güvənlik nədəni ilə Abbas Mirzənin bu vəsiyyətinə əməl edib, onun cənazəsini yuduqdan sonra öldüyü odada bir məzar qazıb orada dəfn etdilər. Şahzadənin dəqiq doğum ili bəlli deyil. Lakin öldüyü zaman Abbas Mirzənin təqribən 46 yaşı var imiş.*

*"Tarix-e no" kitabında Abbas Mirzənin öldüyü zaman 48 yaşında olduğu yazılmaqdadır. "Nasex-üt Təvarix" isə Şahzadənin yaşını 47 olaraq verməkdədir.

# QAYNAQLAR

## I. Qacar qaynaqları:


1. Əzodüddövlə, “Tarix-e Əzodi”, daş çapı, Bəmbəi, 1885.
2. Dənbəli (Əbdülrəzaq), “Maaser Sultanı”, daş çapı, Təbriz, 1241 Hicri Qəməri.
3. Cahangir Mirzə, “Tarix-e no (Yeni tarix)”, Tehran, 1327 Hicri Qəməri.
4. Hidayət (Rzaqulu), “Rövzət-üs Səfa”.
5. Laçini (Əbulqasim), “Əhvalat və dəst xətthaye Abbas Mirzə Naib-üs Səltəne” (Abbas Mirzənin tərcümə-i halı və əlyazmaları), Tehran, 1326 Şəmsi
6. Nəfisi (Səid), “Tarix-e siyasi və ectemaiye İran” (İranın siyasi və ictimai tarixi), Tehran, 1335 Şəmsi
7. “Farsnameye Naseri”, Şiraz, daş çapı, tarixsiz.


## II. Avropa qaynaqları:


8. Brosset (Marie-Felicite), Histoire de la Georgie, Paris, 1849.
9. Driault (Edouard), La politique orientale de Napoleon, Paris 1904.
10. Drouville (Druvil) Gaspard, Voyage en perse pendant les annees 1812 et 1813, 02 vol. St. Petersburg, 1819.
11. Dubeux (Louis), La Perse, Paris, 1841.
12. Dumas (J.B), Un fourrier de Napoleon vers l'İnde, Paris 1814.
13. Dupre (A), Voyage en perse fait dans les annees 1807, 1808 et 1809-2 vol. Paris, 1809.
14. Gardane (Alfered de), Mission du General Gardane en Perse, Paris, 1865.
15. Jaubert (Amedee), Voyage en Armenie et en Perse fait dans les annees 1805 et 1806, Paris, 1821.
16. Jones Brydges (Sir Harford), Dynasty of the Kajars, London, 1883.
17. Kaye (Sir John William), Histori of the Ear in Afghanistan, London, 1851.
18. Kaye (Sir John William), Life and Correspondance of major General Sir John Malcolm, London, 1856.
19. Ker Porter (Sir Robert), Travels in Georgia, Persia. Etc. London, 1821.
20. Kotzebue (Maurice de), Voyage en Perse en 1817, Paris, 1819.
21. Malcolm (Sir John), History of Persia, London, 1829.
22. Manvelichvili (Alex), Histoire de Georgie, Paris, 1851.
23. Morier (James), A Journey through Persia, London, 1812.
24. Second Journey through Persia, London, 1818.
25. Olivier (Guillaume, Antoine), Voyage dans l'Empire Ottoman, l'Egypte et la Perse, 1807.
26. Stcherbatov (Prince), Le Marechal Prince Paskievitch, St. Petersbourg, 1890.

27. Sykes (Sir Percy), A History of Persia, London, 1915.
28. Vandal (Albert), Napoleon et Alexandre, Paris, 1896.
29. Watson (Robert grant), A History of Persia, London, 1866.

ƏMİNƏ PAKRƏVAN

# ABBAS MİRZƏ VƏ AZƏRBAYCAN

**NƏŞRİYYAT REDAKTORU:**
Nəriman ƏBDÜLRƏHMANLI

**KOMPÜTER TƏRTİBATI:**
Rəmzi QULİYEV

**YIĞICI**:
Xəyalə MİKAYILOVA

**KORREKTOR:**
Ceyran ABBASOVA

Çapa imzalanmışdır: 04.02.2010.

Formatı 70×100 1/32.

Fiziki ç/v 21,0; ş.ç/v 14,8.

Tirajı 500

**QANUN NƏŞRİYYATI**

Bakı, Azərbaycan, AZ 1102, Tbilisi pros., II Alatava 9.

Tel.: (+994 12) 431-16-62;

431-38-18; 493-84-30.

E-mail: xuduoglu@gmail.com

www.qanun.az